## SÖZ SƏNƏTİ

***Yazıçı-publisistin ədəbi portretindən cizgilər***

Təbiətdə, cəmiyyətdə, insanın ömür yolunda təbii axar, hər bir şeyin öz məqamında yetişib ərsəyə gəlməsi, hər bir axarın öz təbiiliyi ilə güclənib nəhrə çevrilməsi gerçəkliyin keyfiyyətlərindən, həyatın dinamikasından irəli gəlir, xüsusən yaradıcılıq prosesində. Bu prosesdə təbii stixiya daha inandırıcı və daha məntiqidir.

Azərbaycan ədəbi fikrində, ictimai mühitində, böyük oxucu auditoriyasında yaxşı tanınmış yazıçı-publisist Əli İldırımoğlu belə bir yaradıcılıq yolu keçmiş, istedadının təbii axarı ilə yaradıcılıq üfüqlərinə doğru irəliləmişdir.

Respublikanın Əməkdar jurnalisti, "Qızıl qələm" və bir çox başqa ədəbi mükafatların laureatı, bütün ömrünü müasir Azərbaycan jurnalistikasının inkişafına sərf etmiş yazıçı-publisist Əli İldırımoğlunun yaradıcı qələmi ədəbi fikrin hansı sahəsinə toxunubsa, orada özünəməxsus bir yenilik, təravət, novatorluq yarada bilib. Məhz bu xüsusiyyətinə görə Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimov vaxtilə onun publisistikasını Azərbaycan jurnalistikasında yeni mərhələ və ədəbi məktəb kimi qiymətləndirmişdi.

Bu cəhət onun ədəbi yaradıcılığının yerdə qalan istiqamətlərinə də aiddir və novatorluq ədəbi kateqoriya kimi bədii-estetik xətt səviyyəsində ədibin yaradıcılıq kredosunun mərkəzində durur.

Əli İldırımoğlu geniş epik yaradıcılığa - hekayə, povest, romanlar dünyasına birdən-birə, bir çoxları kimi

"göydəndüşmə" gəlməmişdir. Bu uzun yaradıcılıq prosesinin qanuni, real və təbii nəticəsidir, ömrünü, qələmini yazıya, ədəbi prosesə həsr etmiş bir yazıçı-jurnalistin illər boyu topladığı ədəbi təcrübənin qlobal epik davamıdır.

Ciddi ədəbi-bədii yaradıcılıqda, xüsusən indilərdə unutduğumuz, görməməzliyə vurduğumuz "yaradıcı şəxsiyyətin formalaşması" elmi-nəzəri problemi mühüm mahiyyət kəsb edir. Yaradıcılıq prosesində, xüsusən nəsrdə, nəsrin romançılıq qolunda "yazıçı şəxsiyyətinin formalaşması" dinamikasının təbiiliyi, deyərdim ki, ən aparıcı, mühüm amillərdəndir. Şəxsiyyəti formalaşmamış (söhbət, heç də yaş senzindən getmir) yaradıcılıqda, "dimdiyinin sarısı getməmişlərin" iddialarından, fayton atları kimi bərbəzəkli təbliğindən müasir oxucularımız da, mətbuatımız da, elə vicdanı yerində olan, düşünən ədəbiyyatımız da çox çəkir...

Əli İldırımoğlunun monumental romançılıq sahəsindəki fəaliyyəti onun yaradıcılıq yolunun, həmçinin Azərbaycan romançılığının inkişaf tarixinə nisbətən çağdaş dövrün son mərhələsinə aid olsa da (halbuki, ilk romanının yaşı 20 ildən çoxdur), o, bir sıra müasirləri sırasında professional nasir-romançı kimi fərqlənir. (Təəssüf, hətta ürək ağrısı ilə qeyd etməliyəm ki, son dövrlərdə "vulkan, fontan sindromunda" birdən-birə ortaya çıxanlar da az deyil).

"Meydan boşdur, mən də varam" prinsipi Əli İldırımoğluna yaddır. Əvvəla, epik nəsrin meydanı heç vaxt boş olmayıb. Bədii yaradıcılıq "bazar meydanı" zolağına düşəndən sonra "süni romançılar" yağışdan sonra bitən göbələklər kimi peyda olurlar... Təəssüf doğuran haldır ki, ədəbi tənqidimiz də bunlara difiramblar yazır, sarısız-





qırmızısız svetofor quraşdırırlar. Bu cür yazarlar qədər də onların məddahları miskin təsir bağışlayır.

Azərbaycan mətbuatında 60 ildən artıq bir müddətdə qələm çalan, qələmini külüngə çevirən Əli İldırımoğlu isə yüzlərlə məqalə, oçerk, felyetonun, onlarla hekayə, novella, povestin, neçə-neçə kitabın müəllifi olandan sonra roman janrına müraciət edən, imzası, şəxsiyyəti yaxşı tanınan, ciddi, mübariz, prinsipial, zəhmətə tablaşan nasirdir, ziyalıdır, formalaşmış yazıçıdır... Həyat həqiqətlərinə sadiq qalan, ancaq gördüyünü, duyduğunu, yaşadığını, taleyinin bir parçasına çevrilən gerçəkliyi qələmə alan, özgə süfrələrinin qırıntılarına göz dikməyən, ömrü boyu - gəncliyindən mətbuatımıza, ədəbiyyatımıza, ən ümdəsi millətimizə namusla xidmət edən, səksəni haqlasa da, gənclik həvəsi və enerjisi ilə işləyən yaradıcı şəxsiyyət, söz sahibidir. Epik təhkiyə onun yaradıcılıq yoludur, yazıçı-nasir taleyidir.

Hələ ötən əsrin 80-ci illərində Əli İldırımoğlunun istedadını yüksək qiymətləndirən xalq yazıçısı Bayram Bayramov Əli İldırımoğlunun yaradıcılığı haqqında yazdığı "Həyatın öz səsi" məqaləsində onun yaradıcılığını örnək sayır, gənclərə belə tövsiyə edirdi: "Əlinin bədii yaradıcılığa meyli güclüdür, duyğuları, müşahidələri zəngindir. Həyatı bilməyən, ondan uzaq düşən, mövzunu göylərdə, xəyallarda axtaran qələm sahiblərinə məsləhət görərdim ki, Əli İldırımoğlunun yazılarını oxusunlar, oradakı həyat materialını, həyatın öz parçalarını, öz problemlərini görsünlər, bəhrələnsinlər.

...Dəqiq müşahidəsi olan jurnalistin bədii nəsrə meyl etməyi təbii haldır və oxuduğumuz hekayələrindən məlum olur ki, müəllifin bu meyli özünü doğruldur".

Bu təbii meylin güclü axara, axına çevrilməsi nəticəsində müxtəlif vaxtlarda nəşr olunan və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qəbul edilən "Mayaklar", "Yazım-yazmayım", "Çinarlı", "Dərd", "Telepat", "Silinməz izlər" kimi toplularla, oçerklər, novellalar, hekayələr, povestlər: "Közərən sətirlər", "Həmin adam", "Zorən jurnalist", "Mənim rəncbər atam", "Qarlı gecələr", "Aqibət" kimi sanballı, siqlətli ədəbi-estetik, əxlaqi-mənəvi məzmuna malik kitablarla qarşılaşırıq.

Roman janrının ən yaxşı tədqiqatçılarından biri, tanınmış rus ədəbiyyatşünası D.Qranin yazırdı: "Roman janrı insanı və onun dünyasını bütün zənginliyi, mürəkkəbliyi ilə əks etdirmə imkanına malikdir. Roman elə bir yaradıcılıq meydanıdır ki, onda müasirliyin ən aktual, aparıcı problemləri həll oluna bilər.

Roman tarixi prosesləri, tendensiyaları, tarixi gerçəkliyi, tarixdə baş verən ideyalar mübarizəsini əks etdirərək ictimai məzmun kəsb edir, tarix yaradır".

Maraqlı, xoşagələn cəhət ondan ibarətdir ki, roman janrının ədəbi-bədii, estetik, ictimai, sosial, xəlqi və milli qayəsinin ən yaxşı imkanlarından yazıçı Əli İldırımoğlu bacarıqla, istedadla, professional ədib səriştəsilə istifadə edib və müxtəlif mövzularda, ideyalarda roman nümunələri yarada bilib.

Əli İldırımoğlu epik yaradıcılığı ilə Azərbaycan romançılığının zəngin ənənəsindən güc alıb, yaradıcı şəkildə faydalanıb, həmçinin mövzu, kompozisiya seçimi, həyati faktlara yeni münasibət, sənətkarlıq cəhətdən fərqli, orijinal yazıçı mövqeyi ilə bu ənənəni zənginləşdirib, yeni dövr Azərbaycan romançılığı mərhələsində öz ləyaqətli və layiqli mövqeyini müəyyənləşdirib, cəsarətlə həmin romançılar pleyadasında layiqli yerini tuta bilib.





Onun adlarını çəkdiyim romanlarının, oxuculara təqdim edilən "Aqibət" romanının bədii siqləti, mövzu dairəsi, kompozisiyası, ideya-estetik qayəsinin bütövlüyü və orijinallığı bu fikrin elmi dəyərinə tutarlı sübutdur...

Bu əsərlərdə roman janrı üçün çox mühüm struktural və məna-məzmun keyfiyyətləri kəsb edən insanın psixoloji ladda daxili aləminin təsviri, lokal məkan daxilində hadisələrə qlobal məna vermək, müəyyən ictimai-sosial zaman çərçivəsinə tarixilik statusu qazandırmaq üsulu, hadisələrin dinamizmini, qramatikliyini, kolliziyaları insanın daxili duyğuları ilə və həmahəng vermək ustalığı, bədii məntiqin gücünə yiyələnmək bacarığı özünü göstərir. Bütün bunlar isə obrazların sevgisinin, istək və arzularının, şəxsi talelərinin, psixoloji yaşantılarının milli, ictimai-sosial problemlər səviyyəsinə qaldırılaraq tam milli-mənəvi xarakter yaradılmasına xidmət edir.

Əli İldırımoğlunun epik nəsri hadisələrə tamamilə milli mövqedən - azərbaycançılıq mövqeyindən müstəqil xəlqilik konsepsiyası müstəvisində bədii şərh verən monumental bədii faktlardır.

Orta əsrlərin böyük, dahi təsəvvüf-sufi alimi, filosofu, teoloqu M.Ə.Nəcəfi "Zübdət Əl-Xakayiq" teoloji-fəlsəfi traktatında yazırdı: "Mövcudluğun barı - İnsandır. Ali Məlhəm, əvəzsiz İksir, dünyanın üzünü göstərən Cam, Kainatı tanıdan Güzgü - Kamil İnsandır. Dünyanın canı olan İşıq da odur".

Bu dahiyanə elmi fikirdən, özü də həqiqəti özündə əks etdirən elmi fikirdən belə nəticəyə gəlmək olur ki, bədii yaradıcılığın əsas tədqiqat obyekti olan İnsan ("Ədəbiyyat insanşünaslıqdır" məşhur tezisini yada sal)

obrazını əks etdirən əsər-roman - Kitab təkcə insanı deyil, həmçinin Dünyanı dərk vasitəsidir.

Dünya İnsanın, İnsan Dünyanın mahiyyətini, cövhərini əks etdirdiyindən yaxşı, kamil, işıqlı mövqedən yazılan hər bir sənət əsəri bizi Saflığa aparır, Saflıq yolunun yolçusuna çevirir.

Əli İldırımoğlunun təkcə "Aqibət" romanı deyil, digər epik əsərləri də Saflıq yoluna aparan parlaq İşıq selidir. İnsanlığın Aqibətinə, bu Aqibətin ədəbi-bədii, bir çox hallarda isə teoloji dərkinə, milli, fəlsəfi, mənəvi, əxlaqi izahına kömək edən, söz səltənətindən nur alan İşıq seli...

O, bir romançı kimi elə mövzulara, milli şüurun, mənəviyyatın, əxlaqın elə qatlarına toxunur ki, əsərləri bütövlükdə milli dəyər səviyyəsinə yüksəlir.

Böyük rus şairi Aleksandr Blokun özündən çox-çox böyük adaşı Aleksandr Puşkin haqqında dediyi: "Şair - dəyişməz dəyərdir!" sözlərini mən cəsarət və fəxarətlə Əli İldırımoğlu yaradıcılığına, xüsusən onun romanlarının ideya-estetik qayəsinə şamil edərdim. Bu romanlar - "Közərən sətirlər", "Həmin adam", "Zorən jurnalist", "Mənim rəncbər atam", "Qarlı gecələr" və nəhayət, "Aqibət" Azərbaycan romanı tarixində hərəsi bir "dəyişməz dəyərdir" - milli nəsrimizin dəyəri...

Yaxşı cəhət odur ki, yazıçının hər yeni əsəri təkcə öz yaradıcılığı, yazıçı taleyində deyil, həmçinin müasir, çağdaş ədəbi prosesdə parlaq ədəbi fakta çevrilir. Və bu yüksələn xətt üzrə inkişaf yazıçını təntitmir, iddia kürsüsünə sürükləmir, şöhrətin əsirinə çevirmir, əksinə, məsuliyyəti birə on qat artır, zəhmətkeş yazıçı istedadı tükənmək bilmir...

Bu eliksirin mənbəyini həyatdan alan Əli İldırımoğ-





lunun taleyi (görünür istedadlı adamların taleyi yaşadığı dövrdən asılı olmayaraq oxşar olur) hardasa Maksim Qorkinin, yaxud da Portəgiz yazıçısı, 1998-ci il Nobel mükafatı laureatı Joze Saramaqonun yazıçı taleyi ilə oxşardır.

Böyük yaradıcılığa həyatın dibindən gələn M.Qorki kimi o da həmkarlarının sualını cavablandırarkən deyir: "Zirvənin cığırı dərədən başlayır. Gərək dibdən gələsən - həyatın dibindən". O, istedadının zirvəsinə belə bir yoldan, belə bir məkandan keçib gəlmişdir. İstedadını zəhmətlə yoğurmuşdur.

Yenə yazıçının özünə-sözünə qayıdaq. O: "Yaxşı jurnalist olmaq üçün nə lazımdır?" sualını belə cavablandırır:

"Yaxşı jurnalist olmaq istəyirsənsə, gərək bir damcı istedada doxsan doqquz faiz zəhmət təri qatasan... Yazıpozu əzablı işdir. Bu əzaba qatlaşmaq, dözmək, kişi kimi sinə gərmək lazımdır!"

Budur, yaradıcılıq, budur qələminə məsuliyyət, budur istedadın mayası...

Portəgizin dünya şöhrətli yazıçısı Joze Saramaqo Nobel mükafatı alarkən təqdimat mərasimindəki məruzəsinə belə başlayıb: "Həyatımda nə vaxtsa rast gəldiyim adamlardan ən müdriki nə yazmaq, nə oxumaq bilirdi. Səhər saat dörddə onlar yatağından qalxırdı, bir sürü mal-qaranı otarmağa aparırdı. Onlar mal-qaranın gəliri ilə dolanırdılar. Ana babamı Jerenimo Melrinyo, nənəmi isə Jozefa Kayşinya çağırırdılar, hər ikisi savadsız idilər". Uzun yay gecələrində, babası kimi qoca əncir ağacının altında, "qövs kimi əyilmiş göyüzü ilə səssiz çaylar kimi axıb gedən "Müqəddəs Yakov yolu"nun, o vaxtlar kənddə adlandırdıqları kimi "Süd yolunun

əsrarəngiz parıltısının" sehrinə düşə-düşə yaradıcılıq dərsini babasından alıb və simvolik olsa da, yaradıcılığın "Süd yolu"na elə oradan yollanıb..." Yuxum gəlmirdi, gecə babamın hekayətləri ilə dolurdu: əfsanələr və olmuş əhvalatlar, qarabasmalar və dəhşətlər, ağlagəlməz hadisələr, çoxdankı ölümlər, nizələr və daşlarla döyüşlər, əcdadlarımızın söyləmələri, xatirələrin bitib-tükənməyən axını məni yatmağa qoymurdu, eyni zamanda yüngülcə layla çalırdı. ...Bunların məndən başqa heç kəsə dəxli yoxdur. Babam - Şimali Afrikalı berberdir, ikinci babam naxırçıdır, əfsanəvi gözəlliyə malik nənəm, valideynlərimin ciddi və gözəl üzləri, şəkildəki çiçək - özgə hansı geneologiyanı axtarmaq lazımdır? Özgə hansı nəsil ağacına gedib çıxmaq gərəkdir? ...Əminəm ki, haradan çıxdığımı, hansı materialdan biçildiyimi, niyə olduğum kimi olduğumu açıqlamaq üçün bunlar bəs eləyər".

Görünür böyük sənətkarların, istedadlı şəxslərin psixologiyasını, xarakterini xaliq elə mümkün qədər eyni materialdan biçir... V.Hüqo, O.Balzak, A.Puşkin, L.Tolstoy, Y.V.Çəmənzəminli, S.Rəhimov, S.Vurğun və onlarca başqa nəhəng yaradıcıların eyni motivdə xatırlamaları mövcuddur. Əli İldırımoğlu öz geneoloji-nəsil ağacını dönə-dönə yada salır, hətta romanlar həsr edir, yazmaqla doymur. "Həmin adam", "Közərən sətirlər", "Zorən jurnalist", "Qarlı gecələr", "Mənim rəncbər atam", "Aqibət" romanlarında bu xəttin aparıcı olduğunu müşahidə edirik və onun bir istedadlı yazıçı kimi "hansı materialdan biçildiyi"nin şahidi oluruq. Səksəninin qapısı döyəclənən məqamda qocaman yazıçının 2004-cü ildə qələmə aldığı bu duyğuların uzaq Portəgiz müdriklə heyrətamiz uzlaşması bizi bir daha sehrləyir.





"Qarlı gecələr" romanının sonluğunda yazdığı "İzim və sözüm" adlı yazı-şərhində Əli İldırımoğlu söyləyir: "Qarlı gecələr"dən sonra bahar gəlir. Kimin neçənci baharıdır, bilmirəm. Onu bilirəm ki, yetmiş yeddinci baharımdı. Ömrümün müdriklik, həssaslıq, kövrəklik, gərəkli-gərəksiz çağları. Çoxum gedib azım qalsa da, gənclik, yaşayıb-yaratmaq ehtirasım sönməyib. Qəlbimdə, düşüncələrimdə, arzularımda dolaşan neçə-neçə əsər qələmin intizarındadır. Və ona görə də Tanrı əlini üstümdən çəkmir. Ötən əsrin əvvəllərindən qolumdan yapışıb, zavallardan hifz edə-edə yeni əsrə gətirib çıxarıb. Şükür, Yaradanımdan gileyli deyiləm".

Bu şükranlıqdan sonra Əli İldırımoğlu bir yazıçı fəhmi ilə nəsil ağacının şəcərəsini xatırladır və bir yaradıcı şəxsiyyət kimi yetişməsinin səbəbini belə izah edir: "İnsanlıq elmini o cür valideynlərimdən almışam. Onların yolunu Tanrı yolu bilmişəm. Həyatda hər hansı müxalif qüvvə, yad təsir sapdıra bilməyib məni mərd, mömin valideynlərimin getdiyi cığırdan. Uğurlar tapmışam, Məşədi Allahverən, Məşədi Paşa, Məmmədbağır, Əmrah, İldırım, Fatma, Gövhər gedən Tanrı yollarında ruhları yar olub mənliyimə, tənhalığıma, kimsəsizliyimə. Ümid qapılarımın biri bağlandığı təqdirdə, başqa bir səmtdən, ağlıma gəlməyən qapılar açılıb üzümə. Tanrı yazısı bilmişəm bunu. Dönə-dönə şükür etmişəm gözəgörünməzə. Heç vaxt darda-amanda qoymayıb məni".

Sonra Əli İldırımoğlu da Joze Saramaqo kimi "hansı materialdan biçilməsinə" işarə vuraraq yazır: "Dünənim, bu günüm barədə müfəssəl olaraq bu qədər. Yazdım, yozdum ki, yaxın-uzaq gələcəkdə əsil-nəcabətim bilin-

sin. İldırımzadələrin hansı kökün üstündə pöhrələndiyi bəlli olsun".

Bax, elə buradan Əli İldırımoğlunun bir insan, qələm və istedad sahibi kimi "olduğu kimi olduğu"nun səbəbi və ədəbi portretinin digər cizgiləri canlı görünür.

Elə ona görə onun "Aqibət" romanındakı Höcət Cahangirin, Bağır kişinin, Kor Həşimin, Fərəc kişinin xəmirinin nədən yoğrulduğu, "köşələrinin hansı göndən çəkildiyi", "hansı zindanda döyüldüyü", "hansı kökün üstündə pöhrələndiyi" və milli-əxlaqi, türkçü dəyərlərimizin daşıyıcılarına çevrilən bədii obrazlar səviyyəsinə yüksəlmələrinin kökü bəlli olur.

Bu yaradıcı proses "avtobioqrafiklik" anlayışı altında şərh olunsa da, biz bunun daha çox "avtopsixologizm" anlayışına uyarlığını, müəllifin geneoloji koddan yaratdığı obrazlara transformasiya edən "geneoxarakterdən" irəli gəldiyini daha dürüst sayırıq.

Ədəbiyyatşünasların və ədəbi tənqidçilərin əksəriyyəti Ə.İldırımoğlunun ədəbi obrazlarının, süjet və mövzularının avtobioqrafikliyini qəbul edir. Məsələn, Əli İldırımoğlunun "Zorən jurnalist" romanını çox gözəl təhlil edən prof. Əliheydər Həşimov "Həyat dərsliyi" adlı məqaləsində yazırdı: "Əli İldırımoğlu özünün ədəbiyyata gətirdiyi müsbət obrazlarının rəftar və davranışında təmkinini saxlayan, ələm, kədər və ağır günlərdə heç vaxt sarsılmayan, bayağı şöhrətə aludə olmayan, ədalət uğrunda mübarizə aparmaqdan yorulmayan sevimli ədəbi qəhrəmanlarının real prototipi, canlı nümunəsidir".

Bu fikrin gerçəkliyinə heç bir şübhə etmədən, bir cəhəti də bildirək ki, bu proses əksinə də hərəkət edir. Yazıçının fərdi şəxsiyyəti, xarakteri, həyatından müəyyən detallar, obrazlara transformasiya etdiyi kimi, obrazların xarakterlərindən, həyat tərzlərindən, psixikasından yazıçı şəxsiyyətinə də nəsə keçir, onun həyat idealının müəyyən cizgilərinə çevrilir və beləliklə də, yazıçı şəxsiyyətinin bütövlükdə formalaşma prosesinə xidmət etmiş olur...





Bu cəhətdən Əli İldırımoğlunun romanlarındakı obrazlarla onun yazıçı şəxsiyyəti arasında qəribə bir uyarlıq və tamlıq müşahidə edilməkdədir. Bu uyarlıq tamlıq, xüsusən əxlaqi-mənəvi dəyərlər sistemində özünü daha bariz şəkildə göstərir.

Digər əsərlərində olduğu kimi "Aqibət" romanında da, onun itib-batmaq təhlükəsi qarşısında qalan mənəvi-əxlaqi, milli dəyərlərimiz uğrunda romançı-yazıçı mübarizəsi lirik qamma yaradır və qan yaddaşında donub qalan əxlaqi dəyərlər uyqudan ayılır, həzin ana dilinin axarı ilə yeni nəslin yaddaşında bərpa olunur.

Böyük rus klassiki A.Blok yazırdı: "Yazıçı dünyaya ona görə gəlib ki, ürəyini mənəvi acların qarşısında üryan etsin... Rus həyatından yox olmuş həqiqəti geri qaytarmaq bizim yazıçı borcumuz, yazıçı işimizdir".

Bu mənada Əli İldırımoğlu haradasa konservator yazıçıdır. O, xalqının, millətinin əlindən alınmış, qəsdən unutdurulmuş əxlaqi-mənəvi dəyərlərin - Azərbaycan əxlaqından yoxalmış həqiqətin bərpası ilə məşğul olur. Bu cəhətdən "Aqibət" romanında təsvir olunan bir hadisə olduqca səciyyəvidir. Romanda oxumuş, yüksək əxlaqa, düşüncəyə, təmkinə malik kitabxanaçı qız, qənirsiz gözəl Qənirə adlı bir obraz təsvir olunur. Onun danışıq tərzi, rəftarı, ailəsinə - ata-anasına, qardaş-bacılarına münasibəti, valideynlərinin dolanışığı uğrunda hər bir zəhmətə, əzaba qatlaşması, digər mənəvi keyfiyyətləri ya-

zıçı tərəfindən inandırıcı və təsirli lövhələrlə təsvir edilir.

Bu sadə kəndli qızının əxlaqi, mənəviyyatı təzyiqlərə və təqiblərə məruz qalır. Əhvalatlar XX əsrin 30-cu illərində Qalaça adlı bir dağ kəndində baş verir. Yeni qurulmuş bolşevik hökuməti, kollektivləşmə nəticəsində ortaya çıxan kolxoz hərəkatının yaratdığı ağır mühit, NKVD basqıları, ümumiyyətlə, bu tarixi mərhələnin bütün hadisələri dağ kəndinin timsalında psixoloji ruhda təzədən canlandırılır və o dövrdə cərəyan edən hadisələrin görünməyən tərəflərinə aydınlıq gətirir, işıq salır.

Kişiliyin, əxlaqın, düzlüyün, qeyrətin, həyat tərzimizin fəlsəfəsindən gələn mənəviyyatın qalası olan bu Qalaça kəndi indi Lüt Qasımın tülüngü oğlu lovğa Səftərlərin oylağına çevrilib. Tarix boyu qazanılmış əxlaq və mənəviyyat anlayışları bu Qalaça kəndindən get-gedə qeybə çəkilir. Lüt Qasımın tülüngü oğlu lovğa Səftər firqəçidir və özgə vəzifədar kişilərin tumarına yatan bacısı Gülpərinin hesabına bu kənddə kolxoz sədri seçilib, hakimi-mütləq olub, erkək kəhərin üstündə kənddə at oynadır...

Bu harınlamış, at üstündə olan, hakimiyyət kürsüsündə əyləşən, bütün mənəvi cəhətlərilə də lütkom olan sədr Səftər əxlaqsızlığa yuvarlanır və Qənirənin namusuna təcavüz etməyə cəhd göstərir...

Bu epizod ənənəvi romanlarımızdan da bizə tanışdır və ilk baxışda stereotip təsiri bağışlayır... Lakin burada tamamilə orijinal bir cəhət Qənirənin rəftarında, namusunu, əxlaqını saflığa, təmizliyə çıxarmaqdan ötrü canına qəsd etməsində - özünü Dəvəbatan burulğanına qərq etməsində ortaya çıxır.

Əslində, lütkom nəslindən olan Səftər ona sadəcə əl





atmış, əlbəyaxa olmuşdular. Bunu isə Cahangir kişi qızın imdad harayına gələndə görmüşdü... Və müasir "əxlaqın diktəsində" burada qeyri-adi heç nə yoxdur. Əslində Qənirə özünü müdafiə edərək bəkarətini qorumuşdur.

Qənirənin əxlaqi-mənəvi ucalığa yüksəlməsini göstərən bir məqam diqqəti cəlb edir. Bu onun ölümqabağı keçirdiyi hisslər, daxili sarsıntılar, öz məni ilə apardığı mükalimə, iç dünyasına yönələn monoloqudur: "Sabah bu əhvalat bütün Qalaça camaatına yayılacaq. Orda-burda pıçıldaşmalar başlayacaq. "Qənirəynən kolxoz sədrini bağda bir yerdə biabırçı vəziyyətdə görüblər". Ondan sonra hamı pozğun bir qız kimi məni lənətləyəcək. Bütün Qalaça camaatı mənə nifrət edəcək. Ata-anama, qardaşlarıma töhmət yükü olacağam. Bu nə müsibətdir, durduğum yerdə gəldi başıma, ilahi!! Deməli, ömrümün axırına kimi pozğun, əxlaqsız qadın adı üstümdə qalacaq. Artıq bu ləkəli adı torpağa qovuşana qədər daşımağa məhkumam. Mən təkcə ata-anama, qardaşlarıma, qohumlarıma yox - bütün kəndimizə silinməz ləkəyəm. Onda məni niyə yaradırdın, ey gözəgörünməz! Adına pis söz çıxan bir qızın Qalaça torpağının üstündə gəzməyə, bu yerlərin saf havasını udub, suyunu içməyə, halal çörəyini kəsməyə, başını qaldırıb insanların üzünə baxmağa haqqı varmı? Yoox, Yooox!"

Bununla da o özünə ölüm hökmü kəsir. Göründüyü kimi, Qənirə bu daxili monoloqunda doğmalarından da çox kəndini, torpağını, camaatını düşünür və belə dərk edir ki, "it dəymiş ayran" kimi adının murdarlanması kəndi, camaatı, doğma torpağı ləkələyir. Bax, budur onun əxlaqi qənaəti, budur bizlərin - müasirlərin unutduğu milli-mənəvi, əxlaqi dəyər və bu dəyərin Qənirə obrazında bərpası.

Ümumiyyətlə, Əli İldırımoğlu romançılığında real həyat hadisələri, dərk olunmuş həyatın özü var, şirin bir təhkiyə ilə canlandırılan həyat...

Əli İldırımoğlunun yazı manerasında, nəsr təhkiyəsində bir nağıl şirinliyi, vahid axarlı süjetdə sadəlik və folklorun mühüm epik janrı olan nağıl poetikasının modelinə bənzərlik var. Əfsanələrdən, atalar sözü və məsəllərdən, bayatılardan, yerli-yerində istifadə edilməsi və romanın kolliziyasına uyğun şəkildə işlənməsi əsərin poetikasını şərtləndirən elementlərdəndir...

Müəllifin ədəbi priyomları, üslubu, təhkiyə sərbəstliyi və ardıcıllığı, mistik-ruhi detallara müraciəti, cümlələrin quruluşundakı sadəlik, bitkinlik, əqli və hissi-emosional duyğular oyadan söz düzümü, xəlqi ifadələr, bənzətmə və təşbehlər onun sənətkarlığının mühüm atributlarındandır. "Həndəvər", "həvirləşmə", "gənəşmə", "eymənmə", "mərəy", "atın hörüyü", "vəl", "xırman", "ağnağız", "səmtimək", "heşan", "ağzı yelli", "qaraçalpov", "caydağ", "vərəvurd", "üzükmək", "isdahat", "ərəmlik", "qərcimədaş", "yarım gəviz", "dağar", "mayıf", "ləc", "sidqi sıyrılmaq" və s. bu kimi arxaizmlər, müasir dilçilik mədəniyyətində unudulan sözlər; "gözəllik ədəbdir, gül camal deyil", "xalxınkı birdir, amma pirdir", "qonşu qızı gəmirçəkli olar", "ərim ər olsun, kor dibi evim", "indi kəsək daşdan ağır olub", "qeyrət Allahdan gəlir, vəzifə hökumətdən", "oldu it dəymiş ayran", "hər yoxuşun bir enişi var", "darını kola tökmə, səbr elə", "dəvə ölsə dərisi bir eşşəyə yükdür, toyuq ölsə bir çəngə tük", "arvad almaq asandı, ər olmaq çətin" qəbildən bədii təsərrüfatda çox az işlənən onlarla atalar sözləri, bir neçəsini də müəllifin özünün yaratdığı xeyli deyimlər bədii kompozisiyaya daxil olaraq bir nağıl,





folklor havası, elatdan gələn səmimiyyət, xoş, təmiz ovqat, bir sözlə, milli kolorit yaradır.

M.Qorki yazıçı üçün folklorizmlərin nə qədər böyük əhəmiyyət kəsb etməsini, atalar sözlərindən və məsəllərdən istifadədə yazıçı təfəkkürünün cilalanması prosesini nəzərdə tutaraq yazırdı: "Mən atalar sözlərindən çox şey öyrənmişəm, başqa sözlə, aforizmlə düşünmə qabiliyyətini..."

Əli İldırımoğlunun yazıçı təfəkküründə də xalq yaradıcılığında olan aforizmlə düşünmə qabiliyyəti, nəsrində aydın, səlis, mənalı təhkiyə üslubu var.

"Aqibət"də bədii mətnin səthiliyi yoxdur, sadəliyi, anlaşıqlığı, estetik təsirliyi var. Əsərin süjetinə, kompozisiyasına daxil olan hər bir hadisənin bədii-estetik, məna-mahiyyət kodu vardır.

Xüsusən, təbiətdən alınan detalların - Dəvəbatan burulğanının, Dəlmə arxının, el dəyirmanının romanda simvollaşdırma yolu ilə canlı obraz, xarakter miqyasına qaldırılması, ictimai-siyasi, mənəvi-əxlaqi kod daşımaları, sətiraltı ideya-estetik məna və mahiyyət kəsb etmələri Azərbaycan romanı modelində tamamilə yeni, orijinal bədii-sənətkarlıq vasitəsidir.

Ümumiyyətlə, canlı-cansız təbiət detallarını əsərdə hadisələrin iştirakçısına çevirmək üsulu, onları simvollaşdırma yolu ilə şəxsləndirmək modern romançılığın poetikasının əsas xüsusiyyətlərindəndir.

İnsan və təbiət, insan və ətraf mühit, insanın canlılara münasibəti (burada Höcət Cahangirin sarı Madyana, lütkom Qasımın tülüngü oğlu lovğa Səftərin mindiyi erkək Kəhərə münasibəti), insanın insan olmayan canlılar qarşılığında ilahi tərəfindən yerinin müəyyənləşdirilməsi - bütün bunlar yazıçını dərindən düşündürür.

İnsan mənəviyyatının, əxlaqının kataklizm səviyyəsində erroziyaya uğraması müəllifi dəhşətli dərəcədə hiddətləndirdiyindən, ədib ikinci tərəfi ürək ağrısı ilə, məhəbbətlə təsvir edir, onları itirilmiş, yoxlaşmağa doğru gedən mənəvi-əxlaqi dəyərlərin mücəssəməsinə, qoruyucusuna, müdafiəçisinə çevirə bilir...

Romanın süjeti boyu Dəlmə arxının bərpası, demək olar ki, bütün hadisələrin mərkəzində dayanır. Dəlmə müasir anlayışla desək, dağın, təpənin altından atılan, o qədər də uzun olmayan, kiçik həcmli tuneldir. Yəni, dağı, təpəni, daşı dəlib keçərək nəyəsə yol açmaq deməkdir.

Zabıxlı nəslindən olan babalar vaxtı ilə Dəlmə arxı çəkərək geniş, bərəkətli torpağı olan Cəyən düzünə su çıxarıblarmış, lakin zaman-zəmanə bu arxı itirib, Cınqıllı təpənin altından keçən Dəlmə arxını ot-əncər, daş-qaya, şax-şəvəl, torpaq basıb, uçquna düşüb, Dəlmə dəlməliyini itirib. Sular quruyub, Cəyən düzünün bərəkətli torpağını kol-kos, şax-şəvəl basıb, yaşıl-yaşıl bağlar, tala-tala tarlalar quruyub, boz, quru, bərəkətsiz çölə çevirib, Cəyən düzü sağır-qısır qalıb, ilan mələyən bir çöl olub.

Əslində, bu, bizim mənəvi dünyamızın, milli mahiyyətimizin, əxlaqi dəyərlərimizin, milli mentalitet anlayışında ehtiva olunan bütün xüsusiyyətlərin quruyan arxıdır, qısır qalan bərəkətli çölüdür. Elə şeylər itirmişik ki, içimiz də, çölümüz də quruyub. Milli mənlik itən yerdə (Dəlmə arxı quruyan yerdə) millilik, xəlqilik də itir, xalq mənəviyyatı (Cəyən düzü) qısır qalır, bərəkətsiz, barsız-bəhərsiz olur və millətin bütün fəlakəti, faciəsi də buradan başlayır, babaların ruhu başımız üzərində narahat-narahat dolanır, bizləri haqq yoluna, dədə-baba qeyrətinə çağırır.





Elə ona görə də millətə, xalqa, Vətənə (Cəyən düzünə) Höcət Cahangir kimi əxlaqlı, mənəviyyatlı, yolundan, əqidəsindən, nəslindən, nəcabətindən, qeyrətindən, namusundan dönməz, əli düsərli bir kişi lazım gəlir, babaların ruhları onu seçir. "İrəlidəki bulağa çatar-çatmaz onun qulağına qeybdən bir səs gəldi:

"- Eheyy! Zabıxlı tayfasından olan Höcət Cahangir! Səninləyəm! Qulağını aç, yaxşı-yaxşı eşit! Agah ol dediklərimdən! Nə qədər ki, canın suludu, ahıllıq başının üstünü almayıb, qolunda qüvvət, dizində taqət var, qədim arxa bir əncam çək! O arxı Zabıxlı tayfasından olan babaların çəkib! Unutma ki, Dəlmə arxına su gəlməsə, onların ruhu səni bağışlamaz. O dünyada yerin yoxdur! Olsa da cəhənnəmlikdir!"... Öz-özünə düşündü. Onun başında dumanlı fikirlər dolaşdı: - Bəlkə məni xəlq eyləyən gözəgörünməzin hənirtisidir?! Yoox, yəqin bu Zabıxlı tayfasından olan daşlaşmış, heykəlləşmiş babalarımın mənə vurduğu töhmət, tənədir!"

Əlbəttə, belədir: bu ulu babaların müasir nəslə töhmətidir, tənəsidir, ruhların üsyanıdır...

Romanda Sücəddinin dəyirman yolunda gözünə görünən teyfin-əmmaməli mömin Mir Rahibin söylədiyi sözlər babaların ruhlarının üsyanına bariz nümunədir: "Onu da anla, agah ol ki, Qalaça kəndi Tanrının qəzəbinə keçib. Başınıza gələn müsibətlər Yaradanın cəzasıdır. Bunu başa düşmək fəhmindən xalisiniz. Qalaçanın mollası Tağı, yol göstərəni lüt Qasımın oğlu lovğa Səftər, dəyirmançısı sülək Şahnəzər, deputatı qüdrətsiz Qüdrətdirsə, deməli, kəndə bədbəxtlik üz verib. Fitnə-fəsadın baş alıb getdiyi, namus-qeyrətin qeybə çəkildiyi,

insanların ehtiraslarının quluna çevrildiyi, adamların qurd kimi bir-birini diddiyi məmləkət fəlakətdən yaxa qurtara bilməz!!! Nə qədər gec deyil, tövbə edin!!! Tövbə edin!!! Haqqa qayıdın!!! Haqqa qayıdın!!!"

Əslində, "Aqibət" romanı müasirlərimizə, dövranımıza tövbə yolunu, haqqa qayıdış yolunu nişan verir...

Romanda Höcət Cahangir, onun oğlu Sücəddin əsas, aparıcı obrazlardır. (Əslində, mən baş qəhrəman anlayışını qəsdən işlətmirəm. Bu əsərdə bütün obrazların öz yeri, öz aparıcı rolu olduğundan onları fərqləndirmək istəməzdim).

Bu adların özündə də bir rəmz, simvol görsənir. Höcət Cahangir mühitə, mənəviyyatsızlığa qarşı mübariz olduğundan, sözündən, əqidəsindən dönmədiyindən adamlar ona "Höcət" ayamasını qoyub. Cahangir, əslində, yaşadığı mühitdə hakimiyyəti olmayan hökmdar, qoşunu olmayan sərkərdədir, adının mənasında olduğu kimi, babaların ruhlarının əmanətlərini qoruyan hökm sahibidir, cahangirdir... Mühitin qurutduğu Dəlmə arxını açıb Cəyən düzünə su çıxarmaq gücündə, istəyində olan və mühitin sosial ədalətsizliyini bu yolla düzəldib, əzəli məqamına, çağlarına qaytarmaq (istər əlindəki düsərin, istərsə də Dəlmə arxından tapdığı "Üçatılan"ın gücü ilə) iddiasında olan insan obrazıdır.

Sücəddin isə əsasən mənəviyyat, əxlaq, təmizlik, məhəbbət, inam və etibarın müdafiəçisi olan gücün, şücaətin, igidliyin simvoludur. (Əsərin sonunda məhz o "Üçatılan"ı işə salır və pisliyin özünə atəş açır). Onun bütün əqidəsi, sevgisi, həyata münasibəti atasından gələn, ondan öyrəndiyi, kəsb etdiyi təmizliyə, saflığa, duruluğa, kişiliyə bağlı olduğundan atasından sonra (Səftər, bu lütkom nəslindən olan sədr Cahangiri arxı təmizləyərkən qırdığı üç-dörd çəkil ağacına görə şərə salıb, sinfi düşmən adı ilə gedər-gəlməzə göndərmişdi) bu yüksək əxlaqi-mənəvi dəyərlər uğrunda mübarizəyə qalxır, atasının yarımçıq qalan işini davam etdirmək üçün Dəlmə arxının bərpasına girişir, yəni ata-oğul, nəsil-nəcabət, sələflər-xələflər geneoloji xətti, axarı qovuşur, bədii həqiqətin gücü ilə biri digərinin davamına çevrilir, nəsillər arasındakı bağlar qırılmır...





Ümumiyyətlə, yazıçı, hər bir obrazın xarakterinə, xasiyyətinə uyğun ad seçib onları mənalandırmağı və bu sınanmış bədii-üslubi formadan istifadə etməyi bacarıb...

Və yaxud, romanda təsvir olunan təbiətin bir parçası Dəvəbatan burulğanı... Bu da insanilaşdirilmiş, ictimailəşdirilmiş obraz səviyyəsinə qaldırılmış rəmzi-simvolik bədii detaldır. Mühitin, dövrün, zamanın burulğanıdır - Dəvəbatanıdır. Yaxşı nə var bu burulğan öz dibinə çəkir (iş elə gətirir ki, bu Dəvəbatan murdarlığı - dəyirmançı sülək Şahnəzərin meyidini qəbul etmir), izsiz-tozsuz batırır - qənirsiz gözəl Qənirəni də, insani vəhşiliyə üsyan edib, şahə qalxan Kəhəri də udur, necə ki, keçən əsrin 37-ci il hadisələrinin burulğanı millətin bütün yaxşılarını, əsillərini, nəcabətlilərini, xalqın geneoloji fondunu izsiz-soraqsız uddu, gedər-gəlməzlərdə batırdı...

Başqa bir rəmzi-simvolik obraz - Dəyirmandır. Dəyirman bin-bərəkət ocağı, halallıq tələb edən ruzi mənbəyidir. Xalqın, millətin, elatın unu-çörəyi, ruzisi buradan keçir. Bu ruzi ocağını gərək halal adamlar, nəcabətli insanlar qursun, işlətsin ki, bin-bərəkəti də olsun, evlərin təhnələri halal bərəkətlə dolsun...

Dövran, zəmanə, kolxoz-kollektivləşmə, sovetləşmə eybəcər sosial mühit yaradıb, bu halallıq ocağını

quranları, tikənləri - Höcət Cahangirləri, Kar Bağırları təkləyib, dəyirmanı - bin-bərəkət ocağını (oxu: torpağı, Vətəni, eli-obanı) haramxorlara, əsli-nəsli olmayanlara, nəcabətsiz lütkom firqəçilərə tapşırıb...

İndi bu əsil-nəcabəti olmayanlar, lütkomlar elə harınlaşıblar ki, Dəyirmanı tikənlərin ağnağızını - bir dağar dənini belə yaxına buraxmırlar. Və bunları Allah qəbul eləmir! Elə həmin Dəyirmanın qabağında hökmranlıq edən, kəndin lütkom nəslindən olan sədri öz bağışlanmaz əxlaqsızlığının günahını mindiyi kəhərin üzərinə yıxıb, onu şallaqlayıb döyür, kəhər bu haqsızlığa dözməyib intihar edir, çayla üzüb Dəvəbatan burulğanına düşür...

Bu məqamla müəllif kəhər atın özünəməxsus, lakin reallıqla çulğalaşan daxili monoloqunu verir və bu səhnə insan qəddarlığının indiki məqamda nə qədər dəhşətli olduğunu bariz nümayiş etdirir: "At döyülməkdən titrəyirdi, əsim-əsim əsirdi, hərdən boynunu gərib çayın hər iki sahilində dayanıb, onun tutulması üçün canfəşanlıq göstərən insanlara sanki nifrətlə baxırdı. O indiyəcən insanların bu qədər qəddar, insafsız olduğunu hiss etməmişdi. İndi onu heç bir günahı olmadan, şallağın altına salıb qəddarcasına döyən sahibinə də, arxasınca düşüb onu ram etmək istəyənlərə də amansız bir nifrətlə baxırdı. Kəhər at insanların bu cür rəhmsiz olduğunu bilməzdi. İndi o, ölməyə razıydı, bir daha insanların əlinə düşməyə yox. Kəhər atın dili olsaydı var gücü ilə qışqırıb car çəkərdi ki, ey insanlar!! Siz yer üzünün əşrəfi olduğunuz qədər də amansızsınız. Allahsız məxluqsunuz! Günahsızlara divan tutmaqdan usanmırsınız. Sizin bu cür riyakar, bədxah olduğunuzu əvvəlcədən bilsəydim, Allaha üz tutub yalvarardım ki, məni yarat-





masın. Yaratsa da, yalan, böhtan, paxıl, bir-birinə qənim kəsilən belə bir məxluqa tuş eləməsin. Onda insan ayağı dəyməyən vəhşi çöllərdə sakit həyat sürüb, azad yaşayardım". Bu səhnənin, fikrimizcə əlavə izaha ehtiyacı yoxdur...

Bu, insanlığa nifrət, insanlığa qəzəb deyil, əslində insan olanı insanlığa çağırışdır, insan olanı mühiti ilə harmoniyada yaşamağa səsləməkdir. Disharmoniya olan yerdə isə təbiətin insana qəzəbi tutur...

Bu üç simvolik obraz - Dəlmə arxı, Dəvəbatan burulğanı, Dəyirman romanın kompozisiyasına xüsusi təravət, süjetə orijinallıq, Azərbaycan roman ənənəsinə isə yenilik gətirir, romanın bədii-estetik dəyərini yüksək səviyyəyə qaldırır.

Əli İldırımoğlunun bir yazıçı, epik bədii təfəkkür sahibi kimi özünəməxsus yaradıcılıq xüsusiyyətləri və prinsipləri var: **Birinci,** hüdudsuz realistdir, həyat həqiqətlərinə, gerçəkliyə böyük yazıçı məhəbbətilə sadiqdir; **ikinci,** görümlü, duyumlu, predmetli müşahidə bacarığına malikdir; **üçüncü,** axarlı, oxunaqlı dili var, bədii məntiqi ardıcıldır; **dördüncü,** öz intellektini, duyğularını, düşüncəsini obrazlarına, təsvirlərinə, dialoqlara sərbəst transformasiya etməyi bacarır; **beşinci,** yazısında ənənəyə sadiq, yeniliyə, orijinallığa meyllidir; **altıncı,** xalq həyatının, mənəviyyatının, milli mentalitetinin, xalq dilinin erudik bilicisidir, təəssübkeşidir və bunları öz təbii axarı ilə əsərlərinə hopdura bilir və s.

Əli İldırımoğlu yaradıcılığı haqqında müxtəlif fikirlər ola bilər, amma maraqlı bir cəhət budur ki, onun haqqında yazan ədəbiyyat biliciləri - Rafael Hüseynov, Bayram Bayramov, Qasım Qasımzadə, Qulu Xəlilov, Gəray Fəzli, Əliheydər Həşimov, Əhəd Muxtar, Sadıq

Şükürov, Vahid Əziz, Vaqif Yusifli, Nizaməddin Şəmsizadə və b. (göründüyü kimi, çox müxtəlif nəsillər, çox fərqli baxışlar) hamısı bir nöqtədə birləşir, Əli İldırımoğlunun istedadlı bir sənətkar olması fikrini dönə-dönə təhlillə, fakt-sübutla söyləyirlər.

Bu yazıçıların, şairlərin, tənqidçilərin, alimlərin Əli İldırımoğlu haqqında dediyi sözlər, fikirlər, göstərdikləri məhəbbət, hörmət, inam bir də ona görə maraqlıdır ki, Əli İldırımoğlunun yazıçı şəxsiyyəti, istedadı, insanlığı, ümumiyyətlə, ədəbi portreti bu işıqlı fikirlərin arasından öz parlaqlığı ilə boylanır, canlanır...

Azərbaycan ədəbi ictimaiyyətinə, ədəbiyyatına, oxucularına təqdim olunan "Aqibət" romanı, əslində keçən əsrin 30-cu illərində, repressiya dövründə millətin əxlaqına, mənəviyyatına vurulan zərbədən sonra xalqımızın aqibətini əks etdirən və bu günümüzün, çağdaş dövrün bəlalarının köklərini göstərən, müasirliklə yoğrulmuş tarixi əhəmiyyətli bir romandır və onun müəllifi Əli İldırımoğlunun bir nasir kimi yaradıcılıq potensialının tükənməzliyindən xəbər verən qüdrətli bədii faktdır...

**Qurban BAYRAMOV**
***filologiya elmləri namizədi,***
***tənqidçi-ədəbiyyatşünas***

Qaş qaralır, bağ-bağatın yaşıllığı, təzəcə dənzərən gilasın qızartısı, suların maviliyi gözdən itirdi. Əkin-biçin adamları iki-bir, üç-bir çəkilib gedirdi. Qənşərdəki yamaclarda naxırı haraylayan çoban-çoluğun hənirtisi daha gəlmirdi. Çayın qıjıltısından, yaxınlıqdakı dəyirmanın uğultusundan, bir də ki, höcət Cahangirin külüngünün, düsərinin, belinin cingiltisindən başqa heç nə eşidilmirdi. Sinə yerdə hörüklənmiş sarı madyan lal-dinməz dayanıb sahibinə tərəf boylanır və sanki Cahangirin külüngünün, düsərinin, belinin səsini dinləyirdi. Sarı madyan bəlkə də balasının xiffətini çəkirdi. Neçə gün bundan qabaq Cahangir madyanı çidarlayıb, el yolundan yuxarıdakı örüşə buraxmışdı. Başı işə qarışdığından madyan üçaylıq balasıyla irəlidəki dərəyə enmişdi. Və pusquda dayanan yalquzaq günün günorta çağı qulunu parçalayıb yemişdi. Cahangir onda duyuq düşmüşdü ki, leşin üstünə qarğa-quzğun tökülüb. At çidarlı olmasaydı, bəlkə də qaçıb birtəhər balasını canavarın ağzından qurtarardı. O gündən bəri sarı madyan düz-əməlli otlamırdı. Sakitcə dayanıb hara isə baxır, hey baxırdı. Bəlkə də balasından ümidini üzməmişdi. Ümidliydi ki, indi harda olsa üz-üzə dayanan dağların, qayaların arasından çıxıb qaça-qaça, hələ bərkiməmiş caydaq ayaqları bir-birinə dolaşa-dolaşa, kişnəyə-kişnəyə gəlib, acgözlüklə anasının dolu yelininə təpiləcək. Sarı madyan bir şıqqıltı eşidən kimi tez sağa-sola döyükür, qulaqlarını şəkləyib həmin səmtə baxırdı. Ancaq südəmər körpəsini görmürdü

ki, görmürdü. Sarı madyanı dərd götürmüşdü. O gündən bəri xeyli də arıqlamışdı.

Rəvayətə görə, haçansa bir ərəbin dəvəsi itir. Ərəb kəndbəkənd gəzib dolaşır, dəvəsini axtarır. Ancaq - gördüm - deyən olmur. Ərəbin dəvəsi yağlı əppək olub çəkilir göyə. Neçə aydan sonra ərəb uzaq bir məmləkətdə təsadüfən dəvəsinə rast gəlir. Ağ saqqalı sinəsinə sallanan bir kişinin dəvəni harasa çəkib apardığını görcək sevinib ona yaxınlaşır:

- Qardaş, bu dəvə mənimdir, - deyir.

Başında göy əmmamə, əlində çəlik, əynində ətəkli çuxa olan saqqallı kişi dəvəni danır. Yeri-göyü bir-birinə qatıb, and-aman edir ki, on ildən çoxdur bu dəvəni filan bazardan almışam.

...Mübahisə uzanır, ehtiraslar qızışır, səbrlər tükənir. Onlar əlbəyaxa olmaq həddinə çatanda kəndin ağsaqqal-qarasaqqalı işə qarışır. Dəvəsi itmiş ərəb kənd camaatına üz tutaraq:

- Dəvənin mənim olmasını sübuta yetirmək üçün bircə çarə var, - deyir.

- Buyurun! Buyurun! Sübutunuz varsa, çəkinməyin, göstərin. - Kənd ağsaqqalları yerbəyerdən dillənirlər.

- Mənim dəvəmin altı aylıq köşəsi qəflətən ölüb, - Ərəb sözə başlayır. - Ovcumun içi kimi bilirəm ki, bala dərdindən onun ürəyinin başına xal düşüb. Şərt üçün gəlin dəvəni kəsək, əgər ki, ürəyində xal olsa, deməli, dəvə mənimdi. Nahaqdan malıma sahib çıxan bax, bu kişi dəvəmin əvəzini verməlidir. Yoox, əgər sözüm qələt çıxsa, onda mən günahkar, əlimin dalı da yerdə. Malımı-qoyunumu satıb bu kişiyə saz bir dəvə alaram.

Hamı razılaşır. Və belə də edirlər... Bura toplaşanlar gözləri ilə görürlər ki, doğrudan da dəvənin ürəyində iri





bir xal var. Beləliklə də, haqq yerini tapır. Göy əmmaməli saqqallı kişi ərəbə dəvə almaq məcburiyyətində qalır...

Höcət Cahangir haçansa bu rəvayəti eşitmişdi. Bilirdi ki, ərəbin dəvəsi kimi, bala dərdindən sarı madyanın da ürəyinin başına xal düşüb. Sarı madyanın bu nisgili Höcət Cahangirə də sirayət etmişdi. Ona görə də sarı madyanla tay əvvəlki kimi bəd rəftar eləyib, dərdinin üstünə dərd gətirmək istəmirdi. Hirslənib sarı madyanın üstünə çəmkirmirdi. İnsafsızlıq eləyib belinə ağır yük vurmurdu. Uzaq mənzilə sürmürdü. Ağzını enişə-yoxuşa dirəyib təngnəfəs eləmirdi. Sarı madyana yandırıb-yaxan qamçı endirmirdi. Höcət Cahangir ürəyində çalın-çarpaz dağ olan sarı madyanla mülayim davranırdı. Tez-tez ata qaşov çəkir, tumar vurur, nəvazişlə əlini yal-birçəyində, boyun-boğazında gəzdirib, sınıq könlünü almağa çalışırdı. Sarı madyan sahibinin mehri-məhəbbətini hiss edirmiş kimi, Höcət Cahangirin əl-ayağını, boyun-boğazını duz kimi yalayırdı.

Höcət Cahangirin başına gələnlər azmış kimi, sarı madyanın bala dağı da ona təzə bir dərd olmuşdu. Ona görə də nə ətrafa qaranlıq çökdüyünü hiss edirdi, nə də iş adamlarının çəkilib getdiyini. Ayağının birini irəli, birini geri qoyub, əlindəki külünglə arxın qabağını bağlayan qayaları Fərhad kimi çapıb-tökürdü. O, başından yuxarı qaldırdığı külüngü sanki arxın qabağını kəsən daşlara, qayalara yox, sarı madyanı balasız qoyan yalquzaq canavara, dədə-baba dəyirmanını, cənnətməkan bağ-bağatını, bir cüt öküzünü, sürüylə mal-qoyununu əlindən alıb onu quru yurdda qoyan Şura hökumətinin qanun çıxardanlarının, lüt Qasımın tülüngü oğlu lovğa Səftəri kəndə böyük qoyanların təpəsinə endirirdi. Üzdə arxın qabağını kəsən qayaları çapsa da, qəlbində adını

firqəçi qoyub, onun sinəsinə çalın-çarpaz dağ çəkənlərin hərçi-betərini söyüb, onların yeddi arxa dönənlərini qəbirdən çıxardıb nifrətlə lənətləyirdi.

Orta boyu, enli kürəyi, məğrur görkəmi, zəhmli baxışları, sallaq sifəti olan Cahangir öz bildiyini dədəsinə də verən deyildi. Ağlına ki, bir şey yerləşdi, qurtardı getdi. Bütün kənd yığılsa da, faydası yoxdu, onu başdan çıxarıb, yolundan döndərmək mümkün deyildi. Bu xasiyyətinə görə də hamı ona Höcət Cahangir deyirdi. İki dünya bir olsa da, öz bildiyi ilə getməliydi. Kərənti götürüb ot çalmaqda, dəhrə-balta işlətməkdə, yer qazmaqda tək-tük adam onunla ayaqlaşa bilərdi. Bir işə də ki, girişdimi, asanlığına-çətinliyinə baxmazdı, onu axıra çatdırmalıydı. Mülayim də xasiyyəti vardı. Ancaq bir balaca ki, hirslənib hövsələdən çıxdı, üzünü görmə.

Cahangir külüngünü, düsərini arxa tökülmüş daşlara qəzəblə, nifrətlə endirirdi. Bu qəzəb ona yorğunluğunu da, alnından süzülən duzlu tərin iri gözlərini yandırmasını da unutdururdu. Kənardan zəndlə baxan sarı madyan sahibinə: - Bəsdi, özünə qəsd eləmə! Can cahana bir dəfə gəlir. Yorulub əldən düşdün. Beli, düsəri at bir kənara, gəl gedək, - demək istəyirmiş kimi bir neçə dəfə fınxırdı, kırıldadı, ipçin nallanmış ayaqlarını yerə döydü. Höcət Cahangir sarı madyanın dilini bilirdi. Və indi onun nə demək istədiyini anlayıb başa düşürdü... Odur ki, belini, düsərini, külüngünü kənara qoyub arxdan çıxdı. Xasiyyətinə xas olan təmkinlə, sakit, ağır addımlarla sarı madyana tərəf yönəldi. Tələsmədən atın hörüyünü açıb, səliqə ilə qəzil sicimi dəstələyib tərkinə bağladı. Sonra da sarı madyanın belinə aşırılıb atın başını kəndə tərəf döndərdi.





Höcət Cahangir olduqca çətin, bitməz bir işə girişmişdi. Nuh əyyamından qalan, itib-batmış arxı yenidən bərpa etməyi boynuna götürmüşdü.

Arx qədim arx idi. Və onun nə vaxt çəkildiyi bilinmirdi. Yüz ilin kişiləri də bilmirdi ki, arx nə vaxt çəkilib və kimlər çəkib. Camaata bəlli olan o idi ki, vaxtilə bu arxdan bir dəyirmanlıq su gəlirmiş. Arx çınqıllı təpənin altından keçdiyinə görə kənddə ona Dəlmə arxı da deyirdilər. Arx beş yüz metrlik tuneldən keçirdi. Allah bilir, təpənin altından neçə lağım atılıb. Höcət Cahangirin də gözünü ən çox qorxudan kəndin dəcəl-xata uşaqlarının bir-biri ilə bəhsə girib əyilə-əyilə, iməkləyə-iməkləyə güc-bəla ilə keçdiyi həmin tuneli daş-qayadan təmizləmək idi. Ağızdan-ağıza söz gəzirdi ki, iki verstdən artıq uzunluğu olan arx Dəlmədən keçib aşağıdakı düzləri bol-bol suvarırmış. Nə vaxtsa, bir yaz ağzı dərin-dərin dərələrin daşqın seli çayın məcrasını dəyişib, dəhnəni yerli-dibli yuyub aparıb, arxın suyu biryolluq quruyub. O gündən bu günə on ildi, yüz ildi, kim bilir, bəlkə də min ildi o köhnə arxdan su gəlmir. Neçə hektar bud torpaq susuz qalıb. Əkilən bağ-bağat quruyub, qəhr olub. Qalaça kəndinin bin-bərəkəti də elə o arxla gedib. Sonradan-sonraya çəkilən təzə arxın az-maz suyu isə çəltik ləklərinə, bir də çaykənarı bağ-bostana birtəhər çatırdı. Qalaça kəndinin başbilənləri neçə dəfə ciddi-cəhdlə döşlərinə döyüb ki, köhnə arxı təzələnsin. Ancaq ürək eləyib irəli duran olmayıb. Əvvəl-əvvəl Höcət Cahangirin özü də bu işə qol qoymurdu. Düzdür, könlündən keçirdi itib-batmış dəhnə bağlansın, köhnə arx daşdan-qayadan təmizlənsin. Cadar-cadar olmuş torpaqlara həmişəki kimi su gəlsin. Camaat boş sahələrdə bağ-bostan əksin. Ancaq kirişkələnirdi ki, bu işi boynuma götürüb,

sonra axıra çatdıra bilmərəm. Camaatın içində xar olaram. Ən əsas da onu fikirləşirdi ki, tutaq, canıma cəfa basıb arxı düzəltdim, qədir-qiymətimi kim biləcək?! - El üçün ağlayanın gözləri kor olar - deyiblər. Lüt Qasımın oğlu lovğa Səftər başıma cıqqa taxacaq?! Yeriyəndə yeli adam yıxır. Salam-kəlamı almağa da can çəkir. Sədr keçəndən sonra lap qudurub yolundan çıxıb, gözü ayağının altını görmür. Özünü də elə aparır ki, elə bil alçacıq dağları lüt Qasımın oğlu lovğa Səftər yaradıb. Guya dünya ala öküzün belində yox, elə lüt Qasımın oğlu lovğa Səftərin çiynində qərar tutub. Bir balaca tərpənsə, yer-göy lərzəyə gəlib bir-birinə qarışar. Şükür kəraminə, ilahi! İnsan vəzifə köhləninə minəndə necə qudurub cızığından çıxarmış! Günah lovğa Səftərdə yox ey, onun kimisini bu kəndə ağa qoyan dəyyuslardadı. Dibdə oturanlar qanıb başa düşmürlər ki, gədədən bəy olmaz, küllükdən təpə.

Höcət Cahangir il yarım bundan qabaq qəlbindəkiləri qapıbir qonşusu kar Bağıra demişdi. Kar Bağırın da ikilikdə ona cavabı belə olmuşdu:

- Qonşu, əvvəla, çox bilirsən, az danış. İkincisi də, gəl papağımızı əyri qoyaq, düz danışaq. Səftəri sədr seçəndə ona barmaq qaldırıb, çapan vuranlardan biri də sən özün dəyildin?! Əgər lovğa Səftərdən xoşun gəlmirdisə, elə oradaca - yox, - deyəydin. İndi iş-işdən keçəndən sonra dalda-bucaqda asıb-kəsməyin xeyri nədir?! Nahaq yerə danışıb özünü yorma. Daldan atılan daş topuğa dəyər. Bir də ki, yerin də qulağı var. Yaxşı-pis, düz-əyri, kəndin böyüyüdü. Ara qarışdıran, yaltaq-yultaq gədə-güdələrin biri dediklərinin üstünə beşini də artırıb aparıb qoyar ovcuna. Ondan sonra di gəl, ölünü qoy, dirini ağla. Nikolaya ağlın getməsin, bu, Şura hökumətidi. Öküzü





durğuzub altından buzov istəyirlər. Səftərin də rayonda barmağı girməyən yer yoxdur. Bu saat Səftər kimi nakəslərin meydanıdı. Alt-üst danışarsan, sənə bir qurğu qurarlar, əlli-ayaqlı gedərsən.

Qonşusundan bu sözləri eşidəndə Höcət Cahangiri od götürdü:

- Sən də saqqal tərpədib söz danışdın, - dedi. - Qoy bunun üstündə məni illaf assınlar. Bir gün yaranan, bir gün də ölməlidir. Yəni deyirsən, ikilikdə də dərdimi deyib ürəyimi boşaltmayım?! Tay səninki olmadı ki! Qorxaqlar iki dəfə ölürlər.

Höcət Cahangir bu cür sərt danışsa da, zəmanəni gözünün qabağına gətirib yumşalan kimi oldu:

- Bir tərəfə baxanda, səni də qınamıram, qonşu, - dedi. - Haqlısan. Ancaq dözə bilmirəm, içəridən oddanıram. Əə, qoyun qoyundu, onun qabağında gedən erkəc sürüdə seçilir. Çoban çobanlığıyla elə erkəc seçir ki, kənardan onun bazburutuna baxanda adam hayıl-mayıl olur. Əə, Bağır, neçə ilin qonşusuyuq, özümüz ağırlıqda duz-çörək kəsmişik. Bu çağacan məndən qəlp söz eşitmisən?

- Yox, Cahangir, adamın üstündə Allah var, eşitməmişəm. - Kar Bağır onun sözünü təsdiqlədi.

- Mən ölüm, heç görmüsən ki, sürünün başında bir qotur keçi gedə? - Höcət Cahangir daha da həyəcanlandı: - Zəmanəyə bax ki, Qalaça camaatı qoyundan da betər olub. Arvadının noxtasını yığa bilməyən biqeyrətin, binamusun birini gətirib dikəldiblər başımızın üstünə. Biz də onun hər sözünə əl çalırıq. Çalırıq deyəndə, çaldırırlar. Vallah, billah, lovğa Səftəri bu kəndə böyük qoyanda nə barmaq qaldırmışam, nə də canı-dildən çapan çalmışam. Düzü, onda istədim ayağa qalxıb o dibdən

gələnin abrını ətəyinə büküb, deyəm ki, balam, lüt Qasımın oğlu lovğa Səftərdən bizə başçı olar?! Yəni bu boyda kənddə yönlü bir başıpapaqlı tapılmadı ki, it dəftərində adı olmayan, qapısını qonaq-qara tanımayan, onun-bunun ağartısıyla dolanan lüt Qasımın ara-bərədə veyllənən, əlindən yönlü bir iş gəlməyən lovğa gədəsini gətirib çiynimizə çıxardırsan?! Nədi-nədi, rayon torpaq şöbəsində əl buyruqçusu işləyən ayağı sürüşkən bacısı var, adı da Gülpəridi-nə zibildi! Gülpəri də bir Gülpəri ola?!. Neçəsinə gedib-çıxmış, sırtıq-sürtüyün biri! Təpəsinin gülləsi əskikdi! Bir xoşqeyrət də əri var, o da rayondakılara mehtərlik eləyir. Onun-bunun yabısını tumarlayır. İndi də Gülpərinin xətri xoş olsun deyə, beş yüz evli Qalaça kəndini gətirib tapşırıblar biqeyrətin birinə. Gör nə zəmanəyə gəlib çıxmışıq ee?! Dərd birdi, ikidi?! İstədim açam sandığı, tökəm pambığı, özümü güclə saxladım. Yenə də dedim, lənət şeytana! Bir də ki, ay qonşu, desəydim, nə xeyri?! Kim idi mənim sözümü saya salan?! Ağzıma vurub oturdardılar yerimdə, olardım itdən düşmüş! Belə bir söz var - matahının ağzın açma, xiridar olmayan yerdə. Qızıl kimi sözdü! O yerdə ki, gördün sözün keçmir, gərək mumlayasan. Danışıb özünü yüngülsaqqal eləməyəsən. Ağır oturub batman gələsən. Ona görə də lüt Qasımın oğlunu sədr qoyanda, vallah-billah, nə barmaq qaldırmışam, nə də onun xeyrinə kəlmə kəsmişəm.

Höcət Cahangir bunları deyib, pencəyinin cibindəki ovulmuş tənbəkidən bir papiros büküb tüstülətdi. Və əlini bayaqdan bəri dərin fikrə gedən kar Bağırın çiyninə qoyaraq:

- Qonşu, azdan-çoxdan dünyagörmüş adamsan, düz





demirəmsə, vur məni öldür. Denən, Cahangir, filan sözü düz demədin. İncisəm, atama lənət.

Kar Bağır dillənmədi. Höcət Cahangir:

- Qonşu, - dedi, - belə bir söz var - dindirmə dəmirçini, dərd alıbdı içini. Ala öküzün işdəkləri yadıma düşəndə, az qalıram çarığını ayağımdan çıxardam. Belə-belə işdəkləri eşidib görəndə dərd məni götürür, dözə bilmirəm. A kişi, gözümüzün qabağında a-ynan t-nı bilməyən çoban Cəbrayılı yuxarılara deputat seçirlər, bizə də deyirlər, gəlin, ona səs verin. Balam, günü dağda-daşda keçən, adını yaza bilməyən çoban Cəbrayıldan deputat olar?! Özü də qırmızı hərflərlə yazıb, ora-bura yapışdırıblar ki, xalqımızın ən layiqli oğullarını deputat seçək! Deputat xalqın elçisidir! Ay özün öləsən! Gör bizi nə qədər xamlayıb, axmaq-anlamaz yerinə qoyurlar ee!!! Bağır, neçə ilin gor qonşusuyuq, mən ölüm, düzünü de, bizim bu Qalaça kəndində bir belə oğul evləndirən, qız köçürən olub, onun birində çoban Cəbrayılı adam yerinə qoyan olub? Çoban Cəbrayıl hansı xeyir-şərimizdə qabağa düşüb, ağsaqqallıq eləyib? Hansı qanı yatırdıb?! Hansı küsülünü barışdırıb?! Nədi-nədi, kənardan baxanlar desin ki, bu fəhlə-kəndli hökumətidi, çoban-çoluğu da saya salıb adam yerinə qoyurlar. Ə, vallah-billah, bunların hamısı oyundu, uşaq üzü əlləməkdi. Mən çobana lağ eləmirəm e! Çobançılıq mərd peşədi, əzablı işdi. Elə dədə-babamız da çoban olub. İnsafən, Cəbrayıl da mazarrat adam deyil. Sözümün canı odur ki, qoyunu qoyun ayağından asarlar, keçini keçi. Çoban hara, deputat hara?! Deputat yerin altını da bilməlidir, üstünü də. Millətə can yandırmalıdır, kəndə-kəsəyə gün ağlamalıdır. Bir də görürsən, rayondan tökülüb gəldilər ki, Stepan Fyodoroviç Yemelyanovu, nə bilim, İsa Piliyevi, Əmrullah Da-

daşovu, nə bilim, hardasa azıb-təzənin birini deputat seçməliyik. Onları tanıyıb, üzlərini görmüşəmsə, atama lənət! Əə, Stepanın üzünü görmüşəm ki, biləm-görəm, kimdi, nəçidi, nəkaraçıdı, hansı yuvanın quşudu?! Di gəl ki, cəllad kimi boynumuzun dalını kəsib məcbur eləyirlər ki, ona səs ver, deputat olsun. Mən ölü, sən diri. Belə fırıldaqçı, əlləm-qəlləm hökumətin axırı yoxdur. A kişi, dilini bilmədiyim, dilimi bilməyən, elimdən-obamdan olmayan, sabah bir dara düşəndə karıma gəlməyən adama hansı üzlə səs verim?! Səsimə səs verməyənə, necə səs verim?! Mərkəzdə oturanlar da nə Allahı tanıyırlar, nə də ki, peyğəmbəri. Özləri doğur, özləri bələyir, özləri də göbəyini kəsirlər. Ad da olur bizim. Deputatın nə vecinə! Seçilən kimi döşünə bir qırmızı nişan taxıb, ayda da duru yerindən filan qədər qatlayıb qoyur cibişdanına. Xətiri xətir, hörməti də hörmət. Seçənə də deyirlər, get öl, canın çıxsın. Kimdi bizi itirib-axtaran?! Deputat haçan gəlib çörək teknəmizə baxıb ki, görsün, boşdu, doludu, acam, yoxsa toxam?! Qonşu, bilmirsən ey, ürəyim partlayır, maa söysən də, düzünü deməliyəm. Bunların hamısı baş aldatmaqdır. Bizi də axmaq, anlamaz yerinə qoyub, ortalıqda meymun kimi oynadırlar. Ancaq belə getməz. Aşağıda yıxan varsa, yuxarıdan da baxan var. Bu cür dor-dolaşıq, əlləm-qəlləm işlərin axırı-aqibəti yoxdur. Ona görə də boynuma diri ilan salsalar da, Dəlmə arxına yaxın durmaram. Özümü oda-közə vurub, köhnə arxı qazıb-düzəldim, lüt Qasımın oğlu lovğa Səftər də orda-burda sinəsinə döyüb xoruzlansın ki, arxı mən çəkdirdim. Mənim sayəmdə boş torpaqlar sirab oldu. Əzab-əziyyətini mən çəkim, ad da onun olsun! Ay-hay!!! Yoox, qonşu, keçəl suya gedən deyil, məni o qədər də axmaq bilmə. Qalaça camaatının yolunda ölümə də gedərəm. Ancaq lüt Qasımın lovğa gədəsinin kəndiri ilə quyuya düşə bilmərəm. Təpənin altından keçən qaranlıq Dəlmədə başıma bir qəza gəldi, ondan sonra kimdi tifillərimə can yandırıb çörək verən?! Lovğa Səftər?! Yoox, qonşu, Dəlmə arxı mənnik dəyil.





O vaxtlar Dəlmə arxını qazıb təmizləmək məsələsi gələndə Höcət Cahangir daş atıb başını tuturdu. Ancaq sonradan-sonraya aradan nə keçdisə, Cahangir birdən-birə əvvəlki fikrindən döndü. Onu təzədən köhnə arxı təmizləməyə vadar eləyən bambaşqa səbəb vardı. Bu sirri bir özü bilirdi, bir də ki, divar qonşusu kar Bağır. Elə bil kişiyə hardansa vəhy gəlmişdi. Höcət Cahangir çönüb tamam bambaşqa adam olmuşdu.

* * *

...Ötən payız yarpaqların saralıb-tökülən vaxtı çəltik biçinindən qayıdanda qaranlıq düşmüşdü, itnən qurd güclə seçilirdi. Sarı madyan boğaz olduğundan Cahangir atı yedəyinə almışdı. Ehtiyat edirdi ki, madyanı minsə, gücə düşüb, qulun salar. Sarı madyanın yelinindən bilirdi ki, yetirhayetirdədir, bu gün-sabah doğmalıdır. Ona görə də Cahangir atı bərkə-boşa salmaq istəmirdi. Sarı madyana ocağın gözünə qoymaq üçün bir-iki qucaq quru çırpı yükləmişdi, vəssalam. İrəlidəki bulağa çatar-çatmaz onun qulağına qeybdən bir səs gəldi:

- Eheyy!! Zabıxlı tayfasından olan Höcət Cahangir!! Səninləyəm!! Qulağını aç, yaxşı-yaxşı eşit!! Agah ol dediklərimdən!! Nə qədər ki, canın suludu, ahıllıq başının üstünü almayıb, qolunda qüvvət, dizində taqət var, qədim arxa bir əncam çək!! O arxı Zabıxlı tayfasından olan babaların çəkib!! Unutma ki, Dəlmə arxına su gəl-

məsə, onların ruhu səni bağışlamaz. O dünyada yerin yoxdur! Olsa da, cəhənnəmliksən!!!

Cahangir ciyərli adamıydı. Ağzına güllə sıxsan, qorxub geri çəkilən deyildi. Ancaq qeybdən gələn bu səs onu üşəndirdi. Cahangirin başından papaq qalxdı. Bir-iki dəfə dodaqaltı - Bismillah! Bismillah! - deyib əlini üzünə çəkdi. Dayanıb dörd bir tərəfini vərəvürd elədi. Lakin gecənin dərinliyində güclə sezilən dağların, qayaların qaraltısından başqa heç nə görmədi. - Bəlkə məni qara basır?! - Öz-özünə düşündü. At yedəyində yolun yaxınlığındakı qumsallıqdan qaynayıb çıxan bulağa tərəf dolaylandı. Qəddini əyib çeşmənin gözündən bir-iki ovuc su götürüb üzünə vurdu və yenə də: - Bismillah! Bismillah! - deyib salavat çevirdi. Fikirli-fikirli dönüb atın sağrısına, qaşlarına tökülən yumşaq birçəyinə nəvazişlə əl gəzdirdi. Kənara çəkilib dərə aşağı-dərə yuxarı yalyamaclara, qayalıqlara lal-dinməz diqqət yetirdi. Hər yan qərib gecənin qara örpəyinə bürünmüşdü. İlahi, bu nə səs idi?!! - Öz-özünə düşündü. Onun başında dumanlı fikirlər dolaşdı: - Bəlkə məni xəlq eləyən gözəgörünməzin hənirtisidir?! Yoox, yəqin bu Zabıxlı tayfasından olan daşlaşmış, heykəlləşmiş babalarımın mənə vurduğu töhmət, tənədir! Onun dolaşığa düşmüş fikir kələfi yüz yerə çözələndi. Bu sehrli-sirli hənirti, susuzluqdan məhv olmuş bağların yerində tək-tük gözə dəyən köhnə kötüklərin naləsinə də bənzəyirdi. Cahangir kənarında dayandığı dupduru sərin çeşmənin pıçıltısında da özünə qarşı bir məzəmmət hiss edirdi. Elə bil onu əhatə edən dərətəpələr, dağlar, daşlar, kol-kos amansız bir qəzəblə Cahangirin üstünə hücum çəkirdi. Cahangir sanki qarmaqarışıq yuxular görürdü. Bu dar məqamda Cahangirə arxa durub, sahibinə həyan olan bircə sarı madyan idi. O,





heç nəyi vecinə almadan kövşən ətirli ılıq nəfəsilə höcət Cahangirin enli kürəyini, tərli sifətini canavarın güdazına gedən körpə balası kimi yalayırdı. Cahangir atın ona olan mehr-məhəbbətindən bir məmnunluq duyub, təsəlli tapır və özündə yüngüllük hiss edirdi. O, bir qədər dayanıb sağa-sola boylandı, ətrafına nəzər saldı. Lakin bulağın xəfif pıçıltısından başqa heç nə eşidilmirdi. Cahangir fikirli-fikirli atın yedəyini çəkib yoluna davam etdi. O, bir neçə ilahiyyat kitabı oxumuşdu. Gecənin xofu, ruhlar, ay, ulduz, günəş barədə az-çox bilirdi. Ona görə çox da vahimələnib təşviş keçirmirdi.

Cahangir məktəb, müəllim görməmişdi. Xırdalığında atası onu Molla Tağının yanına qoymuşdu. Molla Tağıya bir qısırəmən dişi dana vermişdi ki, Cahangirə şəriət dərsi öyrətsin. Demişdi ki, molla, bu uşağın əti sənin, sümüyü mənim. Tənbəllik eləsə, yaxşı oxumasa, salarsan şiv çubuğun altına. Qoy ərəbcə yazıb-oxumağı bilsin, şəriətdən başı çıxsın. Molla Tağı da ki, üzdə olan adam idi. Hamı onu ifallı, ağzı dualı mömin bilib, yolunu saxlayırdı. Artıq-əskik danışmaqla arası yox idi. Özünü kənddə ağır-ağayana aparır, yüz sözün birini danışırdı. Hamıdan da kefi kök dolanırdı. Beş yüz evli Qalaça kəndinin cəmi-cümlətanı bir mollası vardı. Qalaçadan başqa, ətraf kəndlərdə də dualıq işi olanlar Molla Tağıya üz tuturdu:

- Molla, qadan alım, bu gecə sağmal inəyim örüşdən qayıtmayıb, qalıb çöldə, ona bir qurdağzı bağla...

- Molla, gəlinimlə oğlumun arasında soyuqluq yaranıb, yola getmirlər. Bir mehr duası...

- Molla, utanmazlıq da eləyirəm, üzüm ayağının altına. Qızım üç il olar ərə gedib, di gəl ki, züryəti olmur. Əli qoynunda qalmışıq. Oxuduğun haqqı, qızımızın dər-

dindən kişinin də, mənim də yediyimiz-içdiyimiz zəhərzəqqutun olub. Kimə də ağız açıram, deyir, onunku mollalıqdır. Bu işə bir çarə...

Çal saqqalı, sallaq bığı, dolu sifəti, yastı-yapalaq burnu olan və həmişə sağ qulağına pambıq tıxayıb, başına qara fəs qoyan Molla Tağı da kim nə gətirsə, alıb dib otağa keçirir və onların möhübünü düzəldib, razı yola salırdı. Cahangir də evin bir küncündə dinməz-söyləməz mollanın tapşırdığı kitabları oxuyub əzbərləyir, yazı-pozuyla məşğul olurdu. Və hərdən də altdan-altdan mollanın yazdıqlarına göz qoyurdu.

Çiskinli bir gündə on bir uşağın anası Səkinənin qoluyox əri Nəsir dil-dodağı təpimiş özünü Molla Tağıya yetirərək:

- Molla, uşaqların anası əldən gedir, - dedi. - Dünyada o dava-dərman, türkəçarə qalmayıb, eləmiyək. Ancaq xeyri olmur. Deyirlər ki, onunku mollalıqdır. İndi əlac göydə Allaha, yerdə saa qalıb. Xəcalətindən çıxaram. Əl məndən, ətək səndən. Səkinəyə bir şəfa duası. Sağalsa, elə o on bir uşağın savabı saa bəsdi...

Qoluyox Nəsir kasıbların kasıbı idi. Kənddə itə də bir çörək borcluydu. Sol qolunu dirsəkdən aşağı erməni-müsəlman davasında itirmişdi. Şikəst canıynan nə qədər əlləşib-vuruşurdu, qazandığı uşaqların əyniynən qarnına ancaq çatırdı. Buna baxmayaraq, mollanın xasiyyətini bildiyindən onun yanına əliboş gəlməmişdi. Bir kəkilli fərə, iki girvənkə də nehrə yağı tapıb gətirmişdi. Fərə öz qapısından idi, yağı isə qonşudan nə minnətnən almışdı.

Molla:

- Min bərəkət, - deyib qoluyox Nəsirin gətirdiklərini alıb bir kənara qoyandan sonra, dizini qatlayıb belə bir dua yazdı:





Səkinə ha, Səkinə,
Çıxdı yalın dikinə.
Səkinənin ölməsi
Molla Tağının nə vecinə...

Cahangir ayaq üstə Molla Tağının boynunun ardında dayanıb hiss olunmadan onun yazdığını diqqətlə oxuyurdu. Molla qəddini düzəldib əlindəki kağızı səliqə-sahmanla, üçkünc qatlayıb şəstlə Nəsirə uzatdı:

- Apar, əl boyda nazik qara əskiyə büküb tikəndən sonra qoy xəstənin yastığının altına, - dedi. - Düzdü, beş-on gün gecikmisən, ancaq eybi yoxdu, Səkinə bacıya daşdan keçən bir dua yazmışam. Üççə günə sappasağ olub yorğan-döşəkdən qalxmasa, babalı mənim boynuma...

Qoluyox Nəsir:

- Molla, bu kəndin ümid yerisən, Allah-taala səni Qalaça camaatının üstündən əskik eləməsin, - dedi. - Sənə gələn qada-bala qapımdakı toyuq-cücələrə getsin.

Nəsir mağmın-mağmın mollanın qarşısında qəddini əyib, dil-ağız eləyə-eləyə qapıdan çıxdı. Molla Tağı onun arxasınca baxdıqca bic-bic dodağı qaçırdı. Cahangirin isə içəridən dişi bağırsağını kəsirdi.

Cahangir axşamçağı evə qayıdanda qaşqağabı yer süpürürdü. Çırtma vursan, qanı çıxmazdı. Atası onun dilxorluğunu hiss etsə də, üzünə vurmadı. Cahangir də ağzını açıb Molla Tağı barədə atasına bir kəlmə də olsun giley-güzar eləmədi. Əvvəla, Cahangirin onun-bunun barəsində yerli-yersiz danışmaqdan, bədxəbər olmaqdan xoşu gəlmirdi. İkincisi də, istəmirdi ki, Molla Tağının ədalarını açıb-ağardıb, atasının kefinə soğan doğrasın. Bir də fikirləşirdi ki, mollanın əməllərini dilə gətirsəm, nə xeyri var?! Əksinə, özüm pis adam olaram.

Qalaça camaatı məni daş-qalaq eləyər. Deyərlər ki, hamı mollanın qabağında baş əyir, amma ağzından süd iyi gələn dünənki gədə o boyda ağzı dualı mömin kişiyə şər-şəbədə qoşur. Qurandan don geyinsəm də, Qalaça əhlini inandıra bilmərəm ki, Molla Tağı tük üzü içəri adamdır və kasıb-kusubu ağılsız-anlamaz yerinə qoyub, onların başına cəvərən hörür. Həm də eşidib-bilən mənə töhmət-tənə vurub deyər ki, ustadına kəm baxanın gözlərinə qan damar.

Cahangir cavan olsa da, dönə-dönə ölçüb-biçib belə qərara gəldi ki, Molla Tağının işləklərini heç yerdə, heç kimə, doğma ata-anasına belə bildirməsin. Hamısını sinəsinin altında gizli saxlasın. Cahangir bir də özlüyündə düşünürdü ki, mollanın naqis əməllərini, xüsusilə də Səkinəyə dua əvəzinə yazdığı nalayiq həcvi orda-burda açıb danışsa, kəndin adını batırar. Qonum-qonşuda, el-obada eşidib-bilənlər deyər ki, bir kəndin ki, oruc tutub, namaz qılıb, dua oxuyanı Molla Tağı kimi fırıldaqçı ola, gör onun camaatı nə ağıldadır.

Cahangir çay içib çörək yeyəndə də, axşam yatanda da, bu dolaşıq fikirləri başından çıxara bilmirdi. O, səhər yerindən qalxıb, əl-üzünü yuyub, nahar eləyəndən sonra, yenə də həmişəki kimi Molla Tağıdan dərs almağa yollandı. İrəlidəki döngədən sağa burulub qənşərə çıxanda qulağına sızıltılı səslər gəldi. Dayanıb həmin səmtə baxdı. Qoluyox Nəsirin qapısına çoxlu adam toplaşmışdı. Sən demə, Səkinə sübhə yaxın keçinib. Eşidib-bilən, qonum-qonşu, qohum-əqrəba iki-bir, üç-bir hüzr yerinə axışırdı. Uzaq dağlardan Qalaçaya tərəf sürünən qara buludlar da hüznlü kimi görünür və sanki Səkinənin yas mərasiminə tələsirdi.

Cahangir mollanın həyətinə daxil olanda burnuna ləzzətli çığırtma iyi dəydi. Mərhum Səkinənin qoluyox əri Nəsirin gətirdiyi kəkilli fərənin çəpərin dibindəki kəsik başını, bir də ki, bərələn gözlərini gördü. Ocağın üstündəki balaca mis tavada fərənin əti tovlanırdı. Molla Tağı başında fəs, əlində uzun təsbeh dəhlizdəki taxtın üstündə, yanpörtü mütəkkəyə dirsəklənib, öz-özünə zümzümə edirdi. Cahangiri görəndə xoş əhval-ruhiyyə ilə:





- Gədə, sən keç dib otağa, dünən dediklərimi yaxşı-yaxşı əzbərlə, - dedi. - Bu gün sənnən məşğul olmağa vaxtım yoxdur. İndicə dalımca adam gəlmişdi. Məni hüzr yerinə çağırıblar. Camaat yolumu gözləyir. Nəsirə demişdim dəə, əfəl oğlu əfəl, iş-işdən keçəndən sonra gəlmişdi. Bir-iki gün qabaq olsaydı, yazdığım Səkinəni yorğan-döşəkdən qaldırardı.. Günah özlərindədir. Molla Tağı ölü dirildəndi?! Əzrayıl, xəstəni yazdığım duadan qabaq yaxalamışdı. Buna görə də kar kəsmiyib.

Molla - yas yerinə gedirəm - desə də, onun sifətində qəm-qüssə əlaməti yox idi. Və sanki toya hazırlaşırdı. Cahangir həmişə dərs öyrəndiyi balaca otağa keçib, dəftər-kitabını yır-yığış elədi. Və tez də geri döndü. Ustadı ilə sağollaşmadan, dinməz-söyləməz qapıdan çıxdı. Molla arxadan onu bir-iki dəfə çağırsa da, sözü cavabsız qaldı.

Cahangir o gündən sonra daha Molla Tağının həndəvərinə üzükmədi. Atası nə qədər dil tökdü, dost-tanışları dəlil-dələlət elədi, xeyri olmadı. Cahangir - yox!- deyib durdu. Fikrindən dönmədi ki, dönmədi.

...Cahangir yekəlib yekə kişi olandan sonra atası kimi dəhrədən, baltadan, beldən, oraqdan, külüngdən, düsərdən yapışdı. Atasına arxa oldu. Atası dünyasını dəyişəndən sonra ailənin bütün ağırlığı onun çiyninə düşdü. İşləməkdən əlləri qabar bağlamışdı.

* * *

Yovşan və gəvən kolları ilə örtülmüş ağ təpənin ətəyində nizamsız tikilmiş bir və ikimərtəbəli evləri olan Qalaça kəndi yeddi-səkkiz tayfadan ibarət idi. Qasımlılar, Bəyzadalar, Sarılar, Lahıclar, Qarabaşlılar... Cahangir Zabıxlı tayfasından idi. Bu tayfanın irəli duranlarından biri də elə onun özü idi. Vaxtilə Dəlmə arxını çəkənlər də Zabıxlılar olmuşdu. Ona görə də Cahangir itib-batmaqda olan bu arxı yenidən qazıb düzəltməyi qəlbində çox vurnuxdururdu. Lakin kolxoz məsələsi araya düşəndən fikri başqalaşmışdı. Bu işə girişmək istəmirdi. Buna baxmayaraq, Dəlmə arxını düzəltmək məsələsi onu əsla tərk etmirdi. Bu qədim arx Zabıxlı tayfasının adıyla bağlı olduğuna görə Cahangir yaxasını kənara çəkməyi namus-qeyrətinə sığışdırmırdı. Nə qədər çalışırdı, Dəlmə arxının qaydaya salınmasını beynindən çıxara bilmirdi. Ancaq onun mal-dövlətini əlindən alan kolxoza, kəndə sədr qoyulan lüt Qasımın oğlu lovğa Səftərə görə bu işə girişmək də istəmirdi. Həmin payız axşamı Cahangir işdən qayıdanda qeybdən gələn səslər onu çaşdırmışdı. Cahangir hələm-hələm qorxan, xoflanan adam deyildi. Molla Tağıdan dərs aldığı müddətdə çox şey öyrənmişdi. Bilirdi ki, ölüm Allah əmridir. İstər şah olsun, istər gəda. Bütün yarananlar əvvəl-axır bir gün getməlidir. Qarşısının alınması insanın imkanı xaricində olan hadisələrdən qorxub-çəkinmək ağılsızlıqdır. Ona görə də heç bir təlaş keçirmədən, sarı madyan da yedəyində sakit-sakit kəndə doğru gedirdi. Və fikirləşirdi ki, insan haqq dünyaya qovuşanda ruhu yaşayır. Yəqin elə gecənin dərinliyindən gələn səs-səda da Zabıxlı tayfasından olan babaların hənirtisidir. Qoyub getdikləri Dəlmə arxından su gəlmədiyi üçün onların ruhu





narahatdı və mənə qarşı üsyan eləyir. Kolxoz da beləbelə olsun, lüt Qasımın gədəsi də. Babaların ruhu xatirinə arxı qazıb düzəltməliyəm. Onda Allaha da xoş gedər, bəndəyə də. Qalaça camaatı Zabıxlının dünyadan gedənlərinə qəni-qəni rəhmət oxuyar. İnsan ki var, savab iş görmək üçün yaranıb. El-obanın təəssübünü gəldi-gedərlərin ayağına vermək olmaz.

Cahangir fikirli-fikirli kəndə çatıb evinə tərəf döndü. Arvadı Zöhrə onun hənirtisini alan kimi cəld içəri keçib həmişə ərinin əyləşdiyi taxtın üstünə döşəkçə atdı və dəhlizə çıxıb sarı mis samovara od saldı. Oğlu Sücəddin bayaqdan bəri oxuyub əzbərlədiyi kitabı kənara qoyub atasının əlindən atın yedəyini aldı və sarı madyanı tövləyə çəkdi. Qızı Növrəstə sacayağının üstündə buğlanan tavanı qarışdırdı. Cahangir üzünü tövlənin açıq qapısına tərəf tutaraq:

- Atı rahlayandan sonra Bağır əminə de ki, zəhmət olmasa, ayağını bəri qoysun. Onnan balaca söhbətim var, - deyib otağa keçdi.

Sücəddin tələm-tələsik atın axuruna otdan-ələfdən atıb tövlədən çıxdı və Bağırgilə tərəf götürüldü...

Cahangirlə Bağır dədə-babadan qonşuydular. Bu çağacan onların arasında heç bir incikli söz-söhbət olmamışdı. Arvad-uşaqları da bir-birinə qaynayıb qarışmışdı. İtləri də həvirləşmişdi, bir-birinə mırıldayıb boğuşmazdılar. Bu mehribançılıq ailə başçılarının arasındakı xətir-hörmətdən, xoş ünsiyyətdən yaranmışdı. Cahangirlə Bağır həmişə ot çalmağa, zəmi biçməyə, yer belləməyə, çəltik ləki bağlamağa bir gedib-gəlirdilər. Çayın qırağındakı dəyirmanı da kolxoza qədər bir işlədirdilər. Onların babaları dəyirmanın daşını öküz arabası ilə Qarabağdan nə zillətlə gətirmişdilər. Laçının yeddi qatında araba yol-

dan çıxıb aşdığından, daşın qırağı bir balaca çat vermişdi. Daşa dəmir qurşaq vurub birtəhər işlədirdilər. Təkcə Qalaça yox, ətrafdakı yeddi para kənd də bu dəyirmanda dən üyüdürdü. Dəyirmandan gələn qazanc da iki qonşu arasında qardaş malı kimi bölünürdü. İndi dəyirman onların əlindən çıxmışdı, kolxoz işlədirdi. Cahangirlə Bağır dəyirmandan gələn dəni yox, dərdi bölüşürdülər.

Bağır qonşusundan beş-on yaş böyük olduğundan Cahangir onu sayıb, yolunu saxlayırdı. Bir iş tutmaq istəyəndə əvvəlcə Bağıra gənəşirdi. Bağırın da Cahangirin yanında bir sözü iki olmazdı. Ancaq Bağır həmişəki adam deyildi. Yaşlı olduğundan əvvəlki kimi ağır işlərdə Cahangirlə ayaqlaşa bilmirdi. Heydən-hərəkətdən düşmüşdü. Hay-hayı getmişdi, vay-vayı qalmışdı. Kəndin qurtaracağındakı dərə yuxarı mer-meyvə bağlarına qarovul çəkib azdan-çoxdan qazanırdı. Onların hərəsinin vurtut bir oğul züryəti vardı. Onu da Allah-taala sonradan-sonraya vermişdi. Təsadüf elə gətirmişdi ki, oğlanların hər ikisi böyük çillənin axırıncı günündə, eyni saatda dünyaya gəlmişdi. Odur ki, adlarını bir-birinə yaraşdırıb qoymuşdular. Cahangirinkini Sücəddin, Bağırınkını da Tacəddin çağırırdılar. Ongünlüyündə Sücəddin, anası Zöhrə qəfildən xəstələnib yorğan-döşəyə düşdüyündən, süddən kəsilmişdi. Sücəddini qırxı çıxanacan Bağırın arvadı Qızyetər əmizdirmişdi. Ona görə də Tacəddinlə Sücəddinə süd qardaşı da deyirdilər. Sücəddinlə Tacəddin eyni sinifdə oxuyur, bir oturub-durur, məktəbə də qoşa gedib-gəlirdilər. Onların bircə yatıb-duracaqları ayrı idi.

Sücəddinin Bağırgilə gedib-qayıtması heç bircə dəqiqə çəkmədi. O, sərkərdəsindən aldığı əmri canla-başla yerinə yetirən intizamlı əsgər kimi müti görkəm alıb:





- Ata, Bağır əmiyə dedim. Qatıra yem verib gəlir, - dedi.

Sücəddinin ağzından söz qurtarmamış Bağır kişinin ayaq səsi eşidildi:

- Qonşu, yenə nə olub, gecənin bu dar vaxtı xeyirdimi? - deyib - Öhö! Öhö! - öskürdü.

Cahangir ayağa qalxıb onu qapının girəcəyində qarşıladı. Onlar xoş əhval-ruhiyyə ilə görüşüb çay-çörək qoyulmuş stolun arxasına keçdilər. Aranı dağa qatıb xeyli söhbətləşəndən sonra Cahangir mətləbə keçdi:

- Qonşu, - dedi, - bunu deməyim artıqdır, özün bilirsən ki, bu çağacan səndən gizli söhbətim olmayıb, nə addım atmışam, əvvəlcə saa demişəm. Bu Dəlmə arxı Zabıxlı tayfasına göz dağıdır. Bu barədə keçən dəfə də xeyli mübahisəmiz olub. Məni dara çəksələr də, ömür-billah bu işə qol qoymazdım. Özü də tərsliyimi yaxşı bilirsən. Ancaq nə qədər eləyirəm ki, bu kolxoza, bizim səfeh sədrə görə Dəlmə arxına yaxın durmayım, özümlə bacarmıram. Elə bil bizim bu Qalaçanın dağları da, daşları da dilə gəlib mənə deyir ki, Cahangir, eldən-obadan ayıbdır, təpərin olsun. O arxı düzəlt, quruyub tərk olmuş bağbağata, əkin-biçin yerlərinə su gəlsin. Yoxsa, ata-babaların ruhu səni bağışlamaz. İndi səndən nə gizlədim, Bağır, gecə yatanda da bu məsələ yuxumdan getmir. Çox götür-qoydan sonra fikrimi dəyişmişəm. Belə qərara gəlmişəm ki, bu işə girişim, Allaha pənah, axırı nə olar, olar. Kolxoza, lüt Qasımın oğlu lovğa Səftərə görə bu işdə geri çəkilməyi kişiliyimə, namus-qeyrətimə sığışdıra bilmirəm. Bizim bu Qalaça kəndində çoxları at oynadıb. Neçə-neçə pristavlar, örənniklər, kəntxudalar görmüşük. Dünən Nikolay hökumətiydi, bu gün də Şura gəlib. Sabah da nə olacaq, onu bir Allah bilir. Əbədi heç nə

yoxdur. Bu kolxoz da, onun başında duranlar da hamısı gəldi-gedərdir. Amma Qalaça kəndi yerindən tərpənən, dəyişən deyil. Yüz ildi, min ildi, öz yerindədir. Bir dılğır başçıya görə Dəlmə arxına əncam çəkməsəm, özüm özümü bağışlaya bilmərəm. Baş ağrısı olmasın, sözümün canı odur ki, indi ayrı fikrə düşmüşəm. Elə bu söhbətimizdən sonra ayağa qalxıb idarəyə getməliyəm. Lüt Qasımın oğlu da ki, yaxşı-pis, hər nədi, düz-əyri, gətirib başımıza böyük qoyublar. Belə bir söz var, bəy dediyin nədi, bəyənmədiyin nədi?! Onsuz da bütün Qalaça camaatı yaxşı bilir ki, bu, yönlü bir köpəyoğlu deyil. Amma neyləmək, əlac odur, hesablaşaq. Bu axşam onnan üzüzə, diz-dizə oturub, şərti-şumda kəsim, o, arx məsələsinə görə nə deyir? Çəkəcəyim zəhmətin müqabilində alacağım nədir. Sözü dağ eləyəndən sonra canım cəhənnəmə, günü sabahdan qolumu çırmayıb başlayım işə.

Bağır gülümsünərək:

- Qonşu, özün bilən yaxşıdır, - dedi. - Dünən ayrı hava çalırdın, bu gün də belə danışırsan. Xasiyyətin də elədi ki, ağlına bir şey yerləşdi, onu başından çıxarmaq çətindir. İndi ki, təzə fikrə düşmüsən, etirazım yoxdur, Allah xeyir versin! Atalar demişkən, rəhmət düzənə, lənət pozana. Allah-taala bəndələrini xeyirxah əməllər üçün xəlq eləyib. Yaxşı ki, arx məsələsində də mən deyənin üstünə gəlmisən. Yüz fikir bir borcu ödəmir. Düzdür, bir az ağır işdir, ancaq bircə ölümə çarə yoxdur. Hər şey insanın öz əlindədir. Özün dediyin kimi, bəri başdan sədrlə sözü dağ elə, sonra - Ya Əli! - de, başla işə. Dəlmə arxı düzəlsə, başımızın ucalığıdır. Bizdən sonra gələnlər ömrümüzə duaçı olar, bu dünyada izin qalar. Vaxt gələr, bu arxa elə Cahangir arxı da deyərlər. Tay bundan artıq deyiləsi sözüm yoxdur.





Onlar söhbətləşə-söhbətləşə çaylarını içib, çörəklərini yedikdən sonra: - Şükür kərəminə, ilahi, - deyib ayağa qalxdılar. Və həyətdə xudahafizləşib ayrıldılar.

Bağır qonşusundan bir neçə addım aralanandan sonra geri çönərək:

- Cahangir, - dedi, - ağlın o vaxtlara getməsin, indi başqa zamanadı, sədrlə söz güləşdirib köhnə palan içi tökmə.

Cahangir:

- Arxayın ol, Bağır, - deyib, tikan yüklü at-eşşəyin çətin keçdiyi əyri-üyrü dar döngələrlə aşağı enib, sola tərəf döndü. İçərisi və çölü səliqə ilə suvanıb əhənglə ağardılmış binanın yanından keçəndə ikinci mərtəbədəki pəncərənin qabağında pal-paltar ütüləyən rus dili müəlliməsi Natalya Sokolova onun gözünə sataşdı. Bu binanı vaxtilə Sultan adlı varlı-hallı bir kişi tikdirib. Sultan dünyasını dəyişəndən sonra yurdunda qalan fərsiz övladları dolanışıq dərdindən kəndi atıb hərəsi bir tərəfə baş alıb gedib. Sahibsiz qalan evə Sultanın uzaq qohumları həyan olurdu. Bina kənddəki orta məktəbə yaxın olduğundan hər il kənardan gələn müəllimlərə verilirdi. Özü də ev kirayəsi almadan, pulsuz-parasız. Rusiyadan xüsusi təyinatla göndərilən subay-salıq rus dili müəlliməsi Natalya Sokolova ikinci il idi bu mənzildə yaşayırdı. Binanın ikinci mərtəbəsindəki üç otaq onun ixtiyarına verilmişdi. Qalan otaqların qapısı qıfıllı idi. Natalya az vaxt ərzində kənd camaatına qaynayıb qarışmışdı. Tay ilk günlərdə olduğu kimi darıxıb sıxılmırdı. Və özünü el-obasındakı kimi hiss eləyirdi. Qərib olduğundan hamı ona hörmətlə yanaşır, qayğı göstərirdi. Yemək-içməkdən də korluğu yox idi. Qonum-qonşu düşəndə yağ-yavanlıqdan, düyüdən, toyuq-cücədən, təzə yumurtadan...

payını əsirgəmirdilər. Ona görə də Natalyanın aldığı maaş ona gen-bol çatır, hələ desən artırıb valideynlərinə də göndərirdi. Natalya camaatdan yerdən-göyəcən razı idi. Stavropolda həkim işləyən anası Valentina Sokolovaya göndərdiyi məktubların birində yazmışdı: "Əziz ana! O vaxt Azərbaycana göndərildiyimi eşidəndə axıtdığın göz yaşları xatirimdədir. Onda mənim özümün də necə iztirab keçirdiyimi təsəvvür etmək çətindir. Artıq bir ildən çoxdur ki, Azərbaycanın ən ucqar dağ kəndində işləyirəm. Buranın insanları necə qonaqpərvər, mərd, qayğıkeş, səmimidirlər, ilahi! İnstitutda mənimlə bir yerdə oxuyan və özümə yaxın bildiyim yerevanlı rəfiqəm Klara Arzumanyandan türklər barədə o qədər pis sözlər eşitmişdim ki, bu millətə nifrət edirdim. Lakin Qalaça camaatına yaxından bələd olandan sonra anlayıb başa düşdüm ki, buranın adamları barədəki fikrim tamam yanlışdır. Ana, bütün bunları yazmaqda məqsədim odur ki, qızından nigaran qalmayasan. Mən mehriban insanlar arasında yaşayıram. Dağların əhatəsində olan kəndin heyranedici axar-baxarı, təmiz havası, sərin bulaqları var. Hamı mənə öz doğmaları kimi baxır. Bu cür hörməti Stavropoldakı qohumlarımdan, dostlarımdan belə görməmişəm. Hesab et ki, hər an yanındayam və yanımdasan. Görüşəndə ətraflı danışarıq. Ana kimi sənə bir sirr də açım ki, burda ürəyimə yatan oğlan tapsam, onnan məmnuniyyətlə həyat qurardım (bunu elə-belə, səni güldürmək üçün yazdım)".

Natalya mavi gözləri, ağ və dolu sifəti, orta boyu, gülər üzü, xoş xasiyyəti olan cazibədar qız idi. Kənddəki cavanların çoxu Natalyadan ötrü sinov gedirdi. Ancaq onların qabağını kəsən o idi ki, Natalya





dar yubka geyinirdi. Saçlarını oğlansayağı kəsdirirdi. Qolu, döş-başı açıq gəzirdi. Yaşlı qadınlar da deyirdilər ki, ondan ev arvadı çıxmaz. Ancaq Natalyanın azərbaycanlı oğlanlardan xoşu gəlirdi. İrəli duran olsaydı, ona ərə gedərdi. Bu barədə fikrini oturub-durub, yaxınlıq etdiyi müəllimə həmkarlarına da demişdi. Orası da var ki, Natalya açıq-saçıq gəzib dolaşsa da, namusluydu, adını təmiz saxlayırdı. Hamı bilirdi ki, Natalyanı aldadıb yoldan çıxarmaq olmaz.

Bir dəfə lüt Qasımın oğlu lovğa Səftər vəzifəsinə güvənib Natalya müəlliməyə nə demişdisə, Natalya onun abrını alıb, ikiköpüklük eləmişdi. Odu-budu, təkcə lovğa Səftər yox, kəndin bütün cahıl-cuhulu Natalya müəlliməylə ehtiyatla davranırdı. Ancaq atalar demişkən, meşə çaqqalsız olmaz. Ara-bərədə veyl-veyl gəzən səfeh-süfeh gədə-güdələr ona yerli-yersiz söz atırdılar. Natalya isə onların heç birinə üz verib yaxın buraxmırdı. Natalya bilirdi ki, bura nə Moskvadır, nə də Stavropol. Kənd yerində hamı bir-birinə göz qoyur. İstər qadın olsun, istər kişi. Yerli camaatın oturuşunu-duruşunu bilməyən, gözü dağınıq, ayağı sürüşkən qız-gəlinlərdən xoşu gəlmir. Ona görə də Natalya adını qoruyurdu. Yeri gələndə, ona ilişmək istəyən ağzı yelli gədə-güdələrin cavabını verib oturdurdu yerində.

Cahangirin qulağı çalmışdı ki, çopur Qaytaranın əsgərlikdən yayınan, sənət məktəbindən yarımçıq qaçan bivec oğlu Mərdan axşamlar Natalyanın qaldığı evin qabağından əl çəkmir. Onun şit hərəkətləri Natalyanı bezdirmişdi. Dəfələrlə Mərdana ağır söz desə də, çopur Qaytaranın oğluna öhd olmurdu. Bu məsələni Cahangir də ucundan-qulağından eşitmişdi. Ona görə də bir girəvə axtarırdı ki, Mərdanı buralarda yaxalayıb ona ağıllı-başlı

qulaqburması versin. Həmişə də qərib qız kimi bir gözü Natalyanın üstündəydi. Bunu Natalya da bilirdi. Cahangir hər dəfə Natalya ilə üzləşəndə, bir ata kimi onun hal-əhvalını soruşur, - qızım, nə çətinliyin olsa, məndən gizlətmə haa - deyib onun könlünü alırdı. Cahangirin bu sözlərindən Natalya elə sevinirdi ki!. Bu axşam Cahangir onu pəncərənin qabağında paltar ütüləyən görəndə ağlına nə gəldisə, yan-yörəsinə göz gəzdirdi. Bir nəfər üzü Natalyaya tərəf, irəlidəki tut ağacının iri gövdəsinə söykənib papiros tüstülədirdi. Cahangir onu görən kimi dalağı sancdı. Fikirləşdi ki, yəqin yenə də Natalyanın dalına düşən o dəyyus gədədir. Cahangir bu mülahizə ilə tut ağacına tərəf yaxınlaşmaq istəyəndə, Mərdan onun gözündən yayınmaq üçün tez əlində tüstülənən papirosu kənara atıb, yan tərəfdəki divarın arxasına qısıldı. Cahangir onu görəndə hövsələdən çıxdı. Hirslənib cəld Mərdanın qabağını kəsdi. Çopur Qaytaranın oğlu Mərdan Cahangirin xasiyyətini yaxşı bilirdi. Bilirdi ki, alt-üst hərəkət eləsə, Cahangir onun iri tikəsini qulağı boyda eləyər. Odur ki, dili topuq vura-vura:

- Cahangir əmi, keçimiz itib. Elə bur-dan keçirdim...

Cahangir:

- Ə, qoduq oğlu, qoduq, - qəzəblə dilləndi. - Səni tanımıram?! - dedi. - Burda keçi axtarırsan?! Nə axtardığını yaxşı bilirəm! Ə, küçük, qeyrətin çatmadı əsgərliyə gedəsən, çağırışdan yayındın, iki il verib basdılar içəri! Sənət məktəbindən yarımçıq qaçdın! Birini də almışdın, oturmadı, ili tamam olmamış baş alıb getdi. Biqeyrət, hansını deyim?! İndi də bu rus qızını tovluyub bədbəxt eləmək istəyirsən?! İtil burdan! Bir də gözüm səni bu həndəvərdə görməsin! Dərin beş köpüyə dəyməz, bu kəndi dilə-dişə salıb biabır eləmək istəyirsən?! Kənardan eşidib-bilənlər desin ki, Qalaçada yönlü bir kişi tapılmadı ki, qərib qızı qanadına alıb yola versin!





Cahangir barmağını silkələyə-silkələyə:

- Gecənin bu dar vaxtı sənə əl bulamaq istəmirəm! - dedi. - Qulağını aç, yaxşı-yaxşı eşit! Bir də bu qızın böyür-başına üzüksən, ona güldən ağır söz desən, özündən küs! O bizi yaradan haqqı, səni elə günə salaram, dədən çopur Qaytaranın toyu yadına düşər! Əl-ayağım dəyməmiş itil burdan!! İtdən əmələ gələn!

Cahangir o ki var, dişinin dibindən qopanı deyib Mərdana tərəf tüpürdü və üzünü çevirib, idarəyə tərəf yoluna davam etdi. Mərdan isə asta qaçana imam qənim olsun deyib, arxasına baxmadan sivişib aradan çıxdı. Natalya isə çöldəki dava-dalaşdan xəbərsiz idi. Kömürlə qızdırdığı iri ütünü kənara qoyub, balaca yazı masasının üstündə kitabları vərəqləyir, nə isə yazıb-pozurdu.

* * *

Cahangirə qalsa, ömründə lüt Qasımın oğlu lovğa Səftər olan yerə ayaq basmazdı, onunla üz-üzə, göz-gözə gəlməzdi. Ancaq əlacı yoxuydu, getməliydi, sədrin kabinetinin qapısını ehtiyatla açmalıydı, Dəlmə arxından ötrü onunla dil tapmalıydı. Sözləri tutsa, o, bu işə razılıq verməliydi. Möhür-peçat da, ixtiyar da onun əlindəydi. Dəlmə arxı bir günlük, iki günlük iş deyildi. Bu arxı tamam-kamal başa gətirmək üçün beş ay, altı ay, bəlkə də çox, gecə-gündüz əlləşib-vuruşmalıydı. Bunun müqabilində bəri başdan alacağını bilməliydi. Bütün bunların hamısı Səftərin sidq-ürəkdən - hə, - deməsindən asılıydı.

Qabağında tut, ərik, gilas, qoz ağacları cərgələnən birmərtəbəli binanın bəri başında kolxoz idarəsi, sonra kənd kitabxanası, həkim məntəqəsi və taxıl anbarı yerlə-

şirdi. Bircə sədrlə hesabdarın oturduğu otaqların pəncərəsindən işıq gəlirdi. Briqadirlər, ferma müdirləri və başqa iş adamları idarədən tapşırıq alandan sonra çəkilib getmişdilər. Kənarda dayanan gözətçi həyətində əkibbecərdiyi qara tənbəkidən bükdüyü papirosunu tüstülədə-tüstülədə: - mən yerimdəyəm, ayıq-sayığam, hər şeyə göz qoyuram, - demək mənasında tez-tez öskürüb, içəridə əyləşən idarə başçılarına sədaqətini nümayiş etdirirdi. Cahangir ağır addımlarla gözətçinin yanından keçib sədrin kabinetinə yaxınlaşdı. Qapını açıb:

- Olar? - deyib, icazə aldıqdan sonra içəri daxil oldu.

Sədr ayaq üstə dayanıb indicə bağladığı dəmir seyfin açarlarını əlində cingildədə-cingildədə evə hazırlaşırdı. Cahangiri görəndə üzərinə qırmızı parça çəkilmiş stolun arxasında əyləşdi və qarşısında dayanan adama oturmaq üçün yer göstərdi. Səftər gözlərini qıyıb təəccüblü, bir qədər də təkəbbürlü baxışları ilə Cahangiri süzərək:

- Sən hələm-hələm buralara gələn deyilsən, - dedi.- Gecənin bu vaxtı xeyir ola?! Bizi yada salmaqda, görəsən, gün hardan doğub?!

- Əvvəla, şərə lənət, gəlməyim xeyrədir. Gün də ki, elə həmişə gördüyün yerdən doğur, yerdəki insanlar kimi işi bir balaca düz gətirəndə yerişini-duruşunu, danışığını, rəngini dəyişib sifətdən-sifətə düşmür. - Cahangir dəyintili sözləri ilə müsahibini bir balaca sancdı. Sədr onun qırımını görüb, əyləşdiyi stulda özünü düzəltdi və səsinin ahəngini dəyişib mülayim tərzdə:

- Gərək bura tez-tez gələsən, Cahangir kişi, - dedi. - İclasda-zadda gözümə az-az dəyirsən. Sənin kimi görübgötürmüş ağsaqqalların məsləhətinə ehtiyacımız var.

Cahangir yaxşı başa düşürdü ki, bu sözlər boğazdan yuxarı gəlir. Lovğa Səftər gədənin biridir. Onun Cahangir kimi bütöv adamlardan xoşu gələ bilməz. Ancaq özünü elə göstərdi ki, guya lovğa Səftərin Cahangir barəsində dediyi xoş sözlərin səmimi olduğuna və ürəkdən gəldiyinə inanır. Odur ki, başının hərəkətilə sədrə razılığını bildirib, səbr və təmkinlə:





- İstəyirəm, şeytanın qıçını qırıb, çətin olsa da, o Dəlmə arxını düzəldim, - dedi. - Ona görə də gəldim görüm, bu barədə sənin fikrin nədir?!

Lovğa Səftərin baxışları duruldu:

- Yaxşı işə nə deyə bilərəm, kor nə istər, iki göz, biri əyri, biri düz. İndiyəcən haçan asqırdın ki, mən də - Allah, şükür! - deyim. Ancaq orası var ki, ağır işdir. Əlalxüsus da, o təpənin altından keçən lağımı təmizləmək müşkül məsələdir. Qanmaz vaxtımda bir dəfə yoldaşlarım məni tovlayıb, o Dəlmədən iməkləyə-iməkləyə keçmişəm. Onda iki-üç gün özümə gələ bilmədim. Ovcumun içi, dizlərimin kasası qabar olmuşdu. Gecələr sızıltısından yata bilmirdim. Bu işi axıra çatdıra bilsən, içi mən qarışıq hamı saa - sağ ol! - deyər. Tapşıraram, zəhmət haqqını birə-ikiqat artıqlamasınca hesablayarlar. Ancaq bəri başdan deyirəm, qədim arxı təzədən qazıb düzəltmək sənə halva gəlməsin. Arxı düzəltmək üçün çox adam döşünə döyüb, ancaq təpənin altından keçən lağımın təmizlənib açılmasına gələndə geri çəkiliblər. Sənin gözün yeyirsə, ayrı məsələ.

Cahangir sədri axıra qədər dinlədikdən sonra:

- Səftər, yüyürən yıxıldığına baxmaz, - dedi. - Dediklərinin hamısını ölçüb-biçmişəm. Sən - hə - de, zəhmət haqqımı da bəri başdan bilim, qalanı ilə işin olmasın. Dəlmənin açılıb-açılmaması mənnikdir. Allaha pənah, nə olar, olar! Hər şey alın yazısıdır! Yazıya da pozu yoxdur. Əgər ömrüm Dəlmədə tamam olacaqsa,

deməli, əcəlim oracandır. Başıma bir qəza-qədər gəlsə, hamı deyər, Cahangir elinin-obasının yolunda getdi. O cür ölüm şərəfdir. Bir də ki, arxayın ol, canım bərkdir. Nə qədər qolumda qüvvət, dizimdə taqət var, Əzrayıl mənə səmt düşməz. Qorxum Allahdandır. Allah da mənim tərəfimdədir. Çünki elə bəd əməl işlətməmişəm ki, Yaradanın qəzəbinə gəlim. İndi sən xeyir-dua ver, mən sabahdan - Allah, Məhəmməd, ya Əli! - deyib başlayım işə.

Lovğa Səftər Cahangiri dinlədikcə qəlbində bir-birinə zidd olan iki fikir baş qaldırmışdı. Birincisi, Səftər onun dəyanətinə qibtə eləyirdi və özü kimi sədrdənsə, Cahangir kimi mötəbər kişi olmaq istərdi. İkincisi də, düşünürdü ki, Cahangir elə o Dəlmə arxında gəbərib rədd olsaydı, qulağım dincələrdi. Çünki belələrinin olmasındansa, olmaması yaxşıdır. Cahangir kimilərinin əlindən kənddə əl-qol açmaq olmur.

Onların söz-söhbəti çox çəkmədi. Cahangir onu sıxan darıxdırıcı kabinetdən çıxmağa tələsirdi. Sədr də belə bir ağır təbiətli, zəhmli adamla üz-üzə dayananda özünü sərbəst hiss eləmirdi. Odur ki, Dəlmə arxı barədə sözü dağ eləyib xoşluqla ayrıldılar.

Əslinə qalsa, Səftərin Cahangirə elə bir pisliyi keçməmişdi. Səftərin rayon mərkəzində işləyən sülək bacısının və böyüklərin atını tumarlamaqdan başqa əlindən yönlü bir şey gəlməyən yeznəsinin hesabına Qalaça kimi kəndə böyüklük eləməsi Cahangirə ağır gəlirdi. Atası lüt Qasım da kənddə nə ölüyə hay verirdi, nə də diriyə pay. Qapısında dörd ayaqlıdan bir pişiyi də yoxudu. Ona görə də camaat arasında ona lüt Qasım deyirdilər. Oğlu Səftər də dinəndə elə danışırdı ki, ağzına çullu dovşan yerləşmirdi. İddiası da yerə-göyə sığmırdı və sanki Qalaçanı





əhatə edən alçacıq dağları elə lovğa Səftər yaradıb. Hamı da bilirdi, ondan bu kəndə bir gün ağlayan olmaz. Ona-buna buynuz göstərə-göstərə kolxozun köhlən atına minib, camaatın nə zillətlə qazandığından gen-bol istifadə edib, kefini sürəcək. Altda qalanın da canı çıxsın. Cahangirə də yer eləyən hökumətin bu cür əyri-üyrü, dor-dolaşıq işləriydi. Cahangir bir də düşünürdü ki, əgər Qalaçanın böyüyü lüt Qasımın oğlu lovğa Səftər, mömini də Molla Tağıdırsa, deməli, kənd Allah-taalanın qəzəbinə keçib. Ancaq Cahangir birtəhər dözürdü və ürəyində buna şükür eləyirdi. Fikirləşirdi ki, bundan da betəri ola bilər. Rəvayətə görə, haçansa daşqın selin atıb tutduğu quru kəllə - Allah, bundan betərindən saxla! Allah, bundan betərindən saxla! - deyib haray çəkirmiş. Kənardan baxanlar gülür və bir-birinə deyir: - Quru kəlləyə bundan betər nə ola bilər? Bu heyndə azğın sel kəlləni irəlidəki daşa çırpıb çilik-çilik eləyir. Baxanlar anlayıb başa düşür ki, kəllə nə üçün - Allah, bundan betərindən saxla! - deyib haray çəkirmiş. Cahangirin Molla Tağıdan zəhləsi getsə də, onun yanında çox şey öyrənmişdi. Bilirdi ki, insan gərək səbrli olsun, üz verən qəzavü-qədərə tab gətirsin. Naşükürlük eləməsin. Çünki bundan betəri də ola bilər. Cahangir bütün bunları dərrakəsinin aynasında gözünün qabağına gətirib təsəlli tapırdı. Və öz-özünə deyirdi ki, çox da dərinə getmə, Cahangir, Allahın işinə qarışmaq olmaz. Hər yoxuşun bir enişi, hər gecənin bir gündüzü var. Sən öz işində-gücündə ol! Ata-babaların çəkdiyi qədim arxı düzəlt, susuz qalmış torpaqlar sirab olsun, quru çöllər cana gəlsin, kəndin xeyir-bərəkəti aşıb-daşsın. Sağlığında ömrünə dua oxusunlar, dünyadan köçəndə rəhmət desinlər.

* * *

Qış ömrünü başa vurmuşdu. Yazın nəfəsi duyulurdu. Cahangir idarədən çıxanda, işdən-gücdən yorğun-arğın qayıdan əkin-biçin, bağ-bağat adamlarının çoxu axşamdan yorğanlarını başlarına çəkib yatmışdılar. Kəndin tərtəmiz səmasından asılan ay qaranlığın zülmətini dağıdıb yer-yurdu işıqlandırmışdı. Nizamsız tikilmiş bir və ikimərtəbəli evlərin arasından keçən darısqal küçələrdə qonşudan-qonşuya gedib-gələn tək-tük adam nəzərə çarpırdı. Kəndin ayağından axan çaylağın qıjıltısı yuxarı dağlarda qarın əridiyindən, sel-suların aşıb-daşdığından xəbər verirdi. Ucqar həyətlərdəki itlər ətrafdakı cəngəlliklərdən gələn tülkü vaqqıltısını eşitdikcə özlərini yeyib-tökür və yorulmaq bilmədən ağız-ağıza verib hürüşürdülər. Kəndin yuxarısındakı daş kahalardan ferma işçilərinin qarmaqarışıq səsi gəlirdi. Cahangir alışdığı bu səsləri dinlədikcə intizarı dərinləşir, qəlbində müxtəlif hisslər baş qaldırırdı.

Cahangir ötən payız qaratikandan səliqə ilə bağladığı ağır yolağanı qaldırıb həyətinə daxil olanda, arvadı Zöhrə dalda bir küncdə zəncirlənmiş Qarabaşa yal isidirdi. Sücəddin dəhlizin sütununa söykənib anası eymənməsin deyə ona qaraltı eləyir, həm də atasının gəlməsini gözləyirdi. Cahangir fikirli-fikirli mərəyin qabağında ayaq saxlayıb oğluna ağızucu:

- O fənəri yandır, gətir, - dedi. - Heyvanların qabağına otdan-ələfdən ataq. Uzun gecədir, səhərəcən ac qalmasınlar. Yaz ağzı heyvan üzünük olur. Doğanda heç olmasa balasını ovuda bilsin.

Sücəddin geri dönüb dəhlizin divarındakı uzun mismardan asılmış neft fənərini yandırıb mərəyin qabağına tutdu. Cahangir yayda biçib-qurudub mərəyə doldurduğu yumşaq otdan bir-iki bağlama götürüb tövləyə tərəf yönəldi. Sücəddin əlində fənər atasının yanına düşüb onun yoluna işıq tuturdu. Sarı madyan sahibinin hənirtisini alanda ürəkləndi. Sevinirmiş kimi qulaqlarını şəkləyib fınxırdı, vəcdlə kırıldadı. Cahangir əlini atın yal-birçəyində gəzdirib, sürüşüb qarnının altına düşən çulunu çəkib düzəltdi. Sonra gətirdiyi otun yarısını sarı madyanın qabağına qoydu. Kəskin peyin iyi gələn isti tövlənin qaranlıq küncündə gözləri işım-işım işıldayan boğaz heyvanların da axuruna bir-iki çəngə ot atdı. Və tələsmədən tövlə işlərini görüb, mal-heyvanı yerbəyer eləyib arxayın düşdükdən sonra başının hərəkəti ilə Sücəddinə:

- Gedək, - dedi.

Ata-oğul hisdən qaralmış fənərin zəif, sarımtıl işığında tövlədən çıxıb qapını bağladılar. Sücəddin fənərin balaca çat vermiş şüşəsini yuxarı qaldırıb, yanmaqda olan piltəni ehmalca üfürüb söndürdü və bayaqkı yerindən asdı.

Cahangir evin yuxarı başına keçib taxtın üstündə əyləşdi. Zöhrə əl-ayağa düşüb ona çay hazırlamaq istəyəndə Cahangir sakitcə:

- Gecdir, - dedi. - Gecənin bu vaxtı çay nədir? Yerimi sal, sabah tezdən durmalıyam. Elə siz də yıxılın yatın. Sücəddinin dərsi var. Görürəm, sən də yorğunsan. Səhər tezdən inəyi sağıb naxıra qoşandan sonra yüngülvari çay-çörək hazırlayarsan. Günorta yeməyimi də Sücəddin dərsdən sonra gətirər...

Zöhrə ərinin sözünü çevirmədi. Bu evdə Cahangirin bir sözü iki olmayıb. Düz-əyri, onun dediyi qanundur. Bir də ki, nə Zöhrə, nə də ki, Sücəddin o ədəbin sahibi deyildilər ki, böyüyün cavabını qaytarsınlar və ya onun üzünə ağ olsunlar.

Cahangirlə Zöhrə iyirmi ildən çoxudu bir yastığa baş qoyurdular. Bir dəfə ürək qızdırdığı yaxın dostu zarafata salıb Cahangirdən soruşur:

- Yaşından on-on beş il cavan görünürsən, bunun sirri nədir? De, biz də bilək.

Cahangir gülür və:

- Onu arvad bilər, - deyə cavab verir və: - Kişinin vaxtından tez qocalmasının və ya cavan qalmasının əsas şərti arvadın cinsindən asılıdır, - əlavə edir.

Bu çağacan Cahangirlə Zöhrə arasında incikli, xoşagəlməz söz-söhbət olmamışdı. Zöhrə sadə, abırlı-həyalı, özünün, sözünün yerini bilən qadındı. Evdarlığı da ki, öz yerində. İynə-sapdan tutmuş, xalı-xalça toxumağa, cəhrə bulamağa, yorğan-döşək salmağacan əlindən hər iş gəlirdi. Cahangirin özü Zöhrəni sevib-seçib almışdı. O vaxt böyür-başdan Cahangirə neçə-neçə gözəl-göyçək qızı isnad vermişdilər. Hamısı da adlı-sanlı, varlı-hallı yerdən. Ancaq Zöhrə kasıb ailədən olmasına baxmayaraq, Cahangir onu gözaltı eləmişdi və demişdi ki, əvvəla, gözəllik ədəbdir, gül camal deyil. İkincisi də, gözəllik müvəqqəti, mal-dövlət də ki, gəldi-gedərdi. Ağıl-kamal, ədəb insanla qəbir evinə qədər gedir. Qıraqdan-bucaqdan Zöhrənin də qulağına pıçıldayanlar olmuşdu ki, ağlını başına top elə, höcət Cahangirlə səninki tutmaz. Qaraqabaq, özünü yuxarı tutanı neynirsən?! Üz-gözündən də zəhrimar yağır. Onun güldüyünü görən olmayıb. İkicə ayın içində səni çərlədər. İstəyirsən həmişə təpən yumruqlu olsun, get. Heyləsindən yönlü bir ər çıxmaz. Zöhrə də nə cavab versə yaxşıdır?! - Maa elə o cür zabıtalısı lazımdı, arvadağız kişini neynirəm.

Bu iki sevib-sevilən bir tərəfə oldu, onların qohum-əqrəbası bir tərəfə. Axır ki, Cahangirlə Zöhrənin sözləri





yeridi... Toyları olan gündən üzü bəri baş-başa verib mehribanca dolanırdılar. Olub-qalan da bircə oğul züryətləri varıydı. Zöhrənin Sücəddinə qədər altı uşağı olmuşdu. Ancaq heç biri qalmamışdı. Həftəsi tamam olmamış hamısı dünyasını dəyişmişdi. Deyirdilər ki, hamısı "büzmə" xəstəliyindəndir. Ondan da baş çıxaran yoxudu. Sücəddini də verməkdə, yəqin Allahın Cahangirlə Zöhrəyə yazığı gəlmişdi. Sücəddinin ayağı yüngül oldu. Ondan sonra Zöhrənin bir qız züryəti də dünyaya gəldi. Adını da Növrəstə qoydular. Zöhrənin gecə-gündüz ağzı göydəydi. Allaha yalvarırdı ki, bu bir cüt bacı-qardaşı onlara çox görməsin. Sücəddin də ki, maşallah, boylu-buxunlu, ağıllı-başlı oğlan olmuşdu. Dərslərini də yaxşı oxuyurdu. Müəllimləri həmişə Sücəddindən razılıq eləyirdilər. Sücəddin yaxşı oxumaqdan əlavə, ürəkli uşaq idi, heç nədən qorxub çəkinən deyildi. Ona gecə də, gündüz də bir idi. Tay-tuşlarının heç biri Sücəddinin qolunu bura bilməzdi. Özündən dörd-beş yaş böyüklərin kürəyini yerə vururdu. Ancaq heç vaxt lovğalanıb, gücünü ona-buna göstərməzdi. Atasından da bərk çəkinirdi. Anasından ötrü də ölürdü. Kənddə deyirdilər ki, Sücəddin kimi anasını çox istəyən olmaz. Sücəddinin anasının qabağında özünü qolu bağlı qul kimi aparmasına qonum-qonşu qibtə eləyirdi. Bu barədə Cahangirlə Zöhrəyə bəxtəvərlik verənlər də az olmurdu. Deyirdilər ki, bizimkiləri burdan ora buyurmaq olmur. Xalxınkı birdir, amma pirdir.

Di gəl ki, arvad sarıdan Bağırınkı gətirməmişdi. Bağır cavanlığında evlənmək fikrinə düşəndə ata-anası demişdi ki, ay oğul, elini hürküt, axsağını tut. Kənddə nə çoxdu gözəl-göyçək qız. Kiminkini deyirsən, qabağa düşək alaq. Yaxşı deyiblər ki, qonşu qızı gəmirçəkli olar.

Bağır Qalaçada heç kimi bəyənmədi. Başqa kənddən özündən on yaş kiçik olan Qızyetər adlı birini tovlayıb qaçırdı. İlk günlər Qızyetər ər evində özünü quzu kimi aparırdı. Elə ki, bir-ikisini doğub yerini bərkitdi, oldu əfi ilan. Dilinə dil çatdırmaq olmurdu. O xasiyyətinə görə Bağır neçə dəfə onu təpəqapaz eləmişdi. Ancaq Qızyetərə öhd olmurdu. Bildiyi biləsindəydi. Qızlarının ikisi uzaq yerə ərə getmişdi, illərlə üzlərini görmürdü. O iki qızın yadına nə Qızyetər düşürdü, nə də ki, Bağır. Ata-analarına Allahın o quru kağızını da yazmırdılar. Evdə qalanı Minayə idi. Minayə də ki, gözəgəlimli qız idi. Özü də xasiyyətdə anasına çəkmişdi. Hamı deyirdi ki, Minayə ilə Qızyetərin xəmiri bir yoğrulub.

Bağır ağır-ağayana kişi idi. Qızyetərin nöqsanlarını çox vaxt üzə vurmurdu. Birtəhər yola verirdi. Özlüyündə fikirləşirdi ki, boşasam, el məni qınayar. Həm də düşünürdü ki, dörd uşağın anasını boşuyum getsin, bir başqasının ocağını qalasın. Onda eşidib-bilən mənə nə deyər?! Neçə il bir yastığa baş qoymuşuq. Bir də ki, dili xarab olsa da, əyri yola gedib, papağımı yerə soxan qadın deyil. O barədə kişi kimi xasiyyəti var. Odur ki, Bağır Qızyetərlə birtəhər dil tapıb dolanırdı. Ancaq kişi altdan-altdan dərd çəkirdi. Qonum-qonşu arasında danışırdılar ki, pis arvadın üzü qara olsun. Bağırın başını ağardıb, xəstə salan Qızyetərdi. Tacəddin yekələndən sonra anası xeyli yumşalmışdı. Həmişəki kimi fironluq eləyib, Bağırın baş-beynini aparmırdı. Tacəddin madar olduğundan, Qızyetər ondan keçib əvvəlki kimi evə tez-tez qanqaraçılıq salmırdı, yerli-yersiz danışıb, ərini əsəbiləşdirib təbdən çıxarmırdı. Tacəddinin çox xasiyyəti atasına oxşayırdı. Anasını da atasından az istəmirdi. Ərsəyə yetəndən bəri valideynlərinin arasında xırda-xuruş söhbətlər azalmışdı.





Bağırdan sonra evin yeganə başıpapaqlısı Tacəddin idi. Ona görə də ata-anası onun üstündə nanə yarpağı kimi əsirdi. Axşam evə gec gələndə və ya yanından balaca yel ötəndə, ər-arvad gedib o dünyanı görüb gəlirdilər.

* * *

Həmin axşam ilan vuran yatdı, Cahangir yatmadı. Elə bil yerinə qor dolmuşdu. Onu qayğı götürmüşdü. Başında cürbəcür fikirlər dolaşırdı. Sübhə yaxın bir balaca yuxuya getmişdi ki, onda da naxırçıların səs-küyü qoymadı. Gözünün acısını əməlli-başlı almamış yerindən qalxıb sarı madyanı palanlayıb tövlədən çıxartdı və yolağanın ağzında - Ya Əli! - deyib, atın belinə qalxdı.

Axşam idarədən qayıdanda ulduz-ulduzu çağırırdı. Gecə yarıdan keçəndən sonra kəndin qənşərindəki dağları boz duman bürümüşdü. Dərələrə çökən çən yavaş-yavaş sürünüb yuxarılara çəkildikcə ətrafdakı təpələr, bağ-bağat aydınca görünürdü. Şeh düşmüş mamırlı qayalardan damcı-damcı su süzülürdü. Səhərin açılmasından vəcdə gələn quşlar sevinclə ağacdan-ağaca, daşdan-daşa qonub civildəşirdilər. Güneylərin qarı çoxdan əriyib yox olmuşdu. Yazın gəlişini səbirsizliklə gözləyən çiçəklər nəm torpaqdan baş qaldırıb əlvan rəngləri ilə yamacları zinətləndirirdilər. Üz-üzə dayanan qayaların gündəyən yerlərində bitən alça ağaclarının ağ çiçəkləri buradan ötən iş adamlarına səxavətlə xoş ovqat bəxş edirdi. Cahangir isə öz aləmindəydi. Bu gün ilk addımda işə haradan, necə başlayacağı barədə düşünürdü və görəcəyi işi qəlbində vurnuxdururdu. Arxın dərədən keçən hissəsini sel-su yuyub aparmışdı. Buranı təzədən torpaqla doldurmağın əhəmiyyəti yoxuydu. Sel ki gəldi, həmən-həməndi, arxı uçurmalıydı. Ona görə də Cahangir belə

qərara gəldi ki, on-on beş metr enində olan dərənin dar yerində, hər iki tərəfdə möhkəm bünövrə töküb, adam boyda divar hörsün və üstündən nov atsın. Ondan sonra nə qədər sel gəlir-gəlsin, qorxusu yoxdu. Dəmir boru olsaydı, nə dərdiydi, Cahangir özünü əzab-əziyyətə salmazdı. İndi gərək dəyirmanın novu kimi yoğun ağac kəsib, içini oyasan ki, arxı birləşdirə biləsən. Ona görə Cahangir arxın nisbətən asan yerlərini cəmi bir neçə həftəyə qazıb düzəltdi. Dərənin içinə çatan günün səhərisi atı birbaşa meşəyə sürdü. O, çayın üstündəki daş körpüdən adlayıb meşəyə gedən sərt yoxuşu qalxmağa başladı. Sarı madyanın yançaqlarından köpüklü tər axırdı. Cahangir daşların arasından keçən dar cığırlarda atdan düşüb, sarı madyanı yedəyinə aldı. Meşənin dərinliklərinə doğru irəliləsəydi, uzağa düşərdi, axı, bunun qayıtmağı da vardı. Ona görə də meşənin ətəklərindəki ağacları nəzərdən keçirməyə başladı. Alabəzək qanadları olan Zığ-zığlar Cahangiri görən kimi ağacdan-ağaca qonub cır səslə haray-həşir salır və sanki meşədə əli baltalı peyda olduğunu həyəcanla car çəkirdilər. Cahangir meşəbəyinin gözündən iraq bir yerdə dümdüz qalxan yoğun palıd ağacı ilə rastlaşdı. Axtardığını tapmışdı, əsl onun qəlbində tutduğu ağac idi. O, sarı madyanı bir kənarda bağlayıb, üstündəki dəhrəni, baltanı götürdü. Palıd elə bil canlı məxluq kimi kəsiləcəyini duymuşdu. Ona görə də qol-qanadını tərpətmədən mat-məəttəl dayanıb, ömrünün son anlarını gözləyirdi. Cahangir təzəcə ovxarlanmış baltanın ağzını yoxlayanda palıd əsdi, silkələndi. Nəslini yaşatmaq üçün ötən payızdan üstündə quruyub qalan qozalarını ətrafına səpələdi. Bəlkə də palıd gətirdiyi qozalara vəsiyyət edib demək istəyirdi ki, artıq mənim sonum çatıb. Cahangirin əlindəki baltanın ağzından





çətin ki, qurtarım, barı, siz cücərin, kök atın, torpaqdan baş qaldırın, uca, qamətli ağac olun. Məni əvəz edin ki, nəslimiz kəsilməsin. Dünyanın işi belədi. İstər canlı olsun, istər cansız, bütün yarananlar bir gün getməlidir. Mənimki də buracanmış. Böyümüşəm, boy atmışam, başım göylərə dəyir, yüz ildi bu yerlərə kölgə salıram, saf ab-hava yayıram, sərinlik gətirirəm. Bu yaz axırım çatıb. Əlvida, ey təzə-təzə bürc bağlayan, orda-burda çiçək açan meşələr! Dünya binnət olandan bəri ovxarlı-ovxarsız dəhrə-baltaların əlindən gün-dirriyimiz, rahatlığımız yoxdu. İllərdən bəri palıda pənah gətirib, onun üstündə yuva qurub, cəh-cəh vuran quşlar da zavallı ağacın bu ağır, dar məqamında onu bir göz qırpımında tərk etdilər. Quşlara nə var ki, palıd olmasın, armud, zoğal, vələs, fıstıq olsun, ağac ağacdı. Ancaq quşların bu cür düşünməsi ağlabatan deyil. Çünki qədd-qamətdə, ucalıqda hər ağac palıda çata bilməz. Palıd elə palıddı! Üstündə adı var, insanlar onun kömürünü də əl-əl axtarırlar, közünə dəmir də tab gətirmir. Dəmirçi kürəsində bir balaca közərəndə poladı da əridib muma döndərir. Bu anlarda palıdın nə çəkdiyi sanki Cahangirin də ürəyinə dammışdı. Onun fikri çox yerə çözələndi, lakin Dəlmə arxına su gəlməsi xatirinə qərarı qəti idi, palıdı kəsməliydi. Sarı madyan qarşı-qarşıya duran canlı-cansız məxluqun keçirdikləri həyəcanı hiss edirmiş kimi yerindən tərpənmədən məlul-məlul gözlərini məchul bir nöqtəyə zilləmişdi. Atın da öz dərdi vardı. İndicə kəsilib yan üstə yıxılacaq ağır palıdı dar cığırlardan, çətin keçidlərdən çəkib aparmaq dərdi...

Cahangir altdan-üstdən qalın geyinmişdi. Hələ desən ehtiyat üçün kürkünü də götürmüşdü. Vaxtilə atası ona tövsiyə etmişdi ki, oğul, bir səfərə çıxanda yayda kür-

künü də götür, qışda özün bilərsən. Bu sözün nə demək olduğunu Cahangir yaxşı bilirdi. Odur ki, nə qədər höcət olsa da, böyük sözünü eşidən idi. O, yüngülləşmək üçün əynindən çıxardığı üst pal-paltarını kənardakı zoğalın haçasına qoydu və əlinə tüpürüb sapından yapışdığı ov-xarlı baltanı başının üstünə qaldırıb gücü gəldikcə bir-iki dəfə palıdın gövdəsinə endirdi. Baltanın səsindən ətraf ağaclar da səksəndi, bütün meşə titrədi. El arasında - meşə gözətçisi - deyilən alabəzək Zığ-zığlar bir-birinə dəyib haray-həşir qopartdılar. Meşənin yuxarısındakı kol-kosla örtülmüş boz qayanın quşqonmazında yuva sa-lan iki qartal qoşalaşıb havaya qalxdı və səmanın əngin-liklərində dövrə vurmağa başladı. Balta səsindən me-şənin bütün canlı-cansız varlığı təlatümə gəlmişdi. Ca-hangir isə ayaqlarını aralı qoyub nəfəsini dərmədən, pa-lıda zərbəni zərbə dalınca endirirdi. Baltanın ağzından çıxan iri ağ qamqalaqlar ağacın dibinə səpələnirdi. Palı-dın gövdəsi yarıya qədər kəsilmişdi. Cahangir dincini almaq üçün qəddini düzəldib baltanı kənara qoydu. Onun lal və yorğun baxışları uzaqlarda, lap uzaqlarda dolaşdı. Dağın üfüqə qovuşan yerinə göz gəzdirdi. Zirvədən xeyli aşağıdakı açıqlıqda bir cüt əlik ovçu hənirtisi alıbmış kimi döyüküb bir-birinə qısılmışdı. Baltanın səsindən qorxuya düşmüş cüyürlər onlara qənim kəsilən zalım ovçuların, quduz canavarların zavalına gəlməmək üçün döyüküb yan-yörələrinə boylanır, təhlükə baş verəcəyi təqdirdə qaçıb canlarını qurtarmaq üçün incə ayaqlarının birini götürüb, birini qoyurdular. Təbiət incilərinin necə təşviş keçirdiklərini onların səksəkəli baxışlarından aydınca hiss etmək olurdu.

Cahangir əli ilə baltanın korşalıb-korşalmadığını yoxlayıb öz-özünə: "Yaxşı suvarılıb, ağzı qayıtmır" - dü-





şündü və ləngimədən işinə davam etdi. O, qüvvətli əlləri ilə palıda zərbə endirdikcə balta küpünə qədər ağacın gövdəsinə işləyirdi. Palıd dözmədi. Əyildi, lakin kökün-dən üzülmək bilmirdi. Cahangir yana çəkilib ağacı saxla-yan axırıncı tilişkələri də baltaladı. Palıd şaqqıldadı, var gücü ilə nərə çəkdi və qollu-qanadlı yan üstə gəlib, tap-pıltı ilə torpağa səriləndə elə bil bütün meşə silkələndi. Cahangir yoğun budaqları balta, nazik qol-qanadı isə dəhrə ilə doğrayıb qurtardı. Ağac çox uzun idi. Cahangir isə addımı ilə ölçüb onun lazım olan düz və yoğun hissə-sindən beş arşın yarımını kəsdi və düşündü ki, arx üçün bu, kifayətdir, sarı madyan da ancaq çəkib aparar.

Artıq palıdın bayaqkı əzəmətli qədd-qamətindən əsər-əlamət qalmamışdı. Qədimdən-qədim meşələr qollu-budaqlı sakinlərinə yas tuturmuş kimi, susmuşdu və məyus kimi görünürdü. İş-işdən keçdiyinə görə artıq quşların da səs-səmiri gəlmirdi. Bircə yaxınlıqdakı çu-xurda çürümüş xəzəllərin altından axan dupduru suyun xəfif pıçıltısı eşidilirdi. Cahangir bulağın gözünü tapıb dizini yerə qoydu və əyilib sudan doyunca içdi. Sonra geri dönüb kəsdiyi milin baş tərəfini kərtib, qəzil-sicimin həlqəsinə keçirdi. Atı yaxına çəkib sicimin o biri ucunu ikiqat elədi və palanın üstündən örkənə bağlayıb iki-üç yerdən bərk-bərk düyün vurdu. Cahangir atın başını gəl-diyi tərəfə döndərib, yaş və ağır mili çətinliklə açıqlığa çıxartdı. Yoxuş yolda iki at qoşulsaydı, mili yerindən tərpədə bilməzdi. Buradan çaya tərəf yol eniş olduğuna görə sarı madyan mili asanlıqla çəkib aparırdı. Çala-çuxur, daşlı yolda milin qabığı didik-didik olmuşdu. Sərt döngələrdə mil kol-kosa ilişdikcə Cahangir tez irəli atılıb ağacın başını birtəhər qaldırıb yola çıxarırdı. Meşə

yolu düz və geniş olsaydı, nə dərd idi. Onda nə Cahangir, nə də ki, at bir belə əziyyətə düşməzdilər.

Sarı madyanın balasını canavar yeyəndən bəri Cahangir ilk dəfəydi ki, atı bu cür bərkə salırdı. Onlar hələ meşədən çıxmamış günün saraltısı qalmışdı. Cahangir əvvəlcə istədi ki, mili burda qoyub getsin və sabah gəlib aparsın. Ancaq fikrini dəyişdi. Düşündü ki, - bu günün işini sabaha qoymayım. Bir də ki, meşəbəyi duyuq düşməmiş aradan çıxmaq lazımdır. Sonra işin içindən qəmbərqulu çıxar.

* * *

...Artıq toran düşmüşdü. Millə əlləşməkdən Cahangirin əl-ayağı neçə yerdən siyrilib qanamışdı. Qan-tərə batmış sarı madyan da yorulmuşdu. Buna baxmayaraq, Cahangir var gücü ilə çalışırdı ki, qaranlıq düşməmiş mili qoyulacaq yerə çatdırsın.

Yolun çoxu getmişdi, azı qalmışdı. Axırıncı enişdə yol bir qədər daraldı. Yüklü at-eşşəyə nə var ki... Amma gəl görüm, burdan ağır mili necə keçirirsən?! Mil ilişdikcə, Cahangir atın yedəyini buraxıb arxa tərəfə keçir, ağacın başını birtəhər düzəldib, yoluna davam edirdi.

Qaranlıq qatılaşmışdı. Göz-gözü görmürdü. Cahangir əyri-üyrü dar yolu birtəhər, fəhmlə enirdi. Qabaqdakı koldan qəflətən bir qaraltı çıxıb yamac yuxarı qaçanda, at hürküb geri dartıldı. Milin bir başı qayanın sıldırımına tərəf meyilləndi. Mil burdan üzüaşağı sürüşsə, şübhəsiz ki, atı da özü ilə bərabər çəkib apara bilərdi. Onda sarı madyanın tikəsi də ələ gəlməzdi. Ona görə də Cahangir ehtiyatla enli çiynini irəli verib var gücü ilə ağacın başını yola tərəf qaldırmağa cəhd etdi. Ancaq bacarmadı. Mil onun peysərindən basıb iki daşın arasına saldı. Vəziyyət





daha da ağırlaşdı. Sarı madyan da, şoğərib mil də, Dəlmə arxı da Cahangirin yadından çıxmışdı. İndi o öz canının hayına qalmışdı. Atın da tərpənməyə yeri yoxudu. Yaxşı da ki, tərpənmirdi. Əks-təqdirdə, mil qarışıq dərənin dibinə gedərdi. Belə bir vəziyyətdə Cahangir özü də burdan xilas ola bilməzdi. Ona görə də tələsib ehtiyatı əldən vermək olmazdı. Yanlış bir hərəkət faciə ilə nəticələnə bilərdi. Ağacın bir başı daşa dirəndiyinə görə Cahangirin boynuna o qədər də güc düşmürdü. Lakin elə bir vəziyyət yaranmışdı ki, kənardan kömək olmasa, buradan xilas olmaq qeyri-mümkünüydü. Başqa cür də hərəkət etmək qorxuluydu. Odur ki, Cahangir çəkdiyi ağrılara tab gətirir, dözürdü. Və bəzən də öz-özünə düşünürdü ki, yəqin əcəlim buracanmış, Allah-taalanın qəza-qədərindən qaçmaq olmaz. İnsan öləndə də evində-eşiyində, arvad-uşağın, qohum-əqrəbanın gözü qabağında ölə ki, dünyadan urvatlı gedə, nəinki gəlib bu gözdən iraq yalyamacın kol-kosluğunda it kimi gəbərə. Maa haqqına olur. İnsanın başına nə gəlir, elə öz ağlının ucbatından gəlir. Deyən gərək, Cahangir, a köpəyoğlu, Dəlmə arxını düzəltmək bircə saa qalmışdı?! Səndən qabaq Zabıxlı tayfasından bu dünyaya yüzü gəlib-gedib. Onlardan biri irəli durub, dərisini kola verib?! Amma mən ağlımın yoxluğundan özümü oda atdım. Saqqal dalınca getdiyim yerdə bığı da əldən verdim. İndi qalmışam milnən daşın arasında çabalaya-çabalaya. Saa bu da azdır, Cahangir! İndi öl, canın çıxsın! - Cahangir o ki, var ürəyində özünü söyüb danladı. O, yan üstə çevrilməyə çalışdı. Ancaq boynunun kökündən basan palıd ağacının ağırlığı imkan vermədi. Cahangir bu dəfə bayaqdan bəri düşündüklərinin əksinə olaraq öz-özünə təsəlli verdi: - Səbrsiz olma, Cahangir, mıxı mismar eləyən var. Əlini o gözəgörün-

məzin ətəyindən üzmə. Allah kərimdir! Bəlkə Tanrı səni sınağa çəkir?! Kişi olan kəs bərkə-boşa düşəndə gərək əqidəsindən dönməsin. Denən, Allahın köməyilə burdan qurtarıb Dəlmə arxını da başa çatdırmalıyam.

Yorğunluq Cahangiri əldən salmışdı. O, başında dolaşan ziddiyyətli fikirlərin məngənəsində getdikcə sıxılırdı. Birdən özü də hiss etmədən nəm və soyuq daş yorğan-döşəyin arasında yuxuya getdi. Sarı madyan onlara qəza üz verdiyini hiss edibmiş kimi, yerindən tərpənmədən yan-yörəsindəki otu könülsüz-könülsüz qırpıb, sakit-sakit yeyirdi.

Səhər-səhər göylərə baş çəkən, indi isə qolsuz-qanadsız, başıkəsik palıd kimsəsiz yamacda ilişib qalmışdı. Höcət Cahangir, sarı madyan, bir də ki, palıd ağacı soyuq və nəmli gecənin qaranlığında mürgü vururdu. Dağdərə, kol-kos, aşağıdakı qorxunc uçurum Cahangirlə sarı madyanın dərdinə qalıbmış kimi, ağır sükuta dalıb, sanki intizarla sübhün açılmasını gözləyirdilər. Tərs kimi bu işlək yoldan bir inni-cinni keçmirdi ki, Cahangirin dadına yetsin. Cahangirin məhkum olduğu ağlagəlməz cəzaya tab gətirib, dözməkdən başqa əlacı yoxuydu.

Mənhus qaranlığın parlaq gündüzə qovuşmasına az qalırdı. Dan yeri yavaş-yavaş sökülürdü. Ağarmaqda olan üfüq, quşların vəcdlə səs-səsə verməsi Cahangirin sönməkdə olan ümid işığını bir qədər şöləlləndirdi. Cahangir dərənin dibindən gələn insan hənirtisini eşidəndə, onun necə sevindiyini təsəvvür etmək çətindi. Səs gücləndikcə, Cahangirin üzləşdiyi ölüm ayağından qurtaracağına inamı artırdı. Yolçuların ona çatmasına cəmi bir neçə addım qalırdı. Cahangir çətinliklə başını qaldırıb həmin səmtə tərəf boylandı. Üç nəfər adam, un yüklü iki qatır, bir at alt tərəfdəki döngədən burulub





yuxarı qalxırdılar. Onların söz-söhbətindən hiss olunurdu ki, yuxarı kənddəndirlər. Çay dəyirmanından gəlirlər. Qabaqdakı erkək at sarı madyanın iyini alan kimi dartınıb irəli cummaq istədi. Sahibi atına təpinib yedəyini çəkdi. Yolçular vəziyyətin nə yerdə olduğunu başa düşüb, tez hadisə yerini dövrəyə aldılar. Bir nəfər sarı madyanın yedəyindən bərk-bərk yapışdı. İkisi milin başını qaldırıb Cahangiri ağacın altından çıxartdı. Cahangir əsim-əsim əsirdi, ayaq üstə güclə dayanırdı. Buna baxmayaraq, ağrısını-acısını büruzə vermirdi. Xilaskarlarının qarşısında qəddini şax tutub, təmkinini pozmadan onlara razılığını bildirdi. Birlikdə köməkləşib mili yola çıxartdılar və xudahafizləşib əks istiqamətdə yollarına davam etdilər.

* * *

Həmin əhvalatdan sonra Cahangir bir həftə yorğan-döşəyə düşdü. Arvadı Zöhrə neçə gün onun əzilmiş, ağrıyan yerlərinə isti təpitmə qoydu. Cahangir özünə gəlib ayağa qalxandan sonra eyni həvəslə, qətiyyətlə Dəlmə arxının darısqal dərədən keçən hissəsində başladığı işini davam etdirdi. Ancaq burada elə çətinliklər üzə çıxdı ki, əlavə kömək olmadan onu yoluna qoymaq qeyri-mümkün idi. Ona görə də Cahangir bir neçə günlüyə oğlunu bu işə cəlb etməli oldu. Sücəddinə qalsaydı, əvvəldən atasını tək qoymazdı. Hər gün onun yanında olardı. İşin bir qulpundan da o yapışardı. Lakin Cahangir buna razı olmurdu və hər dəfə Sücəddinə deyirdi:

- Səninki dəftər-kitabdır. Çalış elm sahibi ol, dərsdən qalmaq nədi?! Oxu, bir yana çıx. Mənim kimi çörəyin daşdan çıxmasın. Mən yenə əlləşib-vuruşub, birtəhər çulumu sudan çıxarıram, bir parça çörək qazanıram, qoy-

muram təknəmiz boş qalsın. Kənddə elələri var ki, ilmüdam yay-yaz əkinçidi, qış dilənçi. Qazandığı yavan çörəkdi, o da ilin axırınacan çatmır.

Sücəddin atasının dediklərini qulaqlarında sırğa eləmişdi. Əlindən dəftər-kitab düşmürdü. Səfeh-süfeh uşaqlara qoşulub ara-bərədə boş-bekar veyllənməklə arası yoxudu. Getdiyi yer məktəb idi, gəldiyi də ev. İndi iş elə gətirmişdi ki, bir neçə günlüyə dərsdən sonra atasına kömək əli uzatmalıydı. Kömək də beləydi ki, arxın keçdiyi dərənin hər iki tərəfində, palıddan düzəltdiyi novu saxlamaq üçün dərin bünövrə qazıb, etibarlı divar hörmək lazım idi ki, sabah-birisi gün sel qalxanda bəndin bünövrəsini oyub dağıda bilməsin. Odur ki, Cahangirin yan-yörədə pəsənd eləyib seçdiyi iri yastı daşları Sücəddin güclə qaldırıb atasının belinə qoyurdu. Cahangir nə əzab-əziyyətlə ağır daşları əvvəlcədən qazdığı dərin bünövrəyə endirib, üstündən divar hörürdü. Cahangir palıd ağacından yonub düzəltdiyi novu da Sücəddinin köməyilə qaldırıb divarın üzərinə qoydu. Bu günlər ata oğlunun göstərdiyi şücaəti gördükcə qürur hissi keçirirdi. Özündən deyən bığıburma cavanların girişə bilmədiyi ağır daşları Sücəddin əlində boş kibrit qutusu kimi fırladırdı. Cahangir indiyəcən bilməzdi ki, doqquzda oxuyan oğlu bu cür hünərin sahibidir. Buna baxmayaraq, Sücəddinin üzünə bircə kəlmə tərifli söz deməzdi. Cahangirin çoxdankı xasiyyəti idi. Bir dəfə arvadı Zöhrə Sücəddini əzizləyib başını sığallayanda Cahangirin ikilikdə Zöhrəyə acığı tutmuşdu və demişdi ki, uşağı çox da əzizləmə, sonra yolunu azar. Qabağını ala bilmərik. Hələ qoy görək, oxuyub bir yana çıxırmı, iş-güc sahibi olurmu? Ata-anasına oğulluq, arvadına ərlik, övladına atalıq eləyə bilirmi? Bir tikə çörək qazanıb başını dolandırırmı? Hələ ortalıqda bir şey yox, başlamısan tərifləməyə. Cahangirin o sözündən sonra odubudu Zöhrə bir dəfə də olsun Sücəddinin naz-qəmzəsiylə oynamazdı. Ancaq ətyeyən quş dimdiyindən bilinər. Cahangir bilirdi ki, Sücəddin diribaş uşaqdır. Tay-tuşlarının heç biri onun yerişini yeriyə bilməz.





Dəlmə arxının dərədən keçən bənd-bərəsini düzəldən günün səhərisi Cahangir Sücəddinə dedi ki, oğul, sağ ol, buracan neynəmisən bəsdir, get dərslərinlə məşğul ol. Əsas məktəbdir. İndi biliyi olmayanların axırı heçdir. Düzdü eey, oxumayanlar ölmür, onlar da birtəhər başlarını girləyir. Ancaq bilikli olmaq ayrı şeydir.

* * *

Günlər getdikcə uzanır, gecələr gödəlir, havalar istiləşirdi. Cahangir iki aydan çoxuydu Dəlmə arxının üstündə əlləşib vuruşurdu.

Arxdan yuxarı el yolu keçirdi. Aşağı tərəfdə çay boyu çəltik əkinləri, sonra meyvə bağları uzanıb gedirdi. Bağla çayı donuzkeçməz qamışlıqlar ayırırdı. Yuxarı tərəfdə çaqqaçuqla dəyirman işləyirdi. Buradakı bataqlıq quşlarının, qurbağaların səs-küyündən qulaq tutulurdu. Çəltik ləklərində alaq eləyən iş adamları qamışlığın arasındakı daş düzülmüş gölməçədən birtəhər keçib çaydan su götürür, qız-gəlinlər ləpədöyənlərdə paltar yuyurdular. Cahangir arxı qamışlığın tuşuna qədər qazıb təmizləmişdi. Ancaq iş getdikcə çətinləşirdi. İllərlə arxa tökülmüş daşqayanı qazıb çıxartmaq hünər istəyirdi. Cahangir yorulmaq bilmədən çalışırdı. Beli qoyub külüngü götürür, külüngü qoyub düsəri işə salırdı. Dəyirmanın səsini eşidəndə hirs vururdu təpəsinə. Gah kolxozu söyürdü, gah da onun başında duran lovğa Səftəri.

Lüt Qasımın oğlu lovğa Səftər çəltiyin becərilməsinə

baş çəkmək üçün hər gün burdan keçirdi. Bir dəfə altındakı harın atın başını yığaraq:

- Həə, Cahangir kişi, necəsən?! - İstehza ilə soruşdu. - Çox döşünə döyürdün ki, Dəlmə arxı qabağımda duruş gətirə bilməz, iki-üç aya işi tamamlayıb təhvil verməsəm, atamın oğlu deyiləm. İndi nooldu, pişik asqırdı? Yaz qurtarır, qabaqdan yay gəlir. Sən hələ dal vəli sürürsən. Belə getsə, arx payıza çəkər...

- Qasımın oğlu! Acığına getməsin, qıraqdan baxana asan gəlir. İtib-batmış yüzillik, minillik arxı təzədən qazıb düzəltmək, yorğa atın belində ona-buna xoruzlanmaq deyil. Bir də ki, səni qınamıram. Dünyanın işləri belədir. Kimi yağ yeyib yaxada gəzir, kimi də mənim kimi kirpiyi ilə od götürür. Allahın quruca salamını da qıymırsan. Amma soruşursan ki, Cahangir, iş necə gedir?!

Sədr alındı, sifətinə süni ifadə verərək qımışdı və:

- Sənin də dəyən yerin yaman yaxındı ha, - dedi, - Cahangir kişi! Mən elə-belə zarafat elədim.

- Zarafat yorğan altında olar, danışanda da sözünə sərhəd qoy! - Cahangir ona sərt cavab verib sədrin üzünə baxmadan yönünü əks tərəfə çevirdi.

Onların arasında pərtlik yarandı. Sədr dediyinə peşman olubmuş kimi söhbəti uzatmadı. Altında eşilən atın başını buraxdı. Cahangir alnının tərini silib arxın içinə endi və külüngünə əl atdı... Arxın qırağında səliqə ilə üst-üstə qoyulmuş yastı daşları görəndə təəccübləndi. Şübhəsiz ki, daşlar haçansa əl ilə qoyulmuşdu. Cahangir ağır lomla divar kimi hörülmüş daşları bir-bir qaldırmağa başladı. Cəngəllikdə itib-batmış divarın dördüncü cərgəsini sökəndə çürümüş əski parçaları göründü. Cahangir lomu kənara qoyub, ehtiyatla əskinin yan-yörəsini eşməyə başladı. Qəzil qatma ilə sarınmış uzun bağlamanın arasından təkrar-təkrar keçəyə bükülmüş üçatılan tüfəng çıxdı. Tüfəngin sürtülmüş şabalıdı qundağının bir tərəfi azacıq çürümüşdü. Çaxmağın tutacağı, bir də ki, lülənin uc tərəfi yüngülvari pas atmışdı. İkinci bağlamadakı kiloluq şüşə bankaya patron yığılmışdı. Cahangir çaxmağı irəli-geri verib, üçatılanın yararlı olub-olmadığını yoxladı və sonra çaxmağı çıxartdı. Gözünün birini qıyıb lülənin içini diqqətlə nəzərdən keçirdi. - Tüfəng çox atılsa da, salamat qalıb, - dodaqaltı pıçıldadı. - Yaxşı ki, çobançoluq əlinə düşməyib. Tüfəngə söz yoxdu. Ancaq Nikolayın vaxtına baxma, Şura hökuməti bunun üstündə adamı ilim-ilim itirər. Heç qanunsuz ov tüfəngi saxlamaq olmur, o ki, üçatılan ola,- düşündü.





Cahangir üçatılana baxanda xəyalı çox uzaqlara getdi və özü ilə danışırmış kimi: "Kim bilir, bu silah neçə əldən-ələ keçib?! Kimləri qanına qəltan eləyib?! Şükür kərəminə, ilahi! Necə oldu ki, bu şeytan əməlini yaratdın?! Bax, bu düsər də, lom da, külüng də, üçatılan da hamısı dəmirdəndir. Biri ilə arx çəkilir, yol salınır, ev tikilir, torpaq becərilir, ruzi qazanılır... Biri də ki, qan tökür, anaların nə zillətlə dünyaya gətirdikləri, yuxusuz gecələrdə neçə dəfə yaş bələyini dəyişdiyi, aylarla döşündən süd verdiyi, böyür-başına yastıq qoyub güclə oturtduğu, əlindən tutub yerimək-yüyürmək öyrətdiyi, nə müsibətlə ərsəyə yetirdiyi bir igidi göz qırpımında o dünyalıq eləyir. Atalar oğulsuz, gəlinlər ərsiz, körpələr sahibsiz qalır... Bəndəni yaradırdın, ölümsaçan bu şoğəribi neynirdin, ilahi?!" Cahangir tapdığı üçatılanı ikrahla bürüb-büküb belə qərara gəldi ki, tüfəngə ağır bir daş bağlayıb, alt tərəfdə qaynayıb coşan çayın dərin yerinə atsın. Fikirləşdi ki, təzədən torpağa basdırsa, sonra başqa

birisinin əlinə keçə bilər. Ancaq çayın dərin yerinə atsam, xatası çıxmaz. O, üçatılanı əvvəlki kimi bükmək istəyəndə, birdən ağlına nə gəldisə fikrini dəyişdi. "Yoox, tüfəngi atmayım, xəlvət bir yerdə gizləyim, vaxt gələr lazım olar, yüz gün yaraq, bir gün gərək. Atalar demişkən, saxla samanı, gələr zamanı. Qəvi düşmən qulağımızın dibindədir. Ermənіyə etibar vaar?! Belə bir söz var ki, qonşun pisdi, köç qurtar. Hara köçək?! Dünyaya gəldiyimiz ilk gündən üz-gözümüz öyrəşmiş doğma diyarı, daşı, torpağı, çayı-çəməni, beş yüz evli Qalaçanı hara aparaq, hara köçürək?! Ona görə də ermənіnin namərdliyinə dözməyə məcburuq. Elimizi-obamızı atıb heç yerə gedə bilmərik. Yəqin Allah-taalanın Qalaça camaatına qəzəbi tutub, ermənilərlə qonşu eləyib. Neçə dəfə başlarının qurdu tərpənib, toplu-tüfəngli üstümüzə qəflətən hücum çəkib, Qalaçanın evlərini yandırıb viran qoyublar. Adamları da ki, qaçan qaçıb canını qurtarıb, ələ keçənini də işgəncə verə-verə öldürüblər. Bax, bu cür məxluqla qonşuluq eləyən, gərək ağacını yerə qoymasın. Həmişə ayıq-sayıq olsun. Ermənіyə etibar yoxdur. Bir də gördün, başqa bir Andronik peyda oldu. Üstümüzə dəstə bağladı. Ona görə də üçatılanı atmayım, əl-ayaqdan uzaq olan xəlvət yerdə gizlədim. Şər deməsən, xeyir gəlməz. Erməni ki, belə görürəm, girəvəyə salıb bir gün yenə durduğumuz yerdə hoqqa çıxartmalıdılar. Nijdehin, Dronun top-tüfənginin səsi hələ qulağımızdan getməyib. Yoox, üçatılanı elə Allah yetirib. Aparıb xəlvət bir yerdə gizlədim. Haçan eşidib-eləsəm ki, erməni yenə əvvəlki kimi baş qaldırıb, üçatılanı çıxardaram".

Çox götür-qoydan sonra Cahangirin axır qənaəti bu oldu ki, hər ehtimala qarşı üçatılanı məhv etməsin, xəlvət bir yerdə gizlədib saxlasın. O, bu mülahizə ilə əyilib





üçatılanı köhnə cır-cındaya bükmək istəyəndə, arxadan ayaq səsləri gəldi. Cahangir tez dikəlib tüfəngi kənardakı kolun arasına atdı və geri çönüb hənirti gələn tərəfə baxdı. Gözü Sücəddinə sataşanda təlaş ifadə edən zəhmli baxışları duruldu. Oğlu əlində çörək bağlanmış ağ dəstərxan, ona tərəf gəlirdi. Sücəddin tüfəngi görməsin deyə, Cahangir irəli yeriyib oğlunu kənardakı dağdağan ağacının dibinə çəkdi. Sücəddin atasının ondan nə isə gizlətdiyini hiss etdi və kolun arasındakı qaraltı onun diqqətindən yayınmadı. Lakin Sücəddin bu barədə atasından heç nə soruşmadı. Ata-oğul daşın üstə, dağdağanın kölgəsində süfrə açıb, çörək yeyə-yeyə ordan-burdan söhbət eləyirdilər. Cahangir oğluna ən çox dərslərini necə oxuduğu barədə suallar verirdi. Sücəddin deyəndə ki, bütün dərslərdən beş qiymət alır, adı əlaçılar sırasına düşüb və hər iclasda da müəllimlər onu tərifləyir, Cahangirin ağrı-acısı, yorğunluğu canından çıxırdı. Cahangir arxa tərəfdəki boz qayanın döşündə bitən əncir ağacını işarə edərək:

- Görürsən, oğul, dibində bir ovuc torpaq yoxdu, amma necə qollu-budaqlıdır. Özü də təkcə enə-boya vermir. Hər il bar-bəhrə gətirir. İri qara ənciri olur, yeyəndə bal dadır. Ora dırmanmaq çətin olsa da, uşaqlıqda çox yığıb yemişəm. İndi düzgün bənzətmə olmasa da, adam var, harda olursa-olsun, canına cəfa basıb, daşdan da çörək çıxardır ki, dosta-düşmənə möhtac olmasın, kimsəyə boyun əyməsin. Adam da var, əli sağ, ayağı sağ, qarın dolusu çörək tapmır. Kimin bir balaca qeyrəti var, başını dolandırır. Kimin də ki, yoxdur, getsin ölsün. Bu dünyada acdı ki, acdı! Bəzi ağzıgöyçəklər deyirlər ki, Cahangir canının qədrini bilmir, harda ağır iş var, özünü ora verir. Bir tərəfə baxanda elə düz deyirlər,

ancaq neynəmək gərək! Mən də başqaları kimi qaxdan-qozdan yeyim, kölgədə yatım?! Öləndə də desinlər, iki əl bir başı saxlaya bilmədi. Sən hər dəfə bir "5" gətirəndə elə bil ömrümə təzə ömür calanır. Mənim də qələmim bu beldir, düsərdir, çörəyim onlardan çıxır. Allaha şükür, təknəmiz həmişə dolu olur. Ac-yalavaclara da əl tuturuq. Qapımızda bir şam ağacı var, nə meyvə gətirir, nə də yönlü odunu olur. Kəsəndə də pis iy verir. Qancıq it kimi də hər il o qədər küçüklüyür ki, kökünü kəsə bilmirəm. Sözümün canı odur ki, gərək insanın da, ağacın da yaxşısı olasan. Yamanı, üfunət saçanı, gərəksizi yox...

Cahangir bunları gəlişigözəl söz kimi demirdi. Deyirdi ki, Sücəddin insanlıq, kişilik səfərinə çıxanda büdrəyib yıxılmasın. Ona-buna gülünc, lağ-loğaz yeri olmasın. Qalaçada hamı onu barmaqla göstərsin, Zabıxlı tayfasına başucalığı gətirsin. Desinlər ki, ot kökü üstə bitər. Cahangir kimi kişinin də belə oğlu olar.

Cahangirin bir gözü üçatılanda qalmışdı. Ehtiyat edirdi ki, böyür-başdan biri çıxar, silahı görər, ondan sonra hökumətdən yaxa qurtara bilmərəm. Ha yaxamı yırtım ki, tüfəng mənim deyil, təsadüfən tapmışam. Kimdi ona inanan?! Qulağımdan yapışıb soxarlar qaranlıq yerə. Sücəddin oğlum olsa da, uşaqdı, belə şeyləri nə qanır?! Bilsə, tay-tuşlarının yanında ağzından qaçırar, durduğum yerdə əngələ düşərəm. Yaxşısı budur ki, Sücəddinin başını qatıb, ondan xəlvət tüfəngi gizlədim.

Cahangir dəstərxanı büküb-qatlayıb ayağa qalxdı və Sücəddinə:

- Oğul, sən yavaş-yavaş qalx yuxarı, atın hörüyünü dəyiş, mən də çaydan su içib qayıdıram.

Sücəddin ata tərəf yönəlsə də, bir gözü atasındaydı.





Cahangir ətrafına göz gəzdirib, üçatılanı kolun arasından çıxartdı. Tüfəngin qundaq tərəfini qoltuğunun altına keçirdi və bağın alt tərəfindən hərlənib xeyli aşağıdakı qayalıqlara tərəf buruldu. Kənardan görən olmasın deyə, əyilə-əyilə daşların arasından keçib, qızılı rəngə çalan ağ qayanın altındakı cəngəlliyə girdi. Tüfəngi porsuq və ya tülkü yuvasına bənzəyən dərin bir dəliyə dürtdü, qabağına da iri daş qoydu. Və tez də ordan aralanıb geri qayıtdı. Çayın qırağına enib, üzünə bir-iki ovuc su vurdu, qazdığı arxa tərəf dikəldi.

Sücəddin atın hörüyünü dəyişib qayıtmışdı. O, atasının hara, necə getdiyini aydınca görürdü. Lakin qoltuğunda nə apardığını bilmirdi.

Cahangir dağdağan ağacının dibindəki yastı daşın üstündə oturub dincini alır və yorğun baxışları ilə uzaqları seyr edirdi. Sərin meh onun tər basmış sifətinə, boyun-boğazına toxunduqca özündə rahatlıq, dinclik duyurdu.

Çala-çuxur dəyirman yolu zəncir kimi uzanıb gedən çəltik ləkləri ilə meyvə bağlarının arasından keçir. Su dolu ləklərdə əyilib-qalxan əlvan geyimli qız-gəlin, ayıbdı deyə, topuğa qədər sallanan gen tumanlarını, üst paltarlarını belə soyunmadan çəltiyi sılıfdan təmizləyib, qucaq-qucaq alağı tirlərin üstünə atırdılar. Bir qədər aşağıda baramaçılar çəkil ağaclarını doğrayıb, yorulmaq bilmədən kəndə şələ-şələ yarpaq daşıyırdılar.

Bağlar çiçəkdən çıxmışdı. Qamışlıqların arasında gizlənən quşların nəğməsi çayın səsinə qarışıb ətrafa yayılırdı. Uzun dimdiyi, göy və yaşıl rəngi, qara və balaca caynaqları olan Gilasquşu not hərfləri kimi nazik budaqlardan sallanan gilasın qızartısına baxıb, məlahətli səsi ilə buradan ötüb keçənləri heyran qoyurdu. Qanad-

ları neçə rəngə çalan bu quş yalnız gilas vaxtı bu cür oxuyur. Və bəlkə də elə buna görə Gilasquşu adlanır. Bu ecazkar səslər, füsunkar mənzərələr Cahangiri sehrləmişdi. Daldığı xəyallar aləmində bir neçə dəfə göz qapaqları yumuldu və ani olaraq çənəsi sinəsinə enibqalxdı. Sücəddin atasına mane olmamaq üçün arxasını dağdağana söykəyib özü ilə gətirdiyi kitabları açıb sakitcə oxumağa başladı.

Cahangir huşdan ayılıb ayağa qalxdı. Üzünü oğluna tutaraq:

- Sən buralarda ləngimə, get dərslərinlə məşğul ol, - dedi. - Bu gün bəlkə evə gec gəldim. Axşam naxırın qabağına çıxarsan. Mal-heyvanımız azıb onun-bunun qapısına getməsin. Meşə çaqqalsız olmaz. Oğurluyub-eləyərlər. O qədər nənəsinin əmcəyini kəsən var ki! O təzə doğan inəyin də altını çalğı ilə süpürüb, təmizləyib, sonra axuruna bir-iki çəngə ot atarsan. Zahıdı, ac qalmasın. Dünən də buzovun çatısı boş bağlandığından açılıb anasını əmib. Buzovu bərk də bağlamaq olmaz, körpədir, boğula bilər. Hər şeyin yöndəmi var. Biz cəhənnəm, yavan çörəklə də ötüşərik, hökumət hər gün boynumuzun dalını kəsib yağ istəyir. İnəyin verdiyi bir ovuc süd də ancaq balasını görür. Hökumət vara-yoxa baxmır. Deyir ki, erkəksən də doğ, dişisən də. Hökumətin ağzını yummaq üçün əlac ona qalıb ki, bazardan yağ alıb verək. Yoxsa bu vergi agentləri abrımızı aparar.

Sücəddin atasının giley-güzarlı sözlərindən sonra qoltuğunda dəftər-kitab evə tərəf yollandı. Cahangir çarığının bağını bərkidib, üst-başını düzəldib arxa sarı yönəldi və əvvəlcə külüngə əl atdı. Zəlzələ vaxtı dağın döşündən bir neçə iri qaya diyirlənib arxın qabağını kəsmişdi. Bu qayaların hər birini yerindən tərpətmək üçün





azı on adam lazımdı. Cahangir kömək üçün heç kəsə boyun əymirdi. O, qayaları bir-bir deşib dəmir çiv vurur və ağır gupbunla parça-parça eləyirdi. Beləliklə, arxın xeyli hissəsi daş-qayadan təmizlənmişdi. Cahangirdən olsa, gecəni də burda qalıb sabaha kimi işləyərdi. Ancaq getmək vaxtıydı. Günəş üfüqdəki buludları al rəngə boyayıb yorğun-yorğun uzaqdakı dağların arxasına çəkilirdi. Torpaq da yorulmuşdu, insanlar da, günəş də. Çəltik ləklərinin arasında tək-tük əli belli suçular dolaşırdı. Sübhün gözü açılandan burada əlləşib tər tökən qadın-kişi dalda yerə çəkilib islanmış paltarlarını sıxıb dəyişir, əyin-başlarını səliqə-sahmana salır, iki-bir, üç-bir evlərinə tələsirdilər. Onların çoxu əliboş deyildi. Kimisi ocağın gözünə qoymaq üçün bir qucaq quru çırpı, birisi becərdiyi barama qurdundan ötrü bir şələ tut yarpağı, bəziləri də təzəcə ota düşən körpə buzovuna, quzusuna, çəpişinə bir çəngə yumşaq ot aparırdı. Bir neçəsi də onları qarşılayacaq uşaqlarını sevindirmək üçün rəngbərəng gül-çiçəkdən dəstə bağlamışdı. Onlarla bir yerdə çəltik becərən Hacı Sadığın ərlik qızı Qənirə iş yoldaşlarından təklənib hələ də tut yarpağı yığmaqda davam eləyirdi. O, dəyirmandan xeyli aşağıda, əlində bağ qayçısı qarımış çəkil ağacının kəlləsinə dırmanıb, tərtəzə yarpaq gətirən nazik çubuqları bir-bir doğrayıb tökürdü. Sədr kənardan onu görəndə xəlvətcə dəyirmanın arxa tərəfindən hərlənib Qənirəyə yaxınlaşdı. Nə isə qıza biriki söz atdı. Ürkək baxışları, çatma qaşları, dolu sifəti, mina gərdəninə tökülən uzun, qara saçları olan və çəhrayı çitdən sadə paltar geymiş Qənirə Səftərin səsini eşidəndə diksinib əl saxladı. Onun yör-yöndəmini görəndə əsəbiləşdi, Səftərə heç bir cavab vermədən əlində bağ qayçısı aşağı endi. Doğrayıb-tökdüyü yarpağı tələm-

tələsik dəstələyib, gətirdiyi ala çatı ilə bərk-bərk bağladı. Və başını yuxarı qaldırmadan yarpaq şələsini çiyninə aldı. Sədr irişə-irişə, yenə də atmacalı sözlərlə onu dindirməyə çalışdı. Qənirə çiynində şələ, üzünü ikrahla əks tərəfə çevirib iti addımlarla ondan aralandı. Sədr geri dönüb, dəyirmanın qabağında bağlanmış atına mindi və qarabaqara Qənirənin arxasınca düşdü.

Bu birinci dəfə deyildi. Səftər əvvəllər də bir-iki dəfə xəlvətə salıb, Qənirəni dilə tutmaq istəmişdi. Qənirə məcbur olub, onun vəzifəsinə baxmadan layiqincə cavabını verib oturtmuşdu yerində. Səftər Qənirədən əl çəkmirdi, onu al dillə aldadıb inandırmaq istəyirdi ki, arvadı boşayıb onunla evlənmək fikrindədir. Qənirə bu sözləri eşidəndə xəcalətindən qızarıb tər tökürdü, əriyib yerə girirdi. Ancaq Qənirə kənddə biabır olmamaq üçün, bu söz-söhbətləri heç kimə açıb-ağarda bilmirdi. Qənirənin xasiyyəti eləydi ki, Səftərlə yüz il bir dərədə qalsaydı, ona meyl göstərib ərə getməzdi. Səftərin vəzifəsinə, yaşına uymayan bu cür şit hərəkətlərindən, onun çil basmış sarı sısqa sifətindən, lovğa hərəkətindən zəhləsi gedirdi. Nə olsun ki, bəxt quşu Səftərin çiyninə qonmuşdu, onu Qalaça kəndinə böyük qoymuşdular. - Ərim ər olsun, kol dibi evim - deyiblər. Qənirə düşünürdü ki, kasıb olsun, mərd, kişi xasiyyətli olsun. Bu sözlərin çoxunu Səftərin gözünün içinə demişdi. Ancaq Səftər sırtıqlığına salıb Qənirədən əl çəkmirdi. İndi də Qənirə gördü ki, Səftər abırsızlığına salıb ona səmtimək istəyir, Cahangirin işlədiyi yerə yaxınlaşanda dincəlmək bəhanəsilə yolun kənarında şələsini yerə qoyub, dağılmış saçlarını, sinəsinə sallanan yaylığını düzəltməyə başladı. Səftər ona çatanda, bir Qənirəyə baxdı, bir də Cahangirə. Gördü ki, Cahangirin yanında artıq-əskik hərəkət etmək olmaz, sakitcə ötüb keçdi. Cahangir nə hiss etmişdisə, onun arxasınca tərs-tərs baxıb, ikrahla başını buladı.





Cahangir başa düşdü ki, Qənirə yola tək çıxmaq istəmir, onu gözləyir. Ona görə də belini, düsərini kənara qoyub, arxdan çıxdı. Atın hörüyünü açıb, noxtasını başına keçirib, palanını belinə basıb yola düzələndə, Qənirə də şələsini götürüb qoşuldu ona. Cahangirin ürəyinə nə isə dammışdı. Hiss etmişdi ki, yəqin lüt Qasımın gədəsi qıza dəyib-dolaşmaq istəyir. Ancaq qəlbində baş qaldıran bu şübhə barədə Qənirədən heç nə soruşmadı. Atı saxlayıb qızın şələsini təkidlə əlindən aldı. Özünə də təklif etdi ki, atın tərkinə minsin. Ancaq Qənirə etiraz etdi və sıxıla-sıxıla:

- Sağ ol, Cahangir əmi, - deyib xəcalətindən başını aşağı saldı.

Cahangir soruşdu:

- Qızım, nə əcəb bu gün dəstədən ayrı düşmüsən?

Qənirə:

- Otağın birində barama becəririk, - utana-utana dilləndi. - Bildiyin kimi, atam şikəstdir, o vaxt arabanın altında qalandan bəri özünü düzəldə bilmir. Anamı da yel tutur. Qardaşlarım da ki, xırdadır. İşə-gücə yarayan vaxtları deyil. Ona görə evin bütün ağırlığı mənim çiynimdədir. İndi də qalmışam baramanın əlində. Az deyil, azacıq deyil. O vaxt ağlım olmadı, yarım qutu qurd götürdüm. Götürdüm deyəndə, məcbur elədilər. İndi də qalmışam əl-amanda. Bilmirəm evdəki xəstələrə baxım, çəltik alağına gedim, yoxsa barama qurdu becərim. Qurdun da ki, xirik vaxtı çatıb. Yarpağını yetirmək olmur. Bu gün də başım yarpaq qırmağa qarışdığından yoldaşlarımdan ayrı düşdüm. Onları da qınamalı deyil, hərənin öz dərdi-səri var. Səhərin gözü açılandan alaq eləyirlər.

Ev-eşikdən xəbərləri yoxdur. İşləri tökülüb qalıb. Tələsirlər ki, kəndə vaxtında çatsınlar, mal-heyvanı yerbəyer eləsinlər, evdəkiləri yola versinlər... Dərd birdi, ikidi...

Cahangir Qənirənin sözünü təsdiq etdi və xeyli sükuta daldı. Sarı madyanın ayağının altından bir daş qaçdı, yola qığılcım səpələndi.

Cahangir:

- Qızım, bildiyimə görə məktəbi əla qurtarmısan, - dedi. - Bizim Sücəddin də səni həmişə tərifləyirdi. Deyirdi ki, məndən iki sinif yuxarı oxuyan Sadıq əminin qızı Qənirə məktəbdə birincidir. Məktəbi qurtarandan sonra kənd soveti səni kursa göndərdi, kitabxanaçı qoydular. Yaxşı da işləyirdin. Amma bilmirəm ordan niyə qaçdın?! Kolxozdansa yenə o kitabxanaçılıq yaxşıdı. Oturaq işdi, yaxşı da donluq alırdın. Nahaq ordan aralaşdın.

Qənirə dinmədi. Kədərli ah çəkib susdu. Cahangir də sualını təkrar etmədi. Sarı madyan da onların söhbətinə qarışmaq istəmirmiş kimi sahibinin altında sakitcə gedirdi. Ətraf dağlar da susmuşdu. Yaranmış sükutu atın ayaq səsləri, bir də ki, bülövlənmiş hamar daşlara toxunan təzə nalın cingiltisi pozurdu.

* * *

Qənirənin özündən böyük qardaşını beş il bundan qabaq Xinzirək kəndinə pomidor satmağa gedəndə ermənilər yolda öldürüb, meyidini də qatırı qarışıq qayadan atmışdılar. Atası Sadıq da gözünü açandan kənddə arabaçılıq edirdi. Öküz arabasıynan kövşəndən xırmana dərz daşıyırdı. Dövlət tədarükü üçün rayona taxıl aparırdı. Ara-bərə işləri görüb, başını girləyirdi. Bir dəfə kövşənə





toxumluq dən apardığı yerdə yamac yolda, təsadüfən təkərin oxu çıxmışdı. Sadıq günortayacan qalmışdı taxıl yüklü arabanın altında. Həmin hadisədə dizindən aşağı qıçının lülə sümüyü qırılmışdı. Sınıqçılar nə qədər çalışmışdı, əməl yeməmişdi. Sadıq elə o vaxtdan şikəst idi. Qənirənin anasından da yel xəstəliyi əl çəkmirdi. İl uzunu yorğan-döşəkdə idi. Özündən xırda bir cüt əkiztay qardaşı vardı. Hər ikisi dördüncü sinifdə oxuyurdu. Evdə kişi işini də Qənirə görürdü, qadın işini də. Məktəbi qurtaranda diribaş olduğuna görə kursa göndərib, sonra da kitabxanaçı qoymuşdular. Onda vəziyyəti yaxşıydı. Yaxşıydı, deyəndə, orda da bir gün görmürdü. Cürbəcür bəhanələrlə hər ay donluğunun yarısını sovet sədri götürürdü. Əlinə çatan qəpik-quruş da ki, beş adamın çörəyini ancaq görürdü. Bir az da gözəl-göyçək olduğundan, kəndin gədə-güdələri onu dinc qoymurdular. Hərə bir söz atırdı. Ancaq onun yadına ər düşürdü?! Düzdü, istəyənlərin içərisində ürəyinə yatan varıdı. Lakin xəstə ata-anasını necə atsın?! Bir bölük külfəti başsız qoyub hara getsin?! Eşidib-bilən Qənirəyə nə deyərdi?! Ona görə də ər məsələsi qulağına girmirdi. O barədə söhbət düşəndə deyirdi ki, ər mənim harama yaraşır. Bir də ki, el-obanın töhmət-tənəsini gözünün qabağına gətirirdi. Düzdür, ata-anası da ona deyirdi ki, a qızım, evdə qalıb un çuvalına tay olmaqdansa, getsən yaxşıdı. Tezi-geci, birinin ocağını qalamalısan. Hər şeyin də bir vaxtı var, elə bilirsən, qalıb qarımaq yaxşıdı?! Bizə görə özünü bədbəxt eləmə. Gözün-könlün tutan bir halal süd əmmişi düşsə, - yox - demə. Elə ər evində də əlin üstümüzdə olar. Onacan da gədələr yekəlib bizi qayğıdan qurtarar.

Qənirənin həyat yolundakı ən böyük maneə onun qənirsiz gözəlliyi idi. Bu cazibədarlıq ona xoşbəxt-

likdən çox qəm, kədər, əsəbilik gətirirdi. Hamının gözü ondaydı. Lakin Qənirənin daxili gözəlliyi xarici gözəlliyindən qat-qat üstün idi. Bunu bütün Qalaça camaatı bilirdi. Yalandan da olsa, onun adına pis bir söz deyilməmişdi. Qənirəni gözəlliyin zirvəsinə qaldıran onun ədəbli, əxlaqlı bir qız olmasıydı. Qənirənin böyür-başında ən çox sədr quyruq bulayırdı. Elə onun kitabxanadan uzaqlaşmasının da əsas baiskarı Səftər idi. Çünki kitabxana ilə idarə divar-divara idi. İş vaxtı hamı çəkilib gedəndən sonra Səftər kitabxanaya girib dəqiqədəbir qızın dəngini tökürdü. Ancaq nə qədər aşağı-yuxarı danışsa da, Qənirədən xoş bir cavab ala bilmirdi. Bir dəfə Səftər səliqə ilə geyinib-kecinib, saçlarını darayıb, damağında siqaret kitabxanaya girdi. Qənirə onu görəndə sifətini turşudub ayağa qalxdı. Üzünü əks tərəfə çevirdi və oxucuların qaytardıqları kitabları səliqə ilə rəflərə düzməyə başladı. Səftər keçib Qənirənin oturduğu stulda əyləşdi və əda ilə qıçını qaldırıb qıçının üstünə aşırdı. Damağındakı siqaretin tüstüsünü başından yuxarı püləyərək ona atmaca atdı:

- Görünür, sizin üçün bu kitablar məndən maraqlıdır?

- Əlbəttə! - Qənirə kinayə ilə cavab verdi.

- Sizdən belə cavab gözləməzdim, Qənirə xanım.

- Buna təəssüflənmək lazımdır. Yəqin ki, verdiyiniz yersiz sualın cavabını anlamaq fəhminiz olsaydı, ailəli bir kişinin, özündən on beş yaş cavan bir qızla bu cür davranmasından heç olmasa xəcalət çəkərdi. Həm də ki, aqillərin dərrakəsindən süzülüb gələn bu yığın-yığın kitablar mənə ədəb-ərkan təlqin edir, siz isə əxlaqsızlıq! Mən birincisinin yolçusuyam. İkincisi isə qadın üçün əbədi bir ləkədir. Elə bir ləkə ki, insanın əsrlər boyu uyuduğu qara torpaq da onu çürüdüb yaddaşlardan silə bilmir.





- Sizə olan məhəbbətimdən istifadə edib heysiyyətimə toxunursunuz. Böyük bir kəndin başçısı ilə bu cür danışmazlar. - Səftər qıza incikliyini bildirdi. - Həm də sizi ürəkdən sevən bir adamla, - əlavə etdi.

- Böyük kəndə kiçiklərin başçılıq etməsi faciədir. Bir də ki unutmayın ki, sizə vəzifə veriblər, ağıl-kamal yox. Birincisi müvəqqəti, ikincisi daimidir. Burada oxuduğum kitablar diktə edir ki, dərrakə vəzifənin sükançısıdır. Deyərdim ki, sizi sürətlə gedən qatarın ağıldan kəm sükançısının aqibəti gözləyir.

Səftər tüstülətdiyi siqaretin kötüyünü kənara atıb, səlahiyyət sahiblərinə xas əda ilə:

- Sən demə, xəmir də daşarmış. Bu dilləri hardan öyrənmisən?!

- Sizin bir dəfə də əlinizə alıb, üzünü açmadığınız bu rəflərdəki yığın-yığın kitablardan! Əlacım olsaydı, onların sətirlərinə hopmuş mürəkkəbdən bir qədəh şərab düzəldib, gündə başınıza çəkdiyiniz büllur qədəhinizə süzərdim. O düşkünü olduğunuz şərablar kimi əsla beyninizi dumanlandırmazdı. Əksinə, sizə şərəf gətirərdi. Ləyaqətin, insanlığın mənasını dərk etmək xoşbəxtliyi sizə də nəsib olardı. Yaşadığımız bu gözəl dünyada naqislərin sayı heç olmasa bir nəfər azalardı.

Səftər Qənirənin işlətdiyi dəyintili sözlərin ona dəxli yoxuymuş kimi, süni bir təbəssümlə:

- Elə bil dilotu yemisən, - dedi. - Lap qədim filosoflar kimi danışırsan. Sözlərin də o qədər qəlizdir ki, nə demək istədiyini başa düşmək olmur. Gəl, açıq-aydın, bir az da sadə dildə danışaq.

Qənirə:

- Mən sadə, kasıb bir kəndli qızıyam, - dedi. - Bu cür danışmağıma vadar eləyən sizin nalayiq hərəkətlərinizdi

və sizə olan nifrətimi ifadə etmək üçün başqa söz tapa bilmirəm. Bir də ki, hər kəslə öz layiqi olduğu dildə danışıram. Siz Qalaçada yeganə şəxssiniz ki, görəndə əsəbləşirəm, ağlımı itirirəm, nə danışdığımı, necə danışdığımı özüm də bilmirəm və qarşımdakı murdar adama nifrət etdiyim qədər də, özüm xəcalət çəkirəm.

Səftər:

- Məni nə topa-tüfəngə tutmusan? Döysən də, söysən də, açığı səndən xoşum gəlir, - dedi. - Düzünü bilmək istəyirsənsə, razılıq versən, arvadımdan aralanıb səninlə həyat qurardım və bizim bu sevgi söhbətimiz baş tutsaydı, özümü xoşbəxtlərin xoşbəxti hesab edərdim. Nəyə desən and içərəm ki, bu, mənim ürək sözlərimdir.

Qənirə:

- Ola bilər. Lakin ağlımı o qədər də itirməmişəm ki, dediklərinizi məni ürəkdən sevən bir adamın qəlbindən qopub gələn saf məhəbbətin sədası kimi qəbul edim. Bu, yelbeyin qızları ovsunlayıb tora salmaq üçün dəli-divanə qiyafəsinə bürünmüş riyakar kişilərin əzbərlədiyi bəlağətli ibarələrdir. Nakəs kişilərin şirin dilinə uyan zavallı qızlar ötəri nəşənin onlara bəxş etdiyi əbədi əzabdan xilas ola bilmirlər. Və ləkəli bir qadın kimi ömürləri boyu töhmət-tənə hədəfinə çevrilirlər. Həm də mənsub olduqları ailəni, nəsli-nəcabəti illər boyu yaddan çıxmayan namussuzluq əzabı çəkməyə məhkum edirlər.

Səftər əyləşdiyi stuldan qalxıb pəncərəyə yaxınlaşdı. Və suçlu baxışları ilə bayırda adam olub-olmadığına diqqət yetirdi. Həyət-bacada heç kəs gözə dəymirdi. Əks tərəfdəki suvaqsız evin köhnə divarlarındakı dəlik-deşikdə qaynaşan boz sərçələrin həyəcanlı civiltisi eşidilirdi. Qara zolaqları olan bozumtul pişik pusquda dayanıb, onları caynağına keçirmək üçün fürsət axtarırdı. Sərçələr





isə yuvalarındakı ətcə balalarını yağı düşməndən xilas etmək üçün səs-səsə verib, sanki bütün kəndi köməyə çağırırdılar. Bozumtul pişik qonşu həyətdən çıxan qıllı köpəyi görən kimi marığında yatdığı ovunu buraxıb küçə yuxarı götürüldü. Səftər laqeydcəsinə seyr etdiyi bu mənzərədən diqqətini ayırıb geri döndü və sakitcə Qənirənin biləyindən yapışmaq istədi. Qənirə səksənib əlini geri çəkdi və əyləşdiyi stulun arxasına keçdi. Və həyəcanlı baxışları ilə onu təqib edərək:

- Əclaf! - dedi. - Sizin bu hərəkətiniz nə yaşınıza, nə də ki, tutduğunuz vəzifəyə yaraşmır. Özünüzü ədəbli aparın, yoxsa... - Qənirə sözünün dalını gətirmədi və qəhərlənən kimi oldu. Nə demək istəyirdisə, özünü güclə saxladı.

Səftər pərt oldu və bu dəfə yağlı, yalvarıcı dilini işə salaraq:

- Məni bağışla, Qənirə, - dedi.- Özümlə bacarmıram. Ona görə də hansı qüvvə isə səni qollarımın arasına alıb bağrıma basmağa sövq edir. Sən isə məndən qaçırsan. Lap başımı itirmişəm. Bilmirəm necə edim ki, məhəbbətimiz qarşılıqlı olsun. Səni sevdiyim qədər də sən məni... Qarşında diz çöküb yalvarıram, mənə inanıb etibar et. Gəl, açıq danışaq. Bir-birimizdən heç nəyi gizlətməyək.

Qənirə eyni çılğınlıqla:

- Əvvəla, anlayıb başa düşməlisiz ki, şikəst atam, xəstə anam, hələ əli çörəyə çatmayan tifil qardaşlarım var, - dedi. - Onların məndən başqa kölgə salanları yoxdur. Odur ki, belə bir ailəni atıb ərə gedəcəyimi ağlınıza belə gətirməyin. İkincisi də, ailə qurmaq fikrinə düşsəm, yüz il də qalsa, sizin kimi nakəslə bir yastığa baş qoymaram.

Qənirənin bu sözü Səftəri sillə kimi tutdu. Və onun ehtiraslı gözləri çuxura düşdü. Sifəti avazıdı, qulaqları-

nın dibinə qızartı çökdü. Lakin yenə də özünü o yerə qoymadı:

- Yaxşı, demək, məni qəbul etmək istəmirsən?! - Ümidsiz baxışları Qənirənin nifrət ifadə edən qızarmış yanaqlarında donub qaldı.

- Xeyr!! - Qənirə onu qətiyyətli cavabı ilə rədd etdi.

- Səbəbi? - Səftər sanki yazıqlaşdı və yalvarıcı dillə eyni sualı təkrar etdi...

Qənirəninsə cavabı bu oldu:

- Gözəl qadınların işvəsinə uyub doğma ailəsindən üz döndərən və ötəri ehtirasların əsirinə çevrilən sizin kimi alçaq, biqeyrət kişilərə nifrət edirəm.

Səftər:

- Təhqiramiz sözlərin sənə olan məhəbbətimin odunu söndürə bilməz, - dedi. - Ona görə də nə desən, mənə qəbuldur. Lakin bu məsələni biryolluq həll etməliyik.

Qənirə:

- Hansı məsələni?! - soruşdu.

- Ya arvadı boşuyub, qayda-qanunla səninlə evlənirəm, ya da ki... - Səftər sözünün dalını gətirmədi. Susdu.

Qənirə qeyzlə:

- Oxunu atıb yayını gizlətməyin, ya da ki, nə?.. - Səftərdən soruşdu.

Səftər:

- Ya da ki, başqa bir yerdə ev düzəldib günümüzü keçirərik, - dedi.- Və yaxud elə-belə... Heç kimin bilməməsi şərtilə gizli əlaqə saxlayaq. Buna sözün nədir?! Bu üç şərtin hansı ürəyincədir, de! İmkanlarımı da ki, bilirsən. Böyük bir kəndi mənə tapşırıblar, əlimin üstə əl yoxdur. İstədiyin şəraiti yaratmağa, səni dünyanın ən qiymətli daş-qaşlarına qərq etməyə hazıram. Bütün ailənizi də saxlamaq öz yerində.





Qənirə:

- Təəssüf ki, mənim arzu etdiyim başqadır, - dedi. - Siz onu tapmağa qadir deyilsiniz.

Səftər:

- Yəni hər şey pulun başında deyil, - deyib, qoltuq cibindən bir qom qırmızı otuzluq çıxartdı və Qənirənin gözü qabağında nümayiş etdirdi. - Yolunda milyon qoymağa hazıram. Buna heç bir şəkki-şübhən olmasın.

Qənirə kinayə ilə:

- Əliaçıq, səxavətli olduğunuza şübhəm yoxdur. Ancaq təəssüf ki, mənə lazım olanı dükanda-bazarda satmırlar, - dedi.

Səftər təəccüblə soruşdu:

- O nədi heylə?!

Qənirə acı istehza ilə:

- Alicənablıq! Mərdlik! Dəyanət! Qeyrət! Kişilik qüruru! Qadın üçün bundan qiymətli daş-qaş təsəvvür etmirəm. Heyf ki, siz bu barədə kasıbların kasıbısınız.

Səftər:

- Sən sayıqlayırsan, Qənirə, - dedi. - Quru kişilikdən bir şey çıxmaz. Hər şey pulun başındadır. Yolunda bütün varlığımı qoyardım. Bunu birdəfəlik bil. Həyatda hər şey sevginin qarşısında acizdir. Nəyə desən and içim ki, sənə ürəkdən vurulmuşam. Qarşımdakı nazənin sənəmsiz dünya mənə heçdir. Qalaçanın havası mənim üçün ona görə xoşdur ki, onda sənin nəfəsinin ətrini duyuram.

- Haa!.. Haa!.. - Qənirə rişxəndlə güldü və: - Sən demə, Məcnundan da, Kərəmdən də betər dəli-divanələr varmış və onların sevgisi sizin mənə olan məhəbbətinizin yanında heç imiş. - Qənirə bunu deyib ciddiləşdi. - Aldığım ədəb özümdən böyüklə, kişi xeylağı ilə bu sa-

yaq danışmaq üçün mənə haqq vermir. Lakin hərəkətləriniz məni vadar edir deyim ki, siz riyakarsınız. Məktəbin rus dili müəlliməsi Natalya, medsestra Nüşabə, ferma müdirinin ərə gedib qayıtmış bədbəxt qızı Gülşən, rayon xəstəxanasında medsestra işləyən tatar qızı Natella... və daha kimlərlə, bax, bu cür saxta, aldadıcı dildə danışmamısınız?!. Bunu bütün aləm bilir. Siz kimə könül verməmisiniz?! Kimin dərdindən ölməmisiniz?! Vəzifə, pul sizin kişiliyinizi də, abır-ismətinizi də, namus-qeyrətinizi də əlinizdən alıb! İnsani keyfiyyətlərdən məhrum olmuş yazıq, bədbəxt bir məxluqsunuz. Adətən insanlar dünyasını dəyişəndə ona yas tuturlar. Sizi isə diri-diri ağlamaq lazımdır. Kənddə sizin barənizdə nələr danışıldığını eşidib bilsəydiniz, haqqınızda ölüm hökmünü özünüz verərdiniz. Ancaq buna cəsarətiniz çatmaz. Çünki vəzifəniz də, mənalı hesab etdiyiniz firavan həyatınız da, riyakarlıq adlanan çürük bir bünövrənin üzərində bərqərar olub. Üzdə sizə gülə-gülə əl çalanlar, ürəkləri ilə gizlicə pıçıldaşıb deyirlər ki, Qalaçanın tarixində belə bir fitnəkar, ikiüzlü adam olmayıb. Boğazdan yuxarı nə qədər mədh edilsəniz də, qəlblərdə bir o qədər lənətlənirsiniz!

Səftər nə demək istəyirdisə, onu bayırdan çağırdılar. Deyəsən, rayon mərkəzindən nümayəndə gəlmişdi, sədri axtarırdılar. Ona görə də Səftərin demək istədiyi söz dilinin ucunda qaldı. Tez özünü düzəldib baxışlarına təmkinli ifadə verdi və Qənirə ilə xudahafizləşmədən tələsik kitabxananı tərk etdi.

Qənirə yasa batıbmış kimi əlini alnına söykəyib xəyala daldı. Onun uzun kirpiklərində sübh çağı gül yarpağına düşən şeh damcıları kimi göz yaşı gilələndi.





* * *

Səftərlə Qənirənin arasında bu cür qanqaraldıcı söz-söhbətlər çox olmuşdu. Qənirə yaxşı başa düşürdü ki, Səftərin hərəkəti onu aldadıb ələ almaq və müvəqqəti əylənmək niyyətindən başqa bir şey deyil. Qənirə bu çağacan qoruyub saxladığı bakirə adının ləkələnməməsi üçün cürbəcür yollar fikirləşirdi. Axır qənaəti də bu oldu ki, ərizə yazıb kitabxanadan uzaqlaşsın və bu qadın düşkünü, əyyaşla üz-üzə gəlməsin, camaatla bir yerdə işə gedib-qayıtsın. Ondan sonra Səftərdən yaxası qurtarar, onun nalayiq sözlərini eşitməz. Və beləliklə də Qənirə məcbur olub kitabxanaçılığın daşını biryolluq atdı.

Elnən gələn qara gün toy-bayramdır, - deyiblər. Məktəb qurtarıb, kitabxanaçılıq ixtisası qazanmasına baxmayaraq, adını təmiz saxlamaq xatirinə qoşuldu kolxozçulara. Önlük bağlayıb zəmi biçdi, heşan saldı, vəl üstünə çıxıb xırman döydü, barama qurdu saxladı, çəltik becərdi ki, azdan-çoxdan qazanıb dörd baş külfəti birtəhər dolandırsın. Cahangir kişi ona deyəndə ki, kitabxanadan nahaq aralaşdın, Qənirə bilmədi nə cavab versin. Odur ki, susdu. Başına gələnləri xatırladı, lakin düşündüklərini dilinə gətirmədi. Ağır-ağayana kişinin nüfuzu qarşısında lal oldu. Cahangir də sözü çevirmədi. Beləcə dinib-danışmadan kəndə çatdılar.

Qənirə götürdüyü yarım qutu barama qurdu toxumunu əl dəsmalı boyda ağ parçaya büküb qoynunun hərarətində diriltmişdi. İndi qurdun xirik vaxtıydı, şaxa çıxıb barama bağlamasına az qalmışdı. Belə məqamda qurdun yemini gecikdirmək olmazdı. Qurd doyunca yarpaq yeməsə, gətirdiyi məhsul tərəzi döyməzdi, çəkisi aşağı düşərdi, zəhməti hədər gedərdi. Ona görə də Qənirə işin axırında çəltik alağından sonra özünü oda-közə vurub tut

yarpağı yığırdı. O, kəndə çatanda Cahangirə dil-ağız eləyib razılığını bildirdi. Və yarpağı ondan almaq istədi. Cahangir razı olmadı. Atı düz Qənirəgilin qapısına sürdü və qucağındakı yarpaq şələsini yerə qoydu.

Qənirə ata-anasından hal-əhval tutub, tez barama qurdu bəslənən otağa daxil oldu. Gətirdiyi yarpaq büzüşüb keyfiyyətini itirməsin deyə, taxtın üstündə qarışqa kimi qaynaşan qurdlara payladı. Odun peçi qoyulmuş isti otaqdan axar çayların sakit səsini xatırladan xəfif xışıltı eşidilirdi. Otaqdan baramanın kəsif qoxusu gəlirdi. Qənirə irilib barmaq yoğunluğunda olan barama qurdlarını yemləyib qurtarandan sonra balalı heyvanları yerbəyer elədi. Cəld hərəkətlə samovara od saldı. Yemək qazanını sacayağının üstünə qoyub altını qaladı...

Qənirə bütün bu işləri təkbaşına, həvəslə, yorulmadan görürdü. Yarımcan ata-anasının, tifil qardaşlarının yolunda can qoyurdu.

* * *

Həmin axşam hava tutulmuşdu. Qalaçanı əhatə edən dağların başında qara buludlar qaynaşırdı. Tək-tük yağış düşürdü. Cahangir həmin gecəni narahat yatdı. Çünki gözünü bir balaca yuman kimi, yeri-göyü silkələyən aramsız göy gurultusu onu səksəndirib yuxudan oyadırdı. Yağış arabir səngiyib yenə də şiddətlənirdi. Kəndin küçələrindən axan bulanıq selin şırıltısı eşidilirdi. Həyət-bacalarda yağış suyu dizə çıxırdı.

Səhərə yaxın Qalaçanın səmasında sıxlaşan buludlar gecənin qaranlığına qoşulub harasa çəkilib gedir, hava ayazıyır, tək-tük görünən ulduzlar təmiz səmada sönüb yox olurdu. Cahangir erkən evdən çıxıb, sarı madyanın belində işə yollandı. Selin qıjıltısı kəndi başına götürmüşdü. Qalaçanın ayağından keçən çaylaq o tay, bu tay qovuşmuşdu. Məcrasına sığmayan azğın sel kükrəyib şahə qalxır və sanki üzbəüz dayanan dağlara, qayalara meydan oxuyurdu. Havanın ayazımasına, yağışın kəsməsinə baxmayaraq, uzaq dağlardan, dərələrdən baş alıb gələn güclü sel hələ də azalmaq bilmirdi. Cahangir sarı madyanı selə vurmaq istədi, lakin fikrindən daşındı. Çünki su duru olsa nə var, sarı madyan bundan da dərin çaylardan asanlıqla üzüb keçər. Lakin çamır qoxusu gələn bozarmış bulanıq suların diyirlədə-diyirlədə gətirdiyi iri daşlara tab gətirə bilməzdi. Büdrəyib sahibi qarışıq selin ağzına düşərdi. Ona görə də Cahangir atın başını kənara çəkib selin azalmasını gözləməli oldu. Dəyirmandan gələn un yüklü ulaqlar selin o tayında qalmışdı. Yüklü at-eşşəyin yanında dayanan un sahibləri də Cahangir kimi ürək eləyib özlərini selə vurmaq istəmirdilər. Lakin ağzı yelli dəliqanlı cavanlar, ötkəmliklərini nümayiş etdirmək üçün çırmanıb: - Allaha pənah, nə olar, olar, - deyib özlərini selə vurmaq istəyirdilər. Cahangir kişi sifətini bozardıb, barmağını silkələyə-silkələyə o taydakılara təpindi:

- Ə, gözünüzü qan örtməsin, - dedi. - Sellə zarafat olmaz, cəhənnəm olun, çəkilin geri.

Cahangirin hədə-qorxusundan sonra selə girmək istəyən ötkəm cavanlar şalvarlarının balağını aşağı salıb geri çəkildilər.

Selin yuxarılardan kökündən qoparıb gətirdiyi iydə ağacı Cahangirin diqqətini cəlb etdi. Ağacın kökləri gah selin dərin burulğanına düşüb gözdən itir, gah da suyun üzünə qalxıb ləngər vura-vura üzüaşağı axırdı. Ağac irəlidəki qayaya ilişib xeyli dayandı. Meyvəsini dərib, kölgəsində dincələn insanlardan imdad, kömək diləyirmiş

kimi çırpındı. İydənin didilmiş gümüşü yarpaqları, nazik qol-budağı güclə görünürdü. Sel ağacı gücü gəldikcə silkələyib titrədir və sanki bu cansız məxluqdan qəddarcasına qisas almaq istəyirdi. Ağac isə yalvarırdı, onun qəsdinə duran amansız selin ağzından xilas olmaq üçün sahilə can atırdı, torpaqla təmas tapıb, dirilmək, dirçəlmək, qamətini düzəltmək istəyirdi. İydə bulanıq qara çalpovda burula-burula qalmışdı. Sellə çarpışırdı, vuruşurdu, amansız dalğalara bac vermək istəmirdi. Cahangir sanki ağacla selin amansız döyüş səhnəsinə tamaşa edirdi. Axır ki, sel iydə ağacının pənah gətirdiyi iri daşı da yerindən oynadıb, dərin-dərin sularına qərq etdi. İydə ağacı bir neçə dəfə suyun üzünə qalxdı. Qanadlarını ora-bura çırpdı. Lakin dalğalardan yaxa qurtara bilmədi. Əlləşib taqətdən düşdükdən sonra qol-qanadını yanına salıb, çamır qoxusu gələn bulanıq sularda birdəfəlik qərq oldu. Cahangir bu ağacı Ağqaya düzünün qurtaracağındakı yarğanın dibində, çaylağın kənarında görmüşdü. Kərənti ilə ot çalanda, neçə dəfə iydənin sarı-salxım çiçəklərinin ətir saçan kölgəsində süfrə açıb çörək yemişdi. Dibindən axan dupduru sərin çeşmədən su içmişdi. Payızın axırlarında şirin-şəkər barından yeyib, ciblərinə yığdığı da olmuşdu. Ona görə də selin iydəni kökündən qoparıb aparması səhər-səhər Cahangirin ovqatını korladı. Elə bil sel iydəni yox, elə Cahangirin özünü daşlara, qayalara çırpıb, sularına qərq edirdi. Cahangirin əlacı olsaydı, selin qabağını kəsib iydə ağacını xilas eləyərdi. Ancaq çarə yox idi. Təbiət də insanlar kimidi. Onun mərhəməti qədər də şıltaqlığı, qəddarlığı, zülmü var. Cahangir bu qədim ağacın acınacaqlı aqibətinin şahidi olduqca xəyallanır, dərin-dərin düşüncələrə dalır, fikrinin dolaşıq düşmüş kələfi çözələnib çox uzaqlara gedirdi. Nə qədər dəyanətli olsa da, mütəəssir hisslər keçirirdi. Torpağı zinətləndirən, baharda xoş ətrini xəfif mehə qatıb Qalaça camaatına ərmağan edən, barını-bəhrəsini həndəvərində dolaşan insanlardan əsirgəməyən yüzillik ağacın bu yaz səhərində boz-bulanıq sellərin zavalına gəlməsi Cahangirə təsir edirdi. Bu təbiət incisinin halına acıyır, onu ürəyinə salıb, məyus olurdu. Düşünürdü ki, Qalaçanın qollu-budaqlı sakinlərinin birinin də yeri beləcə boş qaldı. Neçə-neçə şüurlu-şüursuz canlının kölgəliyi kəsildi. İydənin gecə-gündüz həmsöhbət olduğu çeşmə kimsəsiz qaldı. Cahangirin fikri-zikri elə o iydə ağacı kimi selin çamırlı girdabında burula-burula qalmışdı.





Yağış bir neçə saat olardı kəsmişdi. Hava açılmışdı. Sel də getdikcə azalır, durulur, məcrasına çəkilirdi. Cahangir bayaqdan sahildə dayanan qız-gəlini sarı madyanla, durulub dibi görünən seldən keçirdikdən sonra arxayın yoluna davam etdi.

Cahangir Dəlmə arxına çatanda yer-yurd qurumuşdu. Yal-yamacı bəzəyən rəngbərəng çiçəklərin üstündəki şeh damcıları sübh günəşinin şəfəqləri altında büllur zərrəcikləri kimi bərq vururdu. Caydaq ayaqları olan leyləklər sakit-sakit addımlayıb, sanki çəltik ləklərində alaq eləyənlərə həyan olurdu. Su dolu ləklərdə qız-gəlin mahnı oxuyurdu. Çayın şırıltısı və dəyirmanın boğuq uğultusu qəlbləri riqqətə gətirən şən səslərə qarışmışdı.

Qənirə nədənsə bu gün işə gecikmişdi. O, Cahangirə utancaq salam verib başını aşağı dikdi və tələsik addımlarla ötüb keçdi. Elə bil onu arxadan qovurdular. Sədr yorğa atını Qənirə ilə daban-dabana sürürdü. Onlardan xeyli aralıda çəltik briqadiri Fərəməzin yabısı yorturdu.

Sədr bir-iki dəfə alçaqdan - Qənirə!, Qənirə! - deyib arxadan onu səslədi. Qənirə Səftərin səsini eşitmirmiş kimi, geriyə baxmadan addımlarını daha da yeyinlətdi. Cahangir sədrlə Qənirənin bu cür müəmmalı hərəkətindən şəklənən kimi oldu. Ağlına nə gəldisə, yuxarı tərəfə baxdı, Qızıl qayanın dibində gizlətdiyi üçatılan yadına düşdü. Lakin Cahangirin qəlbində baş qaldıran bu hiss tez də ötüb keçdi. O, - lənət şeytana! - deyib, dünən axşam qoyub getdiyi alətlərini kolların arasından çıxarıb, var gücü ilə işinə davam elədi.

Bu gün iş bir qədər çətinə dirənmişdi. Çünki uzun illərdən bəri bitən kol-kos, saqqız, alça, cır tut ağacları Dəlmə arxını basmışdı. İndi oğul lazım idi ki, əvvəlcə bu ağacları doğrayıb arxı kol-kosdan təmizləsin. Və sonra qazıntıya başlasın. Cahangir əvvəlcə heybədəki ağac saplı uzun yiyəsini çıxardıb səbrlə dəhrə-baltasının ağzını ovxarladı. Dəhrənin ağzı ülgüc kimi tük aparırdı. Baltanın ağzını qılınc kimi itiləmişdi. Arvad tərəfdən Cahangirə uzaqdan-uzağa qohumluğu çatan və ondan bir neçə yaş kiçik olan bağ briqadiri Şahsuvar əl-ətəkdəki budaqlardan sallanan və hələ yaxşı yetişməmiş qırmızı gilasdan xeyli dərib nübar elədi. Bir ovuc da cibinə yığıb çəpərdən adladı və Cahangirə tərəf dikəldi. Şahsuvar xoş əhval-ruhiyyə ilə:

- Yorulmayasan, Cahangir əmi, - deyib əlini cibinə saldı. Yığdığı gilasdan bir ovuc çıxardıb ona uzatdı. - Qızarmasına baxma, hələ yaxşı sulanmayıb. Ancaq necə olsa, nübardı. Bir-ikisini at ağzına.

Cahangir onun sözünü yerə salmadı. İki-üç gilə götürüb, qalanını geri qaytardı və:

- Sağ ol, - dedi. - Payın artıq olsun, nübara çatasan.

Şahsuvar arx boyu qazılıb çıxarılan torpaq təpəciklə-





rinə baxanda təəccübləndi və Cahangirin halına yanırmış kimi:

- Eeh! Pir olmuş! Sən də durduğun yerdə özünü əngələ salmısan, - dedi. - Hələ harasıdır, işin çətini qabaqdadır. İnanmıram ki, yayacan arxı təmizləyib bir yana çıxarasan. - Briqadir bunu deyib inamsızlıqla başını buladı. - Əlxüsus da təpənin altından keçən Dəlməni təmizləmək zülüm işdi. Bilmirəm necə oldu, birdən-birə bu işə baş qoşdun. Yüz illərdir bu arx yaddan çıxıb, itib-batıb. İndi sən tərsliyinə salmısan ki, gərək arxa su çıxardam.

Cahangir gülümsündü:

- Qohum, cibində də partiya bileti gəzdirirsən. Bu, firqəçi sözü deyil. Görülən işə xeyir-dua verərlər, tay qulp qoymazlar. - Cahangir Şahsuvara ərklə cavab verdi. - Dünyada bircə ölümə çarə yoxdur. Bir də ki, təpənin altından keçən Dəlmə arxını çəkənlər, guya ki, göydən gəliblər, yoxsa dörd əlləri olub?! Elə onlar da bizim kimi adi adamlar imiş. İntəhası, indikilərdə cürət çatmıyıb. Heç kəs dərisini kola verмək istəmir. İçi sən, mən qarışıq hamımız deyirik, Allahdan buyruq, ağzıma quyruq! Molla Tağının insanlıqda payı olmasa da, bilikli adamdı. Kəlləsi yaxşı işləyir. Di gəl ki, o başın sahibi camaata kələk gəlir. Tamahı da ki, Həzrət Əlinin qılıncından itidir. Uşaqlıqda onun yanında bir müddət dərs almışam. Molla Tağı müdrik babalarımızın bir sözünü həmişə təkrar edib deyirdi ki, torpağı becərmirsənsə qorumağa, qorumursansa becərməyə dəyməz. Dövri-qədimdə bu arxın altında yüz hektarlarla əkin-biçin sahəsi olub. Arx uçub-dağılandan sonra sən özün də şahidsən ki, həmin yerlərdə ot da bitmir. Elmim, savadım olmasa da, mənə elə gəlir ki, susuzluqdan

yanıb qovrulan həmin torpaqlar elə bil Qalaça camaatından inciyib, üz döndərib. Torpağın dili olsaydı, deyərdi ki, bir ovuc suyun dərdindən niyə mer-meyvəli bağlarım, bostanlarım, sarı sünbüllü zəmilərim, gəlib-gedənlərim yoxa çıxıb?! Barsız-bəhrəsiz olandan bəri qurd-quş da məndən qaçır, səmtimə gələn yoxdur. Bizim bu Qalaçada arvadlar bir-birini qarğıyanda deyir ki, səni görüm, sonsuz qalasan, bala üzü görməyəsən. İndi elə bil Cəyən düzünə qarğıyıblar. Arxı dağılıb, suyu kəsilib, torpaqda diş qurdalamağa çöp də bitmir.

Cahangir bunu deyib daha da qeyzləndi. Bir addım irəli yeriyib üzünü Şahsuvara tutdu:

- Yaşca məndən xırda olsan da, az-çox dünya görübsən. Xatirini də dağlarca istəyirəm. Çünki düz adamsan. Halalı qoyub harama gedən deyilsən. İndi elə zəmanəyə gəlib düşmüşük ki, dəvənin sərvanını gətirib bağlayırlar ulağın quşqununa. Lüt Qasımın oğlu lovğa Səftər kimi oturuşunu-duruşunu bilməyən dəyyusun birini gətirib Qalaçaya ağa qoyublar. O da gözümüzün qabağında yüz hoqqadan çıxır. Lüt Qasımın oğlunun yadına Dəlmə arxı düşür?! Qurd nə bilir, qatır bahadı?! Köhnə arxa su gəldi, gəlmədi, Cəyən düzünə su çıxdı, çıxmadı, onun nə vecinə?! Belə bir söz var, qurban olasan zərgərə, səni salıb pərgara. İxtiyar əlində, erkək at altında. Rayondan gələnlər də onun sözünü deyir. Di gəl görüm beləsi ilə necə çalıb-çağırasan?! Hər gün dörd dəfə yanımdan belədən-beləyə ötür, belədən də belə. Denən sədr olan kəs, bircə dəfə dilindən qıfıl götürüb soruşur ki, burda neynirsən, çətinliyin nədir?! Ey töbə, yox!

Cahangir bu sözləri dedikcə içəridən odlanırdı. O, daha da əsəbiləşərək:

- Bax, bütün bunları gözümün qabağına gətirəndə elə





sən haqlısan. Düz deyirsən. Arx el işidir, tək mən Cahangirin xörəyi deyil. Şahsuvar, tay onlardan keçib, eşşəyə minmək bir ayıb, düşmək iki ayıb. Özüm də bilirəm ağır işə girişmişəm. Amma başqa çarə yoxdu. Töhmət-tənədən qurtarmaq üçün gərək heç olmasa, yayın ortalarında işi başa vurub, arxı təhvil verəm. Burada sənə bəlli olmayan sirrlər çoxdur. Öz tayfamızdan olduğuna görə bəzi sözləri açıq deyə bilərəm. Bütün ruhlar üstümə qalxıb. Gecələr yol gedəndə dağlar, daşlar da üstümə hücum çəkir. Hardansa qulağıma vahiməli səslər gəlir: - Cahangir, Dəlmə arxını çəkməsən, o dünyada yerin yoxdu! Şahsuvar, bu sirri bəlkə də ilk dəfədi açıram. Ona görə ölsəm də, arxı tək canımla çəkməliyəm. Əhdim odur ki, Cəyən düzü sirab olub sevinsin, öləndə də torpaq məni xoş sifətlə qəbul eləsin. Orda rahat yatmağa haqqım olsun.

Cahangir bunları deyib, yarızarafatla əlavə etdi:

- Həə! Mənim can-ciyərim, Zabıxlı tayfasının törəməsi, firqəçi Şahsuvar! İndi başa düşdün ki, Cahangir əmin niyə səhərdən axşamacan Fərhad kimi külüng çalıb, tər tökür?! Anladın də, Höcət Cahangir bu yolda şirin cana niyə qəsd eləyir? Amma cibinə bilet qoyanların biri irəli durmur. Danışanda da ağızlarına çullu dovşan yerləşmir, hamısı vəzifə güdür. Zəhmətsiz qazanc yeri axtarır.

Şahsuvar yaxşı bilirdi ki, Cahangir hansı əqidənin sahibidir, ona görə də dediklərinə müdaxilə etmədən diqqətlə qulaq asır və başının hərəkəti ilə Cahangirin dediklərini təsdiq edirdi. Və Cahangirin hansı simə vurduğunu da anlayıb başa düşürdü. Lakin vəzifəsinin xatirinə dillənib artıq-əskik danışmırdı. Düşünürdü ki, Cahangirdən fərqli olaraq, onun cibində partiya bileti var. Bir

balaca alt-üst vursa, gedib yuxarıların qulağına çatar. Elə həmin gün kürəyinə bir yaramaz damğası vurub partiyadan qovarlar. Birənin də ki, qabığını aldın, elə bil canını aldın. Şahsuvarın partiya bileti əldən gedəndən sonra olardı itdən düşmüş. Kənddə ona salam verən də olmazdı. Ondan sonra getsin ölsün, kimdi Şahsuvarı itirib-axtaran. Partiya sıralarından qovulandan sonra, tay onun nə hörməti ola bilər?! Onu da bilirdi ki, sədrlə Cahangirin arası sərindir. Kənddə briqadirin onunla yaxınlığını və ya görüşüb söhbət etdiyini eşidib bilsə, Şahsuvarı bir bəhanə ilə briqadirlikdən uzaqlaşdırar. Üstünə bir ad qoyub, elə həmin gün şələ-şüləsini qoltuğuna verər. Ona görə də Şahsuvar vacib işi olduğunu bəhanə gətirib tez Cahangirdən aralandı. Və axırda bütün cəsarətini toplayıb bircə bunu dedi:

- Cahangir, saa ağıl öyrətmək olmasın, zamanə xarabdı. İndi kəsək daşdan ağır olub. Ona görə də bir budağa minib minini yırğalama. Mənim yanımda nə desən olar, onun ziyanı yoxdur. Bir tayfadanıq, ətini yesəm də, sümüyünü atmaram. Ancaq bunları başqasına danışma. Yerin də qulağı var. Sədr də yaxşıdı, pisdi, hər nədi, hökumət qoyub. Onun söz-söhbətindən nə qədər uzaq olsan, başın bir o qədər salamat qalar. Bilirəm ey, dediklərinin hamısı düzdür, ancaq düzə kim qiymət verir! Düz elə düzdə qalır.

Cahangir kinayə ilə gülümsündü:

- Görürəm, əsl firqəçi kimi danışırsan, qohum, - dedi, - amma çalış, o sədr kimi dili bir, əməli başqa firqəçilərdən olmayasan. Bir də ki, Şahsuvar, xətrinə dəyməsin, elə bilmə ki, firqəçilərin hamısından acığım gəlir?! Yoox, canım, firqəçi də adamdır. Yaxşısına can qurban. Tay lüt Qasımın oğlu lovğa Səftər kimi fitnə-fəsad





yuvası olmaya. Bəzən bir qotur dana bir naxırın adını batırır. O cür firqəçilər gözümün düşmənidir. Əlacım olsa, heyləsinin boynunu daldan vuraram.

Onların bir-birini başa düşmək mənasında baxışları təbəssümləndi. Daha dillənmədilər. Demək istədiklərini bir-birinin gözündən oxudular. Şahsuvar bağa tərəf üz çevirdi, Cahangir dəhrə-baltasına yaxınlaşdı. Arxın bu hissəsində bir-birinə qarışmış şax-şəvəl irəliləməyə imkan vermirdi, böyürtkən, qaratikan kollarının tikanı adamın  əl-qolunu ilan kimi sancırdı. Arxın tən ortasında qollu-budaqlı cır tut ağacları bitmişdi. Bütün bunları əvvəlcə dəhrənin, baltanın ağzına verib, sonra külüngü, düsəri, beli işə salmaq lazım idi. Cahangirdən olsa, baramaçılar üçün gərəkli olan tut ağaclarının bircə qanadına da toxunmazdı. Lakin onun başqa çarəsi yoxudu. Sərt qayaların arasından keçən arxı nə yuxarı qaldırmaq olardı, nə də ki, aşağı salmaq. Arx yalnız öz köhnə yeri ilə aparılmalı idi. Ona görə də Cahangir qarşıya çıxan kol-kosu, hündür ağacları doğramağa başladı. Arabir dəyirmanın xırıltılı səsini eşidəndə, hövsələdən çıxırdı. Dəyirman daşının Qarabağdan öküz arabası ilə nə zillətlə gətirildiyini, pərin, novun necə əziyyətlə düzəldildiyini və indi orada kimlərin ağalıq etdiyini xatırladıqca içindən qovrulurdu. - Cəfasını biz çəkək, səfasını böyür-başdan çıxan gədə-güdələr. Bu da fəhlə-kəndli hökuməti, pah, ağzımız bala batdı! - Cahangir bunları yadına saldıqca təpəsindən tüstü qalxırdı. Bilmirdi baltanı hara endirir, necə endirir. Birdən baltanın ağzı sərpib düz sol dizinin kasasını tutdu. Cahangirin qıçını qan götürdü. Tez cibindən kibrit çıxardı, tərini sildiyi əl dəsmalını yandırdı. Şalvarını yuxarı çəkib qan axan yerə yanmış əski basdı. Yaranın qanı quruyandan sonra bir-iki yerdən yırtığı olan

köhnə çörək dəstərxanının qırağından əl endə şırım çıxardıb dizinin yarasını sarıdı.

* * *

Gün əyilmişdi, yaxınlıqdakı qayaların kölgəsi arxa qədər uzanmışdı. Cahangirin təri hələ də soyumamışdı. Alt köynəyi sıxılmalıydı. Onun yorğun baxışları aralıdakı çəltik ləklərini dolaşdı. Ləklərdə özünə yem axtaran tək-tük leyləklərdən və bir-iki qara qarğadan başqa heç nə görünmürdü - deməli, hamı günorta çörəyinə çıxıb. - Cahangir öz-özünə düşündü və qırağı cırıq dəstərxanı qayanın kölgəsində açıb evdə qoyulan yağdan, şordan, soyutma yumurtadan yeyib qayışının altını bərkitdikdən sonra bir anlığa dincini almaq üçün yaxınlıqdakı ağ yastı daşa dirsəkləndi. Bayaqdan dizinin çapığı o qədər də bilinmirdi, indi yara soyuduqca ağrısı şiddətlənib ona əziyyət verirdi. Buna baxmayaraq, Cahangirin göz qapaqları hiss olunmadan yavaş-yavaş yumuldu. Cahangir sakitcə xoruldayırdı və onun azacıq açıq qalmış ağzının yanlarından axan su çənəsini, boğazının qırışlarını isladırdı. Üz-gözünə qonmuş balaca, qonur milçəklərin onu sancmasını əsla hiss etmirdi. Birdən arxdan xeyli aşağıda, bağla çayın arasındakı qalın qamışlıqdan bir cüt iri quş pırıldayıb havaya qalxdı. Lakin çox uzağa getmədi, yaxınlıqdakı ağacların dibinə qondu. Bağda təhlükə baş veribmiş kimi, quşların həyəcanlı səsi bir-birinə qarışdı. Bu yerin qanadlı sakinləri, yalnız onların yumurta qoyduqları və ya bala çıxardıqları yuvalarına doğru ilan süründüyü və ya qırğı, qarğa hücum çəkdiyi təqdirdə bu cür haray-həşir qoparırlar. Mürgülədiyi yerdə Cahangirin qulağına başqa bir səs - qadın çığırtısı gəldi. O, səksənib oyandı,





pılçıq basmış gözlərini ovuşdura-ovuşdura, - bəlkə yuxu görürəm,- öz-özünə düşündü. Lakin eyni səs təkrar olundu. Cahangir hiss etdi ki, bu, yuxu deyil, bağla çayın arasındakı qamışlıqda baş verən qadın-kişi savaşmasıdı. Qadın boğuq səslə: - Əclaf! Nakişi! Binamus! - deyib var gücü ilə qışqırır, hansı xırsızınsa əlindən qurtarmaq üçün yalvarıb kömək istəyirdi. Cahangir yaralı və yorğun olmasına baxmayaraq, ovunun üstünə hücum çəkən şir kimi yerindən qalxıb cəld ovxarlı dəhrəsinə əl atdı və baltasının sapını belindəki enli qayışın altına keçirib, ayağının altına baxmadan bağın hündür çəpərindən tullandı. Çəpərin o tərəfindəki qəlbi yarğandan sürüşüb, meyvə ağaclarının arasındakı cəngəlliyə tərəf cumdu. İri armud ağacının altında Səftərlə Qənirənin əlbəyaxa olduğunu görəndə elə bil gözlərinə qaranlıq çökdü. Yer, göy, bütün bağ başına hərləndi və bir andaca onların hər ikisini doğrayıb məhv etmək qərarına gəldi. İrəli atılmaq istəyəndə yaralı qıçı quru bir kötüyün əyrisinə ilişib üzüquylu yıxıldı və tez də ayağa qalxıb özünü düzəltdi. Qız ikiəlli Səftərin xirtdəyindən yapışıb, gücü gəldikcə onu boğurdu. Səftər isə Qənirəni özünə tərəf çəkib qolları arasına almağa çalışırdı. Cahangir kənara düşmüş baltasını götürəndə hər ikisi onu gördü. Qız bircə dəfə: - Cahangir əmi! - deyib qulun kimi qışqırdı. Cahangir onlara çathaçatda Səftər üzünü əks tərəfə çevirib arxasına baxmadan qaçıb aradan çıxdı. Qabaqdakı əzgil kolu mane olmasaydı, onların hər ikisinin də qanı getmişdi. Səftər özünü qalın cəngəlliyə salıb gözdən itdi. Qənirə tövşüyə-tövşüyə özünü qamışlığa vurdu. Cahangir əlində dəhrə onların arxasınca düşüb xeyli axtardı. Lakin sıx ağacları olan bağda, qalın qamışlıqda onları tapmaq qeyri-mümkün

idi. Cahangirin iri zəhmli gözləri hədəqədən çıxmışdı. Səftərin başını kəsib, qanını içməyə hazır idi. Belə bir rüsvayçılıqdan sonra Qənirə də yaşamağa layiq deyildi.

Cahangir çayın kənarındakı genişliyə çıxıb onların arxasınca deyinə-deyinə tər basmış üzünə bir-iki ovuc su vurdu. Sonra xeyli hərəkətsiz dayanıb çay aşağı, çay yuxarı vərəvurd elədi. Çayın nisbətən sakit axan dayaz yerində balıq tutan bir nəfər torçu göründü. O, torun bir qırağından dişi ilə yapışıb, qalan hissəsini sağ əlində dəstələyir, sola burulur və gücü gəldikcə tullayıb suyun dərinliyinə sərirdi. Bir neçə dəqiqədən sonra toru yavaş-yavaş özünə tərəf dartırdı. Torun xəzinəsində çabalayan iri balıqları görəndə sevincdən onun gözləri işıqlanır və ovunu bir-bir kənara atırdı. Çay boyu torçudan başqa heç kəs görünmürdü. Bağ-bağat, ətraf dağlar, yal-yamac yaz günəşinin altında sakitcə xumarlanıb mürgü vururdu. Çayın qıjıltısından, dəyirmanın uğultusundan, aralıdakı çəltik ləklərində işləyənlərin səs-küyündən başqa heç nə eşidilmirdi. Cahangirin fikri dağınıq olduğundan bu mənzərəni laqeydcəsinə seyr edirdi. Sanki heç nə görmür və eşitmirdi. O, çayın çınqıllı sahilindən aralanıb qamışlıqdan keçdi, bağ yuxarı dikəlib, qazdığı arxa tərəf döndü. Yarımçıq qalan işini davam etdirməyə başladı. Ancaq elə bil heydən-həvəsdən düşmüşdü, əl-qolu boşalmışdı, endirdiyi balta nə qədər iti olsa da, həmişəki kimi kar kəsmirdi. Dizinin hələ qaysaq bağlamamış çapığı da ona az mane olmurdu. O, dəhrəsini, baltasını yerə qoyub, arxın yuxarısındakı çəmənlikdə oturub, əlini çənəsinə verdi. Çönüb Qızıl qayaya tərəf boylandı, gizlətdiyi üçatılanı yadına saldı. - Heyf ki, əlim çatmadı. - Öz-özünə düşündü. - Hər ikisini yerindəcə öldürüb, Qalaça camaatına görk eləyərdim. Bilərdilər ki, istər qadın,





istər kişi, namussuz adam Qalaçada salamat baş gəzdirə bilməz. - Kəndinin, kəsəyinin qeyrətini qulaqardına vurmaqdansa, qəzəmətdə çürümək yaxşıdı. - Cahangiri fikir götürmüşdü. Elə bil dağ uçmuşdu, altında qalmışdı. Öz-özü ilə danışırmış kimi: - Bu məsələni hələlik açıb-ağartmayım,- düşünürdü. - Düzdür, qadın mürəkkəb məxluqdur. Atalar nahaq deməyib ki, ata, itə, arvada etibar yoxdu. Qənirəni də ki, nə bilmək olar?! Bəlkə özü razı olub. Çünki inək göz eləməsə, kələ yaxınlaşmaz. Ancaq inanmıram. Babal yumaq günahdır. Qənirəni hamı pak bir qız kimi tanıyır. Kənddə çoxları ona qarmaq atmaq istəyib, ancaq heç kəsi səmtinə buraxmayıb. Adını təmiz saxlayıb. Qənirəni tanıyanlar yaxşı bilirlər ki, aydan arı, sudan duru bir qızdır. İntəhası, gözəlliyi ona qənim kəsilib, başına bəla olub. Elçi elçi dalınca gəlir, o isə ailəni başsız qoyub getmək istəmir. Ömrünü xəstə valideynlərinin, hələ ərsəyə çatmamış qardaşlarının yolunda qoyub. Cahangir bütün bunları gözünün qabağına gətirib əsla inana bilmirdi ki, Səftər qızı tovluyub yoldan çıxartsın. Həm də bu iş Qənirənin razılığı ilə olsaydı, qışqırıb aləmə səs salmazdı. Məni görəndə ümid yeri kimi adımı çəkib: - Cahangir əmi! - deyib qışqırmazdı. Qənirənin səsində bir yalvarış vardı. Yoox, burada Qənirəni qınamaq olmaz. Ancaq bütün bunlara baxmayaraq, oldu it dəymiş ayran. İndən sonra kim ona yaxın durar?! Qənirəyə yaşamaqdansa, ölüm fərzdir. Bütün bu həngamələrin mayası qudurğan köpəyoğlu lüt Qasımın oğludur. Nədi, nədi, cibində əl boyda firqə kağızı var. Yeznəsi rayondakı böyüklərin atına qaşov çəkir. Mehtərlik eləyir. Bacısı da rayondakı böyüklərdən kiminsə alt daşıdı. Deməli, buna görə lüt Qasımın oğlu başımızda qoz sındırmalıdır?! Qız-gəlinimizi ələ salmağa da ixtiyarı çatar?!

Namusumuza da toxuna bilər?! Heç kəs də ona gözün üstə qaşın var deməməlidir?! Axı, o, həm də hökumətin inanıb etibar elədiyi adamdır. Bütün rayon onun dalında durur. Deməli, belə çıxır ki, biz də qolu bağlı qul kimi qıraqda dayanıb gözümüzü döyməliyik. Hələ desən, yeri düşəndə tərifini göylərə qaldırıb əl çalmalıyıq ki, yer kürəsi ala öküzün belində qərar tutduğu kimi, bizim də ümid çırağımız lüt Qasımın oğlu lovğa Səftərdir. Yoox, belə getməz! Onun bileti, vəzifəsi, arxası var, bizim də namusumuz, qeyrətimiz. Qeyrət Allahdan gəlir, vəzifə hökumətdən. Bizimki həmişəlikdir, onunku müvəqqəti. Bildirçininki darı sovulanacandır. Lovğa Səftərin də vaxtına çox qalmayıb. Hələlik səbr eləyək. Görək axırda lələ şələni basır, yoxsa şələ lələni. Səbr elə, Cahangir, səbr elə! Hər yoxuşun bir enişi var...

Cahangir öz-özünə çox ölçüb-biçdi. Axırda belə qənaətə gəldi ki, bu biabırçılıqları hələlik dilinə gətirməsin. Əvvəla Qənirə ərgən qızdır, gələcəyi var. Bu iş bilinsə, ölənə qədər ona yaxın duran olmaz. - Odur ki, bu işi sinəmin altında gizli saxlayım. Bəlkə bəxt ulduzu parladı, birinə ürcah oldu. Bir də ki, onun bu işdə nə günahı?! Yəqin burada yarpaq yığanda o xırsıza rast gəlib. O ki, qaldı lüt Qasımın oğlu lovğa Səftərə, onun qanı halaldır. Girəvəyə salıb özüm hesabını çəkərəm. Bu gün köməksiz qıza əl atan, sabah bir başqasına sataşar. Fürsət düşsə, mənimkilərdən də keçməz. Beləsindən nə desən çıxar. Vəzifə lovğa Səftərin gözünü örtüb. Nə Allahdan qorxur, nə bəndədən! Yuxarıda çəltik becərənlər, bağ dolu adam, burda da mən! Gədə gör nə qədər qudurub yolunu azıb ki, heç kəsi saya salmır. Eybi yoxdur. Bir gün yaxalayıb bu əllərimlə nəfəsini kəsərəm. Yoox, yaxınlıq verməsə, onnan üçatılanın dili ilə danışaram. Onda





bilər ki, ona-buna sataşmaq necə olar? Ondan sonra gələnlər başa düşər ki, firqəçi olmasın, nə olur-olsun, gözümüzün qabağında hər gədə-güdə baş aparıb, at oynada bilməz...

Çox götür-qoydan sonra Cahangir ayağa qalxıb, arxın yan-yörəsində ona mane olan nə qədər ağac-uğac var, doğrayıb tökməyə başladı...

* * *

Qənirənin üz-gözü siyrilmişdi, nazik çit koftasının bir qolu yarıdan aşağı yox idi. Əynindəki qırmızımtıl tumanının cırığından əti görünürdü. O, gizlənmək üçün özünü qamışlığın qalın yerinə atanda sinəsinə qədər çamıra batdı və tez əlini başının üstündəki söyüdün qanadına atıb sürünə-sürünə kənara çıxdı. Qol-budağı çayın sahilinə sallanan sıx ağacların arası ilə əyilə-əyilə özünü aşağıdakı kol basmış ağ qayanın dibinə çatdırdı. Və çətinliklə yuxarı dırmanıb qəlbi bir yerdə gizləndi. Yaranışdan çayın ləpələri ilə çarpışan və üzərində tər-təzə çiçək açmış həmərsin, alça kolları olan hündür qayanın arxasına keçdi. Onun durduğu yer yalnız qayanın əks tərəfindəki kimsəsiz yamaclardan görünürdü. Yuxarıdan gələn çay Qənirənin dayandığı qayanın dibində sakitləşir, altında gur ocaq yanan tiyan kimi qaynayıb coşur, burulur və köpüklənə-köpüklənə öz məcrası ilə üzüaşağı axırdı. Bura Dəvəbatan adlanır. Rəvayətə görə, çay qayanın altındakı dibi görünməyən dərin kahadan keçir və bura düşən istər insanın, istərsə də mal-heyvanın cəsədinin belə kənara çıxdığını bu çağacan görən olmayıb. Haçansa burada bir dəvə itbata düşüb. Ona görə də elə o vaxtdan qayanın altında qaynayıb coşan burulğan Dəvəbatan adlanır. Qənirənin dayandığı yerdən çaya baxanda adam vahimələnirdi.

Arılar mahnı oxuya-oxuya xortumlarını uzadıb Qənirənin yan-yörəsindəki çiçəklərdən şirə çəkirdilər. Qəşəng gözləri, əfil-əfil alışıb yanan göy, qırmızı, sarı qanad-quyruğu, həzin səsləri olan qızlarquşular dəstə-dəstə səmada dövrə vurub qarşıdakı boz yarğanın dəlik-deşiyində oynaşırdılar. Bu təbiət gözəlləri sanki bəhsə-bəhslə yarışa girmişdilər. Havada qanad çalmaq, yuva qurmaq, yumurta qoymaq, bala yemləmək yarışına. Mavi rəngli çöl göyərçinləri, balaca-balaca torağaylar, sığırçınlar öz aləmindəydi. Qənirə isə əsla özündə deyildi. Bu heyrətamiz mənzərəni küt baxışları ilə seyr edir, qarşısındakı canlı aləm ona yuxu kimi gəlirdi. Qənirə öz uğursuz taleyinin faciəli anlarını yaşayırdı. Hər yer ona əzabverici cəhənnəm kimi görünürdü. Qənirə dəli olmaq dərəcəsinə gəlmişdi. Nə edəcəyini bilmirdi. Hardansa bir alabaxta onun qarşısındakı qonur daşın üstünə qonub, zəndlə Qənirəyə baxdı. Quşcuğaz bəlkə də Qənirəni insana yox, bu yerlərin sakini olan arğalıya, ceyrana, cüyürə və ya başqa bir şüursuz canlıya bənzədirdi. Ona görə də Qənirədən hürküb qaçmırdı. Alabaxta elə bil boğazına nə isə ağa çalan zərif bir şey bağlamışdı. - Bəlkə mənim boyunbağımdı?! - Qənirə düşündü və tez boğazına əl atdı. - Əlbəyaxa olanda yəqin o ciyəriyanmış qırıb töküb, boyunbağı nə gəzir?! - Qənirə düşündü. Yəqin alabaxtanın boğazındakı elə mənim mirvari boyunbağımdı, - bunu qeyri-iradi olaraq düşündü. - Ola bilsin ki, bu heç də Alabaxta yox, Allah-taalanın mənim ardımca göndərdiyi mələkələrin ən gözəlidir. Mələkənin mənə rəhmi gəlib və boyunbağımı da özü ilə gətirib, həm də buraya qonub ki, mənimlə həmdərd olsun. Və məni düçar olduğum müsibətdən qurtarsın. - Qənirə düşüncələr aləmində özündən asılı olmayaraq, alabaxtaya əl uzatmaq istədi, ancaq bu ehtiyatsız hərəkətdən peşman oldu. Alabaxta onun insan olduğunu duyan kimi qanadlarını açıb havaya qalxdı və bir göz qırpımında gözdən itdi. Elə bil Qənirənin qəlbində közərən ümid işığını da özü ilə apardı. Alabaxtanın ondan uzaqlaşması da Qənirəyə bir nisgil oldu. Bu, bəlkə də ruhi həyəcandan yaranan xəyali bir nağıl idi. - İlahi, görəsən, quşlar insandan niyə qaçır? Yırtıcı canavar, şir, pələng olsaydı, bəlkə də qaçmazdı. Ancaq dilsiz-ağızsız quşcuğaz insan olduğumu hiss edən kimi məndən uzaqlaşdı. Çox görmüşəm ki, quşlar qızmış kəllərin, köhlən atların, qoyunların... belinə qonur, lakin onlardan qorxub çəkinmirlər. Ancaq insanlara səmt düşmürlər. Elə mən özüm insan olsam da, insanlardan gizlənirəm, qaçıram, onların gözlərinə görünmək istəmirəm. Bu uçurum qayaya pənah gətirmişəm. İnsan da insandan qaçarmı, ilahi?





Qənirə özündə deyildi, fikirli-fikirli bir neçə addım aşağı endi, buradan çayın burulğanı aydın görünürdü. O, coşğun sulara baxdıqca nə edəcəyi barədə düşünürdü. - İndi belə bir vəziyyətdə iş yoldaşlarımın yanına necə qayıdım?! Əyin-başımın, üz-gözümün bu vəziyyətə düşdüyünü soruşsalar, nə cavab verim, necə cavab verim?! Yoox, paltarımın cırıqlarından ətim görünür, belə bir görkəmdə heç kimin gözünə görünə bilmərəm. Elə buradaca gözlüyüm, gün batsın, qaranlıq çöksün, dalda bir yolla özümü evə çatdırıb, pal-paltarımı dəyişərəm. Üz-gözümü tərtəmiz yuyub özümü birtəhər qaydaya salaram. Soruşan olsa, deyərəm ki, barama qurduna yarpaq yığanda çəkil ağacından yıxılmışam. Yaxşı, tutaq ki, buna inanan oldu, iş yoldaşlarımın qəlbində mənə qarşı baş qaldıran şübhələr aradan qalxdı. Onda bəs Cahangir əmi?! Axı, o bizi yaxından gördü, lap yaxından! Hər iki-

mizi də tanıdı. Qaçıb gizləndiyimizi də bildi. Buna nə deyim?! Kim cürət eləyib Cahangir əmi kimi ağır-ağayana, ciddi, zəhmli bir adama deyə bilər ki, bu sirri açma?! Heç kim! Şübhəsiz, Cahangir kişi axşam evə çatanda bu əhvalatı arvad-uşağına və ya həmsöhbətlərinə deyəcək. Sabah bu əhvalat bütün Qalaça camaatına yayılacaq. Orda-burda pıçıldaşmalar başlayacaq. "Qənirəynən kolxoz sədrini bağda bir yerdə biabırçı vəziyyətdə görüblər". Ondan sonra hamı pozğun bir qız kimi məni lənətləyəcək. Bütün Qalaça camaatı mənə nifrət edəcək. Ata-anama, qardaşlarıma töhmət yükü olacağam. Bu nə müsibətdir, durduğum yerdə gəldi başıma, ilahi! Deməli, ömrümün axırına kimi pozğun, əxlaqsız qadın adı üstümdə qalacaq. Artıq bu ləkəli adı torpağa qovuşana qədər daşımağa məhkumam! Mən təkcə ata-anama, qardaşlarıma, qohumlarıma yox, bütün kəndimizə silinməz ləkəyəm. Onda məni niyə yaradırdın, ey gözəgörünməz! Adına pis söz çıxan pozğun bir qızın Qalaça torpağının üstündə gəzməyə, bu yerlərin saf havasını udub, suyunu içməyə, halal çörəyini kəsməyə, başını qaldırıb insanların üzünə baxmağa haqqı varmı?! Yoox! Yoox! Qənirə, yox! Sən buna layiq deyilsən, Qənirə!! Bütün bu bəd əməllərinə görə cəzanı özün verməlisən, heç də başqa birisi yox! Məhz özün! Çünki hansı əxlaqın sahibi olduğunu özün yaxşı bilirsən!

Qənirə ürəyində özünə verdiyi sualların qarşısında aciz qaldığından başı gicəlləndi, gözləri qaraldı. Üzərində dayandığı qaya, ətraf dağlar, yamaclar görünməz oldu. Müvazinətini itirdi. Ona elə gəldi ki, çay geriyə axır. Elə bil ətrafındakı təzə-tər çiçəklər, üzərində qərar tutduğu mamırlı qaya, yaşıl-yaşıl ağaclar el-obasına töhmət gətirən ləkəli bir qızdan uzaq olmaq üçün ondan





üz döndərib gözəgörünməz bir qüvvə ilə Qənirəni özlərindən kənarlaşdırıb amansız ölümün pəncəsinə atdılar... Onun tükürpərdirici vahiməli səsi ətrafa yayıldı. Baharın xəfif mehi, sıldırım qayanın sinəsində Qənirənin nazik donunu qabartdı. Bu bədbəxt qız bürkülü səmada bir neçə dəfə dövrə vurub, aşağıda burum-burum burulan çayın girdabına çırpıldı. Deyirlər, su murdar götürmür. Görünür, bu zavallı qız onu yaradanın qarşısında günahsız olduğu üçün coşğun çay Qənirəni pak ağuşuna alıb, köpüklü sularını sevinclə göylərə sovurdu. Qənirə ölçülüb-biçilməmiş mavi kəfənə bürünüb biryolluq əbədiyyətə qovuşdu.

* * *

Səftərin Qənirəyə qarşı nalayiq hərəkətinin yeganə şahidi Cahangir idi. Ona görə də Səftər bayaqdan özünə gələ bilmirdi. Elə bil atası lüt Qasımı indicə torpağa tapşırıb, yasa batmışdı. Bu həngaməni başqa birisi görsəydi, nə dərd idi! Səftər araya bir-iki adam salıb yumşaldar, bu söz-söhbəti birtəhər ört-basdır edərdi. Di gəl ki, Cahangiri fikrindən döndərib onu ipə-sapa gətirmək olardımı?! At kimi Səftərin üzünə dirənib, əhvalat necə olubsa, o cür də açıb deyəcək. Məsələ sübuta yetsə, aydın məsələdir ki, Səftər nə vəzifədə qala bilər, nə də ki, firqə üzvlüyündə. Murdar siçan kimi quyruğundan tutub atarlar bayıra. Ona görə də Səftər indidən onu gözləyən fəlakətli günlərini yaşayırdı. Və həm də düşdüyü vəziyyətdən çıxmaq üçün cürbəcür yollar arayıb axtarırdı. Müdriklər yerində deyib: - ehtiras əl qaşınmasına bənzəyir. O, əvvəlcə şirin olur, sonra göynəməyə başlayır. - İndi Səftər həyatını, bir anlığa alacağı ötəri həzzə qurban vermişdi. O, bunu dərk etdikcə dəhşətə gəlirdi. - Ancaq yüz fikir

bir borcu ödəmir. Nə qədər gec deyil, bir çıxış yolu tapıb, başıma çarə qılmalıyam. - Səftər öz-özünə düşündü.

Bəzən axmaqlar da başı daşdan-daşa dəyəndən sonra ayılıb ağıllı fikirlərə düşür. Səftər belə qərara gəldi ki, əvvəlcə Qənirəni axtarıb tapsın, onun əl-ayağına düşüb, yalan-yalvarıcı dilini işə salsın. Qızı inandırsın ki, onun bu yersiz hərəkəti zəhrimar içkinin təsirindəndir. Başının dumanlanan vaxtına düşüb, buna görə xəcalət çəkir. Qənirəyə desin ki, şeytana lənət, məni yolumdan çıxartdı. Bir səhvdi, olub keçib. İndi razıdırsa, arvadı boşayıb, onunla evlənsin və ya qəti bir inamla təklif etsin ki, gəl səni təzə məktəb qurtarıb müəllim işləyən kiçik qardaşıma alım. O, mənim sözümdən çıxmaz. Siz də xoşbəxt olarsınız. Yaranmış inciklik də aradan qalxar. Əgər yola gəlməsə, bu təklifimi də rədd etsə, ayağına düşüb yüz dəfə üzr istəyərəm. Deyərəm, qələt eləmişəm. Başa salaram ki, onsuz da sənə bir şey eləməmişəm. Sadəcə olaraq əl atmışam. Mən yaramaz, axmaq, əyyaş olduğumu mərd-mərdanə boynuma alıram. Sən alicənablıq elə, el içində rüsvay olmayım. Bu məsələ bilinsə, sənin cəzan mənimkindən ağır olacaq. Mən vəzifəmi də, biletimi də verməyə hazıram. Ola bilsin ki, iş məhkəməyə gedib çıxsın, zorlama maddəsilə məni dama salsınlar. Neynək, cəzamdır, çəkərəm. Amma bu biabırçılıqdan sonra sənə heç kəs yaxın düşməz. Namusunu əldən verən pozğun bir qız kimi ömrü boyu evdə qalıb əzab çəkməli olarsan. - Əminəm ki, belə desəm, Qənirə fikrindən dönər, yumşalar, yola gələr, dediklərimlə razılaşar. Mən də çalışıb onun yaxşılığından çıxaram. Qənirəni dünya malından qane edərəm, kasıbçılığın nə olduğunu bilməz. Biz sözü bir yerə qoyub razılığa gəlsək, Cahangirin dediyinə inanan olmaz. Bir də ki, imam üçün





ağlayan, gərək yezid üçün də ağlasın. İnsafən, Cahangir elə adamdı ki, məndən xoşu gəlməsə də, kəndin adını batırmamaq üçün bu əhvalatı dilinə gətirməz. O, ucuz, səfeh söz danışan adam deyil. Bir də ki, axı ona nə düşüb ki, şahid olub özünü pis kişi eləsin, aramıza düşmənçilik salsın.

Suda batan saman çöpünə əl atar. Səftər yaxasını düçar olduğu rüsvayçılıqdan qurtarmaq üçün hər cür sifətə düşməyə hazır idi. O, təzə yetişən gilas ağacının kölgə saldığı çəmənlikdə ayağa qalxıb Qənirəni axtarmağa başladı. Nəm yerdə uzandığı üçün yançaqları keyimişdi. Ona görə də yeriyəndə səntirlədi, ağacların birinə söykənib xeyli dayanmalı oldu. Və yançaqlarının keyi açılandan sonra xəlvətcə çəltik əkinlərinin yaxınlığındakı yastı təpənin üstünə çıxdı. Buradakı cəviz ağaclarının arasından xəlvətcə bütün ləklərə göz gəzdirdi. Qənirə çəltik becərənlərin arasında görünmürdü. O, buradan əlini üzüb bağın cəngəlliklərini, çayın sahillərini, arx boyu uzanıb gedən qamışlıqları qarış-qarış gəzib dolaşdı. Qənirənin ayağındakı qaloşun bir tayı qamışlıqların arasındakı bataqlıqda düşüb qalmışdı. Boş qaloş yarıya qədər palçıqla dolmuşdu. Səftər qaloşu görəndə həm sevindi, həm də ağlına cürbəcür dolaşıq fikirlər gəldi. - Yəqin buralarda gizlənib, üz-gözü siyrildiyindən, paltarı cırıldığından adamların qarşısına çıxa bilmir. - Səftər bir-iki dəfə alçaqdan, həm də yalvarıcı səslə:

- Qənirə!! Qənirə!! - Onu çağırmağa başladı. - Harda qalmısan? Səsini çıxart, qorxma!! Ağlına ayrı şey gəlməsin! Sənə dəyib-dolaşan deyiləm! Bilirəm, hirslənmisən, mənə acığın tutub, nifrət eləyirsən! Sən haqlısan! Üzümə tüpürməyə, məni söyüb-təhqir etməyə haqqın var! Qarşında günahkaram, yalvarıram sənə, məni

bağışla! Dönə-dönə üzr istəyirəm! Mən əclaflıq elədim! Səsini çıxart, sənə bir-iki sözüm var! İnan, heç vaxt sənə yaxınlaşıb əl vurmaram. O da bir axmaq iş idi oldu! Məni şeytan yoldan çıxartdı. Səhər içdiyim içkinin bəlasına düşdüm. Zəhrimara qalsın bir şüşə araq. İri bir daş götür, vur mənim boş başıma. Bunu ürəkdən deyirəm, Qənirə! Sən namuslu, qətiyyətli bir qızsan! Mən əclaflıq eləyib sənə toxundum. Allah xətrinə, keç günahımdan, Qənirə!

Səftərin bu yalvarışına heç yerdən cavab gəlmədi. Qalın qamışlıqda bir-iki qurbağa quruldadı və kol-kosluqda gizlənən su quşlarının civiltisi eşidildi. Səftər bu dəfə istədi bağdan çıxıb Cahangiri dilə tutsun. Əvvəla öyrənsin və bilib görsün, Qənirə ilə olan əhvalatda onu tanıyıbmı?! Əgər tanıyıbsa, Cahangirin qarşısında qəbahətlərini açıq-aydın etiraf etsin, kəndin ağsaqqalı kimi ondan üzr istəsin. Desin ki, cavanlıqda insan ağlagəlməz səhvlər edə bilər. Mən böyük bir kəndin başçısı olsam da, cibimdə firqə biletini gəzdirsəm də, Allah ağlımı alıb. Yolumu azıb bu qəbahəti eləmişəm. Buna görə də təkcə sənin yox, bütün Qalaça camaatının qarşısında günahkaram və özümə ölüm diləyirəm. Götür o baltanı, vur başıma, qanımı qalaçalılara halal eləyirəm. Acizanə yalvarıram, mənim bu nadan hərəkətimi açıb-ağartma. Qənirəyə də yüngülvari əlim dəyib, ona heç nə eləməmişəm. Bu, bir qəzadır gəlib başıma, Cahangir kişi! Günahlarımı yumaq üçün səni ağsaqqal bilib ayağına gəlmişəm. Əyilməz, cəsarətli, halal bir kişi kimi məni əfv et. Mənim xilasım üçün göstərəcəyin mərdlik Allaha da xoş gedər. Bizi yaradan gözəgörünməzin xatirinə, bugünkü rüsvayçı hərəkətimi açıb-ağartma...





Səftər birdən ayıldı və başına hava gəlibmiş kimi, sir-sifətinə istehzalı gülüş ifadəsi yayıldı. Nəəə?! Deyəsən sarsaqlayıram! Təəccüblə öz-özündən soruşdu. - Boyuna ip tutum, Səftər, məgər sən Cahangiri tanımırsan? - Özünü məzəmmət etməyə başladı. - Məgər ona yaxın düşüb, bu cür sözləri demək olarmı? Ağlına dua yazım, Səftər! Cahangirin xasiyyətinə bələd deyilsən?! And olsun bizi yaradana, ağzını açmamış iti baltası ilə səni iki şaqqa eləyər. Belə məqamda Cahangirin yan-yörəsinə üzükmək olar?! Bu saat Cahangir cilov gəmirir. Girəvə axtarır ki, namuslu bir qıza toxunduğuma görə boynumu vursun. Səni əcəl hərləməsin! Çalış, onun gözünə görünmə. Həm də hələlik ümidini üzmə. Dünyanın işini nə bilmək olur?! Bəlkə Qənirə öz adına görə bu əhvalatı açıb-ağartmadı. Cahangir də hələm-hələm ağzını boş qoyub orda-burda söz danışan deyil. Ola bilsin, o məsələni ürəyində saxlasın və bir müddət dilinə gətirməsin. Cahangir yüz sözün birini danışan deyil. Odur ki, darını kola tökmə, səbr elə, gör bu işin axırı hara gedib çıxır. Bəlkə elə Qənirə ilə aranızda olan əhvalat örtülü qaldı. Hələlik - qarğa məndə qoz var eləmə! Bir xatadı olub keçib. Atılan gülləni geri qaytarmaq olmaz. Bəzən həyatda qəribə möcüzələr baş verir. Birdən elə möcüzə baş verər ki, Allah Cahangirin də, Qənirənin də könlünə rəhm salar. Onların heç biri bu sirri açıb-ağartmaz...

* * *

Səftər əlacsızlıqdan özü-özünə təsəlli verdi. İndi o briqadirlə görüşməli, çəltikdə işləyənlərə baş çəkməli, vacib bir məsələdən ötrü dəyirmana dəyməliydi. Ancaq bilmirdi camaatın üzünə necə çıxsın. Onun qulağının dibindən axan qan tam qurumamışdı. Üz-gözü siyrilmişdi.

Biləyində, əlinin üstündə diş yeri olduğu aydınca bilinirdi. Şübhəsiz ki, Səftərlə rastlaşan hər kəs onun bu vəziyyətə düşməsinin səbəbini soruşmaya bilməzdi. Onda Səftər nə cavab versin?! Səftər armud ağacına bağlanmış köhlənin belinə aşırılıb atı dəyirmana tərəf sürdü. Kölgəsində beş-on adam oturmuş iri tut ağacına çatanda atdan düşdü. Briqadir irəli yeriyib hörmət əlaməti olaraq atın yedəyini onun əlindən almaq istəyəndə, Səftər ona acıqlı-acıqlı:

- Kənara çəkil! - dedi. - Görmürsən bu çərdəymiş başıma nə oyun gətirib?! Üz-gözümdə isdahat qalmayıb. Bağ yuxarı sakitcə gəldiyim yerdə, bilmirəm porsuqdu, tülküydü, dovşanıydı, nəyidi yaxşı görə bilmədim, qəfil koldan çıxan kimi at hürküb məni yerə çırpdı. Ayağımın biri üzəngidə qaldı. At məni sürüməyə başladı. Nə qədər qışqırdım, bu çərdəymiş sözümə baxmadı. Kolların arasında məni o ki var sürüdü. Allahın mənə onda yazığı gəldi ki, atın cilovu kötüyə ilişdi. Birtəhər özümü düzəldib ayağımı üzəngidən çıxartdım və cilovun ucunu əlimə keçirdim.

Səftər bunu deyib, atın baş-gözünü doladı şallağa. Səftər sol əli ilə cilovun ucundan tutub, sağ əli ilə atı sədəf işləməsi olan şallaqla döydükcə, beş yaşlı kəhər at gah şahə qalxır, gah geri dartınır, gah da sağa-sola burulur, sahibinin qəzəbindən xilas olmaq istəyirdi. Atın bu cür insafsızcasına döyülməsinə dözməyən dəyirmançı:

- Sədr, atı döymə, yazıqdı, - dedi. - Bir-iki dəfə vurdun, bəsdi.

Briqadir dəyirmançının üstünə cojudu:

- Sən orda ağzıgöyçəklik eləmə, qoy vursun, - dedi. - Öz işinə qarış. Bu da kəhər ata canıyanan olub, görmürsən, o boyda kişini sürüyüb, nə kökə salıb?!





Dəyirmançı susdu, daha dillənmədi. Dediyinə peşman olub, bir-iki addım geri çəkildi.

Qonşu kənddən dəyirmana dən gətirən lopabığlı cantaraq kişi:

- Bir at ki, tülküdən, çaqqaldan, porsuqdan hürkdü, rədd elə getsin. Heylə atı bir gün də qapımda saxlamaram. Aparıb bazarda dəyər-dəyməzinə satıb başımdan rədd eləyərəm. Bazburutuna baxma, hamısı arpa-samanın hesabınadır. Bu atın dərisi beş köpüyə dəyməz. Mən bu qatırı - kənarda bağlanmış qatırına işarə etdi, - on heylə yabıya dəyişmərəm. Əlinə dönüm, yaxşı eləyir döyür. O cür hürkəyən ata o da azdır. Bu yaşımda altı at alıb satmışam. Hələ bircə dəfə də görməmişəm ki, hürksün, büdrəsin, məni yıxsın, yorulub yolda qoysun. Heylə şey olmayıb. Sədr hələ insaflıdır, onu şallaqla döyür, belə atı dəyənəklə çırpmaq lazımdır ki, özünə gəlsin.

Çömbəltmə oturub əlində biz, köşəsi sökülmüş çarığına yamaq vuran kosasaqqal kişi başını yuxarı qaldırıb:

- Elə atalar yaxşı deyib ki, ata, itə, arvada etibar yoxdur, - mızıldandı. - O qədər yeyib səmriyib ki, tükü məxmər çalır. Di gəl ki, bunun müqabilində sahibini yıxıb sürüyür, kişinin üz-gözünə bax, canavar yemiş, gör sədri nə günə salıb. Yaxşı ki, cilovu tez ilişib. Yoxsa kişini nəinki şikəst eləyərdi, başını kötüyə-zada vurub öldürə də bilərdi. Yəqin Allahın yazığı gəlib...

Səftər yan-yörədən bu sözləri eşitdikcə daha da qızışıb söyə-söyə kəhər ata şallağı şallaq üstündən endirirdi. - Öl, köpəyoğlunun heyvanı! Sənə bu da azdır. Səni bu cür çırpıb cəzalandırmasam, ağlın başına gəlməz. Verdiyim arpa-saman burnundan gəlsin.

Çiynində bel olan suçu sədrin sifətindəki çapığı görüb:

- Kəhər ata o da azdır. Yəqin cinsi xarabdır. Beləsini o ki var döyüb, gözünün odunu almaq lazımdır. Harda görünüb ki, at hürküb sahibini yıxsın, üstəlik də kolkosluqda sürüyüb baş-gözünü qana boyasın?!

Bağ qarovulçusu:

- Düz eləyir, - dedi. - Günah öləndə olar.

Əlində kərənti olan hündürboy kişi:

- Bu atın cinsinə bələdəm. Anası da çox bədxasiyyət idi. Yaxşı at özünə qamçı vurdurmaz. Elə haqqına döyür. Özü də yorğa olmasına baxma, bundan minik atı çıxmaz. Beləsini arabaya qoşmaq və ya meşəyə odun, kövşənə dərz daşımağa aparmaq lazımdır. Sabah da hürküb, üstündəkini qayadan sala bilər.

Aralıda dayanan yaşmaqlı gəlin, yanındakı ağbirçək qadının qulağına əyilərək xısın-xısın:

- Bıy, ay xala! Bizim bu sədrin başına hava gəlibnədi, - dedi. - Dilsiz-ağızsız heyvanı da o cür döyərlər?! Allahdan qorxmur?!

Ağbirçək qadının gəlinə cavabı bu oldu:

- Kiri aaz, kiri! Sən də birini bilirsən, birini yox. Getdiyi yerdə qəfil hürküb kişini vurub yerə. Sonra da bir ayağı üzəngidə, o ki var, sürüyüb. Görmürsən baş-gözü nə gündədir. Sədrin nənəsi namaz üstündəymiş. Yoxsa aparıb daş-qayaya çırpıb öldürərdi. Bir tikə çörəyi ovsanata düşüb, yaxşı ki, salamat qurtarıb.

Səftərin hirsi hələ də soyumamışdı. Gücü gəldikcə atı necə döyürdüsə, qamçının şaqqıltısı çayın o tayına gedirdi. Səftərin qolu heydən düşmüşdü. Kəhər at da qan-tərə batmışdı. Birdən necə oldusa, cilov atın başından siyrilib çıxdı. Elə bil ilan ağzından qurbağa qurtardı.





Kəhər at quyruğunu şax tutub dəyirmanın həyətindən çəltik ləklərinə tərəf götürüldü. Sədr atın arxasınca düşdü. Səftərə canıyananlıq edən bir neçə nəfər də atı tutmaq üçün ona qoşuldu. Çəltik əkinlərində çalışan əli belli suçular irəli çıxıb kəhər atı araya almaq istədilər. At onlara girəvə vermədi. Tez sağ tərəfə dönüb qalın çəpərdən ceyran kimi sıçradı və meyvə ağaclarının arasında gözdən itdi. On nəfərdən artıq adam atı daban-dabana təqib edirdi. Dörd nəfər birnəfəsə yüyürüb bağın ortasında atın qabağını kəsdi. Arxa tərəfdə sədrlə birlikdə üç nəfər əli kərəntili otçalan dayanmışdı. At ələ keçəcəyini hiss edibmiş kimi, özünü qalın qamışlığa vurub, çayın sahilinə çıxdı. Adamlar hər tərəfdən atı dövrəyə aldılar. At yenə aradan çıxıb özünü çaya vurdu. Bu dəfə briqadir qəlbi bir yerə çıxıb, çayın o tayındakı mal otaranları köməyə çağırdı və onlardan atı geriyə qaytarmağı xahiş etdi. Üç nəfər əli çomaqlı naxırçı məsələnin nə yerdə olduğunu anlayıb, tez çaya tərəf cumdu və dərhal atın qabağını kəsib sahilə çıxmağa imkan vermədi. At geri dönüb çayın ortasındakı nisbətən dayaz yerdə dayandı. Su onun qabırğasına qədər qalxmışdı. At döyülməkdən titrəyirdi, əsim-əsim əsirdi. Hərdən boynunu gərib çayın hər iki sahilində dayanıb, onun tutulması üçün canfəşanlıq göstərən insanlara sanki nifrətlə baxırdı. O, indiyəcən insanların bu qədər qəddar, insafsız olduğunu hiss etməmişdi. İndi onu heç bir günahı olmadan, şallağın altına salıb qəddarcasına döyən sahibinə də, arxasınca düşüb onu ram etmək istəyənlərə də amansız bir nifrətlə baxırdı. Kəhər at insanların bu cür rəhmsiz olduğunu bilməzdi. İndi o, ölməyə razıydı, bir daha insanların əlinə düşməyə yox. Kəhər atın dili olsaydı, var gücü ilə qışqırıb car çəkərdi

ki, ey insanlar, siz yer üzünün əşrəfi olduğunuz qədər də amansız, Allahsız məxluqsunuz. Günahsızlara divan tutmaqdan usanmırsınız. Sizin bu cür riyakar, bədxah olduğunuzu əvvəlcədən bilsəydim, Allaha üz tutub yalvarardım ki, məni yaratmasın. Yaratsa da yalan, böhtan, paxıl, bir-birinə qənim kəsilən belə bir məxluqa tuş eləməsin. Onda insan ayağı dəyməyən vəhşi çöllərdə sakit həyat sürüb, azad yaşayardım.

At çayın ortasındakı dayaz yerdə donub qalmışdı. Hər iki tərəfdən atı qısnayıb daşa basırdılar ki, geri qayıdıb çayın sahilinə çıxsın. At isə onu əhatə edən kəmfürsət insanların əlindən qurtarmaq üçün xilas yolu görmürdü. Ona görə də yerindən tərpənib çay aşağı üzməyə başladı. Çay getdikcə dərinləşib atın belindən aşdı. Artıq qayanın altındakı Dəvəbatan yerə bir neçə metr qalırdı. At isə qarşıda onu daha böyük fəlakət gözlədiyini anlamırdı. Odur ki, sakit-sakit üzüaşağı üzürdü. Burulğana çatanda çayın hər iki sahilində dayanan adamlar həyəcanla qışqırıb atı daşa basır, geri dönüb kənara çıxmağa səsləyirdilər. Yuxarıdan atın qabağına iri bir daş tulladılar. At daha insanlara səmtimək istəmirdi. Odur ki, öz bildiyi kimi üzməyində davam edirdi. Dəvəbatana çatanda qayanın altında qaynayıb coşan burulğan maqnit kimi kəhər atı özünə tərəf çəkdi. At fəlakətlə üzləşdiyini hiss edib vəziyyətdən çıxmaq üçün bir-iki dəfə dal ayağı üstə qalxıb geriyə dönməyə cəhd göstərdi. Lakin su atın yalmanına qalxmışdı. Gözləri alacalanmış kəhər atın qulaqları, bir də ki, burnunun pərləri güclə görünürdü. At bir-iki dəfə fınxırıb var qüvvəsi ilə irəli atıldı və xilas olmaq istədi. Lakin mümkün olmadı. At yəhərli-yüyənli qayanın altındakı burulğanda batıb görünməz oldu. Hər iki sahildə dayananların nigaran baxışları çayın aynasında





donub qalmışdı. Onlar atdan əllərini üzüb, kor-peşman geri döndülər...

Nakam qız, günahsız köhlən... Lüt Qasımın oğlu lovğa Səftərin bir neçə dəqiqəliyə nəşələnəcəyi intim anların zavallı qurbanları... Ancaq hələlik Qənirənin başına nələr gəldiyini və coşğun suların maviliyində əbədiyyətə qovuşduğunu bilən yox idi.

Çay getdikcə bulanır, çoxalır, rəngi bozarırdı. Deyəsən, yuxarıdakı dağlara yağış düşmüşdü. Çay bir neçə dəfə sahilində dikələn qayanın üstünə hücum çəkdi. Qaya yerindən tərpənmədən sərt üzünü göstərib onun güclü dalğalarını çilik-çilik eləyib göyə sovurdu və geri qaytardı. Görəsən, təbiətin möcüzəsi olan çayla qaya niyə yola getmir, gecə-gündüz ara vermədən hey çarpışırlar... Görünür, dünya elə əzəldən belədir. Canlı-cansız nə var, yaranışdan bir-biri ilə öcəşir, vuruşur... Ancaq bu müdhiş savaşların sonu görünmür ki, görünmür.

* * *

Səftər kəhər atdan əlini üzdükdən sonra kəndə qayıtmalı oldu. O, briqadirin palanlı atını minib yola düzəldi. Səftər bu gün başına gələn qəzavü-qədərlərin qanqaraldıcı təsirindən qurtarmamışdı. Çırtma vursan qanı çıxmazdı. Belə qərara gəldi ki, atı Cahangir işləyən tərəfdən sürsün, bugünkü hadisə ilə əlaqədar onun ağzını arasın, dolayı yolla fikrini öyrənsin. - Bilmək olmaz, bəlkə Cahangir vəzifəmi nəzərə aldı, ağsaqqalyana dedi ki, qələt iş görmüsən, bir də belə səhvləri eləmə. Kəndin başçısına bu cür səfeh hərəkətlər yaraşmaz. Məni məzəmmət eləyib, bəlkə də bir-iki ağır söz deyib bağışladı və dedi ki, mən tərəfdən arxayın ol, bu məsələni örtülü saxlayıram. Mən də mərdi-mərdanə

qəbahətimi boynuma alaram. Bununla da nigarançılıqdan qurtararam. Yoox, gördüm ki, Cahangir qan-qan deyir, məni rüsvay etmək niyyətindədir, onda ayrı məsələ. Bəri başdan işimi bilərəm. Vəziyyətdən çıxmaq üçün başqa yol axtararam.

...Cahangir başını aşağı salıb vur-hay arx qazırdı. Hərdən qəddini düzəldib alnının tərini silir, ətrafa ötəri nəzər yetirir və yenə də işinə davam edirdi. Səftər onun yanından ötəndə, atın cilovunu çəkib dayandı və həmişəkindən fərqli olaraq bu dəfə bir qədər yazıqlaşdı, mülayim dillə Cahangirə salam verib:

- Yorulmayasan, - dedi.

Cahangir Səftərin dediyini eşitsə də, dərhal cavab vermədi. Arxın içindən bir-iki bel torpaq çıxardıb kənara atdıqdan sonra ona tərəf çönüb ağızucu:

- Sağ ol - dedi, - iltifatın artıq olsun.

- Bu gün nə yaman çox işləmisən? Bir belə ağır işin qabağında, bu yaşında yorulmursan?!

- İşin ağırı-yüngülü yoxdur, şərəflisi-şərəfsizi var. Baş ucaldan ağır zəhmətdən yorulmaram. Allah məni pis əməllərdən qorusun.

Səftər onun bu cavabından sarsılan kimi oldu. Başa düşdü ki, Cahangir incə eyhamla hara vurur. Lakin özünü o yerə qoymadı:

- İkibaşlı danışma, Cahangir, bu daşı kimin bağçasına atırsan?

- Özünü əvam yerinə qoyma, lütoğlu! Nə dediyimi yaxşı başa düşürsən.

Səftər:

- Kənddə hamı səni sayıb hörmətini saxlayır, - dedi. - İşləməyinə də söz yoxdu. Heyf ki, dəvə kimi kinlisən, dilin acıdı. Xatirinə dəyməsin, başdan-ayağa zəhər tuluğusan.





Cahangir:

- Qeyrət ayaq altına atılanda, şirin dil, xoş söz qeybə çəkilir, - deyib, qarşısındakını saya salmadan arxdan bir-iki bel torpaq götürüb kənara atdı.

Səftər:

- Cahangir əmi! - Sədr "əmi" kəlməsini ilk dəfəydi işlədirdi. - Yəqin ki, nə demək istədiyimi başa düşürsən. Onsuz da bu gün mənimki gətirmir. Əl tutmaq Əlidən qalıb. Gəl, tərsliyini burax. Kömək et, bu xatadan qurtarım.

Cahangir:

- Əvvəla, nözənbillah, mən cənab Əli ola bilmərəm, - dedi. - İkincisi də, ağır günah eləyib Allahın ziddinə gedənlərin, cənab Əlidən imdad umması əbəsdir. Bir də ki, cənab Əli əlacsızlara əl tuturdu, - dedi. - Yolundan çıxan, biqeyrət, binamuslara yox.

Səftər:

- Cahangir əmi, - dedi, - nahaq yerə şeytan sözünə uyursan. Hansı namərdinsə dediyinə inanıb, barəmdə yanlış fikrə düşməyi sənə rəva bilmirəm.

Cahangir:

- Göz gördüyünə inanar, qulaq eşitdiyinə, - dedi. - Mən ara-bərə sözünə yox, görüb şahidi olduğuma inanıram. Yalançı Allahın düşmənidi.

Səftər:

- Onda, gəl açıq danışaq. Bu üz mənim, o üz sənin. Hansı qəbahətimi görmüsən?!

- Təmiz ad saxlayan bədbəxt bir qıza tamah saldığını, arı yeyib, namusu atmağını.

- Buna dəlil-sübutun var?

- Bəli!

- Onda göstər.

- Göstərməyə ehtiyac yoxdu. Hamısı sir-sifətinə qan-

la yazılıb. Güzgüyə baxsan, verdiyin suallardan utanarsan. Əyər səndə utanan üz varsa.

Səftər qeyri-iradi olaraq əlini üzündəki qan ləkələrinə apardı...

Cahangir:

- Eşitməmisən ki, xasiyyəti bilinməyən atın arxasına keçməzlər?! Bax, ona görə üz-gözün eybəcər vəziyyətə düşüb, - dedi.

Səftər:

- Mənə qara yaxma, Cahangir əmi, - dedi. - Təsadüfən atdan yıxılmışam. Bunu başqa yerə yozub, ağsaqqal çağında günaha batma.

Cahangir kinayəli istehza ilə:

- Sən erkək atdan yox, madyan atdan yıxılmısan, lüt oğlu! - dedi. - Ona görə də üzündəki yara çətin ki, sağalsın... Bilirəm, indi onun peşmançılığını çəkirsən. Danışıqlarından görürəm ki, vurduğun namus yarasının dərinləşməməsi üçün elə indicə, alçalıb, mənliyini ayağımın altına atmağa hazırsan. Nakişilər dar ayaqda hər cür sifətə düşməyi özlərinə ar bilmirlər. Bax, elə sənin kimi!

Səftər hövsələdən çıxdı:

- Ağ eləmə, Cahangir kişi, - dedi. - Mən yumşaq danışdıqca, sən həddini aşırsan, indi də o qalıb ki, kəndin böyüyünə, vicdanlı bir kommunistə böhtan atasan. Bircə onu bacarmazsan! Təzə hökuməti istəmirsən, niyyətini də yaxşı bilirəm. Firqəçilərə dəvə nalbəndə baxan kimi baxırsan! Çünki dəyirmanın səsini eşidəndə ürəyin bulanır, yanıb tökülürsən, ona görə də hökumətdən qisas almaq istəyirsən. Amma sən deyənlər keçməz. Bu cür dillərinə görə səni məhkəməyə çəkərəm.

Cahangir:

- Bilirəm, hər yerdə sözün ötür, - dedi. - Bəlkə rayona ayaq döyüb məhkəmənin qabağında dayanmağa ehtiyac olmadı.





Səftər:

- Xeyr, bu sözlərinə görə səndən əl çəkən deyiləm. Məhkəmədə cavab verəcəksən.

Cahangir gülümsündü:

- Darıxma, - dedi. - Hövsələni bas, bəlkə məhkəməni mən özüm qurdum. Elə bir yerdə ki, orda üçümüzdən başqa heç kəs olmadı. Sən, mən, - Cahangir: - bir də üçatılan - demək istəyəndə özünü güclə saxladı və silahı gizlətdiyi Sarı qaya tərəfə baxdı.

Səftər elə başa düşdü ki, Cahangir üçüncü deyəndə, Qənirəni nəzərdə tutur. Ona görə də Cahangirin dediyini dəqiqləşdirmək üçün:

- Oxunu atıb yayını gizlətmə. O üçüncü kimdir? - soruşdu.

Cahangir:

- Üçüncüsü - son sözün sahibi, üzü buz kimi soyuq, ağzından od püskürən şeytan əməlidi, - dedi.

Səftər onun dediyini anlaya bilməsə də, qəti əmin oldu ki, Cahangiri fikrindən döndərmək müşkül məsələdir. Onun əlindən qurtara bilməyəcək. Ona görə bir qədər susub fikrə getdi. Birdən gözü Cahangirin arx boyu qırıb tökdüyü cır tut ağaclarına sataşdı. O dəqiqə Səftərin sifəti dəyişdi və sanki cəsarətləndi. Çünki Cahangiri tələyə salıb, onun ağzını yummaq üçün bundan yaxşı fürsət ola bilməzdi. Odur ki, bu dəfə Cahangirlə yumşaq dildə yox, ittihamedici tərzdə danışmağa başladı:

- Yaman yuxarıdan gedirsən, Cahangir! - dedi. - Bilirəm, bir vaxt Molla Tağıdan dərs almısan, elə molla kimi də danışırsan. Sözlərin çox ibarəlidir. Ancaq günah bizdədir ki, sənin kimilərinin buynuzunu vaxtında qırıb,

gözünün odunu almamışıq. Sən Cahangirin yeri bura yox, Sibirdir. Artıq o vaxtın yaxınlaşıb. Mənə atmaq istədiyin böhtanlar baş tutmaz. Ona görə ki, sinəndən dəyirman dağı getməyib, köhnə ab-havayla danışırsan. Hökumətdən, ona sadiq olanlardan hayıf almaq istəyirsən. Canlı sübutun biri elə gözümüzün qabağındakı bu tut ağaclarıdır. Neçə gündür qırıb tökürsən. Məqsədin budur ki, yarpaq məhv olsun, yem çatmasın, qurdlar acından qırılsın, barama olmasın, hökumətin fabrikləri dayansın. Daha bundan böyük xəyanət ola bilər?! Məgər düşmənin buynuzu olur?! Biz siyasi sayıqlığımızı itirmişik. Hökumətin ziddinə gedən sənin kimi xainlər də xəlvətə çəkilib, fürsət düşən kimi altdan-altdan öz işini görür.

Cahangir:

- Səhvin var, lütoğlu, istəyirsən hay qaranı basınca qara hayı bassın?! O keçməz! - dedi. - Molla Tağı da elə sənin tayındı. O, fırıldaqçı, sən də gözüdağınıq biqeyrət. Elə ki, onun sifətlərini gördüm, tüpürdüm Molla Tağıya. İndi də sən. İstər firqəçi ol, istər şah. Hər addımın cinayətdi. Göstərdiyin tut ağaclarının kəsilməsini deyirsənsə, buna ayrı cür don geydirə bilməzsən. Arxın qabağını kəsən lazımsız ağac-uğacı kəsmişəm ki, burdan su axsın. Özü də düz eləmişəm. Birini kəsmişəm ki, yüzünü, mini bitirim. O biri tərəfinə qalanda da, mən işin xeyrinə iki-üç ilə böyüyüb bar-bəhrə verən ağac doğramışam. Sən başımızın ağası, firqəçi Səftər isə on beş-iyirmi ilə ərsəyə yetən insana, ərlik qıza balta endirmisən. Elə balta ki, yarası qiyamətədək sağalmaz. İndi gəl görək, Sibir sənin yerindi, yoxsa mənim?!

Cahangir bunu deyib əvvəlcə üçatılanı gizlətdiyi Sarı qaya tərəfə baxdı, sonra nə fikirləşdisə, əyilib





dəhrəyə əl atdı. Onun bu hərəkəti lüt Qasımın oğlu lovğa Səftərin diqqətindən yayınmadı. Ona görə də Cahangirdən ehtiyat edib, cilovu dartdı. At o tərəf-bu tərəfə burulub yerində eşələndi. Səftər Cahangirlə söz güləşdirməyin əbəs olduğunu, həm də onun əlindən xata çıxa biləcəyindən şübhələnib, ata bir qamçı vurdu və cilovu buraxdı. At kəndə tərəf götürülüb Cahangirdən uzaqlaşdı.

* * *

Rayondan nümayəndə gəlmişdi. Torpaq şöbəsinin müdiri, deputat Qüdrət Qənizadə bir saat olardı ki, Səftərin kabinetində əyləşib onu gözləyirdi. Səftər atdan düşüb qonaqla çox səmimiyyətlə görüşdü. Səftər Qüdrət Qənizadənin əlini buraxmadan:

- Gərək məni bağışlayasınız, - dedi. - İş başımı o qədər qatıb ki, az qalıb adımı da yadımdan çıxardam. Səhərin gözü açılandan çöllərdəyəm. Təsərrüfatın da ucu yox, bucağı yox, günlərin uzun olmasına baxmayaraq, axşamacan gəzib qurtara bilmirəm. Təsərrüfat da elədir ki, gərək hər dəqiqə gözün üstündə ola. Desəm ki, səhər yediyimin üstündəyəm, inanmazsınız. Əməlli-başlı oturub bir stəkan çay içməyə macal tapmıram.

Səftər qonağa dil-ağız edib onun əlini buraxdı. Müsahiblər bəzi işlərini görüb, şikayəti olanları qəbul edib yola salandan sonra kabinetdə tək qaldılar. Artıq hamı çəkilib getmişdi, həyət-bacada heç kəs görünmürdü. Qüdrət Qənizadə ilə Səftər qabaqlarında çay şirin söhbət edirdilər. Gecədən xeyli keçmişdi. Ətraf tam sakitlik idi. İdarə gözətçisi sədrin kabinetində qonaq olduğunu nəzərə alıb, onlar əyləşdiyi otağa tərəf heç kimi burax-

mırdı. Birdən ağlaşma, hıçqırtı səsi eşidildi. Səftər ayağa qalxıb qonağa:

- Siz narahat olmayın, əyləşin, mən bu saat məsələni araşdırıb vəziyyəti sizə danışaram, - deyib cəld idarənin həyətinə çıxdı və gözətçinin üstünə qışqıraraq: - İçəridə qonaq ola-ola bu nə səs-küydü salmısınız, adamlarda qanacaq-zad qalmayıb!!

Yaşlı gözətçi ağır addımlarla lüt Qasımın oğlu lovğa Səftərə yaxınlaşıb, kənardan eşidilməsin deyə ağzını onun qulağına yaxınlaşdırdı:

- O qızın qohumudu, - dedi. - Sona arvad, Qənirənin xalası, nə isə deyiləsi sözü var.

Səftər əsəbiləşdi, üzünü gözətçiyə tutaraq amiranə bir səslə:

- Qoy gəlsin, görək gecənin bu vaxtı nə istəyir, ancaq buralara başqa adam buraxma, - deyib kabinetinə qayıtdı.

Qənirənin yaşlı xalası Sona arvad başında qara örtük xəcalət çəkə-çəkə sədrin arxasınca içəri daxil oldu və qəhərini güclə boğaraq:

- Ayağınızın altında ölüm, - dedi. - Bilirsiniz dayna, o bacımı yel tutur. Əri də arabanın altında qalıb şikəst olub, yerindən güclə qalxır. İki də məktəbli uşaqları var, körpə olduqlarından əllərindən iş gəlmir. O dörd baş külfəti dolandıran təkcə Qənirədi. Evdə baş tərpədənləri elə odur. O da olmasa, dörd baş adamın hamısı damın altında acsusuz qalıb qırılmalıdır. Səhərdən axşamacan özünü odaközə vurub, onları birtəhər yola verir. Bacım qızı olduğuna görə demirəm, yıxılı evin dirəyidi. Nə gecəsi var, nə gündüzü. İnək sağ, çəltik alağı elə, bu il də qara yola, qara saata yarım qutu barama qurdu toxumu götürüb onu becərir... Hansını deyim. İndi sizə baş ağrısı verməkdə sözümün canı odu ki, Qənirə bu axşam evə qayıtmıyıb.





O adam qalmayıb soraqlaşmıyaq, o yer qalmıyıb axtarmıyaq. Gördüm deyən yoxdur. Nə sirdirsə, qız it-bata düşüb. Nə bilim, vallah, mal bir yerə gedər, güman min yerə. Deyim, qızı qaçırıblar, ağlabatan deyil. Qayadan düşdü, ilan vurdu, yoxsa başına başqa bir iş gəldi?! Adamın ağlına yüz cür şey gəlir. Bayaqdan bəri qalmışam əli qoynunda. Evdə də ki, xəstə ata-anası, qardaşları özlərini öldürürlər. Hamımız yasa batmışıq.

Sona xala bu sözlərin hamısını rayondan gələn deputat qonağa deyirdi. Hərdən bir də sədrin üzünə baxırdı:

- İndi biriniz rayonun böyüyüsünüz, biriniz də kəndin. Sizdən başqa söz deməyə bir ümid yerimiz yoxdu. Kömək eləyin, o qız tapılsın. Dilim qurusun, başına bir iş gəlsə, o dörd nəfərə kim yiyə durar?! İndi hərə öz başının hayındadır.

Sona xalanın dediyi sözlərin təsiri altında Səftərin sifətinə süni kədər çökdü:

- Hərdən mənə də rast gəlirdi, - dedi. - Diribaş qız idi. - Səftər ağır-ağır dilləndi: - Narahat olmayın, xala, harda olsa gəlib çıxar. Bəlkə yarpaq-zad yığanda ağacdan yıxılıb. Ola bilsin, hardasa yatıb yuxuya qalıb. Eh, ay Sona xala, indiki qızlara etibar var? Bir də eşidəcəksən ki, Qənirə birinə qoşulub qaçıb.

Səftər bu sözü zarafatyana dedi. Qonaq gülümsündü. Sona xala özü də qımışdı:

- Yox, oğul, pir mənimdi, kəramətinə bələdəm. Qənirə o xasiyyətin sahibi dəyil. Bir də ki, onda həvəs hardaydı, yadına ər düşürdü?! Ömrünü elə o xəstə ataanasına, iki tifil qardaşına həsr eləyib. - Sona xala bu sözləri deyib yumub-tökdü.

Qüdrət Qənizadə üzünü Səftərə tutaraq:

- Nu, xoroşo, məsələ aydındır. Burada nağıl açmayın.

Xalanı yola sal, getsin. Gecənin bu vaxtı nə etmək olar?! Səhər açılsın, bir şey fikirləşərik. Axşamın xeyrindənsə, səhərin şəri yaxşıdır.

Sona xala qarşısındakı mötəbər şəxslərə hiss etdirmədən xısın-xısın ağlayırdı. Səftər Sona xalanın qolundan yüngülcə yapışıb, ona təsəlli verə-verə arxayın yola saldı. Sonra üzünü Qüdrət Qənizadəyə tutaraq təəssüflə başını buladı və dərindən bir ah çəkərək:

- Bilirsiniz, yoldaş Qənizadə, - dedi, - siz rəhbər işçi olmaqdan əlavə, respublikamızın deputatısınız. Deputat da elin ağsaqqalı, qayğı çəkəni deməkdir. İndi dərdimizi sizə deməyək, bəs kimə deyək. Ağır zəmanədir, işləmək çətindir, əl-qol açmağa qoymurlar. Xatirinizə dəyməsin, oturmusunuz yuxarıda, aşağılardan xəbəriniz yoxdur. Xalq düşmənlərinin quyruğunu yaralamışıq, ancaq başı hələ əzilməyib. Onlar da fürsət düşən kimi işlərini görürlər. Bu sözləri deyib qanınızı qaraltmaq istəməzdim. Amma indi məcburam. Çünki artıq bıçaq sümüyə dirənib. Bax, bu Sona xalanın ağladığını görəndə düzü, ürəyim ağrıdı, özümü saxlaya bilmədim. Axı, daşdan-qayadan yaranmamışıq, bizi də ana doğub. Necə olsa insanıq. Bizim də qəlbimiz var. Hələ bu harasıdır. Vaxtında tədbir görülməsə, camaatımızı bundan da betər fəlakətlər gözləyir. Çox yox, elə bircə fakt. İcazə verin deyim, ondan sonra özünüz hesabınızı aparın. Kənddə Cahangir adlı müzür bir tip var. Vaxtilə molla məktəbində oxuyub, şəriət öyrənib. Gözümlə görməmişəm, deyilənə görə, xəlvət namaz da qılır, hələ desən oruc da tutur. Bax, beləsindən nə gözləmək olar?! Düzdü eey, onun orucu da, namazı da başına dəysin. İndi sözdə də olsa, deyirik, din azaddır. Ancaq cavanların başını xarab eləyir. Orda-burda danışır ki, istər firqəçi olsun, istər komsomol. Allahı ki, tanımır, onun qədəm basdığı yerdə nə xeyir-bərəkət olar, nə də ki, ot bitər. Bax, bu cür əks-təbliğatlar bizi hara aparıb çıxarar?! Cahangir kimilərinin dili bizimlə barışsa da, ürəyi heç vaxt barışmaz. Çünki xaindir. Vaxtilə dəyirman onlara işləyib. İndi əlindən çıxıb, kolxozu görən gözü yoxdur.





- Əgər belədirsə, bu barədə lazımi orqanlara vaxtında yazılı və ya şifahi məlumat vermisiniz? - Deputat Qüdrət Qənizadə soruşdu.

- Xeyr.

- Bu, daha pis. - Qənizadə ona iradını bildirdi.

- Düzdür, əsas təqsirin biri elə özümüzdədir. - Səftər cavab verdi. - Mən bir qədər ürəyiyumşaq adamam. Əlimdən mərdimazarlıq gəlmir. Fikirləşdim ki, necə olsa, bir kəndliyik, yaxasını aparıb qırmızıpapaqların əlinə verməyim. Bir bölük külfəti var. Onlara yazığım gəlir. Ona görə hələlik səbr elədim. Fikirləşdim ki, ağlı başına gələr. Çürük fikirlərindən əl çəkər. Böyük təsərrüfatdır. İşin bir qulpundan da o yapışar. Ancaq baxıb görürəm, düzələn zibil deyil. Həmişə sola çəkir. Atalar yerində deyib ki, qozbeli qəbir düzəldər. Cahangir artıq düz yolda deyil. Elələrinin varlığı quruluşumuz üçün təhlükədir.

- Beləsindən vaxtında izbavitsa olmaq lazımdır, - Qüdrət Qənizadə sədrin dediklərinə münasibətini bildirdi.

- Siz tamamilə düz buyurursunuz, - lovğa Səftər Qüdrət Qənizadənin sözlərini təsdiq etdi və həyəcanla:

- Bizim bu aşağıda, çay tərəfdə qədim bir arx var. Bilmirəm, yüz ildi, min ildi bundan qabaq çəkilib. İndi arxdan əsər-əlamət qalmayıb. Uçub-dağılıb, adına da Dəlmə arxı deyilir. Cahangir dediyim o adam neçə aydır

girişib həmin arxa. Guya kəndə canı yanır, arxı düzəldib su gətirmək istəyir. İşə başlamazdan əvvəl məndən razılıq almaq üçün yanıma gəlmişdi. Mən də etiraz etmədim. Fikirləşdim ki, arxdır, çəkmək istəyir, qoy çəksin. Nə ziyanı var. Əkin yerlərini artırarıq, camaat bağdan-bostandan əkər. Ona razılığımı bildirib, hələ bir - sağ ol da, - dedim. Bu gün təsadüfən işin üstündə ona baş çəkdim. Nə görsəm yaxşıdır?! Vicdansız oğlu, vicdansız, neçə illik tut ağaclarını dibindən doğrayıb yıxıb yan üstə. Yağı görsə qan ağlayar. Özü də bilə-bilə ki, barama qurduna yarpaq tapa bilmirik. Vəziyyət o yerə çatıb ki, qonum-qonşu kəndlərdən yarpaq dilənirik.

Rayon torpaq şöbəsinin müdiri bu sözləri eşidəndə yerində otura bilmədi. O, əsəbiləşib ayağa qalxdı, yenə də stulunda əyləşdi və təəccüblə:

- Siz nə danışırsınız?! Bu ki, açıq-aşkar düşmənçilikdir. Qatı cinayətdir!! Belələrini boğazından asmaq lazımdır!!

Səftərin ayağı bir az da yer aldı:

- Mənə inandığınıza heç bir şəkk-şübhəm yoxdur, - dedi. - Bütün ailəmiz bilir ki, bu vəzifə də, yediyimiz çörək də sizin hesabınızadır. İtirsəm, nankor olaram. Əziz başınız haqqı, tut ağaclarının o cür insafsızcasına doğrandığını görəndə ürəyim ağrıdı. Elə bildim tut ağacını yox, mənim sağ qolumu kəsiblər. Xahiş edirəm, əziyyət olmasa, sabah həmin yerə birlikdə baxaq. Onda özünüz də bu dediklərimin şahidi olarsınız...

Səftər əyləşdiyi stulu bir qədər də Qüdrət Qənizadəyə yaxınlaşdırdı:

- Bayaq Sona arvadın bura gəlişi də mənə ayrı şeydən xəbər verir, - dedi. - Qənirə bir gün əvvəl işdən evə Cahangirlə birlikdə gəlib. Çox güman ki, Qənirə





Cahangirin kəsdiyi tut ağaclarının yarpaqlarını yığmaq istəyəndə aralarında mübahisə olub. Bəlkə də Cahangir tut ağaclarını şil-küt eləyəndə Qənirə ona etirazını bildirib və ya bu sirri açacağı ilə Cahangiri hədələyib. Çox ola bilsin ki, Cahangir qızın səsini kəsmək üçün elə oradaca Qənirənin işini bitirib... Cibində partiya bileti gəzdirən bir kommunist kimi, Qənirənin bu axşam evə gəlməməsini ayrı cürə izah edə bilmərəm. Ovcumun içi kimi bilirəm ki, Qənirənin yoxa çıxmasında mütləq onun barmağı var. Deputatımız, həm də partiyanın inanıb etibar etdiyi şəxs kimi, yeri gəlmişkən, bir məsələni də sizdən gizlədə bilmərəm. Mənim öz mindiyim at da birdən-birə yoxa çıxıb. Qeyri-dəqiq məlumata görə, at çayın yaxınlığında otlayırmış. Cahangir görür ki, heç kəs yoxdur, atı tutub belinə ağır daş bağlayıb, salır Dəvəbatan adlı gölə. Dəvəbatan çayın elə yeridir ki, su kahanın altından keçir və ora insan, heyvan, nə düşsə heç yerə çıxa bilməz, oradaca batıb qalmalıdır. Bax, Cahangir dediyim həmin vicdansız kənddə belə-belə xəyanətkar əməllərlə məşğuldur. Bu məsələni əl altından yoxlatdırıram. Şübhəm yoxdur ki, at məsələsi də o tipin işidir. Ona görə də Cahangirin hərəkətlərini xüsusi orqanlara çatdırıb, başını buralardan əkmək lazımdır. Bu da ki, yoldaş Qənizadə, deputat kimi sizin məsələyə qarışmağınızdan çox asılıdır. Düzdür, mən özüm də hara lazımdı, yazıb şikayət edə bilərəm. Lakin sizin sözünüzün təsiri başqadır.

Qüdrət Qənizadəni dəhşət götürdü. Onlar belə bir razılığa gəldilər ki, Cahangir səhərdən etibarən Dəlmə arxına tərəf getməsin. Bəzi qaranlıq məsələlər aydınlaşdırılandan sonra baxarıq, arxda iş davam etdirilsin, ya yox...

Briqadirə bu barədə qəti göstəriş verildi. Briqadir rayondan gələn nümayəndə ilə sədrin fikrini gecə ikən Cahangirə çatdırdı.

* * *

Neçə aydı Cahangir Dəlmə arxında can çürüdürdü. İşin başa çatdırılmasına bir neçə ay qalırdı. Yayın ortalarında köhnə arxdan su gəlməliydi. O, briqadirin axşamkı sözündən sonra sübh tezdən Dəlmə arxına gəldi ki, belini, düsərini, külüngünü, dəhrə-baltasını götürüb qayıtsın. Haçan razılıq olsa, yarımçıq qalmış işini davam etdirsin. Bu mülahizə ilə sübh tezdən yerindən qalxıb Dəlmə arxına yollandı. Cahangir iş alətlərini yır-yığış eləyəndə, Qüdrət Qənizadə ilə Səftər onun başının üstündə dayanmışdılar. Qalaçadan deputatlığı irəli sürülmüş torpaq şöbə müdiri Qüdrət Qənizadə qəddar bir cani ilə danışırmış kimi Cahangirdən soruşdu:

- Bu tut ağaclarını sən doğramısan?

- Bəli.

- Burada məqsədin nədi?

- Səftərə izah etmişəm, yəqin o sizə deməmiş olmaz. İşin xeyrinə eləmişəm.

Birdən Qüdrət Qənizadənin gözünə arxın içindəki daşlara düşmüş qurumuş qan ləkələri dəydi və o dəqiqə soruşdu:

- Bu nə qandı?!

Cahangir sakitcə şalvarının ayağını yuxarı çəkib dizinin sarıqlı yarasını göstərdi:

- Dünən iş görəndə karıxıb baltaynan kəsmişəm.

Qüdrət Qənizadə kinayə ilə:

- İnanan daşa dönsün, - dedi və - Qənirəni axırıncı





dəfə harada görmüsən?! O, dünəndən itib, evə gəlməyən qızı deyirəm, - əlavə soruşdu.

- Srağagün o qızla kəndə bir yerdə getmişik, qırdığı bir şələ yarpağı da atın üstündə qucağıma götürmüşdüm. Qapılarına qədər apardım. Tay sonrasından xəbərim yoxdu.

- Bəs dünən? - Qüdrət Qənizadə kinayə ilə soruşdu.

Cahangir təmkinini pozmadan:

- Dünən Qənirənin harada olduğunu yanınızda dayanan lüt Qasımın oğlundan soruşun. O həqiqəti deyər, çünki Səftər firqəçidi, vəzifə sahibidi, rayonun inanılmış adamıdı, yəqin ki, mənim kimi əliqabarlı, bitərəf kəndliyə nisbətən o, daha doğru-dürüst danışar.

Cahangir bu sözləri acı istehza ilə, kinayə ilə dedi və onu qarşısındakı mötəbər şəxslər də anladılar.

Səftər hiss etdi ki, sual-cavabın bu şəkildə uzanması onun xeyrinə deyil, tez araya söz saldı:

- Cahangir kişi, indiyə kimi xeyli iş görmüsən - dedi. - Buna görə sağ ol. Ancaq indi ortalığa dolaşıq məsələlər çıxıb. Get, bir-iki gün evdə dincəl. Biz də bəzi şeyləri araşdırıb, aydınlaşdırandan sonra yenə gəlib işə başlayarsan. Qonağın arx barədə ayrı mülahizələri var. Yoldaş Qənizadənin göstərişindən sonra nə etmək lazımdır, sənə deyiləcək.

Cahangirin baxışları üçatılanı gizlətdiyi qayalıqlarda dolaşdı. - Necə yeriydi, heyf ki, əlim çatmadı - öz-özünə düşündü və onun başının üstünü kəsdirib, sual-cavaba tutanlarla xudahafizləşmədən, hər ikisinə kinayəli nəzər yetirib, sakitcə sarı madyana tərəf yönəldi və atını minib kəndə qayıtmalı oldu.

* * *

Cahangir ağlı kəsəndən gecə-gündüz daşla, torpaqla əlləşən bir adamıdı. Allah-taala elə bil onu əkin-biçin üçün yaratmışdı. Bircə gün əli belə, düsərə, baltaya, dəhrəyə, külüngə dəyməsəydi, darıxırdı. Elə bilirdi o günü yaşamayıb, o günü görməyib. O gün nə gecəsi gecə olurdu, nə gündüzü gündüz. O gün nə şirin yuxu tapırdı, nə də ki, iştahla çörək yeyirdi. Ömrünə hesab eləmirdi o günü. Fikri-zikri iş idi. İndi Qüdrət Qənizadə ilə Səftər ona deyəndə ki, - get, bir-iki gün dincəl, sonra nə vaxt işə başlamalı olduğunu briqadir xəbər verər, - onda elə bil başından bir qazan qaynar su tökdülər. Cahangir ağaların hökmü qarşısında ağzını açıb söz deməyə aciz idi. İstər Nikolayın ağaları olsun, istər Şuranın. Əslində elə bir fərqi yoxudu. Hər ikisi də bir bezin qırağıdı. Farslar demişkən - xər həmən xərəz, çulu digərəz. Onlar nə hava çalsa yetim-yesir, rəiyyət ikiqat əyilib: - Bəli! Baş üstə! Bu iki gözüm üstə! - deyib sonra da qabaqlarında qol götürüb oynamalıydılar. Oynamayanın, bir balaca ayağını sürüyənlərin də yeri ya qəbir idi, ya da Sibir. Odur ki, Cahangir Dəlmə arxını yarı-yarımçıq qoyub gedirdi. Ona elə gəlirdi ki, arx da onun arxasınca gedir. Çünki arx susuz olduğundan sökülmüşdü, dağılmışdı, gərəksizləşmişdi. Yüz il idi, min il idi, arxın istəyi gözündə qalmışdı. Onu nisgildən qurtarmaq üçün Zabıxlı tayfasından bir qeyrət sahibi çıxmışdı, onu da şeytan-şuluq qoymadı. Arxın bəxti bəd gətirdi. Bədxahlar güclü çıxdı. Arx şərin zavalına gəldi.

Cahangir arxdan xeyli aralanmışdı. Ancaq qəlbi Dəlmə arxının yanında qalmışdı. Cahangir gedirdi, lakin xəcalət çəkə-çəkə gedirdi. Bir vaxt arxın suyundan bol-bol içən bağ-bağatın, köhnə kötüklərin ümidi





puça çıxırdı, Cəyən düzünün torpağı Cahangiri həm qınayır, həm də onun halına acıyırdı. Cahangirin də fikir yükünü ağırlaşdırıb, onun çiynindən basan su həsrətli kövşənlərin nisgili, kədəri, yalvarışı idi. Cahangirin dağ boyda dərdini bircə altındakı sarı madyan çəkib aparırdı. Ürəyi bala dağlı sarı madyan. Sarı madyanın həvəsini quduz yalquzaqlar gözündə qoymuşdu, sahibinin həvəsini isə köhnə ağaların taxtını tarac eləyib, cibinə firqə bileti qoyan təzə ağalar. Əslində Cahangir özü getmirdi, onu sarı madyan çəkib aparırdı. Onu da düşünürdü ki, köhnə yurdun qədrini təzə yurda düşənlər bilər. Təzə quruluşu görəndən sonra köhnə quruluşa şükür eləyirdi. Əqrəbdən gözü necə qorxmuşdusa, ilana sığınmaq istəyirdi. Xalqın deputatı, onun gözündə xalqın qansız, ruhsuz, kəmfürsət qənimi idi. Əgər əli üçatılana çatsaydı, o, bu sözləri deputatın qəlbi kimi soyuq olan o silahla deyərdi.

Taylı tayını tapmasa, günü ah-vayla keçər. Sarı madyanla Cahangir bir-birini yaxşı tapmışdı. Dərdli insan, dərdli at... Yaz günəşinin altında mürgü vuran yalçın qayalar, qəlbi dağlar da onların başına gələnlərdən halıymış kimi, qəmli, kədərli görünürdü. Ancaq Cahangir hələlik ümidliydi. Əlini arxdan üzməmişdi. Düşünürdü ki, iki-üç gün evdə qalmaqla dünya dağılmaz. İşə başlayanda canıma cəfa basıb, bir az çox çalışaram. Gecəni-gündüzə qatıb həmin günlərin əvəzini çıxmağa nə var?! Əsas odur ki, arxdan vaxtında su gəlsin. Yayın cırhacırında köhnə bağlar, əkin yerləri sirab olsun, boynuma götürdüyüm iş başa çatsın. Onda elə bilərəm Həccə gedib qayıtdım. Ən böyük ziyarət qəlb tikib, savab iş görməkdir. Onsuz da Şura gələndən

ziyarətgahlarımızın yolu bağlanıb. Əməllərimizin yolu isə həmişə, hər yerdə açıqdır. Hamının arzu edib can atdığı cənnətin qapıları heç vaxt əməlisalehlərin üzünə bağlı olmayıb... Mənimsə ora gedən yolum Dəlmə arxından keçir. İnşallah, bu mənzili başa vuraram. O dünyaya üzüağ gedərəm.

Cahangir başına nə gələcəyini ağlına gətirmirdi. Ancaq onu əhatə edən dağlar, əriş-arğac kimi uzanıb gedən yollar, daşqəlbli qayalar, qoyub gəldiyi Dəlmə arxı Cahangiri qarşıda nələr gözlədiyini bilirdi. Ona görə məyus olmuşdular, yasa batmışdılar. Dilə gəlib, dəsmal götürüb Cahangiri elə buradaca, sarı madyanın üstündə sağ-salamat, diri-diri ağlayırdılar. Bu uludan ulu dağlar çoxlarını yola salmışdı, çox şey görmüşdü, çox şey bilirdi. Ona görə də Cahangirə Cahangirsiz yas tutmaq istəmirdilər. Onunla elə öz sinələrində, öz çiyinlərində, öz cığırlarında vidalaşmaq istəyirdilər. Cahangir isə səbrliydi, ümidliydi, hələlik ağlına ayrı şey gəlmirdi. Bircə Dəlmə arxına nə vaxt başlamaq barədə düşünürdü. Fikri-zikri susuzluqdan yanıb qovrulan torpaqları sirab etmək idi.

* * *

Qüdrət Qənizadə vacib işlərini qurtarıb günorta olmamış rayona qayıtdı. O, gedəndən sonra lüt Qasımın oğlu lovğa Səftərin təkidli tələbi ilə kəndə gələcək yeni "qonaqların" qarşılanması üçün hazırlıq işlərinə başlandı. İdarə səliqə-sahmana salındı. Həyət-bacanın təmizlənməsinə bir neçə qadın cəlb edildi. Gözətçiyə tapşırıldı ki, yan-yörədə adam görünməsin. Sədrdən icazəsiz idarəyə heç kəs buraxılmasın. Yaxın küçələrdə gediş-gəliş yığışdırılsın. Hamı çəkilib ev-eşiyinə getsin.





Şər qarışanda kəndin ayağında iki nəfər atlı peyda oldu. Onların bazburudundan, xüsusi geyim-kecimlərindən, şalvarlarının göy zolaqlı olmasından hiss edilirdi ki, Dövlət Təhlükəsizlik İdarəsinin işçiləridir. Atlılardan biri təkəbbürlü baxışları, hündür boyu, dolu sifəti, sarışın saçları, səliqə ilə düzəldilmiş nazik bığları olan və qalifeyi şalvar, uzunboğaz çəkmə geyinib, belindəki enli qayışdan tapança asılan baş leytenant Fərman Qarayev idi. Ondan yaş və rütbəcə kiçik olan leytenant Cəlil Kəlbiyev davranışından sərt və qaradinməz adam təsiri bağışlayırdı. Lovğa Səftər onları həyətdə qarşılayıb salamkəlamdan sonra kabinetinə dəvət etdi. Baş leytenant Fərman Qarayev qabağa düşdü, leytenant Cəlil Kəlbiyevlə sədr də onun arxasınca.

Bağlı qapı arxasında onların arasında bir neçə saatlıq məxfi söhbət getdi. Baş leytenant Fərman Qarayevi ən çox maraqlandıran Cahangirin kimliyi, keçmişinin şübhəli olub-olmaması, son vaxtlar özünü necə aparması, bir də ki, barama qurdu üçün yem bazası olan tut ağaclarının doğranıb məhv edilməsi, naməlum şəxs tərəfindən qətlə yetirilmiş və hələ də meyidi tapılmayan Qənirənin taleyi, sədrin it-bata düşmüş minik atının yoxa çıxmasıydı. Baş leytenant əvvəlcə bu barədə sədrlə xeyli sual-cavab apardı. Səftər inanılmış şəxs kimi bildiyini izah edir, hərdən partiya vicdanına, Leninin qəbrinə and içirdi. Leytenant Cəlil Kəlbiyev əlində qələm qəddini əyib deyilənlərin bir kəlməsini belə buraxmadan, qarşısındakı kağızlarda qeydlər aparırdı.

Səftər divardakı zəncirindən bir cüt ağır daş asılmış kəfkirli saata baxaraq:

- Gecədən xeyli keçib, saat düz iki tamamdır, - dedi. - Kənd yeridir. Burda çayxana, yeməkxana olmur. Siz

də uzaq yol gəlmisiniz. Ona görə də evdə hazırlıq görülüb. Axşam çörəyimizi yeyək, sonra yenə işlərimizi görərik.

Baş leytenant alnını qırışdırıb başını buladı:

- Görünür, bizim idarənin xüsusiyyətinə bələd deyilsiniz, - dedi. - Təklifinizə görə sağ olun. Başqa vaxt olsaydı, məmnuniyyətlə gedərdik. İndi elə bir məxfi məsələ üçün gəlmişik ki, kimliyindən asılı olmayaraq, heç kəsin evinə gedə bilmərik. Çay-çörək məsələsinə gəldikdə, narahat olmayın, özümüzlə hər şey gətirmişik.

Bununla da çay-çörək söhbəti yığışdırıldı. Leytenant Cəlil Kəlbiyev qollarını gərib, ağzını açanda onun alt çənəsindəki metal dişləri parıldadı və əsnəyə-əsnəyə:

- Siz kefdən danışırsınız, - dedi. - Sabaha qədər mütləq işimizi qurtarmalıyıq. Yoldaşlar rayonda bizi səbrsizliklə gözləyir. Adamları sabaha qədər danışdırıb qurtarmalıyıq.

Baş leytenant Fərman Qarayev leytenantın sözünü təsdiqlədi və Səftərə tərəf dönərək:

- Xahiş edirəm, siz hesabdarın otağına keçin. Onun kabineti onsuz da boşdur, - dedi. - Artıq vaxt keçir. Nəzərdə tutduğumuz adamları bir-bir çağırmaq lazımdır. Ancaq bizim yox, sədr kimi öz adınızdan. Əvvəlcə sizin otaqda olsunlar, onları, dediyimiz kimi, bir-bir başa salandan sonra bizim yanımıza göndərərsiniz. Bir də ki, camaatın arasında səs-küy salıb panika yaratmaq lazım deyil. Mümkün qədər çalışın ki, çağrılan adamların buraya gəldiyini özlərindən başqa bilən olmasın.

Səftər:

- Oldu, Fərman Bəxtiyaroviç, baş üstə, - deyib, ayağa





qalxdı və hesabdarın yan tərəfdəki boş kabinetinə keçdi. İnanıb, etibar etdiyi işçilərin vasitəsilə adamları bir-bir çağırtdırmağa başladı.

Cahangir idarəyə dəvət olunanda gecədən xeyli keçmişdi. Baş leytenantla onun söhbəti çox uzun çəkdi. Briqadir Şahsuvarla dəyirmançının, bir də ki, iki nəfər suçunun dindirilməsi qısa oldu. Qənirənin xalası Sona xala və bir çox başqaları baş leytenantla leytenantın yanına çağrılmadı. Onların adından yazılan izahata Səftər elə öz otağında qol çəkdirdi. Bəziləri yazı-pozu bilmədikləri üçün imza yerinə rənglənmiş barmaqlarını basdılar. Səftər Fərman Qarayevlə Cəlil Kəlbiyev tərəfindən qəbul edilib, dindirilən adamları bir-bir başa salmışdı ki, onların kimlə görüşdüklərini, nə barədə danışdıqlarını özlərindən başqa bir kimsə bilməməlidir. Baş leytenantla leytenant xüsusi idarədən gəldikləri üçün onların apardığı danışıqlar məxfi saxlanmalıdır. Dindirilənlərin hər birinin dilindən iltizam alınmışdı. Danışığa çağrılanlara izah olunmuşdu ki, bu barədə kimin dilindən bir kəlmə söz qaçsa, cinayət məsuliyyətinə cəlb olunacaq.

* * *

Xoruzlar üçüncü dəfəydi ki, səs-səsə verib banlaşırdılar. Dan yeri yavaş-yavaş ağarırdı. Baş leytenantla leytenant sübhə qədər yatmamışdılar. Hər ikisinin gözündən yuxu tökülürdü. Yorğunluqdan və yuxusuzluqdan onların qızarmış gözləri hərdən yumulur, çənələri sinələrinə enəndə səksənib özlərini düzəldirdilər. Buna baxmayaraq, onların kefi durulmuşdu. İşlərin gedişindən lüt oğlu xüsusilə razı idi. İndi adamlar yuxudan qalxmamış Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşları kənddən

elə çıxmalı idilər ki, onları görən olmasın. Ona görə də baş leytenantla leytenant sakitcə idarəni tərk edib, dalda bir yolla kəndin qurtaracağına qədər piyada getdilər. Səftərlə briqadir qonaqların atını yedəklərində onlara çatdırdılar. Baş leytenant Fərman Qarayevlə leytenant Cəlil Kəlbiyev alaqaranlıqda atların yəhərlərinə aşırılıb rayona tərəf üz tutdular.

Onlar gecəni yuxusuz keçirsələr də, işlərindən çox razı idilər. Çünki peşəkarlıq göstərib kənddə bir nəfər xalq düşməni aşkar etməyə müvəffəq olmuşdular. Bu, Təhlükəsizlik İdarəsi üçün yeni bir uğur sayılırdı. Cahangir Qəmbərovun xalq düşməni olduğunu təsdiq edən kifayət qədər daşdan keçən sənəd-sübut toplanmışdı. Qənirənin yoxa çıxmasında, sədrin şəxsi minik atının itməsində Höcət Cahangirin barmağı olduğuna dair kifayət qədər təsdiqedici dəlil olmasa da, inam yaradan ifadələr toplanmışdı. Ona görə də baş leytenant Fərman Qarayevlə leytenant Cəlil Kəlbiyevi tabe olduqları idarənin rəisi polkovnik Atakişi Qaraxanov tərəfindən ənam almaq kimi bir xoşbəxtlik gözləyirdi. Onların apardığı operativ, obyektiv əməliyyata görə rütbələri də arta bilərdi. Belə bir sevinc hissi onlara yuxusuzluqlarını da, yorğunluqlarını da, aclıqlarını da unutdurmuşdu.

Baş leytenantla leytenant çayaşağı, rayona uzanıb gedən əyri-üyrü, çala-çuxur yolda atlarını şövqlə sürürdülər. Yol daralanda baş leytenantın atı qabağa düşdü, leytenantınkı arxada yorturdu. Genişliyə çıxanda onlar qoşalaşdılar. Səhər-səhər çayın nəm və sərin mehi onların sir-sifətinə toxunduqca Fərman Qarayevlə Cəlil Kəlbiyev özlərində bir rahatlıq duyur, yazın ətirli rayihəsindən zövq alırdılar. Onların yolu irəlidəki dərəyə





enəndə atların yerişi yavaşıdı. Baş leytenant müsahibinə tərəf çönərək:

- Öz aramızda qalsın, o Cahangir Qəmbərov qəribə tipdi. Ağzından söz elə bil kəlbətinlə çıxır. Əvvəlcə izahat vermək istəmirdi. Çox da sərt xasiyyəti var. Az qaldı məni borclu çıxartsın. Düzdü, tut ağaclarını doğramasını boynuna aldı. Ancaq necə? Deyir, mən bunu camaatın xeyrinə eləmişəm. Əvvəla, tut ağacı heç kim tərəfindən əkilməyib, özbaşına yabanı qaydada bitib. İkincisi də, birini kəsmişəm ki, yüzünün, mininin bitməsinə yol açılsın.

Leytenant müsahibinin sözünü kəsərək:

- Burda ikimizdən başqa heç kəs yoxdur, düzünə qalsa, köpəyoğlu düz danışır. Tut ağacını o niyyətlə kəsməyib ki, qurd qırılsın? Ona görə kəsib ki, arxın ortasında bitib, gələcəkdə suyun axınına mane ola bilər. Prosto bu Səftər nəyə görədirsə, onun qanına yerikləyir. Bizim əlimizlə buna siyasi don geyindirmək istəyir. Qüdrət Qənizadənin də başını necə doldurubsa, o da Atakişi Qaraxanovu inandırıb ki, burada düşmən əli var. Polkovniki də qınamıram. Qüdrət Qənizadə balaca adam deyil, Ali Sovetin deputatıdır, ona necə inanmaya bilər?! Görünür, polkovnik də öz vəzifəsindən ehtiyat edir. Sabah deyə bilərlər ki, Atakişi Qaraxanov xalq düşmənlərinə havadarlıq edir, onların hərəkətinə açıq-aşkar göz yumur. Ona görə də Atakişi Qaraxanova it dəftərində adı olmayan Cahangir lazımdır, yoxsa rayon torpaq şöbəsinin müdiri, Ali Sovetin deputatı, raykomun büro üzvü?! Atakişi Qaraxanov o qədər axmaq deyil ki, Qüdrət Qənizadə kimi nüfuzlu, hər yerdə sözü keçən bir adamı qoyub, əlindən yer qazmaqdan başqa heç nə gəlməyən adi kəndlinin tərəfini saxlasın.

Baş leytenant müsahibinin sözünü istehza ilə qarşıladı:

- Guya mən çörəyi qulağımın dalına yeyirəm?! - dedi. - Bəzi şeyləri səndən də yaxşı bilirəm, lakin biz çekistik, mövqeyimizi dəyişə bilmərik. Bura xalq düşmənini duruluğa çıxartmağa göndərilməmişik. Cahangir istəyir ağzıynan quş tutsun, əmimiz oğlu deyil, dayımız oğlu deyil, nəyimizə lazımdır? Qoy rədd olsun cəhənnəmə! Kakraz belə bir hadisə Ağgöl rayonunda da baş vermişdi. Rayon Təhlükəsizlik İdarəsinin rəisi İbiş Allahyarlı şübhəli bilinib, haqqında cinayət işi qaldırılan Mehdi Hümbətov barəsində arayış təqdim etmişdi ki, bu, başdan-ayağa əsası olmayan uydurmadır. Mehdi Hümbətovun heç bir təqsiri yoxdur. Əslində İbiş Allahyarlı obyektiv hərəkət etmişdi. Lakin bu, Bakıdakıların şəxsi marağını təmin etmirdi. Ona görə də İbiş Allahyarlının haqlı olmasına baxmayaraq, orqandan uvolit elədilər. O, partiyadan da xaric olundu. İndi qalıb ortalıqda, iş verən də yoxdur. Uşaqları səfil həyat sürür. Ancaq bütün Ağgöl rayonu bilir ki, İbiş Allahyarlı bu məsələdə düzgün mövqe tutmuşdu. Amma camaatın rəyi ilə kim hesablaşır?! Heç kim! Ona görə də dostum, belə məsələlərdə gərək son dərəcə ehtiyatlı olasan, tükü tükdən seçməyi bacarasan. Haqqın yox, taleyimizi həll edən iqtidar, ixtiyar sahiblərinin tərəfində olmalıyıq. Biz kimik?! Heç kim! Əyən-bəyən eliyərik, çürük diş kimi atarlar kənara. İbiş Allahyarlının gününə düşərik. Onda bizi kim müdafiə edəcək? Qalaçalı Cahangir?! Ay-hay! - Baş leytenant əlini yellədi. - Bunu mən demirəm, zəmanəmizin iyrənc siyasəti dedirdir. Başqa cür hərəkət etsək, sabah bu həngamələrin qabağında duruş gətirə bilmərik. Paqonlarımızı açıb, külümüzü





göyə sovurub, İbiş Allahyarlının gününə salmaq üçün Gülpərinin naz-qəmzəsi ilə oynayan Qüdrət Qənizadənin bircə kəlməsi kifayətdir. Ona görə də özümüzü niyə dağa-daşa salaq?! Qoltuğumuzdakı sənədlər nə deyir, ona əsaslanmalıyıq. Barama qurdunun yem bazası məhv olub? Olub! Sədrin minik atı yoxa çıxıb? Çıxıb! Qənirə iki gündür itib, tapılmır? Tapılmır! Hamısı da gedir dirənir Cahangirə. İzahat verənlər də yazılı surətdə bunu təsdiq edirlər. Bundan sonra bizim onun barəsində müsbət rəy söyləməyimizə lüzum yoxdur. Düzdür, biz vicdanımızın qarşısında nə barədə isə obyektiv fikir yürüdə bilərik, lakin sübutu imkan xaricində olan həqiqət naminə özümüzü güdaza vermək, - baş leytenant sözünə fasilə verib başını buladı, - bu, zəmanəni başa düşən üçün sadəcə bir axmaqlıq olardı.

Baş leytenant bunu deyib ata bir qamçı vurdu və müsahibindən xeyli aralandı. Yoxuşun başında cilovu çəkib atın yerişini yavaşıtdı. Leytenant Cəlil Kəlbiyev ona çatanda baş leytenant bayaqkı sözünə davam etdi:

- Əlbəttə, bütün bunları öz aramızda deyirik. Nə sənin, nə də ki, mənim xətir üçün xəstə yatan vaxtımız deyil. Bal alanın da atasına lənət, bal satanın da. Bizim nəyimizə lazımdır! Onsuz da öz işimizi yuxarıların dediyi kimi görmüşük. İnnən sonrası istintaqın işidir. İtin dişi olsun, donuzun dərisi. Müstəntiqlər necə sübuta yetirərlər, özləri bilərlər.

Leytenant paqonlu çiyinlərini tərəddüdlə çəkərək:

- Cahangir Qəmbərov o cür ki, danışır, çətin olacaq. Onun boynuna diri ilan salsan da, heç nə deyən deyil.

Baş leytenant Fərman Qarayev istehza ilə gülümsündü:

- Ölünü özbaşına qoysan, kəfəni batırar, - dedi. - Çə-

tini dama girincədir. Bir-ikisini ilişdirəndən sonra o dil-dil ötən Cahangir yumşalıb quzuya dönəcək. Tut ağacını düşmənçilik məqsədilə kəsdiyini də, qız məsələsini də boynuna alacaq.

Leytenantın kefi duruldu və atın başını buraxdı. Baş leytenantın atı onunkundan paçalı idi. Dördnala qalxıb bir göz qırpımında leytenantın köhlənini haqladı. Atlar tozhatozla bir tap çapıb dayandılar. İndi onların atları bayaqkı kimi yenə qoşa addımlayırdı.

Baş leytenant Fərman Qarayevlə leytenant Cəlil Kəlbiyev iş yoldaşı olmaqdan əlavə, Leninqradda KQB məktəbində bir oxumuşdular. Ailəvi də dost idilər. Lakin bu yaxınlığı bildirməməyə çalışırdılar. Baş leytenant hara gedirdi, leytenantı da özüylə aparmağa çalışırdı. Onlarınkı tuturdu. Baxmayaraq ki, bir-birinə ürək qızdırıb, etibar etmək məxfi idarənin işçilərinə xas olmayan bir xüsusiyyətdir. Çünki bu idarə elədir ki, işçilər üzdə dostluq etsə də, arxada bir-birini keçi qiymətinə satmaqda mahirdilər. Burada qardaşın qardaşa inamı yoxdur. Hamısı canavar kimi ağız-ağıza yatır. Lakin bu cür münasibəti baş leytenantla leytenanta aid etmək olmaz. Artıq onlar bərkdə-boşda bir-birini sınaqdan keçirmişdilər. Ona görə də Fərman Qarayevlə Cəlil Kəlbiyev arasında bir-birindən gizli sirr yoxudu. Qorxub-çəkinmədən hər şeyi olduğu kimi açıq-saçıq danışırdılar. Kefləri duru olanda şit zarafatlaşmaqları da vardı. Fərman Qarayev bic-bic gülərək:

- Bayaq adını çəkdiyin Gülpərini tanıyırsan?

- Hansı Gülpərini? Səftərin torpaq şöbəsində katibə işləyən bacısını deyirsən?

- Bəli, onu sən hardan tanıyırsan? - Leytenantın cavabı baş leytenantı təəccübləndirdi.





Kəlbiyev:

- Fərman Bəxtiyaroviç, bu məsələnin tarixçəsini səndən yaxşı bilirəm. Gülpəri orta məktəbi bitirəndən sonra bir müddət maliyyə şöbəsində kassir işlədi. Onda Qüdrət Qənizadəni təzəcə maliyyə şöbəsinə müdir qoymuşdular. Qənizadə ilə Gülpərinin əlaqəsi ordan başlamışdı. Sonra Qüdrət Qənizadə torpaq şöbəsinə müdir keçəndə Gülpərini özünə katibə apardı. Söz-söhbət olmasın deyə, Qüdrət Qənizadə onu zorla idarənin zavxozuna sırıdı. O da xoşqeyrətin biridir. Qabaq mehtər işləyirdi, sonra Qənizadə onu zavxoz qoydu. Amma zalım qızı Gülpəri su sonasıdır. Yaxşı deyiblər ki, meşədə armudun yaxşısını ayı yeyər.

Baş leytenant:

- Ərini mən də tanıyıram. Adı da Xangəldidi, nədi, boynu da qısıq, köstəbəyə oxşayır,- dedi.

Kəlbiyev güldü. Baş leytenantın isə baxışları ciddiləşdi:

- Sən hələ fil qulağında yatmısan, dünyadan xəbərin yoxdur. Səftərə dayılıq eləyən Qüdrət Qənizadədir. Bizim hörmətli deputatımız! Xalqın ən ləyaqətli oğlu! Bu həngamələrin də kökü gedib ona çıxır. Bizi də dağa-daşa salıblar ki, Gülpərinin xətri xoş olsun.

Cəlil Kəlbiyev:

- O barədə mən də bir balaca ucundan-qulağından eşitmişəm, - dedi.- Bildiyimə görə Qənizadənin ailəsi dağa-bağa gedəndə Gülpəri gecələr onlarda qalır. Ər-arvad kimi yaşayırlar.

Fərman Qarayev:

- Onu da bilirsənmi ki, Gülpəri öz ərini yaxınına qoymur, - dedi. - Bunu mənə onun yaxın rəfiqəsi danışıb, bizim ordakı agentimiz. Bir neçə dəfə onların arasında

narazılıq olub. Hətta Xangəldi onu boşamaq fikrinə düşüb. Qənizadə bunu eşidəndə Xangəldiyə hədə-qorxu gəlib. Sən dünyanın işinə bir bax, Qüdrət Qənizadə, hətta Gülpərini ərinə qısqanır. Gülpəri də ərini qoyub oynaşının dediyi ilə oturub-durur. Ərinə and-aman edib, hətta həkim kağızı göstərib ki, onda ağır qadın xəstəliyi var. Həkimlər Gülpərinin kişi qismi ilə yaxınlıq etməsinə icazə vermirlər. Guya həkimlər Gülpəriyə deyiblər ki, özünü gözləməsən, operasiya olunmalısan. O da elə qorxulu xəstəlikdir ki, bıçaq altından çıxa, ya çıxmaya. Odur ki, Gülpərinin əri inanıb, əmin olub ki, arvadına qadın kimi yanaşmaq olmaz.

Cəlil Kəlbiyev başını buladı:

- Qadın ki, qadın! Onun fitnəsindən, felindən baş açmaq çətindi, - dedi. - Görünür, arvad almaq asan olsa da, ər olmaq hər kişinin işi deyil.

Fərman Qarayev:

- Bəli, indi Gülpəri idarədə atamanlıq eləyir, - dedi. - Qüdrət Qənizadənin başında qoz sındırır. Özü də doğub-eləmir, ərəmliyin biridir. İdarədə nə desə, odur. İşçilər Gülpəridən daha çox qorxub-çəkinirlər, nəinki müdirlərindən. Səftər də ki, onun hesabına kənddə at oynadır. Yoxsa beş köpüklük ağlı olmayan, gicin birinə o boyda kəndi tapşırmaq olar?! Agentlərin məlumatına görə, kənddə sataşmadığı qız-gəlin qoymayıb. Axırda birinin əli ilə gəbərməsə yaxşıdır. O cür adam çətin ki, gora öz əcəli ilə getsin. Bir gün eşidərsən ki, bıçağı soxublar qarnına. Qalaça camaatı da onu yaxşı tanıyır.

Cəlil Kəlbiyev:

- Bütün bu söz-söhbətlərin kökü bəllidir. Hamısı gedib Qənizadə ilə Gülpəriyə çıxır. Ortada bizi zibilə salıblar.





Rayon mərkəzinə çathaçatda baş leytenantla leytenantın arasında gedən qeyri-rəsmi söhbətin istiqaməti dəyişdi. Onlar tutduğu vəzifəyə, işlədikləri xüsusi idarəyə xas olan görkəm aldılar...

* * *

Hündür boyu, nüfuzedici baxışları olan və dən düşmüş saçları geri daranan rayon xalq daxili işlər komissarı polkovnik Atakişi Qaraxanov operativ işçilərin apardığı yoxlamanın nəticəsindən olduqca razı qaldı. Və onları qısaca olaraq dinləyib, bəzi sənədlərlə tanış olduqdan sonra kefi duruldu və hər ikisinə təşəkkürünü bildirdi. Sonra da fəxrlə telefonun dəstəyini qaldırıb Qalaça kəndində xalq düşməni tapılıb, ifşa edilməsinə dair müvafiq orqanları məlumatlandırdı...

* * *

Cahangir evdən çölə çıxmırdı. Bilirdi ki, rastlaşdığı adamlar ona cürbəcür qanqaraldıcı suallar verəcək. O isə heç kəsə heç nə deyə bilməzdi. Çünki dilindən iltizam almışdılar. Özü də neçə gün idi çaş qalmışdı. Bilmirdi çağırıb deyəcəklər, get Dəlmə arxını qurtar, yoxsa bir-iki gün bundan qabaq onu sorğu-suala tutan paqonluların yanına aparacaqlar. İki daşın arasında qalmışdı. Evdəkilərə də heç nə demirdi. Ən çox ürək qızdırdığı ömür-gün yoldaşı Zöhrəydi, ona da dərdini açmırdı. Fikirləşirdi ki, arvad xeylağının hülqumu yoxdur, ona bir söz desə, qonum-qonşuya yayılar. Onsuz da əskim tüstülüdür. Məni məhşər ayağına çəkərlər. Paqonlular deyər ki, verdiyin iltizama əməl etməmisən, indi canın çıxsın gəl, qanun qabağında cavab ver. Gözünün ağı-qarası Sücəddin idi, ona da söz deyib

ürəyinə xal salmaq istəmirdi. Növrəstə də ki, qız xeylağıdır, hələ indiyəcən atasıynan dərslərindən başqa heç bir söz-söhbətləri olmamışdı. Ancaq Cahangir ürəyinin dərdini nə qədər gizli saxlasa da, evdəkilər onun oturuşundan, duruşundan, danışığından, qaş-qabağının açılmamasından, gecələr sübhə qədər yerində qurcalanıb rahat yata bilməməsindən hiss etmişdilər ki, nə isə bir nigarançılıq var. Gecə yarıdan sonra, qapıbir qonşusu Bağırın Cahangirgilə xəlvəti gəlib-getməsi də evdəkiləri şübhəyə salmışdı. Cahangir yalnız və yalnız Bağırdan heç nəyi gizlətmirdi, qəlbindəkiləri ona deyirdi. Bu bir-iki günün içində Bağırın da beli bükülmüşdü. Elə bil əziz-xələfini itirib, yasa batmışdı. Cahangirin başına gətirilənlər ən çox Bağıra yer eləyirdi. Bilirdi ki, durduğu yerdə kişini qurğuya salıblar. Elə qurğu ki, onun düyününü göydən fələk də gəlsə aça bilməz. Hər dəfə də Bağır Cahangirgilə gələndə, Sücəddinlə Tacəddin dərsə hazırlaşmaq bəhanəsilə dalda bir yerə çəkilib atalarının xısın-xısın danışıqlarına qulaq asırdılar. Və hər ikisi də bilirdi ki, söhbət nədən gedir. Sücəddin dostunu evə ötürəndə yolağanın ağzında dayanıb atalarının gizlin-gizlin söhbətlərini eşidib başa düşdüklərini öz uşaq təfəkkürləri ilə cürbəcür yerə yozurdular. Və sonra da pəjmürdə ayrılırdılar. Sücəddin Tacəddinə nisbətən bir qədər ürəyi yuxa idi. Ona görə də Sücəddin atasının hökumət adamları tərəfindən nahaqdan dolaşdırıldığını biləndə, kövrəldi. Nə qədər elədi, özünü saxlaya bilmədi, gözlərindən yaş süzüldü. Ancaq gecə olduğundan Tacəddin dostunun kövrəldiyini, yanaqlarından yaş axdığını hiss etmədi. Lakin onlar nə qədər narahat olsalar da, ürəklərində bir arxayınçılıq var idi. Bilirdilər ki, hökumətin adamtutanları





Cahangiri nə qədər ora-bura çəksələr də, ortada əl ilişən bir şey yoxdur. Cahangir ha-lal, heç kimin toyuğuna daş atmayan, torpaqla əlləşən, kənddə hörmət-izzəti olan, hamının karına gələn, xeyrə-şərə yarayan bir adamdı. Hökumət günahı olmayanı dolaşdırmaz. Bir də ki, məktəbdə müəllimləri konstitusiyadan dərs keçəndə öyrətmişdilər ki, bütün dünyada ən ədalətlisi bizim hökumətdir. Bizə azadlıq gətirib, hamı asudə yaşayır. Nahaqdan heç kəs, heç kəsə dəyib toxuna bilməz. Məktəbdə müəllimlər deyir ki, Şura fəhlənin, kəndlinin hökumətidir. Sücəddinlə Tacəddin müəllimlərinin təkcə bu sözlərinə görə tam arxayın idilər ki, Cahangirə bir şey olmaz. Bu hökumət yazıq-yuzuğun tərəfindədir. Ona görə də yüz elə paqonlu gəlsə də, Cahangirin yanından yel olub ötə bilməz. Sücəddinlə Tacəddin bütün bu oxuyub öyrəndiklərindən toxtaqlıq tapıb arxayınlaşırdılar.

* * *

Sücəddinlə Tacəddin hər ikisi madar olduqlarından, ağılları kəsəndən bir-birlərinə qardaş kimi mehr salmışdılar. Ataları kimi özlərinin də sirləri-sözləri bir idi. Əksər vaxtlar çörəklərini də bir yerdə yeyirdilər; ya Sücəddingildə, ya da ki, Tacəddingildə. Bircə yatıbduracaqları ayrıydı. Onlar sinif otağında da bir skamyada yanaşı otururdular. Sinif otağının dağ yamaclarına baxan geniş pəncərəsi qarşısında füsunkar bir mənzərə açılırdı. Çılpaq qayaların arasından boylanan sübh günəşi birbaşa Sücəddinlə Tacəddinin üstünə düşüb, onların təravətli sifətlərini isidirdi. Sücəddin qatı mürəkkəblə yazmağı sevirdi, Tacəddin isə boğazı nazik, ucu düyməli pero ilə. Sücəddinin ucu düyməli

perodan xoşu gəlmirdi. O yazdıqca hərdən qələmi özünəməxsus səliqə ilə basır, peronun nazik ucu təzəcə yumurtadan çıxan qaranquş balasının dimdiyi kimi bir balaca aralanır və artıq mürəkkəb buraxırdı. Hərflər ağ və hamar vərəqin qoşa cızıqlarına muncuq kimi düzülürdü. Mürəkkəb qatı olduğundan tezcə də quruyur, suçəkən kağıza ehtiyac qalmırdı. Hərflər işım-işım işıldayırdı. Sinif yoldaşları Sücəddinin səliqəli yazısına həsəd aparırdılar. Onun xəttindən müəllimlərin də xoşu gəlirdi. Sinif rəhbəri Sücəddinin yazdıqlarını nümunə çəkib: - Bax, belə yazarlar! - deyirdi. Sücəddin həm də sinifkom idi. Ona görə də sinfin uşaqları onu sayırdılar. Şıltaq şagirdlər ona əsla sataşmırdılar. Sücəddin təbiətcə çox sakit idi. Onda xarakterinə, yaşına uyğun olmayan təmkin vardı. Həmişə dəftər və kitablarına ağ kağızdan və ya təzə qəzetdən üz çəkirdi. Oxuduğu kitablar mağazadan indicə alınıbmış kimi təptəzə görünürdü.

Məktəbin həyətindəki qarımış şam ağacından iri və pas atmış kotan dəmiri asılmışdı. O dəmiri direktor kolxozdan böyük bir xahiş-minnətlə almışdı. Bu, məktəbin yeganə zəngi idi. Dərs növbətçiləri yastı və hamar çaylaq daşıynan sanballı kotan dəmirini döyəclədikcə, danqıltısı kəndin o başına gedirdi və yaxınlıqdakı qayalıqlarda əks-səda verirdi. Bu səs dərs saatının başlanmasına və ya qurtarmasına işarə idi.

Tənəffüs vaxtı uzunsov koridorda və ya məktəbin həyətində səs-küydən qulaq tutulurdu. Uşaqlar min bir oyundan çıxırdılar. Müəllimlər görməsin deyə, məktəb binasının arxasında xəlvətə çəkilirdilər. Uşaqlar zarafatlaşır, bir-birinə hücum çəkir, balaca rezin top əldən-ələ keçirdi. Bir neçə dəqiqəlik tənəffüs qurtaran kimi yenə





də kotan dəmirinin danqıltısı eşidilir, uşaqlar qan-tər içində tövşüyə-tövşüyə sinif otaqlarına axışırdılar. Bayaqkı səs-küy bir andaca kəsilir, ətrafa sakitlik çökür və yalnız həyətdəki ağacların qol-budağına qonan, binanın taxtapuşundakı dəlik-deşikdə özünə yuva düzəldən boz sərçələrin civiltisi eşidilirdi...

Dərslər qurtaran kimi hərə öz həmsöhbətləri ilə iki-bir, üç-bir bu gün məktəbdə baş verənlərdən danışa-danışa, gülə-gülə, mübahisə edə-edə evlərinə yollanırdı. Həmin gün də Sücəddinlə Tacəddin oxuyacaqları kitabları seçib qoltuqlarına vurdular və tələm-tələsik hərəsi bir şor dürməyi büküb küçəyə çıxdılar. Onlar bir-birinə qoşulub kənddən uzaqlaşdılar. Əyri-üyrü cığırlarla tövşüyə-tövşüyə ağ təpənin üstünə dikəldilər. Buradan Qalaçanın bütün evləri apaçıq görünürdü. Kəndin ortasındakı tağbəndli bulağın başına toplaşan geyimli-kecimli qız-gəlini, ağacların arasında ağaran məktəbi, doğma evlərini uşaq heyranlığı ilə seyr etdilər. İsti havada dik yoxuşu birnəfəsə çıxdıqlarından hər ikisi qan-tərə batmışdı. Sücəddinlə Tacəddin bir az nəfəslərini dərib, dincəldikdən sonra sağ tərəfə burulub, zoğal və fındıq meşələrinin ortasındakı ağ gölə çatdılar. Kəndin adamları burada barmaq yoğunluğunda gələn bulaq suyunun qabağını kəsib, dərin göl düzəltmişdi. Gölün kənarında özünü günə verən quyruqlu tısbağalar, onları görən kimi eybəcər başlarını, qırışığı sallanan boğazlarını qınlarına çəkib şappıltı ilə suya tökülüşdülər. Gölün şəffaf və sakit aynası çiliklənib bulanan kimi oldu. Sücəddinlə Tacəddin gölə xeyli tamaşa etdikdən sonra paltarlarını soyunub suya atıldılar. Göldə o ki, var üzüb yorulduqdan sonra kənara çəkilib, özlərini arxası qatda günə verdilər. Və təzədən qəlbi bir yerə çıxıb gölə baş vurdular. Onların

arasında üzgüçülük yarışı başlandı. Bəhsəbəhslə hərə öz məharətini göstərməyə çalışırdı.

Artıq onlar yorulub əldən düşmüşdü. Ona görə göldən çıxdılar, qurulanıb paltarlarını geyindilər. Hərəsi bir kölgəyə çəkilib, kitab-dəftərlərini açıb, sabahkı dərslərinə hazırlaşmağa başladılar.

Gün əyilmişdi. Qayaların dibinə düşən kölgələr getdikcə uzanırdı. Sərin meh əsirdi. Onlar kitablarını qatlayıb ayağa qalxdılar və öyrəndikləri dərsləri bir-birinə əzbərdən danışmağa başladılar, sonra sual-cavaba keçdilər. Əvvəlcə Sücəddin müəllim oldu. Tacəddin şagird kimi onun qarşısında şax dayanıb dərsini danışdı. Sücəddin "şagirdini" axıra qədər dinlədikdən sonra güclə ona "3" verdi. Bu dəfə Sücəddin sinifdə olduğu kimi, Tacəddinin qarşısında müti görkəm alıb "müəlliminin" suallarını izah etdi. Sücəddin dərsini nisbətən yaxşı öyrənmişdi və ona görə də "4" qiymət aldı. Ancaq Tacəddin mərd-mərdanə boynuna aldı ki, insafsızlıq edib - Sən 5-ə layiq danışdın. - Onlar gülüşdülər.

Sücəddinlə Tacəddin kitab-dəftərlərini səliqə ilə yığışdırıb göldən aralandılar. Yamac aşağı enəndə Sücəddin dostuna bildirdi ki, quru çırpı yığmaq istəyir. Tacəddin əvvəlcə ona zarafatyana:

- Çırpını neynirsən, səfeh? Cahangir əmi o qədər odun yığıb ki, iki qışa çatar, - dedi.

Sücəddin:

- Bilirsən, Tacəddin, - dedi,- anam səhər-axşam inəyimizi sağıb, süd bişirir, yemək hazırlayır. Odun yaş olanda çətin yanır. Anam dizini yerə qoyub, gücü gəldikcə nə qədər üfürür, ocaq alışmır ki, alışmır. Üstünə bir damcı neft tökəndə də atamın acığı tutur. Evimizdə qalmaqal yaranır. Atam anamı danlayıb-dansıyıb deyir





ki, mənim neft mədənim yoxdur. Butulkasına filan qədər pul verirəm. Deyir ki, söhbət pulda deyil, hələmhələm nefti tapmaq olmur. Ocaq tüstülənəndə də anamın gözü yaşarır. Elə bil anam ağlayır. Onu elə görəndə ürəyim ağrıyır. Anama yazığım gəlir. Ona görə də hər dəfə yolum yal-yamaca düşəndə quru çırpı yığıram ki, anam ocağın gözünə qoysun, ta neft töküb atamı hirsləndirməsin.

Bu sözdən sonra Tacəddin də həvəslənib qoşuldu dostuna. Özlərini vurdular kol-kosluğa. Quruyub tökülən çır-çırpıdan hərəsi bir şələ düzəltdi. Sücəddin yığdığı çırpını həmişə dirə-döymə oynadığı ikidilli uzun qayışının arasına qoyub bərk-bərk bağladı. Tacəddin isə çırpını, eşib-düzəltdiyi qarağac, tut çubuğunun arasına qoydu. Çırpının tikanları Sücəddinin əllərini cızıq-cızıq eləyib qanatmışdı. Ancaq o, əsla ufuldamırdı. Deyirdi ki, heç vecimə də deyil. Təki yaş odun ocaqda fısıldayıbtısıldayıb anamın gözlərini yaşartmasın.

Onlar çırpı şələlərini çiyinlərinə alıb yollarına düzəldilər. Şələnin altında yenə də öyrəndikləri dərslərin sualcavabı başlandı. Sücəddinin çiynindəki çırpının bir çöpü onun boynunu cızıb qanatmışdı. O isə şələnin altında çəkdiyi əziyyət, boynunun ağrısı barədə yox, çırpının ocaqda çırtıltı ilə yanıb, alışıb anası Zöhrənin üz-gözünə necə işıq salacağı barədə düşünürdü. Düşünürdü ki, ocağın işığı anamın üz-gözünə düşəndə elə qəşəng olur ki, ocağın üstündəki süd də bir göz qırpımında qaynayıb köpüklənir. Sücəddin şələnin altında Tacəddinə tərəf çönərək:

- Qardaş, - dilləndi.

- Bəli, - Tacəddin cavab verdi.

Sücəddin:

- Süd bişirəndə anamın bir gözü elə qazanda qalır, -

dedi. - Çünki süd daşanda ocağa tökülüb cızıldıyır, yanığın iyi evi götürür. Atam onda da hirslənir. Anama deyir ki, gözün hardaydı?! Bilirsən, atam xırdaçı adam deyil. Atam olduğuna görə demirəm. Onun elə geniş qəlbi var ki?! Ancaq bizə öyüd-nəsihət verəndə deyir ki, adam gərək hər şeyin qədrini bilsin. Evdə gözə dəyən nə var, hamısı zəhmətlə qazanılıb, sel gətirməyib. Gərək hər şeydə qənaətcil olasan. Tay hara gəldi sovurub kül eləməyəsən. Onda evin xeyir-bərəkəti də qaçar. Atam südün üstündə ona görə əsir ki, hər il hökumət adamları başımızın üstünü kəsdirib deyirlər ki, yağ tədarükünü vaxtında ödəyin. Anam da inəyin ağartısını boğazımızdan kəsib yağ eləyir, sonra da onu əridib hökumətə verir. Bizə bircə ayran qalır. Hökumətin vergisi qurtarmayana qədər, anam bizə yağ dürməyi vermir. Deyir ki, biz yola gedərik, təki hökumətin ağzı yumulsun.

Tacəddin:

- O barədə mənim atam düz eləyir. Qapımızdakı boğaz inəyi satmaq üçün müştəri axtarır. Deyir, elə bu beş-on keçinin südü bəsdir. Birtəhər ötüşərik. İnək saxlasaq, hökumət yağ istəyəcək. Ancaq anam razı olmur. Deyir inəksiz ötüşə bilmərik. Mən də atama yalvarıram ki, inəyimizi satmasın... Ona görə də atam bizdən keçə bilmir.

* * *

Cahangir hər gün yoxa çıxırdı. Evdə tapılmırdı. Arvad-uşaq da soruşanda, bir gün deyirdi, qonşu kəndə xəstə dostuma baş çəkməyə getmişdim, axşam buraxmadılar. Gecə orda qalmalı oldum. Bəzən də deyirdi ki, filan kənddə hüzr düşmüşdü, getməsəydim olmazdı. Onlarla bir pud duz-çörək yemişəm. Cahangir ömründə yalan danışmamışdı. Yeri gələndə deyirdi ki, yalan vicdana





xəyanətdir. İnsan olan kəs gərək dilinə saxta söz gətirməsin. İndi Cahangir haralara getdiyini, çiyni paqonluların onun başına olmazın müsibətlər açdığını olduğu kimi deyib, arvad-uşağı vahiməyə salmaq istəmirdi. Düşünürdü ki, onların bircə gün şad-şalayın yaşayıb, ömür etməsi də qənimətdir. Nahaqdan oda düşmüşəm, onun da əzabını özüm çəkirəm. Dözüm, görək axırı hara çıxır. Harda nazilər, orda üzülər. NKVD-nin işçiləri Cahangirin anasından əmdiyi südü burnundan gətirirdilər. Onun başına nə oyun açırdılar, bircə göydəki Allah bilirdi. Bütün bunların müqabilində Cahangir özünü sındırmırdı. Deyirdi, düşmən bilsə sevinər, dost bilsə məyus olar. Ona görə də bu sirri açmırdı. Bütün bunlardan bircə Bağırın xəbəri vardı. Cahangir həmin o NKVD işçilərinin ona etdiyi sitəmləri hər dəfə Bağıra danışanda qonşusunu dərd götürürdü, həmin gün özünə gələ bilmirdi. Gecələr də gözünə yuxu getmirdi. Ancaq Sücəddinlə Tacəddin bütün bunlardan xəbərsiz idi. Onlar əmin olub arxayın düşmüşdülər ki, bu xəta-bala Cahangirdən sovuşub. Ona görə də öz gənclik, uşaqlıq dünyalarında xoş və qayğısız günlərini yaşayırdılar. Hər gün vaxt tapıb, yaşıl-yaşıl dağlara, dərələrə gedir, gül-çiçək yığır, quşların nəğməsini dinləyir, dərslərini hazırlayır, axşam şad-şalayın evlərinə qayıdırdılar.

* * *

Bazar gününün axşamı hava bərk qaralmışdı. Bağır kişi əlini gözünün üstünə tutub, kəndin tutqun səmasını nəzərdən keçirərək dedi ki, yağış yağacaq, elə də oldu. Gecədən xeyli keçmiş şimşək çaxdı, göy guruldadı, dağdaş lərzəyə gəldi. Şiddətli yağış başladı. Külək ağacları burub-büküb, budaqları bir-birinə çırpdıqca çiçəkdən tə-

zə çıxmış alma-armud tappıltı ilə yerə tökülürdü. Tufanlı yağış qapı-pəncərələrdən içəri soxulub paltar-palazı isladırdı. Səhərə yaxın yağış səngidi. Kəndin səmasındakı buludlar ağır-ağır sürünüb uzaq dağlara çəkilirdi. Sel suları kəndin darısqal küçələrini tərtəmiz yuyub zir-zibildən təmizləmişdi. Kəndin qabağındakı quru çaylaqda aşıb-daşan çamurlu sel də getdikcə azalır və durulurdu. Sücəddinlə Tacəddin qəlbi bir yerdə dayanıb, uşaq heyranlığıyla bu mənzərəni seyr edirdilər. Sel yatandan sonra onlar aşağı enib, çarıqlarını, corablarını çıxarıb, şalvarlarının ayağını çırmalayıb çayın sağ sahilinə adladılar. Belə girəvə hələm-hələm ələ düşmür. Çünki yağanda, düzən yerlərdə, yaşıl yamaclarda torpaqdan baş qaldıran ağ göbələkləri yığmaqla qurtarmır. Onlar göbələyin çox olduğu yerlərə bələd idilər. Ona görə də kəndin baxarındakı yoxuşu qalxıb, irəlidəki geniş düzlərə tərəf dikəldilər. Tacəddin məzəli-məzəli danışıb-gülür, hərdən əlini qulağının dalına verib pəsdən oxuyurdu. Sücəddin isə süst kimiydi. Elə bil heç nə eşitmir, heç nə görmür, bahar çiçəklərinin rayihəsini duymurdu. Özünü həmişəki kimi şən aparmırdı. Sücəddin tez-tez ayaq saxlayır, geri dönür və məsum baxışları ilə kəndə nisgilli nəzər salırdı. Sanki doğma kəndini ilk dəfəydi görürdü. Hərdən də dönüb Tacəddinə baxırdı. Tacəddin onda hiss etdiyi qeyri-adi hala təəccübləndi. Lakin özünü o yerə qoymadan soruşdu:

- Sücəddin, gözümə kefsiz kimi dəyirsən, bəlkə yorulmusan, ağrıyan yerin var?!

Sücəddin özündən asılı olmayaraq ah çəkdi və sonra daxili kədərini büruzə verməmək üçün süni təbəssümlə:

- Ötən il iki nəfər ana-bala dəyirmandan gəldikləri yerdə günün günorta çağı gözlərimin qabağında selə





düşdülər, - dedi. - Həmin vaxt yuxarıda atımızı çidarlayırdım. Onların çığırtısı hələ də qulağımdan getmir. Elə bil əllərini mənə tərəf uzadırdılar. Məndən imdad istəyirdilər. Ancaq sel göynən gedirdi. Onlara yaxın düşə bilməzdim. Həmin məqamdakı cəsarətsizliyimi özümə bağışlaya bilmirəm. O hadisəni xatırladıqca əzab çəkirəm. İndi də ora baxanda dilxor oldum, ovqatım korlandı...

Sücəddin dostunun fikrini özündən yayındırmaq üçün bunları deyib yola düzəldi. Tacəddin də onun arxasınca. Düzün qurtaracağındakı sinə yerdə, tünd yaşıl otların arasında çoxlu göbələk ağarırdı. Onlar həmin səmtə tərəf yollandılar. Həmişə Tacəddindən qabaqda gedən, deyib-gülən, şıltaqlıq edən Sücəddin indi könülsüz-könülsüz ayağını sürüyür, məlul-müşkül görünürdü. Onun bu müəmmalı hərəkətinə qarşı Tacəddinin qəlbində cürbəcür şübhələr baş qaldırdı. Tacəddin dostuna incikliyini bildirərək:

- Sücəddin, - dedi, - bəlkə evdə ata-anan danlayıb və ya mən yersiz bir hərəkət edib qəlbinə dəymişəm?!

Sücəddin dostunun dediklərinə cavab olaraq Tacəddinin barmaqlarının ucundan bərk-bərk yapışıb arxasınca dartdı və güclə gülümsündü. Ancaq bu gülüş çox sürmədi. Çünki ürəkdən gəlmirdi.

Onlar göbələk olan yerə çatdılar. Tacəddin torpaqdan təzəcə çıxan tər göbələkləri həvəslə yığırdı, həm də gözünün ucu ilə gizlicə Sücəddinə baxırdı. Sücəddin könülsüz-könülsüz yığdığı göbələyin birini, daxilində kimdənsə acıq çıxırmış kimi, əlində sıxıb, əzib, ikrahla kənara atdı. Onun bu hərəkəti Tacəddinin qəlbində baş qaldıran şübhələri bir qədər də artırdı. Bu qara şübhələr getdikcə güclənib Tacəddinin kövrək

qəlbindən ağır daş kimi asılır və ona əzab verirdi. Tacəddin daxilən düşünürdü: - Axı, bu gün Sücəddinə nə olub?! Nə üçün belə müəmmalı hərəkətlər edir?! Göbələk də yığmaq istəmir?! - Lakin düşündüklərini dilinə gətirib dostundan heç nə soruşmurdu. Tacəddinin özünün də əl-qolu boşaldı, torbası dolmamış göbələk yığmaq həvəsi birdən-birə sanki qeybə çəkildi və dilxor halda, bir qədər də incikli:

- Sücəddin, gedək, - dedi.

Sücəddin bir yarıya qədər göbələk yığdığı torbasına baxdı, bir də Tacəddinə. Onun lal və kədərli baxışları Tacəddinin ifadəsiz sifətində donub qaldı. Dərin fikrə getdi və laqeydcəsinə:

- Yaxşı, gedək deyirsən, gedək, etiraz etmirəm. - Sücəddin bunu deyib gəldikləri yolla geri qayıtmağa başladı. Ancaq onların torbası dolmamışdı. Yığılmamış göbələk də çox idi. Hər ikisi xəyala dalmışdı. Heç biri dillənmirdi. Yalnız ayaqlarının altındakı şehli otların xəfif xışıltısı eşidilirdi. Onlar bilmirdilər nə barədə danışsınlar. Tacəddin dostunun qəlbinin dərinliklərindəki sirrləri öyrənməyə çalışırdı. Sücəddin isə ağzını açıb bir kəlmə söz demirdi. Sanki kimdənsə, nədənsə ehtiyat edirdi, qorxurdu. Tacəddinin qəlbinə nəsə dammışdı, dostundan bir söz soruşmaq istəmirdi. Onlar aşağıdakı cəviz ağacının dibində ayaq saxlayıb, xeyli dayandılar. Sücəddin nə demək istəyirdisə, tutuldu. O, ağacın altında daş heykəl kimi donub qalmışdı. Sücəddinin kədərli baxışlarında nə isə başqa şeylər oxunurdu. Sanki bu əsrarəngiz yerləri elə indicə görür və hər qarışında izi olan dağlara, dərələrə baxmaqdan doymurdu. Özü də həmişəki kimi adi yox, qəmli, nisgilli baxışları ilə. Tacəddinin səbri tükənmişdi. Artıq





dostunun bu cansıxıcı hərəkətlərinə dözə bilmirdi. Axır ki, özünü saxlaya bilmədi və:

- Sücəddin! Sücəddin! - deyib həyəcanla qışqırdı.

Sücəddin yuxudan kal durmuş sərxoş adamlar kimi laqeyd, həm də yazıq-yazıq ona tərəf dönüb, dostunu məyus baxışları ilə başdan-ayağa süzdü. Qüssəli çöhrəsində acı bir təbəssüm dolaşdı. Ancaq yenə də bir söz deyə bilmədi. Tacəddin dostunu bu halda görüb qəhərlənən kimi oldu və onun yaxasından yapışıb:

- Sücəddin!!! Sücəddin!!! - deyə hirsindən onu var gücü ilə silkələdi.

Sücəddin kirpiklərini qırpmadan küt baxışlarıyla dostuna baxıb, halsızlaşan kimi oldu. Taqətdən düşübmüş kimi hamar bir daşın üstündə oturdu. Arxasını cəviz ağacına söykəyib ayaqlarını uzatdı, başını ovuclarının arasına alıb, uzun barmaqları ilə qara qalın saçlarını qarışdırdı. O, sanki dostunun yanında, cəviz ağacının dibində, Qalaçanın qənşərində deyildi, yuxularda olduğu kimi, tamamilə başqa bir ağlagəlməz aləmə düşmüşdü. Tacəddin titrək səslə:

- Sücəddin!!! - Sücəddin!!! - deyib onu bayaqdan bəri qərq olduğu qarmaqarışıq fikirlərdən ayırmağa çalışdı.

Sücəddin başını ağır-ağır qaldırıb qarşısında təlaş keçirən dostuna yad nəzər saldı. Sonra onun məsum yanaqlarında yaş damcıları giləndi. Dostunun halına acıyan Tacəddin onun üstünə atılıb boynunu qucaqlamaq, bağrına basmaq istədi. Lakin bacarmadı, onun dizləri yuxudakı kimi keyiyib qıc olmuşdu. Tacəddin özünü cəmləşdirib ona tərəf süründü və əlini Sücəddinə tərəf uzadanda ayağı ilişdi, üzü üstə yıxıldı. Sücəddin tez onun qolundan yapışıb qaldırdı. Tacəddin dodaqları titrəyə-

titrəyə Sücəddinin bu vəziyyətə düşməsinin səbəbini öyrənmək istədi. Ancaq nitqi tutuldu, danışığının rabitəsi pozuldu və sözünün arxasını gətirə bilmədi. Sücəddin onu təhdid edən qara fikirlərdən xilas olub, nəhayət, dostunu agah etmək üçün:

- Tacəddin!.. - dedi.

Onu yaş boğdu. Lakin özünü birtəhər ələ alaraq:

- Tacəddin!..

Sücəddin bu bir kəlməni deyib yenə də susdu. Onu kimsə izləyirmiş kimi ürkək baxışları ilə şübhəli-şübhəli ətrafa yoxlayıcı nəzər saldı. Gözlərini qıyıb, salxım çiçəklər gətirən qoz ağacının qanadlarına baxdı. Həmin anda sanki canı qədər əziz bildiyi dostuna da şübhə edirdi. Onun bu cür müəmmalı hərəkətlərindən hiss olunurdu ki, Sücəddin nədənsə qorxur, şübhələnir, ehtiyat edir.

Sücəddin ətrafda bir inni-cinni olmadığını yəqinləşdirəndən sonra dostunun qolundan bərk-bərk yapışıb ona qısıldı. Və ehmalca:

- Tacəddin, sənə bir sirr versəm, ağzından çıxmaz ki?! - dedi və yenə də suçlu-suçlu yan-yörəsinə baxdı.

- Yox, Sücəddin, nə danışırsan? Mənə nə desən, heç vaxt burdan kənara çıxmaz. Buna tam əmin ola bilərsən.

Sücəddini qəhər boğduğu üçün qırıq-qırıq kəlmələrlə:

- Ta-cəd-din! Sa-bah-dan e-ti-ba-rən da-ha bir si-nif-də qo-şa otur-ma-ya-ca-ğıq! - dedi.

Tacəddin həyəcanla:

- Nə üçün?! Bu nə sözdür, Sücəddin? - soruşdu.

Sücəddin:

- Ağ göldə birgə üzməyəcəyik, - əlavə etdi. - Ancaq çiməndə məni unutma. Gözünü yumub suyun altına cu-





manda təsəvvür edərsən ki, mən də yanındayam və birgə üzürük. Xəyalına gətirərsən ki, şappıltı ilə özünü suya atan həmin o quyruqlu, eybəcər tısbağa mənəm. Mənə gülüb, qınaya da bilərsən. Ancaq Tacəddin... Ancaq nahaq! Çox nahaq! İstərdim ki, o boğazının qırışları sallanan eybəcər tısbağanın yerinə olum. Onda özümü necə də xoşbəxt hiss edərdim! Səhərdən axşamacan Ağ göldə üzərdim. Kölgəsində dərs öyrəndiyimiz ağaclara doyunca tamaşa edərdim. Tacəddin, uzaq-uzaq yad yerlərdəki cənnətlərin xoşbəxt insanı olmaqdansa, doğma torpağımızın eybəcər tısbağası olmaq istərdim.

Tacəddin Sücəddinin həm gülməli, həm də nisgilli sözlərini dinlədikcə elə bil, onun qarşısında dayanan dostu yox, özgə planetdən gəlmiş başqa bir məxluqdur. Sücəddinin dediklərini sərxoş bir insanın sayıqlamasına da bənzətmək olardı. Odur ki, bir qədər əsəbi soruşdu:

- Nə çərənləyirsən, Sücəddin, başına hava-zad gəlib?!!

Sücəddin yorğun-yorğun gülümsünüb dostunun üzünə baxaraq:

- Yoox, Tacəddin! Daha bir-birimizə qoşulub, dərsə birgə hazırlaşa bilmərik. Daha quru çırpı yığa bilməyəcəyik...

- Axı, de görüm nə səbəbə? De! De! Daha dözə bilmirəm, de!

Sücəddin şəhadət barmağını dodağına tutaraq:

- Suuss! - dedi. - Yavaş danış. NKVD eşidər, xataya düşərik. Səbrin olsun, məni axıra qədər dinlə, gör nə deyirəm. Bu, dostluğumuzun son, əbədi ayrılığımızın ilk günüdür, Tacəddin.

Sücəddin batmaqda olan günəşə baxaraq:

- Baax, bu, bizim üçün unudulmaz, bir də üzləşə bilməyəcəyimiz ən xoşbəxt günümüzdür. Təəssüf ki, o da sona çatmaqdadır.

Tacəddin onun çiynini tutub, yalvara-yalvara silkələdi:

- Özünü ələ al, Sücəddin. Axı məni başa sal görüm, nə üçün belə hərəkət eləyirsən, nə demək istəyirsən?!!

Sücəddini qəhər boğa-boğa:

- Atamı... Atamı... - Sücəddinin dili dolaşdı, fikrini tamamlaya bilmədi. Hönkür-hönkür ağlayıb ürəyini boşaltdı. Bir qədər toxtayıb, titrək səslə:

- Tacəddin, bu sirri bircə sənə açıram, - dedi. - Başqa adam bilsə... Atamın dilindən kağız alıblar. Dediyim söz gərək heç yerə çıxmasın. Neçə gündür atamı get-gələ, sıxma-boğmaya salıblar. Atam deyir ki, mənə bədbəxtlik üz verib, şərə salıblar. Onu xalq düşməni çıxarıblar. Üzünə çoxlu adam dirənib. Hər şey sübut olunub. Bu gecə hamı yatandan sonra bizi sürgünə göndərəcəklər. Özü də gecə yarıdan sonra. Düz Sibirə. Bəlkə də oradan uzağa. Narginə də söz var. Atam deyir, yenə Nargin Sibirdən yaxşıdır. Dənizin ortasında olsa da, torpağımıza yaxındır. Buraların havası Narginə çatır...

Sücəddin bunları deyib susdu və yenə də hıçqırıb göz yaşı tökə-tökə:

- Tacəddin, Bağır əmi də bilir. Atamın heç bir günahı yoxdu. Vallah, atam günahsızdı. Durduğu yerdə dolaşdırıb düşmən qayırıblar. Atam hər gün Bağır əmi ilə görüşüb hamısını danışırdı. Mən özümü yuxuluğa vurub, yorğanın altından onlara xəlvətcə qulaq asırdım.

Tacəddin bərk-bərk onun boynunu qucaqladı. Hər ikisi o ki, var ağladı. Sərin və nəmli meh əsirdi. Cəviz ağaclarının qanadları bir-birinə dəyib xışıldadıqca, yarpaqlardan onların üstünə şeh damcıları çilənirdi. Elə bil Sücəddinin anası Zöhrə xala cəviz ağacının qiyafəsində gedər-gəlməz səfərə çıxan yeganə oğlunun arxasınca su atıb, ona Tanrıdan xeyir-dua diləyirdi.





Onlar yarımçıq torbalarının ağzını açıb topladıqları göbələkləri yerə tökdülər və ayaqları ilə əzdilər. Hər ikisi key kimi ayaq üstə dayanıb nəmli gözlərini göbələyin əzilib torpağa qarışmış qırıntılarına zilləmişdi.

* * *

NKVD işçilərinin Cahangirlə söhbətləri kəndin çıraqları sönəndən, Qalaça yaz yuxusuna gedəndən sonra başlanırdı. Özü də bu dəfə idarə binasında yox, kənddən bir qədər aralıdakı məktəbin arxa otaqlarının birində. Onda məktəbin həyət-bacasında heç kəs olmurdu. Bircə gözətçiydi, onu da direktor ətraflı başa salmışdı ki, gecələr buralarda heç kim olmamalıdır. Məktəbin direktoru məsələdən haliydi və gözətçiyə tapşırmışdı ki, dərslər qurtarandan sonra onun özü də çıxıb getsin evinə. Gözətçinin də Allahından idi ki, səhərə qədər məktəbin həyət-bacasında yorğun-yuxusuz veyllənməsin. Evində rahatca yorğan-döşəyində yatsın.

Neçə günlük sorğu-sualdan sonra Cahangir bu gecə qolubağlı rayona getməliydi. Onu NKVD-nin adamları məktəb binasında gözləyirdi. Bunu bircə Bağır bilirdi. Ona da Cahangir özü demişdi. Cahangir Bağıra çox şey demişdi. Gecələr rayona çağrılanda da, məktəbin dal otağında NKVD işçilərinin onun başına nə oyunlar açdığını da Bağıra danışmışdı. Bu, Cahangirin axırıncı gecəsiydi. Bir neçə saatdan sonra o, yola düşüb getməliydi. Bir neçə saat deyəndə, hamı yatmalıydı ki, onun evdən çıxmasını, hara, kimlər tərəfindən aparıldığını görən

olmasın. Bağır bütün bunlardan haliydi. Ona görə də axşamdan heyvan kəsib hazırlıq görmüşdü ki, Cahangirə vida süfrəsi açsın. O, Tacəddini Cahangirin dalınca göndərdi. Lakin Cahangir gəlmədi. Bağır özü Cahangirin ayağına getdi. Yenə də xeyri olmadı. Cahangir dedi ki, qonşu, mənə pis maddə veriblər. Düz-əyri, kürəyimə xalq düşməni damğası basıblar. Hazırda addımımı da izləyirlər. İndi arxamca, yüz yerdə güdükçü qoyublar ki, görək Cahangir kimlərlə görüşür, nə danışır. Ona görə də əgər istəyirsən başın salamat olsun, üz vurma, heç hara gedən deyiləm. Sən də nahaq gəlmisən, sonra mənim üstümdə səni də ləkələyib deyərlər, xalq düşməninin quyruqlarından biri də qonşusu Bağırdır. Düzdür, cəhənnəmə gedən yoldaşını çox istəyər. Ancaq özün bilirsən ki, mən o kişilərdən deyiləm. İstəmərəm mərdimazarlıq eliyib, çörəyinə bais olam. Ona görə də, qonşu, incimə, aralı olsaq yaxşıdır. Sən heç, bir bölük külfətin var. Onlara yazığım gəlir.

Bağır yaşlaşsa da, gücdən düşməmişdi, canı suluydu. Qolu qüvvətliydi, təpərliydi. Ona görə də Cahangirin əlindən yapışıb, onu oturduğu yerdən qaldırdı və:

- Ə, Cahangir, nə danışırsan?! Bəyəm dünyanın axırıdır, - dedi. - Bir loxma çörək kəsməyimizin üstündə, mənə qara yaxmaq istəyən, qoy dünəndən yaxsın. Bir də ki, ay pir olmuş, yaşımın bu çağında təzədən hökumət mənə neynəyəcək? Hay-hayım gedib, vay-vayım qalıb. İndən sonra arpaya qatsalar at yeməz, kəpəyə qatsalar it. Bir də ki, kim tutur, gəlsin tutsun. Qəzəmətdəkilərdən artığam?! Onları da Allah yaradıb, məni də. Bir gün yaranan, bir gün də ölməlidir. Yəni deyirsən, ondan ötəri kişiliyimi itirim! Dünya dağılsa da, evə gedib bir tikə çörək kəsməliyik, yoxsa ömrümün





axırınacan bu, mənə ağır bir dərd olar. Ona görə də sən nə fikirləşirsən, fikirləş. Onu özün bilərsən, amma getməliyik, vəssalam!!

Cahangir gördü ki, Bağır əl çəkmir, inad edir, sözünü yerə salmadı. Bağırın qabağına düşüb getdilər. Ortalığa yemək-içmək gəldi. Bağırın arvad-uşağı məlul-müşkül başqa otağa keçdilər. Onlar tək qaldılar. Bağır təəssüflə başını bulayıb, bədənini yırğalaya-yırğalaya:

- Cahangir, vaxtında saa çox dedim, ancaq az eşitdin, - dedi. - Ona görə də özü yıxılan ağlamaz. Yaxşı deyiblər ki, insan özü-özünə elədiyini, el yığışsa eləyə bilməz. Axırda da bax, bu tərsliyin başına bəla oldu. Dinəndə də molla yanında oxumağından danışırsan. Qanun çıxan yernən, bizim bu Qalaçanın arası neçə aylıq at yoludur. Ona görə də o sən dediyin qanunlar hələ bu dərələrə gəlib çatmayıb. Ona görə də hərə bildiyini eləyir. Necə deyərlər, dərə xəlvət, tülkü bəy. Bir də ki, kimdi qanuna baxan. Eşitməmisən ki, şəriət avamlar üçündür. Düzdür, təzədən bunları deyib, qanımızı bir az da qaraltmağın xeyri yoxdur. Artıq iş işdən keçib, daldan atılan daş topuğa dəyər. Neçə dəfə boğazımı yırtdım ki, qonşu, dilini dinc qoy! Lüt Qasımın oğlu itdi-qurddu, hər nədi, ixtiyar sahibidi!!. Gəmidə oturub gəmiçiynən dalaşmaq olmaz. İndi ağıldan-kamaldan, namus-qeyrətdən kasad olsa da, kimlərsə, nə səbəbsə gətirib başımıza böyük qoyublar. Onu da qoyan, yəqin ki, elə-belə adam deyil. Qoyub, dalında da durmalıdır. Bir su ki, məni apara, ona Araz deyərəm. Amma di gəl ki, sən bunları nəzərə almadın. Deyəndə də, bu qulağından aldın, o qulağından verdin. Qonşu, indi onlardan keçib. Təzədən xiffət eləyib hər şeyi ürəyinə salma. Allah onda üzümüzə baxdı ki, hökumət rəhmə gəldi. Bircə günün içində valı dəyişdi.

Elə o da Allahın işidi ki, təkcə səndən yapışdı, arvad-uşağı aparmadı. Buna da şükür eləmək lazımdır. İndi hökumətlə hökumətlik eləyə bilmərik. Gəliblər aparmağa, əlacımız nədir, olacağa çarə yoxdur. Ev-eşikdən də arxayın ol. Neçə ki, canımda can var, nəfəsim gedib-gəlir, qoymaram uşaqlar korluq çəksin. Bir tikə çörək tapsam, yarısı o evindi, yarısı bu evin. O barədə ürəyin buz kimi olsun. Zöhrə bacımdır, Sücəddinlə Növrəstə doğma balalarım. Qonşu, dünyanın quyruğu uzundur. Heç kəsin də qisası yerdə qalmayıb. Kim də xörəyinə nə töküb, əvvəl-axır öz qaşığına çıxmalıdı. İntəhası, tezi-geci var. Səbr hər şeyi həll eləyir. Bunların hamısını görə-görə gəlmişik. Allahın ətəyindən bərk yapış.

Bayaqdan bəri Cahangir bir kəlmə də dillənmirdi. Sakitcə Bağıra qulaq asırdı. Fikri qədim arxda, qürbət ölkələrdə, yad yerlərdə, qazamatın soyuq divarları arasında qalmışdı. Nahaqdan şərə salıb onun çörəyinə bais olanlar, özündən sonra arvad-uşağının nə kimi müsibətli günlər görəcəkləri barədə düşünürdü.

Bayırdan yad və hökmran səs gəldi. Cahangirlə Bağır onun NKVD-nin adamları olduğunu zənn edib, sözlərini tamamlamamış tez ayağa qalxdılar. Həmin şəxs yolağanın qabağında dayanmışdı. O, Cahangirə tərəf irəliləyib amiranə bir səslə:

- Adama üz verəndə astar istəməz! - dedi. - Möhlət istədin ki, arvad-uşaqla görüşüm, biz də razılaşdıq. Ta demədik ki, get onnan-bunnan qulaqlaş! Görüş vaxtın qurtarıb, getməliyik. Görünür, hələ də ağlın başına gəlməyib...

Cahangir dillənmədi. Sakitcə onu gözləyən çiyni paqonluya yaxınlaşdı. Paqonlu adam onun əllərini cütləyəndə dəmir cingiltisi eşidildi. Yəqin ki, qollarına qandal vurulurdu.





Cahangir:

- Evə dəyim, sonra hara deyirsən gedək. - Arvad-uşaqları ilə vidalaşmaq üçün ondan icazə istədi.

Zabit isə:

- Olmaz! Vaxtın qurtarıb! Gecə keçir, uzun yol getməliyik. Yoldaşlar bayaqdan gözləyir. Deyirsən səndən ötəri üzümə söz gəlsin?! - Paqonlu zabit ona etirazını bildirib Cahangiri qolubağlı qabağına saldı.

Bağır ədası yerə-göyə sığmayan bu adamı saya salmadan Cahangirin üstünə atılıb onun boynunu qucaqladı və sifətini dostunun sifətinə söykəyib, gücü gəldikcə sinəsinə sıxdı. Zabit belindəki silaha əl atıb, hədə-qorxu ilə onları bir-birindən ayırdı.

Atlılar kəndin ayağında dayanmışdılar. Onlardan biri qabağa düşdü, Cahangir də onun ardınca. Atlıların ikisi isə onların arxasınca gedirdi. Cahangir qolubağlı olduğundan hərdən müvazinətini itirib daşa ilişirdi və tez də özünü düzəldirdi. Bağır onları qarabaqara izləyirdi. Cahangiri gözdən qoymaq istəmirdi. Atlılardan biri cilovu dartıb geri çöndü:

- Qoca! Gecənin bu vaxtı səni əcəl hərləməsin, - dedi. - Əl-ayağım dəyməmiş qayıt, get xarabana! Dilini də dinc qoy! Gedib orda-burda çərənləmə! Bu barədə qulağıma bir söz dəysə, özündən küs! Səni əlli-ayaqlı itirərik! Onsuz da qabağımızda gedən xalq düşməni ilə əlaqə saxladığından xəbərdarıq. Aranızda nə kimi söhbətlər getdiyini də bilirik. İndi başa düşdün də, nə demək istəyirik?! Odur ki, üzüsulu rədd ol, get! Bizə mane olma!

Elə bil bu hədələyici sözləri daşa deyirdin. Qoca Bağır sanki onları eşitmirdi. Cahangirin arxasınca gedirdi.

Sürünə-sürünə, daşlardan, kol-kosdan tuta-tuta, büdrəyə-büdrəyə gedirdi. Gecənin xofundanıydı, nəydi, birdən onun başı gicəlləndi, nurdan düşmüş gözləri qaraldı, sanki yer-göy başına fırlandı. Bağıra elə gəlirdi ki, Qalaçanın bütün dağları, daşları, dərələri, təpələri Cahangirin arxasınca düşüb. Vaxtilə Dəlmə arxının suyu ilə suvarılan və sonradan quruyub viranəliyə çevrilən bağ-bağat, əkin-biçin yerləri də qarabaqara Cahangirin arxasınca düşmüşdü. Bağırın kövrəlmiş qoca qəlbi düçar olduğu dərdə tablaşmadı. Cahangirin son izləri düşən çala-çuxur yolun tən ortasında dizlərini yerə dirədi, əllərini göyə qaldırıb, Tanrının dərgahına üz tutdu, gözəgörünməzdən imdad dilədi və huşunu itirib arxası üstə hərəkətsiz qaldı. Çox keçmədi ki, daşların soyuq üzü, gecənin sərin mehi onu ayıltdı. Bir qədərdən sonra özünə gəlib ayağa qalxdı. Nəmli gözlərini gecənin dərinliyinə zilləyib, nə düşündüsə, daxilən öz-özünü danlamağa, məzəmmət etməyə, qınamağa başladı:

- Bu nə hərəkətdi eləyirsən, Bağır?! Qalaçada beş kişi varsa, onun biri də sənsən. O cür sifətə düşmək heç sənə yaraşmır. O at belində tüğyan edənlər NKVD-nin buyruq qullarıdır. Onların vəzifəsi də, hökmranlığı da, tapançaları da müvəqqəti bir şeydir. Kişilik isə... Axı, sən heç kimə bac verməyən Bağırsan. Vəzifələrindən ötrü namus-qeyrətlərini tapdalamağı rəva bilən o cür gədə-güdələrin qabağında nahaq əyildin, nahaq diz çökdün, nahaq yıxıldın. Elələri ixtiyar sahibidi, sənsə qeyrət.

Bağır əyilmiş qəddini düzəltdi, özünü cavanlığında olduğu kimi şax tutdu, ortasındakı enli qayışın dilini geri çəkib, belini bərkitdi. Üst köynəyinin ətəyini aşağı çəkib, pencəyinin açılmış düymələrini bağladı. Artıq Cahangir uzaqlaşmışdı. Bağır daha onun ardınca getməyin mənasız olduğunu nəzərə alıb geri döndü. Cahangirin evinin qabağından keçəndə xeyli dayandı, xəyallandı. Onunla keçirdiyi acılı-şirinli günləri xatırladı və qürurunu pozmadan öz həyətinə keçdi.





* * *

Bu il Qalaçanın yazı bəd gəlmişdi. Bu mənhus hadisədən sonra kənd çalxalanırdı. Adamlar bir-birinə dəymişdi. Hamı vahimə içindəydi. Kəndin küçə və tinlərində, evlərdə, əkin-biçin yerlərində bəd xəbərlər dolaşırdı. Bütün söz-söhbətlərin hamısı Cahangirin başındaydı. Məsələdən hali olanlar da, olmayanlar da, küyə düşüb orda-burda pıçıldaşırdılar ki, Cahangir xalq düşməni çıxıb. "Sən demə, xəlvətə salıb tut ağaclarını məhv edirmiş ki, barama qurdları acından qırılsın, hökumətə ziyan dəysin". "Qənirənin yoxa çıxması da, sədrin minik atının itməsi də ona sübut olunub". "Onunku arx çəkmək deyilmiş. Xəlvətə salıb mərdimazar işlər görürmüş".

Bulaq başına yığışan qadınlar bir-birinə xısın-xısın deyirdi:

- "Aaz, xəmir yeyənin fığarası olmaz. Hamı o boyuna ip tutduğumu ifallı adam bilirdi. Sən demə, hökumətin əleyhinə altdan-altdan iş görürmüş".

Kənddə Cahangirin arvad-uşağına da xalq düşməni kimi kəc baxırdılar. Çoxları onlardan aralı gəzib-dolaşırdı. Zöhrə də, Sücəddin də, Növrəstə də özlərini gözükölgəli aparırdılar. Qonum-qonşunun yanında dilləri gödək idi. Çiyni sənəkli qız-gəlin Zöhrə ilə bulağa getməkdən ehtiyat edirdi. Çoxları ondan gen qaçırdı. Sücəddinin də məktəbdə həmişəki hörməti yox idi. Sinifdə Tacəddindən başqa heç kəs onunla bir skamya

arxasında oturmaq istəmirdi. Bir dəfə yaşca böyük olan sinif yoldaşı Tacəddini kənara çəkib qulağına xısın-xısın pıçıldamışdı:

- Sən dəlisən, nəsən, xalq düşməninin oğlu ilə bir skamyada oturursan?! Qurd ürəyi yemisən?! Tacəddin də onun sinəsindən geri itələyib demişdi ki, yaşca məndən böyük olsan da, qorxağın biriymişsən! Səni heç belə bilməzdim! Adam dar ayaqda dostunu atmaz! Sücəddin müəllimlərin də gözündən yavaş-yavaş düşürdü. Sücəddinin birincidən tutmuş doqquzacan gündəlikdə də, rüblükdə də, illikdə də bütün qiymətləri "5" idi. İndi bəzi müəllimlər ona aşağı qiymət yazırdılar, sinifdə gözdən salırdılar. Sücəddin isə dili gödək olduğu üçün səsini çıxartmırdı. Müəllimlərə etirazını bildirmirdi.

Axır günə qədər fikir vardı ki, Sücəddin də anası, bacısı ilə birlikdə atasıynan sürgünə göndərilsin. Həmin gecə bütün ailə getməliydi. Göbələk yığdıqları gün cəviz ağacının dibində Tacəddinə də bunu açıb demişdi. Lakin Allah NKVD-nin könlünə nə saldısa, onları aparmadılar, təkcə atası getdi. Ancaq Sücəddin yenə də arxayın deyildi. Narahat hisslər keçirirdi, gecələr gözünə yuxu getmirdi. Ona görə də səksəkəliydi, qorxurdu ki, bir balaca səhvə yol versə, onu da gedər-gəlməzə göndərərlər. Atası gedəndən bir neçə həftə sonra sinifkomluqdan da çıxartmışdılar. Demişdilər ki, atan düşmən çıxıb, siyasi məhbusdu. Siyasi məhbusun oğluna sinifkomluğu etibar etmək olmaz. Onu redaktoru olduğu sinif divar qəzetindən də kənarlaşdırdılar.

Sarı madyan da xalq düşməninin oduna yanırdı. Cahangir gedəndən sonra sarı madyan yaddan çıxmışdı. Sücəddin də, anası da öz başlarının həşirindəydi. Bağır gündə neçə dəfə Cahangirgilə baş çəkirdi, onlara toxtaqlıq verirdi, darıxmağa qoymurdu. Deyirdi ki, qabaqda mən varam, necə ki, nəfəsim gedib-gəlir, canım sağdır, qoymaram sıxıntı çəkəsiniz. Tövlədən sarı madyanın kişnərtisini eşidəndə, atın səsindən hiss edirdi ki, arpa-samanı vaxtında verilməyib. Zöhrə ilə Sücəddin başlarını itirmişdilər. Ona görə də mal-heyvan yaddan çıxmışdı, sarı madyan tövlədə baxımsız qalmışdı. Bağır tövlənin dabanı cırıldayan sürtülmüş ağır qapısını açıb içəri girdi. Sarı madyan Bağırı görəndə döyükdü, burun pərləri körükləndi, dalı-dalı geri çəkildi, qulaqlarını qırpıb ona ağız atmaq istədi və yaxınına qoymadı. Bağır nə fənd işlətdi, sarı madyanın səmtinə düşə bilmədi. O geri dönüb Cahangirin evdə qalan nimdaş pencəyini əyninə alıb, qara quzu dərisindən olan qulaqlı papağını başına qoyduqdan sonra yenidən tövləyə qayıtdı. Sarı madyan yenə tərəddüd etdi, kırıldadı, qulaqlarını şəklədi, onun burun pərləri körükləndi. Cahangirin paltarının iyini alan kimi bir qədər yavaşıdı, burnunu Bağırın əynindəki pencəyə toxundurdu. Sakitləşən kimi oldu. Bağır nəvazişlə əlini onun yal-birçəyində gəzdirdi. Alığını alıb yüngülvari tumar vurdu. Sonra cilovu başına keçirib, yəhərləyib tövlədən çıxartdı. Ancaq ürəyi gəlmədi minsin. Bulağa yedəyində apardı. Suvardıqdan sonra yenə qaytarıb tövləyə saldı. Yəhərini alıb, belinə əldətoxunma çul vurdu, axuruna bağlayıb qabağına bəsdi deyincə, arpa-saman qoydu və öz-özünə: - Qoy Cahangirsizliyini hiss etməsin, - düşündü. At da elə bil sahibinin yoxluğunu başa düşmüşdü. Balasından betər Cahangirin yoxluğu ona dərd olmuşdu. Sarı madyanın ürəyinin başında iki yara vardı. Birinci yaranı balasını yeyən yalquzaq canavar, ikincisini isə Cahangiri nahaqdan dolaşdıran NKVD vurmuşdu. Sarı madyan əlacsız qalıb Bağıra mehrini sa-

lıb, günü-gündən ona isinişirdi. Axşam-səhər Bağırın bir ayağı Cahangirgildə idi. Nə qazanıb gətirsəydi, qardaş malı kimi bölüb yarısını Cahangirgilə göndərirdi. Əksər vaxtlarda bu iki ailənin yemək-içməyi birlikdə olurdu. Bağır onların xiffət eləməsinə imkan vermirdi. Bircə Zöhrəyə öhd olmurdu. Zöhrə elə hey gözlərinə dəm verirdi. Yana-yana danışırdı ki, günahı olsa, uf da eləmərəm. Deyərəm ki, cinayət eləyib, canı çıxsın, cəzasını çəksin. Onda ağlıyıb-sıtqasam, atama lənət. Deyərəm, o gedib, Sücəddin sağ olsun. Evdə bir başıpapaqlı var, ona da şükür! Məni yandıran odur ki, kişini durduğu yerdə dolaşığa salıb badi-fənaya verdilər. Yalandan xalq düşməni qayırdılar! Bizə ömürlük ləkə vurdular. O addan sonra nə oğlum xoşbəxt olar, nə də qızım! Zöhrə bütün bunları ürəyinə saldı, gecə-gündüz yaş tökdü. Axırda da heç iki ay çəkmədi, düşdü yorğan-döşəyə. Əvvəllərdə də ürəyinin tutması vardı. Həkimlər demişdi ki, gərək gözləsin, əsəbiləşməsin, özünü soyuqdan qorusun... Ancaq Cahangirdən sonra Zöhrə əriyib iynələrə saplanmalı olmuşdu. Bir səhər durub gördülər ki, Zöhrə nə gəzir, gecədən keçinib...

Zöhrənin yası da urvatsız oldu. Siyasi məhbusun həyat yoldaşı kimi onun hüzr yerinə tək-tük adam gəlmişdi. Bircə qohum-qardaşı, Zabıxlı tayfasından olanlar, bir də ki, rus dili müəlliməsi Natalya Sokolova əvvəldən-axıracan Zöhrənin yasında oldular. Natalya Növrəstənin yanından əl çəkmirdi. Cahangirin getməsi ona da əsər eləmişdi. Çünki Cahangir həmişə ona ata əvəzi olmuşdu. Onu odun-ocaqdan korluq çəkməyə qoymurdu. Cahangir də, Zöhrə də ən çox Natalyanın kisəsindən getdilər. Ona görə də bu əhvalat baş verəndən bəri Natalyanın qaş-qabağı açılmırdı. Elə bil doğma valideynlərini itirmişdi.





Yatmaq vaxtı gələndə də Natalya Növrəstənin qoluna girib, ya öz mənzilinə aparır, ya da ki, onlarda gecələyirdi. Növrəstəni darıxmağa qoymurdu. Qalaça camaatı Natalya müəllimənin bu cür istiqanlı olmasına məəttəl qalmışdı. Bəzən deyirdilər ki, nə millət olursa-olsun, hər yerin yaxşısı da var, pisi də, etibarlısı da var, etibarsızı da. Yəqin Natalya da nəsli, nəcabəti olan qadındı. Cahangirin çörəyini itirmir. Zöhrənin yas mərasimi qurtarana qədər Natalyanın üzü gülmədi, başındakı qara örtüyü açmadı.

* * *

Bağır bir neçə dəfə Sücəddini də yanına salıb, Cahangirin məsələsindən ötrü rayon mərkəzinə getdi. O idarə qalmadı ki, baş vurmasın. Savadlı vəkil tutub, pul töküb Bakıdan, Moskvadan belə məktub yazıb, teleqramı teleqram üstündən vurdu ki, Cahangirin yerini-yurdunu öyrənsinlər. Ancaq heç yerdən cavab gəlmədi. Ağızdan-ağıza söz gəzirdi ki, Sibirə göndəriblər. Siyasi məhbus olduğu üçün yeri bildirilmir. Bəziləri də deyirdi, heç Azərbaycandan o tərəfə getməyib, Bakıda-zadda güllələyiblər. Bağır da, Sücəddin də bilmirdilər hansı sözə inansınlar. Beləliklə, Cahangirin nə öldüsü bilinirdi, nə qaldısı. Ancaq qohum-övladları ümidlərini ondan biryolluq üzməmişdilər. Fikirləşirdilər ki, harda olur-olsun, yəqin cəzasını çəkib qurtarandan sonra buraxarlar. Sağ-salamat qayıdıb gələr ev-eşiyinə. Ya da ki, mıxı mismar eləyən var. Yox yerdən elə bir təzə qanun çıxar ki, yoxlayıb görərlər günahsızdır, əlinə bəraət kağızı verib, vaxtından qabaq buraxarlar. Dünyanın işini bilmək olmaz.

Ancaq aylar, illər ötdükcə bütün bu ümidlər getdikcə puça çıxırdı. Sücəddin gördü ki, bacı-qardaş Bağırın bo-

ğazına şərik olublar və atasının dostu da yaşlı adamdır, iki ailəni dolandırmağa gücü çatmır. Ona görə məcburiyyət qarşısında qalıb sarı madyanı satdı. Bağır əvvəlcə bu işə qol qoymurdu. Sücəddinə deyirdi: - Oğul, aclıq bir il gedər, töhmət min il. Cahangirin qulağına çatsa ki, sarı madyan satılıb, indi onu başqaları minir, o dəqiqə bağrı çatlayar. At da elə namus, qeyrət kimi bir şeydir. Onu satmaq mənim özümə də ağır gəlir. Sücəddin ehtiyacdan çox, sarı madyanı əsas ona görə satdı ki, ona atası kimi qulluq eləyə bilmirdi. At da arıqlayıb əldən düşmüşdü. İstəmirdi ki, sarı madyanı bu cür acınacaqlı vəziyyətdə görsün. Üçüncü bir tərəfdən də hər ata baxanda atası yadına düşürdü, ürəyi ağrıyırdı. Ona görə də Bağırın etirazına baxmayaraq, sarı madyanı satdı. Özü də elə bir uzaq yerin adamına satdı ki, bir də sarı madyanın nə üzünü görsün, nə də könlü bulansın. Sücəddin özü də məktəbdən yarımçıq çıxdı. Fikirləşdi ki, ta bundan sonra oxumağın axırı yoxdur. Tutaq ki, kənddə təhsilimi başa vurdum, kimdi məni ali məktəbin qapısına qoyan?! Partiya məsələsindən də əlim biryolluq üzülüb. Siyasi məhbusun oğlundan firqəçi olmaz. Firqəçi olmayana da, kimdi yönlü iş verən?! Yaxşısı budur, elə bəri başdan hamısını atıb, atam kimi beldən, kərəntidən, dəhrədən yapışım. Bağır əminin də o vaxtı deyil. Qocalıb heydən-hərəkətdən düşüb. İşdə-gücdə ona kömək eləyərəm. Birləşib bir loxma çörək qazanarıq. Artıq mənim bundan başqa yolum qalmayıb. Atam da ki, ya qismət, qayıda, ya qayıtmaya... Bağır da bir tərəfə baxanda gördü ki, Sücəddin cavan olsa da, neyniyir, düz eləyir. Ona görə də dinmədi. Çəkilib durdu qıraqda. Sücəddinə mane olmaq istəmədi. Tacəddinin də ki, əlindən nə gəlir?! Sücəddinin düşdüyü vəziyyət onu hamıdan betər ağrıdırdı. Artıq onların da





yolu ayrılmışdı. Tacəddinə rayondan kağız gəlmişdi ki, sənət məktəbinə getməlidir. Düzdü, adını qoymuşdular könüllü, ancaq bu iş məcburi idi. Kənd sovetinin sədri dilindən kağız almışdı ki, çağırışa düşdüyünə görə bu bir ayın içində heç yana tərpənə bilməzsən. Ayın başı gəlməmiş kənd sovetinin adamları kəsdirdilər qapını. Tacəddinə aman vermədilər ki, dünəndən bazara gedən atası qayıdana qədər gözləyib, onunla görüşüb xudahafizləşsin. Yağı düşmən kimi Tacəddini qabaqlarına qatıb apardılar rayona.

* * *

Bağırla Sücəddin ata-bala kimi baş-başa verib, iki ailəni birtəhər dolandırırdılar. Ta Cahangir də yavaş-yavaş unudulur, onun barəsində gedən söz-söhbətlər səngiyirdi. Yaralar getdikcə qaysaqlanırdı. Lüt Qasımın oğlu camaatın gözündə özünü elə göstərirdi ki, guya o da Cahangirin halına acıyır və bu işdə də əli yoxdur. Səftər düşünürdü ki, vəzifə həmişəlik onun boynuna biçilməyib, bu gün var, sabah yox. Ona görə istəyirdi, Cahangiri şərə salıb, ailəsini başsız qoymağı ondan görməsinlər. Düşmənçilik heç kəsə xeyir gətirməyib. Cahangirin də bir sürü tayfa-törəməsi var. Ona görə də hərdən Sücəddinlə rastlaşanda, məhrəm bir adam kimi danışır və deyirdi:

- Atan yaxşı kişiydi. Xeyir-şərdə hamının karına gəlirdi. Təsərrüfatın da bir tərəfini çəkib aparırdı. Mərdimazara lənət! Kişinin başını böyütdülər. Onun məsələsiynən elə bir Allahsız orqan məşğul olurdu ki, oraya yaxın düşmək mümkün deyildi. Yoxsa qoyardım, Cahangirin başından bir tük əskik olsun?! Rayonda adısanı olan ən inanılmış adamlara ağız açdım, altdan-

altdan çox çalışdım Cahangiri bu bəladan qurtarım. Ancaq əncam olmadı. İndikilərə etibar var?! Boynuma alım ki, sözüm keçmədi. İndi olan-olub, keçən keçib. Hamı bilir, bu iş mənlik olmadı. Kənddəki agentlər namərdlik elədilər, altdan-üstdən yalan danos yazıb nahaqdan kişini güdaza verdilər. Şeytana lənət!! Şeytan nə ölüb, nə də öləcək!

Sücəddin başını aşağı salıb dillənmirdi. Razılıq mənasında hərdən başının hərəkəti ilə Səftərin dediklərini könülsüz-könülsüz təsdiq eləyirdi. Səftər irəli yeriyib əlini onun çiyninə qoydu:

- İndi üz-üzə, göz-gözə dayanmışıq. Bax, budur deyirəm, nə çətinliyin olsa, qətiyyən çəkinib eləmə, de. Çoxdan fikrimdədir ki, evinizə bir meşok un göndərim. Ancaq iş başımı qatdığından yadımdan çıxmışdı. Bu axşam mütləq çatdıraram. Qoy agentlər indi də gedib məni satsınlar. Gizli məlumat yazıb versinlər ki, Səftər siyasi məhbusun ailəsini qoltuğuna alıb himayədarlıq edir. Bunun üstündə məni də düşmən qayırsınlar. Elə şeylərdən qorxub çəkinən deyiləm. Kim nə qələt eləyir-eləsin. Aləm bilir ki, Cahangirin heç bir günahı yoxdur. Arğac kimdən, hardan keçdisə, rayondakılar qurğuya saldılar. Kim neynəsə, gec-tez öz qabağına çıxmasa da, balasının qabağına çıxmalıdır. Mənə aid olan sözün-zadın olsa, yenə deyirəm, utanıb eləmə, qulluğunda hazıram. Cahangirin üstümüzdə haqqı çoxdur. Bu kənddə çoxlarına əl tutub. Bir də ki, yaxşı yadıma düşdü. Cahangir o Dəlmə arxını çəkib qurtarmışdı. Elə işin axır-uxuru qalmışdı. Mərdimazarlar qoymadı. Məndən olsa, o arxın yarımçıq hissəsini tamamlayardın. Lazım olsa, kömək də verərəm. Necə olsa sizin adınızadır. Adı da elə Cahangir





arxı qalardı. Bu barədə də yaxşı-yaxşı ölç-biç. Nə fikrə gəlsən mənə deyərsən...

Sücəddin cavan olsa da, dəqiq bilirdi ki, atasına hardan, kimdən xətər dəyib. Ancaq bildiklərini hələlik bildirmək istəmirdi və Səftərə özünü elə göstərirdi ki, guya onun dediklərinin hamısına Quran ayəsi kimi inanır.

Həmin axşam Bağır Sücəddinlə Növrəstəyə baş çəkməyə gəlmişdi. Söhbət əsnasında Sücəddin Səftərlə bu gün görüşdüyünü və aralarında olan söz-söhbəti olduğu kimi açıb danışdı. Bağır Səftərin Sücəddinə dediyi sözləri eşidəndə, ayağının altından yer qaçdı, elə bil ona od vurdular. Deməli, insan var ki, şeytan onun yanında toya getməlidir. Şükür kəreminə, ilahi! - Öz-özünə düşündü. Sücəddin Bağıra bir də onu dedi ki, dəlidən doğru xəbər. Səftər məni tovluyur ki, atamın Dəlmə arxındakı yarımçıq işini tamamlayım.

Bağır başını buladı:

- Ay oğul, - dedi, - əslinə qalsa, elə Cahangirin başını o arx yedi. Atan Dəlmə arxında gecə-gündüz əlləşdi, vuruşdu, bir heylə can qoydu. Ona qiymət verdilər?! İndi də sən özünü oda atmaq istəyirsən?! Guya ki, Səftərin Cahangirə, ya da saa canı yanır?! Eeehh, ay oğul, ay oğul! - Bağır təəccüb və təəssüflə əlini yellətdi. - İndi də səni qızışdırıb ortalığa salmaqda, görəsən, nə kələyi var.

- Yox, Bağır əmi, ağlıma batıb. Biləm ki, bu yolda ölümə gedirəm, geri çəkilən deyiləm. Allaha təvəkkül, axırı nə olar-olar! Arxın az bir hissəsi qalıb, gərək qurtarıb başa çatdırım. Atam beş ildən, on ildən sonra sağ-salamat qayıdıb gələr, qəlbi şad olar. Deyər - sağ ol, oğul, Zabıxlı tayfasının başını ucaltdın. Əcələ aman yoxdur. Başına bir qəzeyi-qədər gələr, onda ruhu şad

olar. Bu dünyada dinclik tapmasa da, o dünyada rahat yatar.

Söhbətin bu yerində bayırdan hənirti gəldi. Kimsə: - Sücəddin! Sücəddin! - deyib onu çağırdı. Sücəddin yad səsi eşidən kimi Bağırı evdə qoyub həyətə çıxdı. Səftərin taxıl anbarında işləyən ögey əmisi oğlu Əmrağa idi. Əmrağa salam-kəlamdan sonra ulağın üstündəki un dolu kisəni çiyninə alıb hıqqana-hıqqana gətirib qapının ağzında yerə qoydu:

- Səftər göndərib, - dedi və üst-başının ununu çırpa-çırpa getdi. Sücəddinsə ağzını açıb bircə kəlmə ona sağ ol demədi. Un kisəsini yerindən tərpətmədən, dinməz-söyləməz içəri keçdi. Bağır ondan gecənin bu vaxtı gələnin kim olduğunu, nə gətirdiyini soruşmadı. Sücəddin özü dedi ki, sədrin ögey əmisi oğluydu. Səftərin bizə yazığı gəlib, bir kisə un göndərib, - bu sözü kinayə ilə dedi. Bağır bir qarın çörəkdən ötrü Sücəddinin düşmənə boyun əydiyini biləndə, dilxor oldu. Elə bil atasını söydülər. Onun nurdan düşmüş balaca gözlərinin altı kölgələndi. Çalın-çarpaz qırışlar düşmüş sifəti avazıdı. Yaxşı deyiblər ki, qarın qardaşdan irəlidir - düşündü. Amma pərtliyini büruzə vermədi. Sücəddin isə Bağırın qırımından, onun daxilən narazı qaldığını başa düşdü. Lakin məsələnin üstünə gəlmədi.

Onlar gələcəkdən, keçəcəkdən xeyli danışıb ayrıldılar. Ancaq söhbətlərinin axırı çox sönük keçdi. Bağır gedəndən sonra Sücəddin qapının ağzındakı un kisəsinə diqqətlə nəzər saldı, öz-özünə: - Fikrin dolanmasın, Bağır əmi, - düşündü. - Məni o qədər də səfeh-sadəlövh bilmə. Acından ölərəm, düşmən tikəsini dilimə vurmaram. Unu qaytarmamaqda düz eləmişəm. Səftər məni ayrı cür başa düşər. Onu ayıq-sayıq sala bilmərəm. Qoy





elə başa düşsün ki, doğrudan da ona inanıb etibar eləyirəm. Atamın güdaza getməsində Səftərdən bədgüman deyiləm. O, bizim arxamız, istəyənimiz, xeyirxahımızdı. Atam Cahangir deyərdi ki, düşməni məhv etmək üçün onu hürkütmə, əksinə yaxınlıq et. Bütün bunlar öz yerində. İndi bu unu neynəyim. Düşmənin göndərdiyi ruzini yal eliyib itimizə də verə bilmərəm. Versəm də inanmıram ki, Qarabaş düşmən yalına dil bulasın. Bəlkə aparıb dərəyə töküm, torpağa basdırım, bu da günahdı. Allahın qəzəbinə gələrəm. Çünki çörək Qurandan qabaq gəlib. O, nə fikirləşdisə, birdən sifəti duruldu. - Hə, yaxşı yadıma düşdü, - öz-özünə düşündü. - Bu unu aparıb arabanın altında qalıb, şikəst olan Hacı Sadığa verərəm. Qənirənin atasıgilə. Yazıq qızın heç meyidi də tapılmadı. Hamı da onu yaxşı, namuslu qız kimi tanıyırdı. Anası Bənövşə də il uzunu xəstə yatır. Dolandıranları yoxdur. Ehtiyac içində yaşayırlar. Onlara versəm, savab qazanaram, Allaha da xoş gedər.

Sücəddin belə bir niyyətlə yatmadı, xeyli gözlədi. Gecə yarıdan sonra un kisəsini çiyninə alıb, xəlvət döngələrlə Hacı Sadıqgilə üz tutdu. Yolağanı ehmalca qaldırıb, həyətə daxil olmaq istəyəndə Qənirə onun qabağını kəsdi. Sücəddinin bədəni əsdi. Özünü itirdi. - Axı, Qənirə çoxdan dünyasını dəyişib, bu nə möcüzədi, ilahi! - öz-özünə düşündü. O, xoflandı. - Bəlkə məni qara basır?! Burda Qənirə nə gəzir?! Yəqin ruhudur, bəlkə yuxu görürəm?! - Sücəddin - Bismillah! - deyib əlini üzünə çəkdi və irəliləmək istədi. Qənirə qəzəbləndi. Onu irəli addım atmağa qoymadı və dilə gələrək:

- Eyib olsun, Sücəddin! Səni cəsur oğlan bilirdim! Görünür, zəndimdə yanılmışam. Məgər bilmirsən ki, bu işıqlı dünyanı Səftərə görə tərk etmişəm?! Onun bəd

əməlləri məni müsibətlərə düçar elədi! Bilmirsən ki, Cahangiri də, məni də, o köhlən atı da güdaza verən, lüt Qasımın oğlu lovğa Səftərdir?! Neçə aydır Dəvəbatan sularının dibində çürüyürəm, cəsədim balıqlara yem olub, indi də dünyadan nakam gedən bir qızın qanına bais olan o nanəcibin haram tikəsini damın altında sahibsiz qalan atama-anama yedirtmək istəyirsən?! Sən Cahangirin belindən gəlsəydin, bu cür binamus hərəkət etməzdin! Cahangirin yurduna layiq deyilsən! Sən demə, yaltaq-yalotunun biriymişsən! Bir qarın çörəkdən ötəri düşmənə boyun əyirsən? Budur sənin kişiliyin?! Çəkil gözümdən, Sücəddin! Necə gəlmisən, eləcə də qayıt get! Yəni o qədər avam-kütbeyinsən?! Bilmirsən ki, düşmənin tikəsi ilan sümüyündən betərdir?! Get burdan, Sücəddin! Düzdür, mən cismən yoxam, amma eşit, agah ol ki, ruhum hər gün, hər saat, hər dəqiqə atamın-anamın yanındadır! Yalvarıram sənə, tərk et qapımızı! Gətirdiyini də apar, özünə lazım olar! Ata-anam kasıbdı, əlacsızdı, köməkləri yoxdur, lakin onlar düşmən tikəsinə möhtac deyillər. Xatircəm ol ki, atamla anamı yaradan onları ruzisiz qoymaz...

Sücəddin çiynində ağır un kisəsi, yerindəcə donub qalmışdı. Sanki ayaqlarından yerə mismarlanmışdı. Elə bil bütün bədəni qıc olmuşdu, nə irəli gedə bilirdi, nə də ki, geri. Cəsarətini toplayıb onun bir belə töhmət-tənəsinin qarşısında nə cavab vermək istəyirdisə, Qənirə kölgə kimi yoxa çıxdı. Sücəddin ətrafına nə qədər göz gəzdirsə də, heç nə görə bilmədi. O, hələ də Qənirənin dediklərinin əzabverici təsirindən xilas olmamışdı. Odur ki, həyətə daxil olmağa cəsarət etmədi. Tez geri döndü.

Sücəddin lap başını itirmişdi. Bilmirdi un kisəsini hara aparsın, kimə versin. Çox götür-qoydan sonra kəndin yaxınlığında çadır quran qaraçılar yadına düşdü. O, kəndin kənarından keçən dərəyə enib, qaraçıların yurd saldığı ensiz düzə çıxmaq istədi. Yorulub əldən düşdüyünə görə kisəni yuxarı qaldıra bilmədi. Yarğandan sürüşüb, un qarışıq dərənin dibinə düşdü və sağ qıçı bir balaca sərpdi. Dərənin qırağında dayanıb, at-eşşəyin hörüyünü dəyişən iki nəfər qaraçı onu görüb Sücəddinə tərəf yüyürdülər. Gecənin zil qaranlığında onlar bir-birinin üzünü görmürdü. Sücəddin qan-tər içində tövşüyə-tövşüyə:

- Qonşum burada ələk-xəlbir, şadara toxutdurub, - dedi. - Əvəzində bir kisə un verməliydi. Qonşum uzaq səfərə getdiyi üçün həmin borcu qaytarmağı mənə tapşırıb.

Qaraçılar Sücəddinin kimliyini soruşmadan un kisəsini qəbul edib, ona razılıqlarını bildirdilər.

Sücəddin arın-arxayın evə qayıtdı. Sanki çiynindən töhmət yükü götürüldü. O, bu gecəki kimi şirin yuxu tapmamışdı. Yəqin ki, bu gecə tənəli sözlərinə məruz qaldığı Qənirənin də ruhu sakitləşər, - düşündü.

Cahangirin yurdunda bir Sücəddin qalmışdı, bir də qızı Növrəstə. Yaş fərqləri o qədər də olmazdı. Bacı-qardaş həmişə olduğu kimi, bu axşam da ikilikdə dərdləşirdilər. Ən çox da ata-analarından, başsız qalmalarından, siyasi məhbusun övladları kimi gözdən-nəzərdən düşdüklərindən danışırdılar. Bacı-qardaş ağır, kədərli günlərini yaşayırdılar. Bundan da yaman günlərə düşə biləcəklərindən ehtiyatlanırdılar. Qorxurdular ki, onlardan da siyasi məhbusun övladları kimi şübhələnib, haçansa kənddən çıxarıb sürgünə göndərə bilərlər. Ona görə də bacı-qardaş evin içində, ikilikdə söhbət edəndə onları güdürmüşlər kimi, səksəkəli baxışları ilə ətraflarına göz

gəzdirirdilər. Bayırda bir səs eşidiləndə, tez susurdular. Bu dəfə Növrəstənin ağlına nə gəldisə, sualedici baxışları ilə Sücəddini süzərək:

- Qəlbimdə gizli bir söz var. Ha istəyirəm deyim, ancaq ürəyim gəlmir, - dilləndi.

Sücəddin:

- Nahaq. Söz ki, gəldi, onu saxlamazlar. De görüm nədir?

Növrəstə:

- Utanıram, qardaş, - dedi, - həm də bu, qız sözü deyil, axı.

- Sirrini mənə də deməyib, başqa kimə deyəcəksən?! - Sücəddin bu sözü qeyzlə dedi.

- Acığın tutmaz ki?! - Növrəstə gülümsündü.

- Əvvəla, o deyəcəyin sözdən asılıdır. İkincisi də, acığım tutar, su içərəm. Bir də ki, bilməyim vacib olan sözü gizlətməyin nə mənası var?

Növrəstə:

- Bağır əmi bir-iki dəfə ağzından qaçırıb ki, Minayəni Sücəddinə vermək istəyirəm, - dedi. - Bağır əmi harda olur, səni tərifləyir. Deyir, qoçaq oğlandır, kişi xasiyyəti çoxdur. Zarafata sala-sala Minayənin də başını doldurub. Deyir ki, sən Sücəddininsən. Qız da əvvəlcə özünü naza qoyurdu. Deyirdi ki, hələ mənim nə vaxtımdır. Atası da gülə-gülə deyib ki, Sücəddin kimi oğul var?! O səni bəyəndi ki, sən də getməyəsən?! Sücəddin səni alsa, minnətin olsun. Bağır əmi qızı yoxlamaq üçün bu sözləri zarafatla deyib.

Sücəddinin dodağı qaçdı:

- Bağır əminin deməyinə baxma. İndiki zəmanədə kimdi siyasi məhbusun oğluna qız verən?!

Növrəstə qəti bir inamla:





- Yox, vallah, həqiqi sözümdür, - dedi. - Bir dəfə Bağır əmidən özcə qulağımla eşitmişəm, səndən xoşu gəlir. Deyir, daşımız da var, divarımız da. Minayəni Sücəddindən artığına verəcəyəm?! Qızyetər xala əvvəl-əvvəl bir az nəm-nüm eləyib. Sən demə, onun ayrı fikri varmış. Bağır əmidən xəbərsiz başqasına dil veribmiş. İndi o da razıdır. Minayə də səndən ötrü sinov gedir. Mənim yanımda həmişə səndən danışır. Açıq-aydın görürəm ki, saa meyli var. Deyir ki, noolsun ki, Cahangir əmini nahaqdan dolaşdırıb düşmən qayırıblar. Kənddəki gədə-güdələrdənsə Sücəddin yaxşıdır. Bu söz çıxmamışdan qabaq Qızyetər xalanın niyyəti başqaymış. Qızı Bahəddinə vermək istəyirmiş. Səftərin arvadının fermada hesabdar işləyən qardaşına. O da boylu-buxunlu oğlandır. Amma sənin dırnağın ola bilməz. Danışanda ağzından horra tökülür. Səftərin hesabına adam olub. Onun da könlündən keçirmiş ki, Minayədən ötrü Bağırgilə adam göndərsin. Bahəddinin ata-anası, Səftərin özü də bu işə razıymış. Nəinki razıymışlar, sevinirmişlər. Bağır əmi eşidəndə Qızyetərə bərk təpinib, abrını ətəyinə büküb. Deyib ki, yüz kor qızım ola, birini də Səftər kimi oğraşın tayfa-törəməsinə verərəm. Bağır əminin hədə-qorxusundan sonra hərə çəkilib oturub öz yerində. O, söz-söhbət də birdəfəlik yığışdırılıb. Minayə bircə səni deyir.

Sücəddin:

- Sən necə, Növrəstə?! Bu işə razısan? - soruşdu.

Növrəstə:

- Nə deyim, vallah, özün bilən yaxşıdı, könül sevən göyçək olar. Mənim fikrimi bilmək istəyirsənsə, razıyam. Bizim kimimiz var ki?! Bağır əmi necə olsa, hər ikimizə söykəkdir. Minayə də pis qız deyil. Bir az açıqsaçıq olsa da, yaxşı xasiyyəti var. Yanmış elə göyçəkdir

ki! Allah-taala boy-buxun, gözəllik paylayanda elə birinci ona verib. Heç bilirsən, kənddə ondan ötrü nə qədər ölən var?! Amma Minayənin qibləsi sənsən.

Bu məsələni ilk dəfəydi ki, Növrəstə qardaşına deyirdi. Sücəddin bacısını dinlədikdən sonra başını buladı:

- Əvvəla, hələlik, evlənən vaxtım deyil, bacı, - dedi. - Bir də ki, arvad mənim harama yaraşır. İkincisi, atamla Bağır bir adamdır. Tacəddinlə bir-birimizə qardaş demişik. Minayə də mənim bacımdır. Ona görə də bu sözü sən deməmisən, mən də eşitməmişəm. Məsləhətim odur ki, belə işlərə qarışma. Bizim öz dərdimiz özümüzə bəsdir.

Növrəstə:

- Sənin bir sözünə şərik deyiləm, - dedi. - Qurbanı olduğum Məhəmməd peyğəmbər öz qızı Fatiməni doğma əmisi oğlu - cənab Əliyə vermədimi?! Bunu atam Cahangirdən eşitmişəm. İndi sənin də Minayə ilə evlənməyində elə bir qəbahət görmürəm. Buna şəriət də yol verir. Yaşca səndən kiçik olsam da, hesab edirəm ki, bu barədə səhvin var.

Sücəddin gördü ki, bacısı haqlıdır. Ona görə də sözü çevirmədi. Əslinə qalanda Sücəddinin dili başqa cür desə də, qəlbinin dərinliyində Minayəyə qarşı gizli bir məhəbbət işığı şölələnirdi. Bunu onun Minayənin gözlərinə dikilən həsrətli baxışlarından da hiss etmək olurdu. Onların baxışları rastlaşanda özlərini itirir, Minayənin yanaqlarına xəfif qızartı çökürdü. Sücəddinə demək istədiyi sözləri məsum baxışları ilə izah edirdi. Sücəddin isə qızın incə nəvazişi qarşısında acizləşir, ürəyini açmağa cəsarət eləmirdi. Bəzən də dərin xəyallara dalıb daxilən özünü danlayırdı. Düşünürdü ki, atam





pis adla tutulub, indi yeri-yurdu da bilinmir. O, qəzəmətdə ola-ola mən qapımızda toy məclisi qurum?! Eşidib-bilən mənə nə deyər?! Deməzlər ki, atan gəlməmiş, ondan xəbər-ətər çıxmamış, bu nə zurna-balabandır çaldırırsan?!

Sücəddin bir tərəfdən gecə-gündüz atasının xiffətini eləyirdi, digər tərəfdən də qəlbində Minayəyə qarşı baş qaldıran məhəbbətin əsirinə çevrilmişdi.

Bir dəfə Bağır kefinin duru vaxtı, Sücəddinlə diz-dizə oturub bu söhbəti açdı:

- Oğul, - dedi, - bilirsən ki, sən ayrısı deyilsən. Ona görə də ata-baba adətlərini kənara qoyub, bir az açıq-saçıq danışaq. Zəmanənin üzü qara olsun, bizimki də belə gətirib. Cahangir gedib, yerində mənəm. Əgər Cahangir burda olsaydı, o dura-dura bu barədə sənnən kəlmə kəsib danışmazdım. İndi tale elə gətirib ki, oğlan tərəfdən də, qız tərəfdən də ortalığa düşən mənəm. Heç bir ata biqeyrətliyi boynuna götürüb, deməz ki, filankəs, gəl qızımı al. Bunun özü elə nakişilik kimi bir şeydir. İndi başqa çarə yoxdur. Məcburam ki, açıq danışım. Cahangiri rayona get-gələ salanda mənnən çox söhbəti olub. Başına gələnlərin səbəbini olduğu kimi danışıb. Son dəfə ayrılanda onun bir sözü də o oldu ki, Bağır, məni nahaqdan elə bir şərə salıblar ki, çətin ki, ordan qurtaram. Əhd eləmişdim ki, Minayə gəlinim olsun. Onu Sücəddinə almaq istəyirdim, fələk qoymadı. Məndən sonra əməlli-başlı ölç-biç, götür-qoy elə. Ağlın kəssə, əhdimi yerdə qoyma. Zöhrə də bir az nasazdır. Onun da qolundan tutanı yoxdur. Növrəstəyə gələndə də, qız ki var, köçəri quş kimidir, elə ki, vaxtı gəldi, ver getsin. Onu da kimə calayırsan, özün bilərsən, məsləhət sənindir. Am-

ma çalış, nəsli-kökü olan yerə düşsün. Qızım zatıqırıq gədə-güdələrə qismət olmasın.

Bağır çal düşmüş qaşlarını çatıb evin suvaqsız divarına göz gəzdirdi və əlini bığlarına çəkərək:

- İndi, Sücəddin, oğul, - dedi, - qarın süfrə deyil, açıb tökəsən. Cahangirin o axır sözündən sonra qalmışam içəridən qırıla-qırıla. Nə gizlədim, Minayənin də ordan-burdan istiyəni var. Arada arvad da ayrı fikrə düşmüşdü. Hamısına da sözümü deyib, oturtmuşam yerində. Onların nə həddi var, mən qabaqda ola-ola cınqırlarını çəkələr. Anası da Minayənin ağzını bir balaca yoxlayıb. Deyəsən, qızın özünün də bu işə meyli var. Bir də ki, mən deyəndən sonra qız kimdir?! Söz mənimkidir. Bir adam da mənim dediyimdən kənara çıxa bilməz. Söz yox ki, bu işdə sənin də könlün olmalıdır. Heç kimə məcburən deyə bilmərəm ki, gəl mənim qızımı al. Könül sevən göyçək olar, bu, ailə məsələsidir. Bəlkə elə sənin ayrı məramın var. Utanıb-çəkinməyin yeri deyil. Qarşılıqlı istək üzərində hörülməyən divarın ömrü çox olmaz, tezi-geci uçmalıdır. Mən də sizi qolzoruna evləndirib, sonra lənətlik ola bilmərəm. Bax, bunların hamısını hər üzünə deyirəm, ağıllı-başlı fikirləş ki, sonradan arada peşmançılıq olmasın. Gələcəkdə Cahangirin üzünə çıxa bilmərəm. Qızım olanda nə olar, bəlkə Minayə heç ürəyinə yatmır. Saa qız qəhət deyil, Minayəyə də oğlan. Qismət ilahidəndir. Burada mənim əsas məqsədim odur ki, Cahangirin dediyi sözü saa çatdırım. Bundan sonrasını tay özün bilərsən...

Sücəddin bayaqdan bəri başını aşağı dikmişdi. Utandığından rəng verib rəng alırdı. Çönüb Bağırın üzünə baxa bilmirdi. Nə də ki, ağzını açıb bir söz deyirdi. Bağır





fikrini tamamlayandan sonra Sücəddin qəddini düzəldib utana-utana:

- Bağır əmi, dediklərinin hamısı mənə aydındır, - dedi. - Nə məsləhət görsən, ağzım nədi ondan kənara çıxam. Bilirsən ki, o ədəbin sahibi deyiləm. Nə desən odur. Bircə orası var ki, atamın Dəlmə arxında başladığı işin yarımçıq qalmasını özümə sığışdıra bilmirəm. Bir-iki dəfə atam yuxuma girib. Arxın yarımçıq qalmasından çox nigarandır. İstəyirəm atamı nigarançılıqdan qurtarım, qəlbi rahat olsun. Dünyanın işini bilmək olmaz. Bəlkə onacan atam da sağ-salamat qayıdıb gəldi.

Bağır:

- Ağıllı fikirdir, oğul, - dedi. - Ürəyimdən xəbər verdin. Ə, elə bu dərrakənin, bu ürəyin sahibi olduğuna görə Minayəni saa verirəm, dayna, - zarafatyana əlavə etdi və yenə ciddiləşdi. - Elə mənim də bu işdə tələsmək fikrim yoxdur. Əsas odur ki, sənli-mənli bəri başdan işimizi bilək. Bir də ki, mənə belə demək yaraşmaz, qız ağacı, qoz ağacı. Hər yetən bir salba atar. Kimin bəxtinə düşə-düşə. Ona görə də qızın üstündə ad olandan sonra bu nağıl-həkət də yığışdırılar. Kənddə bilərlər ki, alan alıb, verən verib. Ondan sonra heç kəs qələt eləyib bu sözün üstünə gəlməz.

* * *

Yayın axırları idi. Günlər getdikcə gödəlir, havalar nisbətən sərinləşir, payızın nəfəsi duyulurdu. Sücəddin Dəlmə arxındakı kəm-kəsir işləri qurtarmaq üçün sabahdan işə başlamalıydı. Axşam tərəfi qapısı dəhlizə açılan və köhnədən tikilmiş dörddirəkli dama girib atasının işlətdiyi alətləri nəzərdən keçirdi. Bir vaxt dağları-daşları lərzəyə gətirən külüng, düsər, bel, dəhrə, balta da

gözükölgəli kimi qaranlıq bir küncə qısılmışdı. Cahangirin əlində olanda daşla, torpaqla çarpışıb par-par parıldayan külüng də, düsər də, bel də gözdən-nəzərdən düşüb pas atmışdı. Üfunət saçan nəm və qaranlıq küncdə məşəqqətli günlərini yaşayırdı. Sahibləri kimi işıqlı dünyaya həsrət qalmışdı bu dəmir alətlər. Gün üzü görmürdülər. Sücəddinin mütəəssir baxışları alətlərin atıldığı küncdə donub qalmışdı. Onun qulağına sızıltılı səslər gəlirdi. Deyəsən, sapları çürüməkdə olan belin, düsərin, külüngün səsi idi. Elə bil Cahangirin nə vaxt gələcəyini soruşurdular. Sücəddin düsər və külüngü əlinə alanda bir-birinə dəyib cingildədi. Bu səsdə çətin başa düşülən məsum bir nalə vardı və sanki Sücəddinin yaxasından yapışıb sahiblərinin harada olduğunu və başına nələr gəldiyini soruşurdular. Sücəddin aciz qalmışdı bu sualların qarşısında.

Sən demə, lüt Qasımın lovğa oğlu Səftər kimi namərdlərin at belinə qalxdığı zəmanədə dəmir də dilə gələrmiş. Cahangirin iş alətləri sanki bir də onu demək istəyirdilər ki, bilsəydik belə bir zəmanə gələcək, top-tüfəng, xəncər, qılınc olub, insana, insanlığa düşmən kəsilənlərə qənim olardıq. Ölüm saçan alovumuzla dünyanı nakəslərdən, namərdlərdən xilas eləyərdik. Sücəddin yiyə götürüb, alətləri bir-bir ovxarlamaq, pasını silmək fikrinə düşdü. Lakin tez də qərarını dəyişdi. Düşündü ki, nahaq yerə özümü əziyyətə salmayım. Sabah torpaq bu alətləri məndən yaxşı silib, təmizləyib parıldadar. Dəmir özü də torpaqdan yaranıb. Dəmirin də anası torpaqdır. Torpaqla təmas tapanda tərtəmiz olar, onu örtən pasdan əsər-əlamət qalmaz. Canlı-cansız nə var, torpağın övladıdır. Sücəddin işlədəcəyi alətləri bir-bir nəzərdən keçirib riqqətləndi.





Sonra vaxtilə anası Zöhrənin toxuduğu naxışlı xurcuna qoyub bir kənara söykədi.

Sücəddin sübh tezdən yerindən qalxanda ev işləri ilə əlaqədar bacısına bir-iki məsləhət verdi. Axır sözü də bu oldu ki, Dəlmə arxına gedirəm, tay səndən başqa kimim var, günorta çörəyimi hazırlayıb gətirərsən. Evdə tək-tənha qalmaqdansa, gözümün qabağında olsan yaxşıdı. Orda darıxmazsan. Ayranlı şorba bişirmək üçün per-pencər yığarsan. Bağda kölgələnib mer-meyvədən yeyərsən. Həm də mənə qaraltı olarsan. Görərsən ki, qardaşın iri daşları, qayaları atan Cahangir kimi necə çapıb parça-parça eləyir.

Növrəstə bu sözləri eşidəndə ürəyində elə sevindi ki, evdə otursa, səhərdən-axşamacan günü ağlamaqla keçəcək. Qardaşının yanında olsa, fikri dağılar. Günü xoş keçər. Dağlara, meşələrə, bağlara, hündür qayalara tamaşa eləyər, quşların səsini eşidər. Eyni açılar. Çayın qırağına enib dayaz yerlərdə balıq tutar. Apardığı çirkli pal-paltarı yuyub, günün altında sərib qurudar. Ata-anasının xiffətini yadından çıxarar. Odur ki, qardaşının təklifi onun ürəyindən oldu.

Sücəddin içində ağır alətlər olan xurcunu çiyninə salıb yola düzəldi. Növrəstə evi yır-yığış eləməyə başladı. Həyət-bacanı sil-süpür eləyib səliqə-sahmana saldı. Sonra Sücəddinin günorta yeməyi üçün dəstərxan bağladı. Evin qapısını kilidləyib həyətə çıxanda Minayə ilə rastlaşdı. Minayə təəccüblə:

- Səhər-səhər məndən xəlvət hara gedirsən belə?! Xeyir ola?! - soruşdu.

- Sücəddinə günorta yeməyi aparıram, - Növrəstə cavab verdi. Minayə Sücəddinin adını eşidəndə rəngi duruldu və sevincək:

- Belə işin vardı, mənə niyə xəbər vermirdin?! Məni özünə yaraşdırmırsan? - İncikliyini bildirdi.

- Düzü, heç ağlıma gəlməyib. Bir də fikirləşdim ki, evdən qoymazlar, həm də xeyli yoldur, əziyyət vermək istəmədim. - Növrəstə ona cavab verdi.

Minayə tutuldu. Onun cazibədar baxışlarına sanki qara bulud çökdü:

- Növrəstə, evdən arxayınam, - dedi. - Bir söz deməzlər. Ancaq getsəm, Sücəddinin acığı tutmaz ki?! Üzümə deməsə də, ürəyində fikirləşməzmi ki, bu nə sırtıq qızdır. Hələ arada bir şey yox, ordan bura dalımca gəlib.

Növrəstə tərəddüdlə çiyinlərini çəkdi:

- Nə bilim, vallah?! Amma inanmıram. Məncə Sücəddin daha da şad olar, - dedi. - Ancaq qardaşım olsa da, bir az qısqanc xasiyyəti var. Əgər hiss etsəm ki, narazıdır, deyərəm, Minayə gəlmirdi, onu mən yalvar-yaxar eləyib zorla gətirmişəm.

Minayə gələcək baldızından bu sözü eşidəndə çiçəyi çırtladı. Qanadı olsaydı uçardı. O, sevincək evlərinə tərəf qaçıb bir göz qırpımında geri döndü və başının hərəkəti ilə Növrəstəyə:

- Gedək, - dedi. - Anam dünəndən razıdır. Həm də dönə-dönə tapşırdı ki, Növrəstənin qəlbi sınıqdır, onu qoyma xiffət eləsin. Təndirdən təzə çıxan isti lavaşın birini də büküb dedi ki, aparın Sücəddinə. Arasına da yağdan-şordan qoydu.

* * *

Növrəstə ilə Minayə bir-birinə qoşulub pay-piyada kənddən xeyli aralandılar. Çaylaq yolundakı yastı, hamar daşlar həmişəki kimi onların yalın ayaqlarını yandırıb-





yaxırdı. Dərənin isti küləyi hərdən şiddətlənib narın qumu urva kimi onların başına sovururdu. Qalaça camaatı təbiətin bu cür şıltaqlığına öyrəşmişdilər. Və buna adi hal kimi baxır, elə bir narahatçılıq keçirmirdilər. Bu cür küləklər günortadan sonra, xırman sovruğa gələn vaxtlar başlayır və çox da davam eləmir.

Arxadan tozhatozla gələn bir nəfər atlı qızlara çataçatdaydı. Növrəstə ilə Minayə geri çönüb atlıya tərəf baxdılar. Səftərin fermada hesabdar işləyən qaynı Bahəddin idi. Bir vaxt onun da adamları Minayəyə qarmaq atmışdılar. Bahəddinin Minayəyə neçə dəfə məktub yazmağı da olmuşdu. Minayə isə onun göndərdiyi məktubların birinə cavab vermişdi. Yazmışdı ki, mən razıyam, ancaq atamdan asılıdır. Onsuz heç nə deyə bilmərəm. Minayənin anası Qızyetər bu məsələni eşidəndə demişdi ki, Bahəddin kimdən əskikdi?! Boyu-buxunu, ağlı-kamalı, o boyda ferma da əlində. Səftər kimi də arxası var. Qızım ondan yaxşısına gedəcək?! Bağır bunları eşidəndə bərk hirslənmişdi. Arvadı Qızyetəri də, qızı Minayəni də bərk hədələmişdi. Demişdi ki, o tərəfə verməyə qızım yoxdur. Minayəni itə verərəm, qurda verərəm, Bahəddin kimi gədə oğlu gədəyə yox. İtiklərini gedib ayrı yerdə axtarsınlar. Bir də ki, lüt oğlu Səftər haçandan bəri kişi olub çıxıb ortalığa?! Elə müvəqqəti bir vəzifəsi var deyə, sümüyümüzü aparıb it sümüyünə calayaq?! Qızyetər də, Minayə də o fikrə düşməkdə başlarından yekə qələt eləyirlər. Qız mənimdisə, kimə verərəm, özüm bilərəm. Evin kişisi mənəm, yoxsa Qızyetər? Ailədə söz deyən bir adam olar!

Bağırın bu hədə-qorxusundan sonra elə bil qurbağanın gölünə daş atıldı. O gündən Bahəddin-Minayə söz-söhbəti birdəfəlik yığışdırılmışdı. Bütün kənd bilirdi ki,

Minayə Sücəddinə nişanlıdır və bu gün-sabah toyları olmalıdır. Cahangirdən bir xəbər çıxmasını gözləyirlər...

Bahəddin Növrəstə ilə Minayəyə çatanda atın başını yığdı. Və üzünü Minayəyə tutaraq:

- Günün qızmarında hara belə, xeyir ola? - soruşdu və sevib-sevilənlərə məxsus həvəslə Minayəni başdan-ayağa mənalı-mənalı süzdü.

Minayə özünü itirən kimi oldu. Lakin heç birindən səs çıxmadı və Bahəddinin sualı cavabsız qaldı. Qızlar Bahəddinlə danışmağa həvəsləri yoxmuş kimi, başlarını aşağı salıb yollarına davam etdilər. Minayə hiss olunmadan Bahəddindən, onun altında eşilən atdan gözünü çəkmirdi. Bahəddin Minayənin baxışlarındakı eyhamı hiss edib, məmnun oldu və razılıq mənasında dodağı qaçdı. Onların müəmmalı baxışları Növrəstənin diqqətindən yayınmadı. Növrəstə daxilən bir qədər sarsılsa da, təmkinini pozmadı. Ancaq Minayəni yanına salıb gətirdiyinə peşman oldu və daxilən özü-özünü məzəmmət etdi. Bahəddin irişə-irişə:

- Növrəstə bacı, əlindəki bağlama nədir, deyəsən, ağırdır, mənə etibar edirsənsə, ver götürüm, - deyib yenə Minayənin üzünə baxdı.

Növrəstə ona cavab vermədən, ikrahla üzünü əks tərəfə çevirib addımını yeyinlətdi. Bahəddin təklifini ikinci dəfə təkrar etdi. Növrəstə bu dəfə ona tərəf baxmadan Bahəddinə sərt cavab verdi:

- Narahat olmayın, öyrəşmiş canam. Əlimdəki bağlama mənə o qədər də əziyyət vermir. Bir də ki, atın yükü onsuz da ağırdır. Bağlamanı da versəm tab gətirməz. Çünki köhlən atlar cibi dolu, başı boş adamların altında cəhənnəm əzabı çəkir. At mərd igidlər





üçündür, arvad hesabına kişi olanlara heç yaraşmır. Haram mal, pul qara pərdə kimi gözünüzü o qədər örtüb ki, nə arxalandığın lüt Qasımın oğlu, nə də ki, özündən müştəbeh olan sənin kimi qaynı dediklərimi dərindən dərk edə bilməz. Ona görə də atası siyasi məhbus olan sahibsiz qızın sizlərə yazığı gəlir. Yəqin ki, yəhərdən düşəndə, ayılıb sözlərimin mənasını anlayarsan. Onda da gec olacaq. Çox gec! Etdiyiniz sitəmlərdən sonra, mənə rəhmi gəlib əlimdəki bağlamanı götürmək istəyən iddialı oğlan, ha-ha-ha!! - Növrəstə ürəyini boşaldandan sonra hirsindən şaqqanaq çəkib güldü. Onun acı və istehzalı gülüşü arasından keçdikləri çılpaq qayalarda əks-səda doğurdu.

Minayə Növrəstənin Bahəddinə qarşı işlətdiyi tikanlı sözlərin şahidi olmaq istəməzdi. Odur ki, uzun kirpiklərinin altından Bahəddinə nəvazişlə nəzər salıb, baxışları ilə anlatmaq istədi ki, nə olsun ki, Növrəstə nişanlımın bacısıdır. Onun dilinə dil çatdırmaq çətindir. Yaxşısı budur ki, sənə düşmən gözü ilə baxan sırtıq qıza baş qoşmayasan. Üzüsulu atı sür get. Bilirsən ki, qarı düşmən dost olmaz. Onu da unutma ki, mənə yazdığın məktubların üstündən nə qədər keçsə də, hələ də onun təsirindən ayrıla bilmirəm. Atamın təkidilə məni xalq düşməninin oğluna ad eləsələr də, qəlbimin dərinliyində unuda bilməyəcəyim Bahəddin adlı bir məxluq yaşayır.

Bahəddin Minayənin süzgün baxışları ilə ona nə demək istədiyini anlayırdı. Odur ki, Növrəstənin dediklərini vecinə almırmış kimi, atın sağrısına bir qamçı endirdi. İlıq külək atın ayaqları altından qalxan narın toz-torpağı piyada yolçuların üstünə səpələdi.

Növrəstənin hirsi hələ də soyumamışdı. Ona Ba-

həddinin hərəkətlərindən çox, Minayənin atlı oğlana müəmmalı, bəlkə də ehtiraslı baxışları yer eləmişdi. Yoxsa düşmən də olsa, Bahəddini o cür acılamazdı. Lakin Növrəstə birdən-birə pərdəni götürüb Minayəyə bir söz demədi. Fikirləşdi ki, bəlkə də zəndi onu aldadır. Ola bilsin ki, Minayə Növrəstənin düşündüyü qədər dönük qız deyil. Axı, onlar gözlərini açandan mehriban qonşu kimi bir yerdə yaşayıblar. Atası-atasıynan, qardaşı-qardaşıynan canbir qəlbdə olublar. Bu çağacan özlərinin də arasından su keçməyib. Qızların xasiyyətidir, elə biri də mən özüm. Oğlan görəndə... Yox, mən ömrümdə o cür qələt eləməmişəm. - Növrəstə bu dəfə ayrı cür fikirləşdi. - Ürəyimə yatmayan yad oğlana o cür baxmazdım. Özü də bilə-bilə ki, atamın baisi Bahəddinin tayfa-törəməsidir. Bağır əmi də, Sücəddin də o tərəfə düşmən kimi baxırlar. Bütün bunların müqabilində gərək Minayə də o gədənin cavabını verəydi. Amma Bahəddini görəndə Minayə elə bil tilsimləndi. Gözlərini ondan çəkmirdi. Məni də qanmaz yerinə qoydu. Elə bildi başa düşmürəm. Bütün bunlara baxmayaraq, Bağır əmidən ayıbdı, atamız əvəzidir, Qızyetər xala da bizə pis olmayıb. Yüz acını bir şirinin hesabına yeyərlər. Bir də ki, bunu Sücəddin bilsə, aralarındakı məhəbbətə tüpürüb, elə həmin gündən ondan üz döndərər. Ölənəcən Minayənin adını çəkməz. Burada namus məsələsi də var. Ona görə də aramızda nə oldu, oldu. Bunları açıb-ağartmağa dəyməz. Adam gərək sirr dağarcığı olsun. Onsuz da dərdimiz çoxdur. Heç onun birini çəkə bilmirik. Bir tərəfə baxanda da Minayəni indidən hürkütmək olmaz. Onun nə vecinədir. İndi sevgi var?! Qızların çoxu vara-dövlətə, ada-sana qaçır. Bərkə qalsa, Minayə bircə





gecənin içində başqasına qoşulub gedər. Elə birinci Bahəddinin özünə. Onda daha pis! Camaatın içində urvatdan düşərik. Sücəddin ölüb yerə girər. El içinə çıxa bilməz. Namusa boğulub Minayəni bircə gecədə yox eləyər.

Növrəstə bütün bunları başında götür-qoy eləyəndən sonra Minayə barədəki fikri yumşaldı. Bayaqdan aralarında yaranan lal sükutu pozaraq ayaq saxlayıb, süni bir sevinclə:

- Minayə! Minayə! Eşidirsən? - Onu qucaqladı. - Bir o tərəfə yaxşı-yaxşı qulaq ver!

Minayənin rəngi açıldı:

- Nə olub ki?!

- Sücəddin qabaqdakı təpənin o üzündə işləyir. Bir o tərəfə bax, havaya toz qalxır, o üzdən külüng səsi gəlir. Bağların boynundan sağa burulanda görünəcək.

Minayə:

- Hə! Hə! Eşitdim, eşitdim! Dərə səsi çəkib gətirir.

Minayə nə isə birdən susdu. Və sonra çəkinə-çəkinə:

- Bayaq demədim, o Bahəddindi-nədi, deyəsən, onun ağlı çaşıb. Bircə o qalmışdı ki, bizə desin, gəlin sizi tərkimə alım, - dedi. - O cür sırtıq adamlardan zəhləm gedir, - əlavə etdi. - İstədim gül ağzımı açıb ona bir-iki kəlmə söz deyim. Ancaq sən qabağımı kəsdin. Yaxşı ki, tez rədd olub getdi.

Minayə bu sözləri deməklə, Növrəstənin diqqətini ona qarşı yarana biləcək şübhədən yayındırmaq istəyirdi. Növrəstə cavabında:

- Bilirsən, Minayə, Bahəddinin o cür hərəkətlərinə təəccüblənmirəm, - dedi. - İstər kişi olsun, istər qadın. Elə insanlar var ki, yüz məzhəbə qulluq eləyir. Birinə dil, digərinə könül verir. Üzdə bir hava çalır, dalda baş-

qa. Belələrinin iç üzü tez açılır. Axırda da el içində qınax yeri olurlar. Sən belə şeylərə görə ürəyini qısma. Mən onsuz da Bahəddinə sözümü dedim.

Minayə Növrəstənin eyhamlarından öz payını götürsə də, yenə də hədəfdən yayınmaq üçün:

- Düzü, onun adı gələndə əsəbləşirəm. Bahəddinin üzünə qırmızıca o sözləri deyəndə, elə bil ürəyimdən tikan çıxartdın.

Minayə sir-sifətini turşudaraq əlavə etdi:

- Eh! Qoy rədd olsun cəhənnəmə! İlanın zəhləsi yarpızdan gedir, o da gəlib yuvasının ağzında bitir. Tərs kimi də harda acığım gələn adam var, hərlənib-fırlanıb qabağıma çıxır. Gəl ayrı şeydən danışaq. Sücəddin indi yolumuzu gözləyir. Günorta çörəyini yeməyib, yəqin acdır. Bir də ki, Sücəddinə yazığım gəlir. Elə bir ağır işin altına girib ki, yadıma düşəndə ürəyim ağrıyır.

Minayə baxışlarına xoş, mehriban ifadə verməyə çalışaraq:

- Sən də mənim bacım, Sücəddini indiki qədər sevməmişəm, onsuz bir gün də yaşaya bilmərəm. Yatanda da yuxumdan çıxmır. Qardaşın olduğuna görə demirəm. Bilirsən necə yaraşıqlı, cəsarətli, mərd oğlandır?! Yoxsa bayaqkı gicbəsər kimi?! O cür gədəxasiyyət adamlara nifrət eləyirəm. Elələrini görəndə öz-özümə deyirəm, Allah üzümə baxıb, nə yaxşı ki, qismətimə Sücəddin çıxıb. Ondan ötəri son günlər lap dəli-divanə olmuşam. Bilmirəm, Sücəddinsiz necə yaşaya bilərəm?! O dəqiqə ürəyim dayanar.

- Ağzını xeyirə aç, sən də olmasan, Sücəddin Leylisiz qalar, onda necə?! Özünü daşdan-qayadan atıb məhv eləyər, - Növrəstə dilləndi.





Növrəstənin kinayə ilə dediyi məcazi sözlər, deyəsən, Minayəyə o qədər də çatmadı.

Minayə:

- Eh, Növrəstə, keçmə sənin də bu xasiyyətindən, - dedi. - Mən ürəkdən deyirəm, sənsə zarafata yozursan.

- Sevginin də, məhəbbətin də yaraşığı zarafatdı. Lakin sevib-sevilənlərin arasında bəzən elə ağlagəlməz əhvalatlar baş verir ki, adamın həm gülməyi, həm də ağlamağı gəlir. Elə bilirsən, qızların hamısı sən xasiyyətdədir?! Bütün varlığıyla yalnız bir oğlanı sevə. Bizdən uzaq olsun, elələri var ki, dildə birini sevir, ürəkdə başqasını. Bu barədə sənin xasiyyətinə qibtə etmək olar. Ona görə də qardaşım xoşbəxtdir. Sənin kimi saf qəlbli qız hər adama nəsib olmur.

Növrəstinin məcazi mənada işlətdiyi bu sözlər Minayəni vəcdə gətirdi və onu bağrına basıb o üzündən-bu üzündən öpdü. Sonra da bağlamanı Növrəstənin əlindən güclə aldı və iti addımlarla qabağa düşərək:

- Qoy Sücəddin görsün ki, istədiyimdən canıma cəfa basıb, onun çörək dəstərxanını mən götürmüşəm, - deyib fəxrlə güldü.

Növrəstə anası Zöhrə kimi ağır-ağayana, ağzından yaşmağı düşməyən, abırlı-həyalı qadının qarnından çıxmışdı. Anası nə tökmüşdüsə, o da yığışdırmışdı. Heç vaxt artıq-əskik danışan, özündən böyüyün üzünə ağ olan qız deyildi. Qonum-qonşu, gəlib-gedən bir dəfə də olsun onun bərkdən danışıb-güldüyünü nə görüb, nə də ki, eşitmişdi. Həm də çox həssas qızdı, onu hələm-hələm aldatmaq olmazdı. Bu dəfə Növrəstəni Bahəddinlə o cür danışmağa vadar eləyən, düşmənin onların qabağında lovğalanıb at oynatması idi. Cahangir yoxdu deyə, düşmənlərin ayağının yer alması Növrəstəni, qız da olsa, daxilən sarsıtmışdı.

Növrəstəyə daha çox yer eləyən canciyər bildiyi Minayənin onun gözü qabağında açıq-aydın ikibaşlı oyun oynaması idi. Sücəddinin görüşünə getdiyi yerdə, altdan-altdan Bahəddinə göz-qaş eləməsi idi. Ona görə də Növrəstə həmin anda hövsələdən çıxmışdı, kimə nə dediyini özü də bilmirdi. Sözarası qardaşının deyiklisinə anlatmaq istəyirdi ki, Növrəstəni avam yerinə qoyma, axmaq özünsən. Axmaq olmasan, gözün iki tərəfə baxmaz.

Növrəstə bütün bunları ürəyində vuruşdursa da, hələlik bildiklərini dilə gətirmək istəmirdi. İstəmirdi ki, ortalığa inciklik salsın. Yəqin ki, Minayə bu cür səhvləri bir də eləməz. Qanıb başa düşər ki, iki qoçun başı bir qazanda qaynamadığı kimi, iki məhəbbət də bir qəlbə sığmaz. Onun xatası əvvəl-axır özcə başında çatdaya bilər. Sücəddinin qulağına çatsa ki, Minayə ayrı yoldadı, nə Bağırı mülahizə eləyər, nə də ki, Tacəddini. Onun başını erməni qibləsinə kəsər. Ona görə Növrəstə istəmirdi ki, iki mehriban qonşunun arasında ədavət yaransın. Növrəstənin ayağı Dəlmə arxına tərəf getsə də, fikri başqa-başqa yerlərə şaxələnirdi. Ona görə də dillənmirdi. Xəyal dünyasındaydı. Minayənin yerli-yersiz sözlərinə ağızucu cavab verirdi.

* * *

Sücəddin səhər-səhər işə gələndə əvvəlcə arx boyu addım-addım dolaşdı. Suyun keçəcəyi yerlərə diqqətlə nəzər saldı. Yuxarıdakı dərənin darısqal yerində atasının palıd tirindən düzətdiyi nova baş çəkdi. Bu nov ata-oğul, ikisinin çiynində qaldırılıb daş hörgünün üstünə qoyulmuşdu. Yolüstü Qızıl qayanın dibinə qalxıb Cahangirin gizlətdiyi üçatılanı eşib-çıxartdı. Sandıqdakından əlavə, bir neçə daraq patronu olan





tüfəngi yoxlayıb, silib, yenə də əvvəlki kimi yerinə qoydu və çoban-çoluq görməsin deyə silahın yan-yörəsinə quru ot, şax-şəvəl döşəyib üstünü səliqəylə örtdü. Qızıl qayanın dibindən aşağı enəndə belə qərara gəldi ki, nə qədər havalar xoşdur, elə arxın boz təpənin altından keçən hissəsindən başlasın.

Sücəddin darısqal və qaranlıq tuneldə dizlərini yerə qoyub iməkləyə-iməkləyə güclə irəliləyirdi. Çoxdan işləməyən, eni və hündürlüyü bir arşından artıq olmayan tuneli daş-qaya basmışdı. Vəhşi heyvanların mağarasına bənzəyən tuneldə uzun saplı alətlə işləmək sərf eləmirdi. Çünki bu darısqal yerdə düsəri, beli hərləmək mümkün deyildi. Odur ki, Sücəddin işlədəcəyi alətlərin sapını kəsib gödəltdi. Böyür-başı örtülü olan arxdan iri daş-qayanı kənara atmaq da çətin idi. Ona görə də Sücəddin tuneldəki daşları bir-bir kənara çıxarmaq üçün sürünə-sürünə nə zillətlə geri qayıtmalıydı. Bu əzablı iş onu yorub əldən salırdı.

Növrəstə ilə Minayə Dəlmə arxına çatanda heç kəs görünmürdü. Növrəstənin nigaran baxışları arx boyu dörd bir tərəfi dolaşdı. Lakin Sücəddini görə bilmədi. Qızlar tunelə tərəf qalxdılar. Təpənin altından aramsız tappıltı səsləri eşidilirdi. Onlar Sücəddinin burada olduğunu yəqin edib, tunelin ağzına yaxınlaşdılar. Pencəyini, balta-dəhrəsini tunelin girəcəyində görüb sevindilər və yəqin etdilər ki, Sücəddin tunelin içərisində əlləşir. Onlar əyilib qaranlıq tunelə baxanda vahimələndilər. Və dərinlikdən gələn səsləri eşidəndə, ürəklənib bir neçə dəfə - Sücəddin! Sücəddin! - deyib gücləri gəldikcə qışqırdılar. Təpənin altındakı dərinlikdən boğuq səs gəldi. Handan-hana Sücəddinin əyilmiş qəddi, toz-torpaq basmış sifəti göründü. Onu tanımaq olmurdu. Bir dişlə-

rinin ağlığı, bir də ki, işıldayan gözləri öz rəngindəydi. İşıqlığa çıxıb nişanlısı ilə bacısını bir yerdə görəndə ürəyi açıldı, sanki yorğunluğunu unutdu. Minayə həzin bir nəvazişlə:

- Ay Sücəddin! Sən Allah, - dedi, - bu qaranlıq mağarada nə işin var?! Canını çöldən tapmısan?!

Sücəddin əl dəsmalı ilə tər və toz basmış üzünü siləsilə məğrur görkəm aldı və yorğunluğunu hiss etdirmədən:

- Minayə, - dedi, - parlaq işığın yolu zülmət qaranlıqdan, asanlığın yolu çətinliklərdən, genişliyin yolu bu cür darısqallıqlardan keçir. Əzab-əziyyət adlı bir elm var. Onu dərk etmədən, xoşbəxtliyin qapılarını açmaq çətindir.

Sücəddin bunu deyib güldü və:

- Yaxşı, bu fəlsəfi söhbətləri qoyaq kənara. De görək səndən nə əcəb?! Yəqin Növrəstə səni üzə salıb gətirib, - deyə söhbəti dəyişdi.

Növrəstə onların söhbətinə mane olmamaq üçün su içmək bəhanəsiylə bağlamanı da götürüb təpənin ətəyindəki bağdan keçib çayın kənarına endi. Ağacların kölgəsində yemək süfrəsi hazırlamağa başladı. Sücəddinlə Minayə tələsmədən onun arxasınca enirdilər. Minayə bayaq Növrəstəyə görə Sücəddinin sualını cavabsız qoymuşdu. İndi fürsət düşdüyündən, ayaq saxlayıb Sücəddinə məhəbbətlə nəzər salaraq:

- Səhvin var, Sücəddin! Məni bura Növrəstə yox, başqa bir qüvvə çəkib gətirib. Hara getsən, kölgən olub arxanca sürünmək istərdim. Sənsizləşəndə havam çatmır, nəfəsim tıncıxır, elə bil boğuluram. Sənin qamətinə baxdıqca nələr düşündüyümü hiss etsəydin, mənə yazığın gələrdi və o cür sual verməzdin.





Sücəddin:

- Sözlərinin səmimiyyətinə inanıram. Və mənə olan məhəbbətin də qarşılıqlıdır, - dedi. - Eyni dərəcədə də sənin taleyini düşünürəm. Ancaq bir sözdə sənə şərik ola bilmərəm.

- Hansına?!

- Kölgə olub arxamca sürünməyinə.

- Nə üçün?

- Çünki göyə bulud gələndə kölgələr görünməz olur. Mən isə səni həmişə həndəvərimdə görmək istərdim. Üz-üzə, göz-gözə. - Sücəddin bunu deyib, Minayənin könlünü almaq üçün qolunu onun boynuna salıb güldü.

Qəflətən Minayənin ayağı büdrədi və yıxılmaq istəyəndə Sücəddin qartal kimi şığıyıb onu caynağına aldı və yıxılmağa qoymadı. Sücəddinin nəfəsi Minayənin bakirə yanaqlarına toxundu. Minayə sürüşkən yamacda yıxılmaqdan ehtiyat edirmiş kimi, Sücəddinin sinəsinə sığındı. Sücəddinin əli Minayənin nazik köynəyinin altından dikələn şamama döşlərinə toxunanda hər ikisi əsim-əsim əsdilər və sanki onların bədənindən elektrik cərəyanı keçdi.

Növrəstə görməsin deyə onlar irəlidəki qayanın arxasına çəkildi. Minayənin ehtirasla döyünən ürəyinin səsi aydınca eşidilirdi. Sücəddin də özünü itirən kimi olmuşdu. Qızın nazik qara qaşları, zərif sifəti, parlaq gözləri, ehtiraslı busələrdən alışıb yanan dodaqları ona vəsfəgəlməz bir cazibədarlıq verirdi. Sücəddin sanki sevdiyi qızın qarşısında aciz bir məxluq olub, onun əsirinə çevrilmişdi. Sücəddinin qartal baxışları, hündür boyu, pəhləvan cüssəsi Minayəni ovsunlamışdı. Onlar sürüşüb yıxılmamaq bəhanəsiylə əl-ələ verib təpə aşağı endikcə özlə-

rində qeyri-adi məmnunluq duyur, ən xoşbəxt anlarını yaşayırdılar. Minayə əlini ondan çəkmək istəmirdi. Eyni zamanda başında cürbəcür fikirlər dolaşırdı. Düşünürdü ki, belə bir cəsur oğlanla həyat qurmaqdan böyük xoşbəxtlik ola bilməz. Ancaq atasının siyasi məhbus olmasından irəli gələn qorxu və şübhə onu hər an təhdid edirdi. Və hərdən xəyalının güzgüsündə Bahəddini at üstündə gözünün önünə gətirib, dərin köks ötürürdü. Düşünürdü ki, Sücəddin nə qədər qədd-qamətli, ötkəm, mərd və cəsarətli, ürəyə yatan olsa da, üstündə qara ləkə vardır. Xoşbəxtliyə gedən həyat cığırları onun üzünə bağlıdır. Gələcəkdə Sücəddinin belindən gələn övladlar da, siyasi məhbusun törəməsi kimi çətin ki, xoş gün görsünlər. Minayə iki yolun ayrıcında qalmışdı. Qəlbindəki ümidlə ümidsizliyin arasında gedən çarpışmadan yaxa qurtara bilmirdi. Özü ilə məsləhətləşirmiş kimi süzgün gözləri Sücəddinin qamətində donub qalmışdı. Düşünürdü ki, Sücəddini nə qədər ürəkdən sevsəm də, onunla ağ gün tapıb bəxtəvər ola bilmərəm. Həyatım həmişə qorxu-sıxıntı içində keçəcək. Minayə bunları göz önünə gətirib, bir qədər məyus oldu və qəlbindən keçənləri süni təbəssümləri ilə pərdələməyə çalışdı. Sücəddin ona tərəf dönüb:

- Sənə nə oldu, Minayə, birdən-birə tutuldun, əhvalın korlandı? - Təəccüblə soruşdu.

Minayə:

- Heç, elə-belə. Bayaq sənə demədim, büdrəyəndə ayağım sərpdi, bir balaca dizlərim sancır. - Özünü əzdirdi.

Sücəddin onun könlünü almaq üçün yenə də Minayəni qolları arasında sıxıb, ərköyün uşaq kimi qucağında bir neçə dəfə fırladı.





Minayə əlini alnına qoyub, işvəli bir təbəssümlə:

- İnsafsız! Başım gicəlləndi, - dedi.

Ona xoş getsin deyə Sücəddin ikinci dəfə Minayəni qollarının arasına alıb gücü gəldikcə sıxdı və tez də buraxdı. Minayə dilucu Sücəddinin bu şıltaq hərəkətlərinə qarşı etiraz etsə də, qəlbindən keçənlər başqaydı. Saatlarla Sücəddinin qolları arasında qalıb, şirin röyalara dalmaq istərdi və bu, onun üçün xoşbəxt, unudulmaz bir an olardı.

Onlar təpənin ətəyindəki el yolundan adlayıb, meyvələrin xoş ətri ilə rayihələnən bağa endilər və Növrəstənin süfrə açdığı kölgədə əyləşdilər. Çayın əks tərəfində sıx kollarla örtülmüş təpələr görünür, sonra dağın zirvəsinə qədər qalın meşələr uzanıb gedirdi. Növrəstə çayın dayaz yerində yuduğu paltarları əlində bərk-bərk burub sıxır, sonra da çırpıb hamar daşların üstünə sərirdi. Sücəddinlə Minayəni görəndə tələsmədən axıra qalan döşəkağını da biryolluq əldən çıxarıb onların yanına qayıtdı...

Yeməkdən sonra Sücəddin:

- Bütün bədənim toz-torpaqdır, mütləq çimməliyəm, - deyib ayağa qalxdı və çaya tərəf getdi. Dalda bir yerdə üst paltarlarını soyunub kənara qoydu. Ortasına örkən dolanmayan nəhəng ərik ağacının çayın ləpədöyəninə qədər uzanan qanadına dırmaşıb beş-on metr hündürlükdən təpəsi üstə suyun sakit axan dərin və burulğan yerinə baş vurdu. Sücəddinin bu ağlasığmaz hərəkəti qızları təşvişə saldı. Onlar həyəcanla qışqırıb, çayın sahilinəcən yüyürdülər. Sücəddin hələ uşaq yaşlarından çayın dərinliyində üzməyi adət etmişdi. Ona görə bir neçə dəqiqə suyun üzünə çıxmadı. O, bəlkə də sevdiyi qızın gözü qarşısında özünü göstərib cəsarətini nümayiş etdirirdi.

Növrəstə ilə Minayə onun suda batdığını güman edib qorxuya düşdülər. Minayə - Sücəddin! Sücəddin! - deyə qışqırıb dizinə döydü. Növrəstə isə sakitcə dayanmışdı. Handan-hana Sücəddinin gur və qara saçları, enli çiyinləri göründü. O, başını qaldırıb məhəbbət dolu baxışları ilə Minayəni süzdü. Minayə onun coşğun sulardan sağ-salamat çıxdığını görəndə rəngi üstünə gəldi. Sevincək tumanının ətəyini əlində dəstələyib, çayın dayaz yerinə girdi. Sonra yavaş-yavaş irəliləyib özünü suyun dərinliyinə vurdu və Sücəddinə yaxınlaşdı. Su Minayənin sinəsinə qədər qalxmışdı. Sücəddin onun batıb boğula biləcəyindən ehtiyat edərək, suyun altı ilə üzüb qəfil onun qollarından yapışdı. Minayə səksənib qışqırdı və çaşıb sürüşkən daşlara ilişəndə büdrədi və su onun başından aşdı. Sücəddin tez Minayəni qucağına alıb, suyun üzü ilə sahilə çıxartdı. Minayənin islanmış paltarından su süzülürdü. Lakin o, özünü unutmuşdu. Dalğaların qoynunda Sücəddinə sığınmasından təsəvvürəgəlməz bir həzz alırdı.

Növrəstə kənarda sakitcə dayanıb ətrafı seyr edirdi. Sücəddin ona baxıb: - Minayə məndən ötrü özünü çayın quduz ağzına atır, bacımsa, kənarda seyrçi kimi dayanıb tamaşa eləyir. - Ani olaraq düşündü. Lakin Növrəstənin kirpiklərindən süzülən gizli göz yaşlarından xəbərsiz idi. Sücəddin sevdiyi qızın, onu şirin busələrinə qərq edib, həzz almaq üçün göstərdiyi çılğın canfəşanlığını Növrəstədən çox, Minayənin ona can yandırması kimi başa düşürdü. Və təbiətin səxavətlə ona bəxş etdiyi gözəlliyin qarşısında acizləşib, çayın sahilində Minayəyə məftunluqla baxırdı. Elə bil uşaqlıqdan bir yerdə böyüdüyü nazənin qızı ilk dəfə idi ki, görürdü. Sücəddinin baxışlarında son dərəcə mehriban, itaətkar ifadə vardı. Növrəstə Sücəddinin qəlbindən keçənləri hiss etdikcə, onun yolundakı keçilməz maneələri təsəvvürünə gətirib yeganə qardaşına yazığı gəlirdi. Ona görə də çox dalğın görünürdü. Sücəddin bunu öz daxili aləmində bacısının qısqanclığı, sevdiyi qıza qarşı göstərdiyi hədsiz məftunluğa paxıllıq etməsi kimi mənalandırırdı. Belə bir yanlış təsəvvürə görə Növrəstə getdikcə qardaşının gözündən düşürdü. İndi Sücəddinin qəlbinə yalnız Minayənin gözəlliyi hakim kəsilmişdi.





Növrəstə Sücəddinin bu ikibaşlı oyun oynayan qıza qarşı ötəri ehtiraslarının müti quluna çevrilməsindən nə qədər narazı olsa da, bütün bu inciklikler bir atanın belindən gələn, bir ananın qarnından çıxan bacı-qardaş istəyi qarşısında əriyib yox olurdu. Axı, Növrəstənin Sücəddindən başqa kimi vardı?! Son ümid yeri bircə qardaşıydı. Bir də ki, qocaların dediyi kimi, cahılın beyni qan olar. Ona görə də qəlbində Sücəddinin qəbahətlərini bağışlayırdı. Həm də əti, qanı bir olan bacı qəlbi idi, Sücəddindən narazı qalsa, qardaşı xeyir tapmazdı. Növrəstə daxilən özü-özünü məzəmmət edirdi ki, dilim-ağzım qurusun, onun barəsində pis fikrə düşərəm, qardaşım ziyanlıq çəkər. Allah, keç günahımdan, mən qələt eləyirəm....

Bağ gözətçisi onlara uzaqdan-uzağa göz qoyurdu, lakin yaxın düşmürdü. Kənar gəzib dolaşırdı. Bağın ayağında təzə əkilmiş tinglərə su verir, yer belləyir, arxların ara-bərəsini düzəldib bir bəhanə ilə başını qatırdı ki, Sücəddingildən uzaq olsun. Onlara tərəf üzüksə, görüb-eləyərlər və bunu da bir söz qayırarlar. Deyərlər, bağban xalq düşməninin uşaqlarına qoşulub, onlarla nə barədə isə xısınlaşır. Yəqin bağban da Cahangirlə əlbir-dilbirmiş. Nə çoxdu, ev yıxan, mərdimazar. Birinin də üstünə

beşini qoyub aparıb çatdırarlar o qaşınmayan yerdən qan çıxardan göy papaqlılara. Elə təkcə Səftərin adamları bunu bilsə bəsdi. Səhərisi şələ-şüləmi qoltuğuma verib, iti məsciddən qovan kimi məni burdan qovarlar. Başımı aşağı salıb balalarıma bir tikə çörək qazandığım yerdə, haqq-nahaq yaxamı aparıb verərlər Cahangiri it-bata salanların əlinə. Zəmanə xarabdı, heç nədən adamın evini yıxıb komasını kor qoyurlar. Çalış ilişmə, ilişdin, qurtardı. Tülkü tülkülüyünü sübut eləyincə, dərisini boğazından çıxarırlar. Adı siyasi məhbus olanın yan-yörəsində mənim nə itim azıb?! Özlərini bədbəxt elədikləri bəs deyil, məni də öz günlərinə salsınlar?! Adamın başına nə gəlir, ağlının ucbatından gəlir. Bələlərindən nə qədər uzaq olsam yaxşıdır. Hətta Sücəddin bir-iki dəfə bağbanı adıyla çağırmışdı, ancaq o, qulaqardına vurmuşdu.

Sücəddin, Növrəstə, bir də ki, Minayə çayın sahilindəki ağacların kölgəsində xeyli əyləndikdən sonra bağın üstündən keçən yola çıxıb ayrıldılar. Sücəddin təpə yuxarı Dəlmə arxına tərəf qalxdı, qızlar bir-birinə qoşulub kəndə döndülər və gözdən itənəcən bir-birlərinə əl elədilər.

Sücəddin tunelə girməmişdən əvvəl dayanıb qüruba doğru əyilən günəşin çəhrayı rəngə boyadığı bulud laylarına, atası Cahangirin torpaq belləyib, tər tökdüyü əkin yerlərinə, taqqıltısı güclə eşidilən dəyirman tərəfə, bayaq Minayə ilə əl-ələ verib endiyi yamaclara, baş vurduğu çayın mavi sularına riqqətlə nəzər saldı. Xəyallandı, mütəəssir oldu, bayaqkı nikbin əhvali-ruhiyyəsi sanki qeybə çəkildi. Sapını kəsib gödəltdiyi düsəri, beli götürüb əyilə-əyilə darısqal tunelə girdi. İrəlilədikcə nəm və kif qoxusu gələn tunelin qaranlığı qatılaşır, çapacağı daşları gözü seçmirdi. Ona görə çox da qabağa getmədi. Günortaya qədər qazıb tökdüyü daşı-torpağı birtəhər tuneldən kənara çıxarmağa başladı. Gün batana qədər dizin-dizin süründü, əlləşdi. Toran çalanda alətlərini gizli bir yerə qoyub, üst-başının toz-torpağını çırpıb, asta addımlarla kəndə qayıtdı.





* * *

Tacəddin sənət məktəbinə gedəndən bəri evə gec-gec məktub yazırdı. Axırıncı məktubun da səbəbini belə izah edirdi ki, əlimə qələm alanda kəndimiz, onun adamları, qohum-əqrəba, Cahangir əminin başına gələnlər, Sücəddinlə göbələk yığdığım o yağış yağıb sel gələn yaz günləri gəlib durur gözlərimin qabağında. Özümü saxlaya bilmirəm. Bəzən uşaq kimi kövrəlirəm, gözlərim yaşla dolur. Həmin gün boğazımdan çörək də keçmir. Arada bir həftə icazə alıb kəndə gəlmək istəyirdim. Ancaq Cahangir əminin pərgarı pozulmuş həyət-bacasını görmək, Sücəddinin, Növrəstənin düçar olduğu qara günlərin şahidi olmaq mənim üçün nə qədər ağırdır, bunu sözlə-qələmlə izah etməyə acizəm. Bir də ki, burda icazə məsələsi olduqca çətindir. Ona görə də məndən inciməyin...

Xeyli vaxt idi Tacəddinin göndərdiyi məktubların arası kəsilmişdi. Bu gün Sücəddin işdən qayıdanda Növrəstə onu həyətdə qarşılayıb həyəcanla:

- Kəndə poçtalyon gəlmişdi, - dedi. - Tacəddindən çıxmayan iş. Şeytanın qıçını qırıb məktub göndərib. Bağır əmi evdə səni gözləyir. Məktubu da poçtalyondan Natalya müəllimə alıb, ona verib. Bağır əmi dedi ki, Sücəddin qayıdanda mənə dəysin.

Sücəddin bu şad xəbəri eşidəndə xoşhal oldu. Bacı-

qardaş Bağırgilə getdilər. Hal-xoşdan sonra Bağır arvad-uşağa işarə vurdu ki, yan otağa keçsinlər. Fikirləşdi ki, bəlkə elə sözlər yazılıb ki, onu başqaları eşitməməlidir. Onlar çəkilib gedəndən sonra Bağır ağır-ağır yerindən qalxıb, üstündə qədim xalça olan taxtın baş tərəfindəki yun döşəkçəni qaldırdı və əzilmiş bir zərf çıxartdı. Zərfi Sücəddinə uzadaraq: - Tacəddindəndir, - dedi. - Üstü Natalya müəllimənin adınadır, içindəki məktubu saa yazıb. Qızlar istədi açıb oxusun, vermədim, dedim, qoy özü gəlsin. Fikirləşdim ki, bəlkə elə şeylər yazıb ki, onu səndən, məndən başqa heç kim bilməməlidir.

Sücəddin siftə zərfin üstünə ötəri nəzər saldı. Natalya Sokolovaya çatan zərfin, başqa millətdən olan tanımadığı bir qadın tərəfindən göndərildiyi göstərilmişdi. - Tacəddin ehtiyatlı oğlandır, nə etdiyini bilir. - Sücəddin düşündü. Və məktubu əvvəlcə ürəyində oxumağa başladı:

"Qardaşım Sücəddin! Sənin və mənim başa düşdüyümüz mənada, məktubu başqasının adından Natalya müəllimənin üstünə yazdım. Səbəbini Natalya müəllimə də bilir. Ona inandığım üçün sənə çatası məktubu Natalya müəllimənin üstünə yazdım. Çünki sənin adına yazılan məktublar xüsusi yoxlamalardan keçir. Sənət məktəbini bitirdim. Bu gün-sabah Qazaxıstana yola düşməliyik. Bilmək olmaz, bəlkə Kuybışevə göndərdilər. Bu, uzun bir ayrılıq olacaq. Bilirsən ki, atam ahıllaşıb. Onu sənə, səni də Allaha tapşırıram. Zəmanə xarablaşıb. Qızları başına buraxmayın. Minayənin də, Növrəstənin də üstündə göz ol. Onsuz da düşmən ocaq başındadır. Atam səni eşidir. Məsləhətləşin, görün yönlü bir yerdən istəyən olsa, məni gözləməyin, qızları verin getsin. Bir-birimizdən gizli sirrimiz yoxdur. Növrəstədən arxayınam. Minayə isə açıq-saçıq qızdır. Gərək yumruğun həmişə başının üstündə ola. Özün bilirsən də, nə demək istəyirəm. Bahəddindi nə zibildi onun məsələsi də qulağıma çatıb. Atam da yaxşıca cavablarını verib. Çünki atam onların dabbaqda gönünə bələddir. O tərəflərə üz döndərməz. Burada namus-qeyrət məsələsi var. Elə et ki, papağımızı yerə soxmasınlar. Ürəyimdə söz çoxdur. Heyf ki, yazmaq mümkün olmur. Məni bağışla, dostum, məni bağışla! Hamıya da salam de! Natalya müəlliməyə də razılığımı bildir..."





Sücəddin məktubu oxuyub qurtarınca Bağırınkı Bağıra dəydi. O, keçirdiyi narahatçılığı büruzə vermədən:

- Tacəddin nə yazır, oğul?! - Sakit-sakit soruşdu. - Bəlkə elə bir şey var məndən gizlədirsən?

- Elə bir nigarançılıq yoxdur, - Sücəddin cavab verdi. - Canı-başı salamatdır. Məktəbi qurtarıb, innən sonra neftayırma zavodlarında işləməlidir. Yazdığına görə, bu gün-sabah Qazaxıstana yola düşəcək, Kuybışevə də göndərə bilərlər. Çox çalışıb ki, bir-iki günlüyə icazə alıb gəlib bizimlə görüşsün, mümkün olmayıb. Hamıya çoxlu-çoxlu salamı var...

Ortalığa ağır sükut çökdü. Bağır kişinin əhvalı korlandı. Alnındakı qırışlar sıxlaşdı, gözləri qıyıldı, qəddi əyildi. Sücəddinə tərəf baxmadan kiminləsə danışırmış kimi:

- Neftçi! Guya başına ayrı sənət qəhət imiş?! Traktorçu, kombaynçı, aqronomdan-zaddan olsa nə dərd idi? Heç olmasa şoferlik öyrənərdi. Gəlib buralarda başını girləyərdi, gözümün qabağında olardı. Ahıl çağımda karıma gələrdi. Yıxılanda qolumdan yapışardı. Bu gün varam, sabah yox. Yıxılıb öləndə cənazəmə girərdi, gö-

zümə torpaq tökərdi. Bu da oğulun etibarı! Bu boyda rayonda özünə yönlü bir peşə tapa bilmirdi?! Oxuyub adam olub, indi buraları özünə yaraşdırmır. Deyən gərək, Qazaxıstanda sənin nə itin azıb?! Oralar gözdən uzaq, könüldən iraq bir yerdi. Öləndə onsuz da hamı tökülüb gələcək. Sağlığımda itirib axtarmayandan sonra onu neynirəm. Oğlum olsun!! Oğlum olsun!! Bu da oğul?! Gecə-gündüz üzümüzü göyə tutub, Allaha yalvarırdıq ki, bizə bir oğul züryəti versin. Allah-taala səsimizi eşitdi, oğlumuz oldu. Ər-arvad sevindik. Muştuluqçu muştuluqçu dalınca gəldi. Eşidib-bilən bizə bəxtəvərlik verdi. Əlləşvuruş, oğul böyüt, axırı da bu! Oralara ki, üz-gözü öyrəşdi, qurtardı getdi, biz tərəfə üzükməz. Yad şəhərlərdə günü xoş keçəndən sonra bizi neynir?! Ona nə ana lazımdı, nə ata. Çünki indiyəcən o, bizə yüküdü, indən sonra biz ona ağır yük olmuşuq. Bağır gərəksiz olub, lazımsız olub, oğul-uşağa ağır yük olub. İnsan da ki, gərəksizləşdi, onun yaşamağındansa, urvatlı ölüm yaxşıdır. Çətin ki, buralara ayağı dəysin. Evlənmək vaxtı da çatıb. Gedib tanımadığımız, bilmədiyimiz bir qancığın qarnından çıxanı alandan sonra da, gərək əlimizi ondan biryolluq üzək. Zəmanə də elədir ki, indiki qız-gəlin gədələri elə ovsunlayıb yoldan çıxarır ki, ata-ana olur yalan. Elə bil onu nə Bağır əkib, nə də ki, Qızyetər doğub, bölüyüb. Cəfasını sən çək, səfasını sonradan-sonraya böyürdən çıxan bir yad qızı. Yenə eldən-obadan olsa, ayda-ildə qapısını açanda xoş sifət göstərib qabağıma bir stəkan çay qoyardı.

Bağır kişi altdan-altdan oyalanır, içəridən yanıb qovrulurdu. Bu sözləri işlədəndə elə bil otaqda heç kim yoxudu, heç Sücəddini də görmürdü, onu da unutmuşdu. Sanki qarşısında, yalnız onun görə bildiyi başqa birisi dayanmışdı. Ürəyinin dərdini ona danışırdı. Sücəddin özü də dinməz-söyləməz oturmuşdu, bir kəlmə söz demirdi. Elə bil Bağırın nisgilli sözləri onu sehrləyib, dilini-ağzını bağlamışdı. Qızyetərlə Növrəstə Bağırın dediklərini eşitsələr də, cəsarət eləyib o olan otağa girə bilmirdilər. Minayə isə heç nə eşitmirmiş kimi, qapının arasından gizlicə Sücəddinə baxırdı, onu düşünürdü.





Bağır birdən qəddini düzəldib Sücəddinə tərəf döndü:

- Təzədən Tacəddindən mənə oğul olan dəyil, - dedi. - Ondan əlimi üzmüşəm. Tay ondan keçib. Gözləyək görək hara göndərirlər. Bir-iki həftəyə səsi ya Qazaxıstandan gələr, ya da ki, o dediyin Quybışevdən. Adresini biləndən sonra mənim adımdan yazarsan ki, indi bu hökumət işidi, harda işləyirsən işlə, ona sözüm yoxdu, Allah xeyir versin, yəqin qismətimiz beləymiş. Yaşının elə vaxtıdı ki, tezi-geci biriynən evlənməlisən. O fikrə düşsən, gedib o qırmızı dodaqlılardan yapışma. İt olsun, qurd olsun, öz el-obamızdan olsun. Atalar deyib ki, elini hürküt, axsağını tut. Birdən ağlın başında olmaz, tanımaza-bilməzə elə bir nacinsə çulğaşarsan, bir qohum-əqrəba qapını tanımaz. Biz cəhənnəm, öz günün qara olar, yeyib-içdiyin zəhrimara dönər. Sən oxuyub məktəb qurtarsan da, uşaqsan, bu qadın tayfasını hələ yaxşı tanımırsan. Elə et ki, sonradan başına döyməyəsən. Heyləsiynən xeyir də tapmazsan. Bir ata kimi məndən demək, innən sonrasını özün bilərsən. Yer-yurduna isinişəndən sonra, mümkün eləyib icazə ala bilsən, gəl görüşək.

Bağır bir qədər susub, başını buladı:

- Yox ee, dünyanın hər üzünü görmüşəm. Gedib bir yadını alsa, özü də yadlaşacaq. Mən də yaddan çıxaca-

ğam, anası da, bizim bu Qalaça kəndi də. Eybi yoxdur, öyrənmiş canam. Buna da dözərəm. Elə bilərəm, Tacəddin adlı züryətim olmayıb. - Bağır bunu deyib kədərli ah çəkdi.

- Bağır əmi, bu, hökumət işidi. Tacəddin barədə də nahaq bədgüman olursan. Bax, bu məktubun başı da, ayağı da sənnəndir. Mən bilirəm o, sizi nə qədər ürəkdən istəyir. Sənət məktəbi belədir ki, oradakıların oxumaq, yemək, geymək xərcinin hamısını hökumət özü çəkir. Ona görə də qurtaranların heç birini özbaşına buraxmırlar. Hara lazım bilsələr ora göndərirlər. Burada Tacəddinin nə günahı? - Sücəddin Bağırın könlünü alıb yumşaltmaq, Tacəddinə qarşı qəzəbini yatırtmaq üçün onu dilə tutdu, ürək-dirək verdi. Ancaq ahıllığın tüğyan edən dərd seli qəlbi kövrəkləşən qoca Bağırı qəddar bir amansızlıqla ağzına alıb hara isə aparırdı. Daşlara-qayalara, hara gəldi döyəcləyə-döyəcləyə, çırpa-çırpa aparırdı... Bağır bəlkə də Sücəddinin ona dediklərini heç düzəməlli eşitmirdi.

Onların əyləşdiyi otağın qapısı gözlənilmədən açıldı. Qızyetər ərini məlul-müşkül görəndə özünü saxlaya bilmədi:

- Yenə qaşqabağını niyə sallamısan, a kişi?! - dedi. - Sücəddin də bizim oğlumuz, burda olmasaydı, saa ayrı söz deyərdim. Heylə niyə oturmusan? Dəryada gəmin batıb? Tacəddin pis iş görməyib ki, onu özünə ağır dərd eləyirsən. Oxuyub sənət öyrənib. Məktəbini də sağsalamat qurtarıb. Qalaçanın dərəsində qalıb veyllənməli idi?! İşığı yox, telefonu yox, maşın işləmir, Allahın neftini də tapmırıq lampaya tökək. Bazardan-bazara bir-iki butulka neft alırıq, o da həftənin axırına çata, ya çatmaya. İndi ağlı olanın hamısı şəhərə qaçır ki, xoş





gün görsün. Səhərdən axşamacan işləməkdən əlimiz qabar olub, belimiz yağır. Məndən olsa, oralarda əlini bir işə ilişdirib, özünə yer eləyəndən sonra biz də olub-qalanımızı satıb-sovub, gedərik yanına. Kənddə xeyir-bərəkət qalıb?! Minayə də illərlə üzünü görmədiyimiz böyük bacıları kimi bu gün-sabah çıxıb gedəcək birinə. Ömrümüzü sürmüşük, yaxşı, pis günümüzü görmüşük. Kim dünyanı axıracan tutub gedib. İndən sonra da nə yaşasaq, qənimətdi. Ona görə də naşükürlük eləmə. Təki, ölüm-itim olmasın.

Bağırın fikri dağınıq olduğundan, Qızyetərin dediklərini eşitsə də, dərrakəsinə çatmırdı. Elə bayaqkı kimi öz aləmindəydi. Bir xasiyyəti də vardı ki, arvad sözünə məhəl qoymazdı. Bağır hərdən deyirdi ki, bir dəfə Məhəmməd peyğəmbərdən soruşurlar:

- Dünyada qadın çoxdur, ya kişi?

- Qadın, - deyə Peyğəmbər əleyhissalam cavab verir və izah edir ki, qadın elə qadındır. Onun sözü ilə oturub-duran kişinin özü də qadındır.

Bağır Qızyetərin yolunu saxlasa da, kişi işinə qarışmasından xoşu gəlmirdi. Ona görə də Qızyetər üyüdüb tökəndən sonra sifətini turşutdu:

- Bilirəm, dildən pərgarsan, - dedi. - Amma nə danışdığını özün də bilmirsən! Yüz dəfə demişəm, mənim hər işimə qarışma. Get, iki stəkan çay gətir!

Qızyetər ərinin xasiyyətinə bələd idi və Bağırdan bundan betər cavab alacağını bildiyi üçün sözünün dalını gətirmədi. Dinməz-söyləməz qayıdıb iki stəkan çay gətirdi və: - Elə sənin köhnə xasiyyətindi, - deyib hikkəylə qapını arxasınca çırpıb getdi.

Bağırın sifəti kinayəli ifadə aldı və üzünü Sücəddinə tutaraq:

- Oğul, sən cavansan, bu arvad tayfasını hələ yaxşı tanımırsan, - dedi. - Allah qoysa evlənəndə bilərsən. Elə südü xarab, nacinsi var ki, gərək ona çox örüş-örkən verməyəsən. İpi ki, boşaltdın, qurtardı getdi. Öz yanında demədim ki, ayağı yer alar. Ancaq Qızyetərin bu sözündə, az da olsa, həqiqət var. Bunu ata-oğul kimi ikimizin arasında deyirəm. Kənddə də kəndlik qalmayıb. Şura gələndən kəndin xeyir-bərəkəti qaçıb. Bir belə camaatın yedəyini veriblər qibləsinin səmtini bilməyən Səftər kimi nadürüstün əlinə. O da bildiyini eləyir. Gözümüzün qabağında Cahangiri tələyə saldırdı. İndi nə yeri bilinir, nə də əlimiz çatır ki, dalınca beş manat pul göndərək. Quruca kağız nədi, onu da qoymurlar yazıb bir-birimizdən hal-əhval tutaq. Dərdini kimə deyəsən?! Bir də ki, dedik, nə xeyri var?! Kəndçinin sözünü eşidirlər?! Dinənin dilini kəsirlər, görənin gözünü tökürlər. Kimin başında papaq var, özünü kişi bilir. İndi kişilik zəmanəsi deyil. Yaltaq gədə-güdələr başımızın üstündə ağalıq eləyir. Namus-qeyrətimiz də əldən gedib. Dərd birdi, ikidi?!

Bağır giley-güzarını kənara qoyub, başqa mətləbə keçdi:

- Yaxşı, bunları danışıb, qanımızı qaraltmayaq, - dedi. - De görüm, Dəlmə arxında işlərin necə gedir?! Yəni gözün yeyir? O tuneldən neçə vaxtdır su keçmir, indi qurd-quş yuvası olub. Oranı təmizləyib bir yana çıxarmaq hünər istəyir.

- Çətin olsa da, boynuma götürmüşəm, Bağır əmi. - Sücəddin cavab verdi. - Başlamışam, ölsəm də gərək axıra çatdıram. Əsas tuneli təmizləməkdir. Onun da çətinliyi odur ki, qaranlıqda işləmək olmur. Heç yerdən də ora işıq düşmür.





- Onda belə elə, oğul, - Bağır ona yol göstərdi, - Sabah gedəndə neft fənərini də götür. Elə bizdəkini də apararsan. Məncə ikisinin işığında birtəhər işləmək olar. Qızları da yanına sal, evdə bekar-behtin oturublar, qoy kömək eləsinlər. Heç olmasa, fənərləri tutarlar.

Bu söz Sücəddinin ağlına batdı. Ələlxüsus da - qızları da özünlə apar - deməsi onun ürəyindən oldu...

Minayə ata-anasının yanında Sücəddinə yaxınlaşa bilmirdi. Əvvəla valideynlərindən həya eləyirdi, ikincisi də Bağırdan bərk çəkinirdi. Sücəddinlə Minayə açıq-saçıq danışa bilmirdilər. Ancaq kənardan-kənara bir-birlərinə həsədlə baxırdılar, o da ki, qorxa-qorxa. İndi onların əlinə girəvə düşmüşdü. Sabah hər ikisi sərbəst danışa biləcək. Həm də Sücəddin Minayə ilə tənhalıqda üz-üzə gələndə özündən asılı olmayaraq, sir-sifəti də dəyişilir, başqalaşır, qəmdən-kədərdən uzaq olur.

* * *

- "Qızları da özünlə apar!" - Bağıra, bu sözləri sanki Minayə ilə Sücəddinin məhəbbət ilahəsi dedirtdirirdi. Bu sözün bəxş etdiyi sevincin təsirindən Sücəddin sübhədək rahat yata bilmədi. Gözlərini yuman kimi, Dəlmə arxının keçdiyi sərt yamacda, Minayə ilə əl-ələ verib doyunca söhbətləşirdi. Aşağıdakı bağların kölgəsində sərinləyir, ağaclardan meyvə dərir, çayın laciverd sularında şənlənə-şənlənə üzür, Minayə ilə qol-boyun olur, bir-birini ehtiraslı busələrə qərq edirdilər.

Səhərisi dan yeri söküləndə Sücəddin yerindən qalxıb, çaysız-çörəksiz yola düşdü. Axşamdan Minayə də, Növrəstə də bilirdilər ki, Sücəddinə dəstərxan bağlayıb onun arxasınca getməlidirlər. Sücəddin həm səhər, həm də günorta çörəyini işin üstündə yeməliydi. Özü də bacı-

sı və nişanlısı ilə birlikdə. Çayın qırağındakı ağacların kölgə saldığı çəmənlikdə.

Sücəddin kənddən çıxanda, Dəlmə arxına tərəf gedən torpaq yola ilk dəfə onun ayaq izləri düşürdü. Günəşin şəfəqləri hələ ətraf dağların zirvəsindən enib dərələrə yayılmamışdı. Sol tərəfdəki qayalıqlarda kəklik sürüləri səs-səsə verib vəcdlə qaqqıldaşırdılar. Bu yerlərin bütün quşları sanki sübh çağı şeh düşmüş dağların, yamacların tamaşasına çıxmışdı. Sücəddin başladığı işin nə vaxt qurtaracağı barədə düşünürdü. Çünki Dəlmə arxına su gələndən sonra toyları olmalıydı, Minayə ilə vüsala yetməliydi. Odur ki, Sücəddin hələ iz düşməmiş çala-çuxur yollarda sanki qanad açmışdı. O, çay boyu uzanıb gedən meyvə bağlarının qurtaracağında sağa dönüb təpə yuxarı tunelin başlandığı yerə qalxdı. Gecənin şehi onun iş alətlərini islatmışdı. Apardığı neft dolu fənərləri alça kolunun qurumuş qanadından asıb düsərinə əl atmaq istəyəndə, gözünə vəhşi heyvan ləpiri sataşdı. Sücəddin əyilib qumsal torpağa düşən təzə ayaq izinə diqqətlə nəzər yetirdi. O, dünən burada belə bir heyvan rədinə rast gəlməmişdi. - Bu nə izi ola bilər?! - düşündü. - Tülkü, çaqqal, dovşan, çöl pişiyinin rədinə oxşamırdı. Canavardan başqa nə ola bilər?! Və axırıncı qərarının üzərində dayandı. Elədir ki, var, yalquzaq izidir. O, fənərin birini yandırıb, sağ əlində sapıkəsik düsər, əyilə-əyilə tunelin dərinliyinə doğru irəlilədi. Bəzi yerlərdə rəd aydınca bilinirdi. Rəd təzə idi. Özü də nə heyvandısa, səhər-səhər buralara girmişdi. Adətən vəhşi heyvanlar gecələr ov axtarır, gündüzlər mağaralarda, dəlik-deşik yerlərdə, kol-kosda gizlənirlər. Ayağının yerindən bilinirdi ki, bu nə heyvandısa, mağaraya indilərdə girib,





lakin geri qayıtmayıb. - Yəqin tunelin o başından çıxıb, - düşündü və bir qədər arxayınlaşdı. Deməli, çıxıbsa, qorxusu yoxdur, üz-üzə gəlmərik və mənə xəsarət yetirməz. Sücəddin tunelə girməmişdən əvvəl vəhşinin ayaq izini görəndə, hər ehtimala qarşı ovxarlı dəhrəsini belindəki kəmərə keçirmişdi. - Birdən tunel daş-torpaqla bağlı oldu, onda necə?! Sücəddinin qəlbində başqa bir şübhə baş qaldırdı. - Onda belə çıxır ki, mən bu heyvanla qarşı-qarşıya gəlib, əlbəyaxa olmalıyam?! Bəlkə məni əcəl bura gətirib çıxardıb, ilahi?! Düzdü, gücümə arxayınam, əlimdə dəhrə, düsər ola-ola, canavar mənnən bacarmaz, vəhşinin öhdəsindən gələ bilərəm. Yoox, səhv edirəm. Elə bir yırtıcı heyvan ola bilər ki, məni göz açmağa qoymaz və buradaca parçalayıb məhv edər. Onda meyidimi də tapan olmaz. Sücəddin üzləşəcəyi hadisədən dəhşətə gəldi və onun bədəninə üşütmə düşdü. - Ən salamatı odur ki, geri qayıdım, tunelin hər iki girəcəyini diqqətlə yoxlayım, iz çıxıbsa qayıdıb arxayın işimi görüm. Əgər vəhşi tuneldən kənara çıxmayıbsa, riskə getmək olmaz. Sücəddin geri dönmək istəyəndə Minayə düşdü yadına, onda bunu qızlara necə izah edim?! Bu barədə özümə nə qədər haqq qazandırmaq istəsəm də, bacım heç, o daha da sevinər, Minayə isə məni qorxaq hesab edib qınaya bilər. Özümü qorxaq kimi göstərib sevdiyim qızın qarşısında kiçilmək də kişilikdən deyil. Eşidib bilən mənə gülməzmi?! Yox, rişxənd yeri olunca, ölmək ondan fərzdir. Sücəddin geri qayıtmağı qüruruna sığışdırmadı. Birdən onun qulağına bədheybət bir səs gəldi. - Deməli, tunelin o tərəfi bağlıdır, vəhşi heç yerə çıxmayıb, burdadır - düşündü. - Tunelin çıxış yerini yoxlamağa ehtiyac yoxdur. Vəhşi yaxınlıqdadır.

Sücəddin ölümünü gözünün altına alıb, əlində neft fənəri bir qədər də irəliləyəndə vəhşinin qəzəbli mırıltısı bu dəfə aydınca eşidildi. Sücəddin dayanıb, əl fənərinin zəif işıq saldığı qaranlıq tunelin dərinliyini vərəvurd elədi. Onun gözünə bir cüt işıq göründü. Şübhəsiz ki, bu, vəhşinin gözləriydi. Açıqlıq olsaydı, yəqin ki, bu vəhşi heyvan insana hücum etməzdi, çıxıb qaçardı. Lakin indi vəziyyət eləydi ki, vəhşinin qaçmaq imkanı yoxuydu. Belə hallarda qaçıb canını qurtarmaq üçün qarşısındakına mütləq hücum etməliydi.

Ayı da olsa Sücəddin əlindəki düsərlə, dəhrə ilə onun nəfəsini kəsə bilərdi. Ancaq yeri darısqal olduğundan dəhrə, düsər işlətmək çətin idi. Sücəddin yerdən iri bir daş götürüb, gecə vaxtı avtomaşının fənərləri kimi işıldayan həmin tərəfə atdı. Bu anda naməlum vəhşi tükürpərdici səs çıxartdı və cəld hərəkətlə Sücəddinə tərəf hücum edib, onun üstünə cumdu. Artıq burada ağıl işlətməyin, vəziyyətdən çıxış yolu barədə düşünməyin məqamı deyildi. Sücəddin instinktlə sol əlini gücü gəldikcə yumşaq tükü olan yırtıcının xirtdəyinə soxdu və sağ əli ilə bərk-bərk onun boğazından yapışıb boğmağa başladı. Vəhşi artıq Sücəddinə ağız ata bilmirdi, yalnız iti caynaqları ilə qol-qıçını didişdirirdi. Onlar xeyli əlləşdilər. Bu vəhşi heyvan canavar kimi iri və güclü deyildi, lakin pişik kimi cəld və qəzəbli idi. Zülmət qaranlıqda ölüm-dirim savaşına çıxan insan da, vəhşi heyvan da süpürləşə-süpürləşə tunelin ağzına doğru irəliləyib işıqlığa çıxmağa can atırdılar...

Minayə ilə Növrəstə həmişəkinə nisbətən bu gün evdən tez və tələsik çıxmışdılar. Sücəddin dünən axşam yediyinin üstündəydi. Səhərdən bəri onun boğazından bir qurtum su da keçməmişdi. Onlar altından





tunel keçən təpə yuxarı qalxırdılar. Lakin Sücəddindən səs-səmir yoxudu. Minayə daxili nigarançılığını büruzə verərək:

- Keçmə Sücəddinin bu xasiyyətindən. Bilmirəm bu arx məsələsini onun beyninə kim salıb. Canının qədrini bilmir, səhərdən axşamacan yerin altında eşələnir. Guya yönlü iş tapa bilmirdi, - öz-özünə gileylənməyə başladı.

- Sücəddinə qalsa, sən deyəndi, - Növrəstə dilləndi. - Ancaq birini bilirsən, birini yox. Kefindən eləmir, atam o işi başlamışdı, fələk qoymadı. Sücəddin də atamın gördüyü işin yarımçıq qalmaması üçün özünü oda-közə vurur ki, dost-düşmən var. Dəlmə arxı dağılıb tayfamıza göz dağı olmasın. Atam deyirdi ki, Dəlmə arxını vaxtilə bizim Zabıxlı tayfasının adamları çəkib.

Qızlar söhbətləşə-söhbətləşə tunelin ağzına çatıb, dinclərini almaq istəyəndə qarmaqarışıq səslər eşidildi. Bu səs Növrəstəni şübhələndirdi və - yəqin qardaşımın başında qəza-qədər var, - düşündü və tez yerindən qalxıb təlaş içərisində tunelə girdi. Bir qədər irəlilədikdən sonra geri qayıdıb həyəcanla:

- Nə durmusan! Sücəddin kiminləsə vuruşur, içəridən boğuq səslər gəlir, gedək, - deyib Minayəni özü ilə birlikdə tunelə girməyə təkid etdi.

Minayə əhvalını pozmadan əzilə-əzilə əndamını sağa-sola yırğaladı:

- Yoox, bacı, üz vurma, o zülmət qaranlığa girməkdən qorxuram, gedə bilmərəm, - etirazını bildirdi və Bahəddin at belində gəlib durdu gözünün qabağında. Yəqin qismət onunkudu. Bahəddin heç vaxt porsuq kimi yerin altına girib torpaq eşməz. Sücəddin öz canının qədrini

bilməyəndən sonra, mənim qədir-qiymətimi hardan bilər, - ani olaraq düşündü.

Növrəstə onun tərəddüd etdiyini görüb özü təkbaşına tunelə girdi. İməkləyə-iməkləyə irəlidəki xırraşmaya doğru süründü və bir neçə dəfə qardaşını çağırdı. Sücəddin bacısının səsini eşidib:

- Qorxma, bacı! Əlimdən qurtara bilməz, nəfəsini kəsmişəm! - deyib ona ürək-dirək verdi.

Sücəddin vəhşi ilə əlləşdiyindən yorulub heydən düşmüşdü. Yırtıcı heyvanın tərpənməməsindən bilinirdi ki, artıq canı çıxıb. Sücəddin bacısının köməyilə vəhşini sürüyüb tuneldən kənara çıxartdı. Məlum oldu ki, bu, xallı dərisi, iti dişləri, iri pəncəsi olan vaşaqdır. Minayə Sücəddinin göstərdiyi bu cür şücaətdən və yırtıcı heyvana qalib gəlib, onun əlindən salamat qurtarmasından qürur duyub sevinirmiş kimi, sevgilisinin boynuna sarıldı: - Əmdiyin süd halal olsun! - dedi. Sücəddinin qol-qıçı sıyrılmışdı, alnından, bir də ki, qulağından axan qan dayanmaq bilmirdi. Bu qan elə bil Növrəstənin qəlbindən axırdı. Minayə özünü qabağa verib başındakı yaylığı açdı və Növrəstəyə aman vermədən canıyananlıqla Sücəddinin sifətindəki qan ləkələrini silib təmizləməyə başladı. Əski yandırıb külünü qan axan boyun-boğazına basdı. Növrəstə dillənmirdi, o, kənara çəkilib qardaşının belə bir vəziyyətə düşməsini gördükcə, didələrindən süzülən gizli göz yaşlarını saxlaya bilmirdi. Minayə Sücəddinin halına hamıdan çox yandığını nümayiş etdirmək üçün xüsusi canfəşanlıq göstərirdi. Sücəddin onu Minayə qədər ürəkdən istəyən ikinci bir insanın mövcudluğunu təsəvvür etmirdi. Düşünürdü ki, Növrəstə də bacı kimi yolumda özünü fəda edər, ancaq Minayə bütün varlığı ilə mənə bağlıdır. O, mənsiz bir gün də yaşaya bilməz. Minayənin imkanı olsaydı, özünü vəhşinin ağzına atardı, qoymazdı başımdan tük əskik olsun.





Minayə əyilib Sücəddinin cırılıb aşağı düşən corabını yuxarı çəkdi, çarığının bağını bərkitdi, üst köynəyini səliqə ilə belindəki qayışın altına keçirdi, incə barmaqları ilə dağılan saçlarını düzəltdi... Növrəstə qardaşının aldığı yaralara baxmağa ürək eləmirdi, çünki onun sifətindən axan qan daha çox Növrəstənin qəlbini ağrıdıb, sızıldadırdı. Lakin onun kənarda məlul-müşkül dayanması, Sücəddinin düşdüyü acınacaqlı vəziyyətə biganə olan adamın laqeydliyi kimi görünürdü.

Bəzi kişilərin büt kimi sevib əzizlədikləri qadınların, ərləri dünyasını dəyişdiyi andan, başqa birisinin ağuşuna atılmaq barədə düşündüyünü unudub, ömrünün sonuna qədər onun dərdini çəkən doğma bacısına soyuq münasibət göstərməsi miskin təsir bağışlayır. Sücəddin hələlik bunu başa düşmək fəhmindən uzaq idi. Və bəlkə də Minayənin ona nəvaziş göstərdiyi indiki dəqiqələrdə Növrəstənin burada görünməsi Sücəddin üçün arzuolunmaz idi. Növrəstə bunu hiss etsə də, qardaşına qarşı yarana biləcək inciklik, bacı istəyinin odunda əriyib yox olurdu.

Növrəstə başındakı yaylığın ucunu ona görə sallamışdı ki, yanağından süzülən göz yaşı bilinməsin. Tunelin qarşısında qardaşının köməyinə can atanda, sol gözünün giləsinə, ucu bıçaq kimi iti olan daş parçası toxunmuşdu. Sağ gözünü yumanda hər yan ona qaranlıq görünürdü. Çünki sol gözü artıq görmürdü. Çalışırdı ki, qardaşı bilib peşmançılıq çəkməsin və Minayənin rişxəndinə məruz qalmasın. Onsuz da Növrəstənin sol gözünün mayıflığı uzaqdan hiss edilmirdi. Bunu yalnız özü bilirdi və başqasına bildirib kənddə çəpgöz qız kimi tanınmaq istəmirdi.

...Sücəddinin aldığı yaralar, yorğunluq onun bu gün işləməsinə imkan vermədi. Onlar kəndə qayıtdılar. Sücəddin bir neçə gün evdən bayıra çıxmadı. Onun vaşaqla əlbəyaxa olması və vəhşini təkbaşına boğub öldürməsi xəbəri bütün kəndə yayılmışdı. Sücəddinin belə bir şücaəti hamını heyrətdə qoymuşdu. Onun hünərinə qibtə edirdilər. Minayə səhərdən-axşamacan Sücəddinin yastığının böyrünü kəsdirir, onun zədələnmiş yerlərinə türkəçarə dərmanlar vurur, yarasının sarğısını dəyişirdi. Minayənin nişanlısına bu cür iltifat göstərməsi, onu Sücəddinin gözündə daha yüksəldirdi. Sücəddinin adi söhbətləri belə Minayə ilə olurdu. Hərdən Növrəstənin ona verdiyi suallara qardaşı ağızucu cavab verirdi. Minayə elə indidən özünü bu evin sahibi kimi aparırdı. Növrəstə onların bu cür isti münasibətini görəndə xoşhal olurdu. Fikirləşirdi ki, təki Minayə ilə qardaşı mehriban yaşasınlar. Sücəddinin günü xoş keçsin. Minayənin ona məlum olan bəzi qüsurlarını qəlbinin dərinliklərində açılıb-bükülməz sirr kimi gizli saxlayırdı. Onların arasında soyuqluq yarada biləcək hər hansı fikri özünə yaxın buraxmırdı. Arzusu o idi ki, Sücəddinlə Minayə xoşbəxt həyat sürsünlər. Buna mane ola biləcək hər cür təsirə qarşı özünü sipər eləmişdi. Yurdun tüstüsünü çıxardan yeganə qardaş kimi, sağ qalan o biri gözünü də Sücəddinin yolunda verməyə hazır idi...

Sücəddinin aldığı yaralar getdikcə qaysaqlanıb sağalırdı. Ağrıları nisbətən azalmışdı. Onu ən çox narahat eləyən Dəlmə arxında işlərin düyünə düşməsi idi. Arxası üstə taxtın üstündə uzanıb gözlərini qırpmadan tavana baxır və hisdən qaralmış köhnə millərlə danışırmış kimi, yorğun-yorğun Minayəyə eşitdirirdi:





- Evdə çox otura bilmərəm. Bu həftənin axırında işə çıxmalıyam. Əldən qalan əlli il qalar, - deyiblər.

Onun yastığının yanını kəsdirən Minayə əlini Sücəddinin alnına qoyaraq:

- Elə sən də dədəm xasiyyətdəsən, - dedi. - Anam ağzını açmamış deyir mənim işimə qarışma. Arvad nədi, kişinin işinə qarışdı nədi. Acığın tutsa da, tutmasa da, demişəm, yenə deyirəm, o arx axırına çıxmasa yaxşıdır. İndidən altını çəkirsən. Vaşaq olmayaydı, olaydı ayı, şir. Ağzından qurtara bilərdin?! Yəni bu, sənə lazımdır?! Tərslik eləmə, ziyanlığın yarısından qayıtsan yaxşıdır.

Sücəddin üzünü Minayəyə tərəf çevirdi:

- O barədə Bağır əmi düz eləyir, - dedi. - Özünə götürmə, arvad nə bilir dünyada nə var, nə yox. Getdiyi yer işdi, gəldiyi də ev. Dəlmə arxı babalarımızdan bizə qalan mirasdı. Bir vaxt gördüyün o torpaqlara su gəlirdi, adamlar bağ-bostan salıb, taxıl əkib, ordan xeyir-bərəkət götürüb. Arx uçub-dağılandan sonra xarabalığa dönüb. Hərdən düşünürəm ki, torpaq bizə qarğış eləyir. Qalaça camaatının başına nə gəlir, elə o torpaqların ahnaləsindən gəlir. Neçə-neçə kitab oxumuşam, atamdan çox şey öyrənmişəm. Torpağa ana deyiriksə, biz də övlad kimi onun qədir-qiymətini bilməliyik. Ata-babalarımız həmişə torpaqdan yapışıb, mayasını torpaqdan tutub. Di gəl ki, gözümüz baxa-baxa torpaq ölür, zarıyır, can verir. Amma qeydinə qalan yoxdur. Atam da ona görə özünü oda atdı... Di gəl ki, namərdlər əl-qolunu bağladılar, qoymadılar, səsini biryolluq batırdılar.

Sücəddin qızdırmanın içində Minayənin gözlərinə şəfqətlə baxdı və gülümsəyərək:

- Mənim sevimli Minayəm, - dedi. - Sözündə bir həqiqət var ki, boynuma ağır iş götürmüşəm. Ancaq nə qədər çətin olsa da, Tanrının köməyi, bir də sənə olan məhəbbətimin gücüynən gərək o işi başa vuram. Camaatımızı sevindirmək mənə nəsib olsa, qarşımızdakı toyumuz daha da şən keçər. - Bunu bir qədər zarafatyana dedi.

Minayə işvəli baxışları ilə onu süzərək:

- Yaxşı, yaxşı, sən Allah, - dedi. - Bir az qızdırman var, yəqin elə ona görə sayıqlayırsan.

Onların hər ikisi gülümsündü. Sücəddin dikəlib avazımış çöhrəsinə qayğılı ifadə verdi:

- Minayə, indiyəcən bu barədə aramızda açıq söhbət olmayıb, - dedi. - Bacım da sənəyi çiyninə alıb, bulaqdan su gətirməyə gedib. Burda ikimizdən başqa heç kəs yoxdur. Tacəddinlə süd qardaşıyıq. Sənə də əvvəlcədən bacı demişəm. Özümüz də bir evli kimiyik. Buna görə də içəridən qırıla-qırıla qalmışdım. Səni dəlicəsinə sevdiyimi bildirməkdə çətinlik çəkirdim. Dərd məni götürmüşdü. Atamı xalq düşməni eləyəndən sonra Bağır əmi ayrılıqda mənə dedi ki, qızım Minayə sənindir. Bu, atan Cahangirin əhdidir. Həmin sözdən sonra bilirsən necə sevindim?! Bütün bədənim təlatümə gəldi. Bağır əmini dinlədikcə elə bil yuxu görürdüm. Onda gözlərim qaraldı, başım gicəllənən kimi oldu. Az qaldı yıxılam, özümü güclə saxladım. İlk dəfə eşq sevdasına düşməyin nə demək olduğunu onda anladım. İndinin özündə də səninlə qarşı-qarşıya dayandığıma inana bilmirəm. Bu, mənə yuxu kimi gəlir. İlahi, doğrudanmı, Minayə yanımdadır, zərif əlləri ilə yaralarımı bağlayır, qeydimə qalır, mənə nəvaziş göstərir?! Düşünürəm ki, yox, ola





bilməz, bu, bir xəyaldır. Darısqal tuneldə vəhşi ilə vuruşanda ölümüm əsla yada düşmürdü. Onda da yalnız səni fikirləşirdim. Bəlkə də başqalarının gözündə adi bir kənd qızısan. Mən isə səndə görüb duyduqlarımın hamısını vəsf etməkdə acizəm. Çünki mənim üçün əlçatmaz gözəlsən. İnan ki, bizi bir-birimizə ad eləyənə qədər səninlə bu tərzdə danışa biləcəyim ağlıma belə gəlməzdi və buna cəsarət də etməzdim. Əgər elm insanların sevgi dünyasını tədqiq etmək qüdrətinə malik olsaydı, həyatda yalnız sənin üçün yarandığım təsdiqini tapardı. Heç də başqası üçün yox. Yalnız və yalnız Minayə adlı bir qız üçün.

Minayə titrək səslə:

- Elə mən də! Qəlbimi səndən başqa fəth edə biləcək ikinci bir şəxsin olduğunu və ya olacağını təsəvvür etmirəm. - Minayə bu sözü tam cəsarətlə deyə bilmədi və danışığının rabitəsi bir neçə dəfə pozuldu. Sücəddin isə bunu qızın utanıb-çəkinməsi, həya eləməsi kimi başa düşürdü.

- Bir halda ki, söz açıldı, qoy mən də ürəyimdən keçənləri deyim. - Minayə sözünə davam etdi. - Düzü, məəttəl qalmışam. Səni görəndə hansı qüvvənin təsirindənsə elə bil sehrlənirəm, tilsimə düşürəm. Nitqim tutulur. İstədiyim kimi danışa bilmirəm. Sanki dünənəcən qardan adam düzəltdiyimiz, bir yerdə dərs oxuduğumuz, top-top, qərcimədaş, gizlənpaç oynadığımız Sücəddin deyilsən. Tamam dəyişilib başqa bir adam olmusan. Onu da deyim ki, bu məsələ açılana qədər onsuz da səndən gözümü çəkə bilmirdim. Lakin onda qəlbimdən keçəni dilimə gətirməkdən qorxurdum. Ürəyimdə deyirdim - kaş, qismətimə belə bir oğlan düşəydi. Əlbəttə, atamsız başqa cür hərəkət edə

bilməzdim. Eşitsə, üzümə baxmazdı. Həmişə qorxu içindəydim. Fikirləşirdim ki, məni başqasına verərlər. Az qala belə bir hadisə baş vermişdi, mən uçurumun başındaydım, həyatım təhlükə qarşısındaydı, hər dəqiqə faciə ilə üzləşə bilərdim. Yəqin eşitməmiş olmazsan. O Bahəddindi-nədi, əvvəl onnan adım çıxmışdı. Dünyada iki adamdan zəhləm gedirsə, biri o Bahəddindir. Onun adını da çəkmək istəmirəm. Yüz il bir dərədə tək qalsaq, Bahəddin adlı adama ərə gedə bilməzdim. Belə bir qərara gəlmişdim ki, atam bu işə razılıq versə, mütləq özümü öldürməliyəm. Bundan başqa çıxış yolum yoxudu. Elə bil Allahın mənə rəhmi gəldi. Atam onların adamlarına sifariş göndərmişdi ki, yüz kor qızım olsa, birini o tərəfə verməərəm. İndi o qalıb ki, sümüyümü aparıb it sümüyünə calayım? Bahəddin tərəfin adamları atamdan bu cavabı eşidəndə, elçi göndərmək məsələsini yığışdırdılar, daha mənim adımı çəkmədilər. Hərdən o mürdəşir üzünü yumuş Bahəddindi nə zibildi, qabağıma çıxanda üzümü o tərəfə çevirirəm. Onu görəndə başım ağrıyır. Elə bil qutuda ilan görürəm. Deyirəm, iti görüm, qurdu görüm, təki Bahəddini görməyim. İndi Allahımdan çox razıyam. Qəlbimi qırıb, arzumu gözümdə qoymadı. Yatanda da, duranda da Allahıma min dəfə şükür eləyirəm. Qismətimə sənin kimi mərd, qorxmaz, nəcib bir insan çıxıb. Adətimizə görə qızın oğlanla bu cür çılpaq danışması ayıbdır. Lakin sənə olan məhəbbətim hər cür qayda-qanunlardan, adət-ənənədən güclüdür. - Minayə özünü əzdirə-əzdirə: - Vallah, bilmirəm, necə deyim ey, ürəyim doludur. - Söhbətinə davam etdi. - Sənə deməyə çox sözüm var. Ancaq elə bil dilimi-ağzımı bağlayıblar. Qəlbimdən keçənlərin hamısını izah eləyə bilmirəm. O





vəhşi heyvanın əlindən sağ-salamat qurtardığına görə pirə nəzir-niyaz demişəm. Özünə bildirmə, həmin gün Növrəstədən bərk incidim.

- Nə üçün?! - Sücəddinin qaşları çatıldı.

Minayə:

- Tuneldən gələn qarmaqarışıq vahiməli səsi eşidəndə özümü saxlaya bilmədim, - dedi. - Düşündüm ki, sənə bədbəxt hadisə üz verib. Tez fənəri yandırıb tunelə girmək istədim. Fikirləşdim ki, qoy başıma nə gəlir gəlsin, məgər Sücəddindən artığam. O olmayandan sonra mən nəyə lazımam. Onsuz da Sücəddinsiz yaşaya bilmərəm. Tunelə girmək istəyəndə Növrəstə qabağımı kəsdi, qoymadı. Dedi, sənin getməyin lazım deyil. Dedim, onda özün get. Tunelə girmək istəmirdi. Mən təkid etdim. Dedim, bir halda ki, məni qoymursan, onda özün get. Ondan sonra üzə düşüb tunelə girməyə məcbur oldu. Onda Növrəstədən elə incidim ki, ürəyim ağrıdı. Yoxsa səni dar ayaqda qoyub, yaxamı kənara çəkə bilməzdim. Növrəstə özünü elə göstərmək istəyirdi ki, guya səni məndən çox istəyir. Xatirinə dəyməsin, bacın olsa da, bir az paxıl qıza oxşayır. Ancaq sənin xatirinə üstünü vurmuram. Nə qədər qəlbi qara, paxıl qız olsa da, mənə qəbuldur. Atalar demişkən, yüz acını yeyərlər, bir şirinin xatirinə. Onun bütün günahlarından keçirəm. Deyirəm, qurban olsun Sücəddinə. Bütün bunlara baxmayaraq, onun yolunu saxlayıram. Çor deyəndə, can deyirəm. Çalışıram ki, mehribançılıq olsun. Axı ortalıqda sən varsan.

Sücəddinin qəlbində Növrəstəyə qarşı qara fikirlər baş qaldırdı və Minayənin könlünü almaq üçün:

- Elə şeylərə fikir vermə, - dedi. - Rəhmətlik anam da

Növrəstənin o xasiyyətinə görə hərdən danlıyıb-dansıyırdı. Deyirdi, səndən ev arvadı çıxmaz. Ancaq necə olsa bacımdır. Çalışıb birtəhər yola verməliyik. Sən də sağ ol ki, alicənablıq göstərib məni nəzərə alırsan. Növrəstə ilə münasibəti pozmursan.

Sücəddin bunları deyib Növrəstənin yersiz hərəkətlərindən xəcalət çəkirmiş kimi təəssüflə başını buladı. Minayə nəvazişlə əlini Sücəddinin saçlarında gəzdirərək:

- Bu dediklərim öz aramızda qalmalıdır. Birdən hirslənib Növrəstəni danlasan, məndən şübhələnər. Ondan sonra aramızda narazılıq yaranar, bir damın altında qala bilmərik. Əlac nədir, özün demişkən, dözmək lazımdır. Başqa gəlin olsa, bəri başdan deyər ki, bu evdə ya sən, ya da mən. Ancaq ata-anamdan o cür öyüd almamışam. Növrəstəyə qarşı nəzakətsiz hərəkət eləyə bilmərəm. Mən də bir kişinin qızıyam, özümə görə adım-sanım var. Hamı məni aydan-arı, sudan duru, pak bir qız kimi tanıyır. Ömrümdə dilimə yalan söz gəlmiyib. Növrəstənin səviyyəsinə enib, ona baş qoşsam, eşidib-bilən məni qınayar. Hələlik dözürəm. Evlənəndən sonra bir şey fikirləşərik. Bəlkə onun da bəxti açıldı, özü kimi paxılın, qəlbi qaranın birinə ərə getdi, onda ikimizin də qulağı dincələr.

Sücəddin:

- Allah ağzından eşitsin, - deyib, onun boynunu özünə tərəf əydi və alnından öpdü. - Zəndimdə yanılmamışam, - dedi. - Nəcib xasiyyətinə görə getdikcə gözümdə qalxırsan. Düşünürəm ki, ata-ana tərəfdən nə qədər yarımamış bədbəxt bir bəndəyəmsə, sənə görə özümü bir o qədər xoşbəxt hiss edirəm.

Növrəstə bulaqdan gec qayıtdı. Ona görə yox ki, bulaq çox uzaqdır. Bulaq tünlük olanda, Növrəstə bir kənarda dayanıb adamların seyrəlməsini gözləyirdi. İstəyirdi onların söz-söhbətinə qoşulmasın. Bir də ki, yaxından baxanda onun gözlərinin zədələndiyi, yaxşı görmədiyi aydınca nəzərə çarpır. Həm də siyasi məhbusun qızı kimi hər yerdə, hətta bulaq başında belə hökumətə zidd gedən düşmən bir ailədən olduğu üçün ona xor baxırdılar. Növrəstə bunu başa düşdüyünə görə çalışırdı ki, tay-tuşlarına, kəndin qız-gəlinlərinə səmtiməsin. Bulaqdakılar dağılışıb gedəndən sonra axırdan-axıra səhəngini doldurub qayıdırdı. Həyətdə onun hənirtisi gələndə Sücəddinlə Minayə söhbəti dəyişdilər. Minayə onu görəndə xoş qaşqabaqla:

- Sücəddini tək qoyub gedə bilmirəm, bayaqdan səni gözləyirəm, - deyib ayağa qalxdı. - Anam nasaz olduğu üçün ev mənsiz ötüşmür, - əlavə etdi və onlarla xudahafizləşdi.

Növrəstə yan otağa keçib, qardaşından xəlvət güzgüdə daş dəymiş sol gözünü yoxladı. Onun qan sızmış gözünə qırmızı pərdə gəlmişdi. Sağ gözünü yumanda heç yeri görə bilmirdi. Ancaq qardaşının yataq otağına keçəndə, zədəli gözü barədə bir söz demədi. Sücəddin qaşqabaqlı kimi görünürdü. - Yəqin, yaraları ağrıyır. - Növrəstə düşündü. Sonra qardaşının hal-əhvalını soruşdu. Sücəddin onunla danışmaq istəmirmiş kimi, Növrəstəyə ağızucu cavab verdi və üzünü divara çevirib yorğanı başına çəkdi. Növrəstə o dəqiqə başa düşdü ki, yenə nə isə Minayə onun qulağına pıçıldayıb. Sücəddin Minayəyə aşiq olandan Növrəstə onun gözündən düşmüşdü. Minayə Sücəddinə yaxınlaşdıqca, Növrəstə qardaşından uzaqlaşırdı, yadlaşırdı. Elə bil bir-birinə can deyib, can eşidən həmişəki bacı-qardaş deyildilər. Növrəstənin

gözləri bahar buludu kimi dolmuşdu. Qəhər onu boğurdu. Lakin canını dişinə tutub özünü o yerdə qoymadı. Həyətə çıxdı. Evin divarlarına, həyətdəki ağaclara, dəhlizin stullarına nisgilli nəzər saldı. Atası Cahangir tutulandan, anası Zöhrə dünyadan gedəndən sonra heç nə dəyişməmişdi. Bircə son vaxtlar dəyişən Sücəddinin Növrəstəyə olan mehribançılığı idi. Onu da dəyişən dəyişmişdi. Hər dəfə Sücəddin bacısı ilə soyuq danışanda bilirdi ki, ona daş hardan dəyir.

Növrəstə heyvanların altını təmizləmək bəhanəsilə tövləyə girdi. Vaxtilə sarı madyanın bağlandığı axura yaxın olan, qaralmış əyri dirəyə söykənib doyunca ağladı. Ürəyini boşaldıb, sakitləşəndən sonra başındakı ağ yaylıqla üz-gözünü sildi. Zədəli gözündən axan yaşdan onun yaylığına ləkə düşmüşdü. Növrəstə ağlayıb yüngülləşəndən sonra özünü danladı: - Naşükür olma, Növrəstə, Allahın acığı gələr. Gedənlər gedib, ölənlər ölüb, yurdda nər kimi qardaşın var. Sücəddin sağ olsun, ağlayıb sıtqamağın onun başında çatlayar. Sücəddinin quru nəfəsi bəsdir. Dilim qurusun, birdən onun başına bir iş gəlsə, necə?! Yaxşı, pis, kölgəsi üstümdədir. Cavan olduğuna görə hərdən şeytan yoldan çıxardır, mənə tərəf üz çevirmək istəmir, sözümü az eşidir, mən deyəni eləmir. Neynək, bəzən məhəbbətin gözü kor, qulağı kar olur. Dözmək lazımdır. Elə şeyləri ürəyinə salıb özünə dərd eləmə, Növrəstə! Necə olsa qardaşındır. Hələlik o, pisdirsə, sən yaxşı ol. Ağlı başına gələndə şirinlə acını seçər. Bilər ki, yaxşı kimdir, yaman kim. Bir də ki, Sücəddində günah yoxdu. Onu toruna salıb, məni qardaşımın yanında hörmətsiz eləyən o mindilli Minayədi...





* * *

Payızın ortalarıydı. Yol-yamacın yaşıl görkəmi baharın ilk aylarını xatırlatsa da, havalar get-gedə soyuyurdu. Uzaqdakı dağların zirvəsində ağaran təzə qar, sanki Qalaça camaatına gözağartması verib, bu yerləri sərt şaxtası, sal buzları ilə hədələyirdi. Adamlar öz hesabını götürüb qabaqlarında ulaq, əllərində dəhrə, balta yavaş-yavaş meşələrə axışıb qış üçün odun-ocaq tədarükü görürdülər. Sücəddin də artıq sağalıb gümrahlaşmışdı, sabahdan Dəlmə arxında işə başlamaq qərarına gəlmişdi. Ancaq bu gün Minayənin ona baş çəkməməsi Sücəddində nigarançılıq yaratmışdı. Vəziyyətdən hali olmaq üçün qıs-qıvraq geyinib Bağırgilə tərəf yollandı. Həyətdə heç kim görünmürdü. Onun narahatçılığı daha da artdı və dəhlizə keçib evin qapısını ehmalca tıqqıldatdı. Lakin içəridən səs gəlmədi. Handan-hana Qızyetər xala içəridən çıxıb onu evə dəvət etdi. Minayənin görünməməsi Sücəddini təşvişə saldı və əvvəlcə:

- Bağır əmi hardadır? - soruşdu.

- Bağır əmin dəyirmana gedib, - Qızyetər həvəssiz cavab verdi.

- Bəs Minayə? Səhərdən gözümə dəymir?

- O da atasını tək buraxmadı, ikisi bir yerdə getdi. Səndən nə gizlədim, unumuz qurtarıb, çuvalın dibində bir urvalıq ola-olmaya. Özgəsi deyilsən, bir tərəfə baxanda, günah elə özümdə olub. Vaxtında bilib kişiyə deməmişəm. Səhər-səhər əlimi atanda, gördüm çuval bomboşdu. Bağırın da ki, xasiyyətinə bələdsən, o da mirqəzəbin biridi, deyəndə od götürdü. Üstümə hirsləndi ki, harda yatmışdın, bunu bir-iki gün qabaq xəbər verə bilməzdin?! Sən necə arvadsan ki, un çuvalından xəbərin yoxdu. Mən boynusınmış da unun qurtardığını

nə bilim. Ona görə də bu gün tələm-tələsik, xaraldakı payızlıq buğdadan bir ağnağazlıq arıtlayıb, xəlbirdən keçirib yığdım dağara, apardılar. Yarım kəviz olaolmaya. Dedim, hələlik ikicə həftəliyə birtəhər ötüşək, dağardakı qurtaranacan beş-on meşok üyüdüb yığarıq dama.

Qızyetər yazıqlaşdı, məyus kimi oldu:

- Bağır əmin də həmişəki adam dəyil. Mərdimazarın evi yıxılsın. Cahangirin məsələsi də kişini çox əyib. İnsan da belədi ki, yaşa doldu, çətindi. İndi o heyi-hərəkəti qalmayıb. Gecə ki, düşdü, gözü-zadı yaxşı görmür. Bu gün də bir az xəstəhalıdı. Ona görə də əvvəl könlündən keçirdi ki, gedəndə səni də özüynən aparsın. Sonra da qıymadı, nədənsə fikri dəyişdi. Xeyli vaxtdı çıxıblar. Yəqin indilərdə çatarlar...

Qızyetər sözünü qurtarıb, sidq-ürəkdən Sücəddini içəri dəvət etdi:

- Ayaq üstə durma, sən Allah, keç içəri, - dedi. - Qantəpərnən kəklikotu qarışığından təzə çay dəmləmişəm, bir stəkan iç. Sən də ki, Allaha şükür, əvvəlki kimi deyilsən, indi yaxşısan. Siftə görəndə ürəyim qırıldı, üz-gözündə isdahat qalmamışdı. Minayə gəlib evdə uşaq kimi hönkür-hönkür ağlıyırdı. Təpindim, dedim ki, ağlama, sənin Allahın qoymaz ona zaval gəlsin. Elə bil Allah ağzımdan eşitdi. Dediyim kimi də oldu. O vəhşi heyvanın əlindən yaxşı qurtarmısan. Çox adam inanmır ki, o cür yırtıcı vaşaqı sən öldürmüsən. O vaxtdan bizə gəlib-getmirsən. - Qızyetər sözü dəyişdi. - İndi beşcə dəqiqə yanını qoy, otur. Yaxşı kələm dolmamız da var. Təzə bişirmişəm, hələ qazanın ağzını açmamışam. Yəqin qaynanan səni çox istəyir. - Qızyetər bu sözləri deyəndə qımışdı, Sücəddinin də dodağı qaçdı. - Mən də təkəm,





keç otur. Onlar da gecənin nə vaxtı olsa qurtarıb gəlmədidirlər. İnanmıram dəyirmanda qalsınlar.

Sücəddin fikrə getdi və:

- Xətrinizə dəyməsin, düz hərəkət eləməmisiniz, Qızyetər xala, - dedi. - Yaxşı, mən burda dura-dura qoca kişi, birdən-ikiyə bərkə-boşa düşməyən qız xeylağı, gecənin qaranlığında dəyirmana getsinlər?! Eşidib bilən bizə nə deyər?! Ona görə də çay-çörək vaxtı deyil, mən də getməliyəm. Tutaq, Bağır əmi abırlı adamdı, qıyıb deməyib, bəs mənim öz qanacağıma nə gəlib?!

...Sücəddin bacısını nigaran qoymamaq üçün, ondan xəbərsiz yola düşdü. Dəyirmanın əsas işlək yolu alçaq təpələrin arasından keçir, sonra çay yuxarı uzanıb gedən meyvə bağlarının qurtaracağında sola burulur. Sücəddin tələsdiyindən, asan yolu qoyub, kəndin qənşərindəki düzə qalxan sərt yoxuşa dikəldi. Buradan dəyirmana aşmaq çətin olsa da, məsafə iki dəfə qısadır. İşin tərsliyindən bu axşam da dərə-təpələrə çökən kor duman, gecənin qaranlığını daha da qatılaşdırmışdı və göz-gözü görmürdü. Sücəddin ona tanış olan kələ-kötür dağ cığırları ilə fəhmlə gedirdi. Yoxuş yarı olmuşdu. Yolun tən ortasında insan qaraltısına rast gəldi. Bir nəfər hərəkətsiz dayanıb sanki onu gözləyirdi.

Sücəddin diksinən kimi oldu, bədənindən soyuq üşütmə keçdi və tez də özünü ələ aldı. Onun başındakı ağ əmmamə, belinə bağladığı qatlama şal, əynindəki uzun əba güclə seçilirdi. Qiyafəsindən mömünə oxşayan bu adam Sücəddinin hənirtisini alan kimi əlini sinəsinə qoyub ağayanalıqla baş əydi və - axşamın xeyir, - deyib, ehtiramla salam verdi. Sücəddin titrək səslə onun sala-

mını aldı və - yəqin qonşu kəndlərdəndi, mənnən qulaq yoldaşı olmaq istəyir, - düşündü. Naməlum şəxs:

- Bəndənizi tanımadın?! Yaxın dostum Cahangirin övladı olduğun mənə agahdır, - dedi. - Atanla canbir qəlbdə olmuşuq, mən Mir Rahibəm.

Sücəddin: - Mir Rahib kimdi, belə ad eşitməmişəm, yolumla getdiyim yerdə bu hardan peyda oldu?! Onsuz da başım həmişə qaldadı. Bəlkə məni qara basır, olmaya quleybanıdı, ya da ki, atamın qəvi düşmənlərindən biridi. Qisas almaq üçün burada əlinə fürsət keçib. Şirin dil tökməyinən deyil, adamlarda etibar var?! - Onu şübhə götürdü.

Gecənin dərinliyindən Sücəddinin qulağına istehzalı gülüş səsi gəldi:

- Qəlbindəki qara fikirlərdən agaham, - dedi. - Küfr işlətmə, Cahangirin adı olan yerdə bədgüman olmağın əbəsdir. Barəmdə yanlış fikrə düşmə. Bilirəm, yolun dəyirmanadır. Ruzi dalınca gedirsən, bərəkətli olsun. Səni çəkib aparan həm də eşq macərasıdı. Məskənim o dünya olsa da, ruhum bu çöllü-biyabanlarda dolaşır. Əqidəsindən dönənlərə göz qoyub, Tanrı yoluna qaytarıram.

Sücəddin onun nə demək istədiyindən baş açmadığı üçün dillənmədi. - O dünya nədi, bu çöllü-biyaban nədi, bu bəni-insan nə danışır, ilahi?! - Şübhəsi daha da artdı. Özünü Mir Rahib kimi isnad verən yad məxluq, Sücəddinin gözünə kölgə kimi göründü və soruşdu:

- Dəyirmançı Şahnəzəri tanıyırsan?!

- Tanıyıram. Elə-belə, dərindən yox. - Sücəddin yad məxluqa cavab verdi.

- Quduz itdən pisdir. Lüt Qasımın oğlu lovğa Səftərin sağ əlidir. Acından ölənin biriydi. Bir qarın





çörəkdən ötrü onun-bunun qapısında sülənirdi. Ona sülək Şahnəzər deyirdilər. Sonradan qara qızın bəxti açıldı. Onunku gətirdi. On birinci ordunun əsgərləri buralara çəyirtkə kimi daraşanda, silah-sursat daşımaq üçün bazardan od qiymətinə aldığı qancıq eşşəyini onların ixtiyarına verdi. O da xoşhaxoşluqla yox. Hərbə-zorbadan, hədə-qorxudan sonra. Papağı ulduzlu sarı gədələr eşşəyi ora-bura o qədər yüklədilər ki, dilsiz-ağızsız heyvanın beli yağır oldu. Sonra heyvanın yarası simlədi, gəbərib öldü, cəmdəyi itlərə yem oldu. Əslində eşşəyi öldürən ayrı dərd idi. Eşşək həftələrlə yol gedirdi. Ağır-ağır yüklər daşıyırdı. Palan belini döyənək eləyib, neçə-neçə dərin yaralar açıb, ancaq vecinə olmayıb. Amma əsgərlərin yükünü daşıyanda hiss eləyib ki, apardığı ölümsaçan, şəhər və kəndləri viran eləyən, anaları ağlar, uşaqları yetim qoyan top-tüfəngdir. Ona görə də Şahnəzərin qancıq eşşəyi xif-fətindən yıxıldı öldü. İnsanların həvəslə icad eləyib, qəddarcasına qan tökdüyü silahları daşıması eşşəyi çər-lətdi. Yoxsa yaradan ölməzdi. Ancaq eşşək ölsə də, sahibi sülək Şahnəzər qazandı. O vaxtdan on birinci or-dunun yolunda canını fəda eləyən, təzə hökumətin tərəfdarı kimi üzdədi. Onu hamıdan qabaq firqəçiliyə götürdülər. Dəyirmançı qoydular. İndi sülək Şahnə-zərin qılıncının dalı da kəsir, qabağı da. Qarnı doyandan bəri qudurub. Səni incitməsə yaxşıdır. O, bilir ki, atan Cahangirlə lüt Qasımın oğlu ləcdilər. Pis də məxluq-dur. Adam içinə qoymalı deyil. Səfeh yerə ilişmisən. Dən üyütmək üçün başına dəyirman qəhətdi?! Gərək gedib sülək Şahnəzərə boyun əyəsən?! Bunları sənə görə deyirəm! Sonrasını özün bilərsən! Mənim dostum, sənin atan Cahangirin tərsliyi də varıdı. Tərslik onun

qanındaydı. Ona görə də Höcət Cahangir deyirdilər. Axırda da o xasiyyətinin güdazına getdi. Gözü götürməyənlər o boyda kişini badi-fənaya verdilər.

Cadugər xislətli bu məxluqun sözləri Sücəddini lap çaşdırmışdı. Sanki ağlagəlməz bir möcüzə ilə üzləşmişdi. Sücəddinin xəyalı başqa-başqa yerlərə çözələnib gedirdi. Hələ ki, dumanlı gecənin bu vədəsində özünü Cahangirin təəssübkeşi kimi göstərən bu adamın dedikləri ağlına gah batır, gah da batmırdı. Və qəlbində cürbəcür tərəddüdlər tüğyan eləyirdi. Həm də bu müəmmalı gecə məxluqunun sözlərinə münasibətini bildirməkdən ehtiyatlanıb çəkinirdi. Mir Rahib danışdıqca, qaranlıq yolda gah Sücəddindən dala qalır, gah qabağa keçir, gah da onunla çiyin-çiyinə irəliləyirdi. Ancaq Sücəddinə çox da səmtimirdi. Sücəddin ondan cavan olsa da, yoxuşu qalxdıqca tövşüyür, sanki nəfəsini çiyinlərindən alırdı. Özünü Mir Rahib adlandıran bu adamın isə vecinə deyildi, yorulmaq nə olduğunu bilmirdi, yoxuş yuxarı quş kimi səkirdi, elə bil ayaqları yerə dəymirdi.

Onlar bir-birlərini eşitsələr də, açıq-aydın görə bilmirdilər. Sücəddinin həndəvərində sanki qara bir kölgə dolaşırdı. Birdən bu kölgə yoxa çıxdı. Sücəddin tənhalaşdı, vahimələndi. - Bu nə möcüzədi, ilahi!! Yəqin mənimki buracanmış!! - Minayəni xatırladı və ona qovuşmaq ümidi gecənin dərinliyində puç oldu. Bir qədər irəliləyəndən sonra yenə də gecə müsahibi gözünə sataşdı. O, qabaqda dayanıb gözləyirdi. Sücəddin yaxınlaşanda:

- Onu da anla, agah ol ki, - dedi. - Qalaça kəndi Tanrının qəzəbinə keçib. Başınıza gələn müsibətlər Yaradanın cəzasıdır. Bunu başa düşmək fəhmindən





xalisiniz. Qalaçanın mollası Tağı, yol göstərəni lüt Qasımın oğlu lovğa Səftər, dəyirmançısı sülək Şahnəzər, deputatı qüdrətsiz Qüdrətdirsə, deməli, kəndə bədbəxtlik üz verib. Fitnə-fəsadın baş alıb getdiyi, namus-qeyrətin qeybə çəkildiyi, insanların ehtiraslarının quluna çevrildiyi, adamların qurd kimi bir-birini diddiyi məmləkət fəlakətdən yaxa qurtara bilməz!! Nə qədər gec deyil, tövbə edin!! Tövbə edin!! Haqqa qayıdın!! Haqqa qayıdın!! - O, bu sözləri dönə-dönə təkrar etdi.

Sücəddin bu sözlərin müqabilində nə demək istəyirdisə, qarşısındakı qaraltı yoxa çıxdı. Sücəddin dəli olmaq dərəcəsinə gəlmişdi. Belə bir anda nə edəcəyini bilmirdi. Mənhus gecədə, rastlaşdığı naməlum məxluqla yenidən üzləşib onu sorğu-suala tutub, kimliyindən hali olmaq üçün xeyli dayanıb ətrafa boylandı. Lakin gözünə heç nə görünmədi ki, görünmədi.

Bayaqdan bəri duman çökmüş yoxuş, yorucu yolda baş verənlər, sən demə, xəyal, qarmaqarışıq yuxuymuş. Bəlkə də gecənin zəhmindən, onu çaşdırıb haldan-hala salan, heç də başqa bir bəni-insan yox, elə Sücəddinin özüymüş. Sücəddin bəlkə də qatı dumanın, zülmət gecənin dili ilə özü-özü ilə danışırmış və yaxud Zabıxlı tayfasından olan və yüz il, min il bundan qabaq dünyasını dəyişmiş Mir Rahib adlı mömünün ruhuymuş.

Yoxuş yol qurtarırdı. Sücəddin düzü aşıb üzü aşağı, dəyirmana tərəf endi. Duman yuxarıda qaldığından yolriz seçilir, zəmisi biçilmiş çəltik sahələrinin küləşi ağarırdı. Sücəddin suyu qurumuş çəltik ləklərinin arasından keçib novunun, pərinin, daşlarının səs-küyü ətrafa yayılıb gecənin sükutunu pozan dəyirmanın

həyatinə endi və başını aşağı əyib, yarıaçıq qapıdan içəri daxil oldu. Bağırla dəyirmançı Şahnəzər qabaq-qabağa dayanmışdılar, onların arasında mübahisə gedirdi. Minayə hisli çırağın zəif işıq saldığı dəyirmanın darısqal bir küncündə, üst-üstə yığılmış taxıl dolu çuvallara söykənmişdi. Hiss olunurdu ki, atası ilə dəyirmançının xoşagəlməz söz-söhbəti onun əsəblərini tarıma çəkib. Alçaq boyu, tük basmış sir-sifəti, sallaq qaşları, una batmış yamaqlı şalvar-pencəyi, zağarası getmiş yun papağı olan və üz-gözündən zəhər-zəhrimar yağan dəyirmançı Bağırın dediklərini qulaqardına vurub, onun sözlərini əsla saya salmırdı. Bağır onu yola gətirmək üçün mülayimliklə deyirdi:

- Şahnəzər, bu dəyirmanın qayda-qanunlarını axı, mən də bilirəm. Bizim vaxtımızda da birinin əli dara düşəndə, aranı kəsib gətirdiyi bir pud, iki pud dəni üyüdüb mərifətnən yola salırdıq. Bu, dədə-babadan belədi. İndi sən dirənmisən ki, olmaz. Özün de, neyniyək, mən yaşda ahıl kişi, yanımda da qız xeylağı, gecənin bu vaxtı əliboş qayıdaq gedək?!. Bunu nə Allah götürər, nə də bəndə!

Şahnəzər qulağının dibində milçək vızıldayırmış kimi, dizini yerə qoyub, başını aşağı salıb, fətir bişirmək üçün balaca təknədə ard unundan xəmir yoğurmağa başladı. O, arada qəddini düzəldib təndirdəki közü qurdalaya-qurdalaya:

- Bağır, o baban getdi, indi sizin vaxtınız dəyil, - dedi.- İkincisi də, sən deyəni mən də yaxşı başa düşürəm. Bir ağnağaz dən nədi, bu saat aranı kəsib, səninkini atıb boğazına üyüdərəm. Ancaq birini bilirsən, birini yox. Dən sahibi Səftərin əmisi oğludu, briqadirin də yeznəsidi. Aranı kəsdiyimi bilsələr, mitilimi atarlar bayıra. Günü səhər iti məsciddən qovan kimi, məni burdan qovarlar. Sənin xətrin xoş olsun deyə, yaxamı aparıb onun-bunun əlinə verə bilmərəm. Mənim hesabıma görə dəyirman xarab olmasa, sabah günortaya qədər üstündəki dən qurtarmalıdır. Səninkini birtəhər araya salıb verərəm apararsan.





Bağır:

- Ə, Şahnəzər, Allahın olsun, peyğəmbərin olsun, - yalvarmağa başladı, - daşı ətəyindən tök, tərsliyin tutmasın! Əvvəla, gecənin bu vaxtı səni güdən yoxdu. Kim nə biləcək araya ağnağaz salmısan. İkincisi də burda bir sənsən, bir də mən, bizim ağzımızdan çıxmayandan sonra kimdi səni sorğu-suala tutan?!

Dəyirmançı:

- Bağır, bilirsən nə var?! İncisən də, inciməsən də, deməliyəm. Açığı odur ki, başda oturanlarımızın sənnən xoşu gəlmir, siyasi məhbusun gədəsini də yanına salıb gətirmisən, - dedi. - Mənim xətir üçün xəstə yatmağa təhrim yoxdur. Otur gözlə, nə vaxt imkan olsa...

Hirs vurdu Bağırın təpəsinə:

- Ə, Şahnəzər!! - dedi. - Biz bu dəyirmanın daşını Qarabağdan nə zillətlə gətirəndə, balam, o başda oturanlar harda yatmışdı? Sən Şahnəzər, özün nəyidin?! Çörəyini islatmağa ağartı tapmırdın, onun-bunun süfrəsinin artığıynan dolanırdın! Atan soğan, anan sarımsaq, özün hardan oldun belə gülməşəkər?! Dəyirman tikən mənim ata-babam ola-ola, bir dağar dəni üyütməyə ixtiyarım çatmasın?!

Dəyirmançı:

- Bağır, gəl köhnə palan içi tökmüyək, - dedi. - Ona qalsa, daş nənələr bağrına! Mənim əməyim hamınızın-

kından çoxdu. Təzə hökumətin yolunda can qoymuşam. Dünyanın qarışıq vaxtı qatır kimi eşşəyim əsgərlərə tüfəng-patron daşıyanda, qorxunuzdan hərəniz bir tərəfə qaçıb gizlənmişdiniz. Amma silah-sursat daşımaqdan mənim eşşəyimin beli yağır oldu, ona əlac tapa bilmədim, gözümün qabağında yıxıldı öldü. Onda heç uf da demədim, dözdüm! Qazancım nooldu?! Hökumətin inanılmış adamı kimi əl boyda firqə bileti verdilər. Sonra da gətirib bağladılar bu xarabalığa, bəzi-bəzi sənin kimi köhnə fikirli adamlar, bunu da maa çox görüb, dəyqədə bir başıma qaxırlar. İndi ki, belə oldu, ağsaqqal, qarasaqqal tanımıram. Mən ağnağaz-mağnağaz üyüdən deyiləm. Əlindən gələni də beş qaba çək. Başqaları kimi sən də zəhmətə qatlaş, növbəyə dur, haçan vaxtın çatar, üyüdərsən. - Şahnəzər bunu deyib, üzünü tüstülənməkdə olan təndirə tərəf çevirdi və ocağa bir-iki quru odun atdı.

Dəyirmançının - siyasi məhbusun gədəsini də dalına salıb gəlmisən - deməsi Sücəddinə bərk toxundu, elə bil ortasından qəfil güllə keçdi. Az qaldı dəyirmançını başına qaldırıb, atsın pərin ağzına, ancaq özünü güclə saxladı. Fikirləşdi ki, qabaqda Bağır var, o dura-dura belə hərəkət etsəm yaxşı düşməz. Ona görə də Şahnəzərin köntöy sözlərini eşitməzliyə vurub dillənmədi. Hesabı içəri verdi.

Bağır dərin fikrə getdi. Ata-babalarının bu dəyirmanı tikdiyi günlər, çəkdikləri əzab-əziyyət gəlib durdu gözünün qabağında. - Kim qazana, kim yeyə, - düşündü. - Yəqin nə günah işlətmişəmsə, Allah-taala məni sülək Şahnəzərin ayağına salıb, ona möhtac eləyib.

Bağırın fikrindən keçdi ki, belə nacins, nadürüstə yalvarınca, canım cəhənnəmə, ağnağazı çiynimə alıb,





üç kənd aşağıdakı dəyirmana aparım. Ancaq qəlbində götür-qoy eləyəndən sonra gördü ki, yoox, sülək Şahnəzərin qabağından qaçsam, ayağı yer alar. Daldabucaqda deyər ki, Bağırın anasını ağladıb, dağarı qoltuğuna verib tikdirdikləri dəyirmandan qovdum. Onda gərək işıqlı dünyada baş gəzdirməyim. Belələrinin dərsini verib, ağzına vurmasan, qudurar. Onsuz da ayağımın biri burdadır, biri gorda. Şahnəzər kimilərinə boyun əyməkdənsə, ölmək yaxşıdı. Sücəddinlə Minayənin gözü qabağında Şahnəzər kimiləri məni sayıb adam yerinə qoymasın, xar eləsin, üstəlik də dəyirmandan əliboş qaytarsın?! Bu qisası yerdə qoysam, Bağır olmaram! Dəvə ölsə, dərisi bir eşşəyə yükdür, toyuq ölsə bir çəngə tük. Nə qədər ahıl olsam da, Şahnəzər kimi nakəs-nanəciblərə bac verməərəm. Köhnə kötüklərin üstündə çoxlu çırpılar doğranıb. Bir halda ki, xoşhaxoşluqla yola gəlmir, maa dirsək çevirir, indi ona kimliyimi göstərərəm, ağlı gələr başına...

...Bağır qoca şir kimi Şahnəzəri dizinin altına aldı. Şahnəzər nə qədər əlləşdi, Bağırın əlindən qurtara bilmədi. Var-gücünü toplayıb, altdan çıxmaq istədi. Ancaq bacarmadı, aşıb dəyirmanın təknəsinə düşdü və başı zərblə, aramsız fırlanan dəyirman daşına dəydi. Dəyirmançı o dəqiqə halsızlaşdı. Bağırın onu öldürmək fikri yox idi. Ona görə Şahnəzərin çiyinlərindən yapışıb geri dartdı. Dəyirmançı huşunu itirmişdi. Bayaqdan kənarda dayanan Sücəddin Bağırı xatadan qurtarmaq üçün dəyirmançını onun əlindən alıb, xilas etməyə cəhd göstərdi. Ancaq gec idi. Şahnəzərin nəfəsi gedib-gəlmirdi... Bağır sərtliyi qədər də, ürəyiyumşaq adam idi. Bir tərəfdən dəyirmançının qanına baiskarlıq etdiyi üçün peşman ol-

du, digər tərəfdən də Qalaçanı nadürüstlərin birindən qurtardığına görə, onun ölümünə təəssüflənmirdi. Əslinə qalsa, dəyirmançını Bağır yox, ata-babasının bir cüt öküzlə min bir əziyyətlə dünyanın o başından gətirdiyi daş, elə bil maqnit kimi özünə çəkdi. Daş daşlığıynan Şahnəzərin ədalarına dözmədi, sonradan-sonraya hazırına nazir olan Şahnəzərlə kəllə-kəlləyə gəldi. Şahnəzərin hənirtisi kəsiləndən sonra dəyirman bayaqkı kimi xırıldaya-xırıldaya, zarıya-zarıya yox, çox aramla, qəribə bir ahəngdarlıqla işləyirdi. Çax-çaxın cır səsində də, sanki bir məlahət vardı.

Bağırın gözləri dəyirmançının hərəkətsiz cəsədinə zilləndi. Özü ilə gizlincə danışmağa başladı. - Ömrümün bu çağında əlimi it qanına buladım. O, ölsə də, öz torpağımıza qovuşacaq. Sabah da ağlıyanı olacaq. Qalaçalıların çiynində qəbrə gedəcək. Hamı ona rəhmət deyəcək, üstündə Quran oxunacaq. - Ölən inək südlü olar - deyiblər. Deyəcəklər ki, Qalaça canını Şura hökumətinin yolunda qoyan nərini, əməli-saleh bəndəsini itirdi. Qadınlar üstündə göz yaşı axıdacaq, neçə gün ona yas tutulacaq, ehsan veriləcək. Bağır, sənin də dalınca danışıb lənətləyəcəklər. Deyəcəklər, haqsız yerə Şahnəzər kimi vicdanlı firqəçinin qanına bais oldu. Sonra da səni burdan elə sürsünlər ki, yerin-yurdun da bilinməsin! Qoca vaxtında qəzəmətdə çürü, yad torpaqlarda basdırsınlar. Qəbrinin yeri də bilinməsin. Kimə deyəsən, kimi inandırasan ki, günah öləndədi. Şahnəzər çoxdan gəbərməli idi. O xasiyyətinən tezi-geci birinin çomağına rast gəlməliydi. Xatası mənim başımda çatladı. O, oldu haqq, mən oldum nahaq. Dünyanın işi belədi. Bağır, indi öz cəzandır, çək. Özü də bir ağnağaz dənə görə. Gərək səbr eləyəydin. O





dəliydi, sən ağıllı tərpənəydin. Sülək Şahnəzər kimilərinə baş qoşmayaydın.

Bağırın fikri dərinlərə gedib çıxdı. Axırda da:

- Olacağa çarə yoxdur, iş adam başına gələr. İnsan təkcə xoşbəxtlik üçün yaranmır. Dünyanın qəmini, kədərini çəkən, bədbəxtliyinə tablaşan da lazımdır. Qəzadan qaçmaq olmaz. Bu günümə də şükür. Bundan betəri də ola bilər. - Öz-özünə toxtaqlıq verdi. Bir təsəllisi də o oldu ki, mən güdaza getsəm də, camaatımızın yaxasını sülək Şahnəzərdən qurtardım. Bunun üstündə qoy qırmızıpapaqlılar məni tapançanın qabağına qatıb, hara aparırlar aparsınlar. Ömrümə də nə qalıb ki?! Onsuz da əzrayıla bir can borcluyam. Ona da hər dəqiqə hazıram. Kişi ölümündən qorxmaz. Ölüm Allah əmridir. Bir də, Cahangirdən haram artıqdır?!

Novun qıjıltı ilə gələn suyu ağır pəri sürətlə hərləyirdi. Dəyirmi daş aramla fırlanıb, üyütdüyü unu uzunsov təknəyə atırdı. Çax-çax da öz işindəydi. Təndirin də odu getdikcə sönürdü. Əyri dirəkdən asılmış hisli çırağın zəif və titrək işığı, darısqal dəyirmana çökən sükutu daha da ağırlaşdırırdı. Sücəddin və Minayə ayaq üstə quruyub qalmışdılar. Və gözlənilmədən baş verən hadisənin aqibətini düşünürdülər.

Bağır düşündü ki, dəyirmanı belə qoyub getmək olmaz. Dənlikdən, dən qurtarandan sonra daş daşı yeyib korlayar, dəyirman sıradan çıxar. Təmkinini pozmadan, üzünü Sücəddinə tutaraq:

- Sən burda qal, Minayəni tək qoyma, eymənər. Mən yuxarı qalxıb dəyirmanın suyunu sovmalıyam, - deyib qapıdan çıxdı.

Sücəddin Minayənin xısın-xısın ağladığını eşidib,

onu sinəsinə sıxdı. Əli ilə yanaqlarından süzülən göz yaşını silə-silə:

- Niyə ağlayırsan, kimdən ötrü yaş tökürsən?!

Sücəddinin sualı Minayəyə qəribə gəldiyindən cavab vermədi, bir qədər susduqdan sonra:

- Atamın başına gələni, onsuz keçəcək qara günlərimi, - Minayə bunu deyib hıçqırdı.

Sücəddin:

- Bilirsən, Minayə, - dedi. - O barədə səndən qabaq fikirləşmişəm və belə bir qəti qərara gəlmişəm ki, dəyirmançının öldürüldüyünü öz boynuma götürüm. Şahnəzər firqəçi olduğu üçün hökumət bu hadisəyə siyasi don geydirib, öldürənə on ildən çox iş kəsəcək. Bağır əmi qocadı, xəstəhaldı, qəzəmətdə çox yaşaya bilməz. Mənsə cavanam, dözərəm, neçə il versələr, cəzamı çəkib qayıdaram. Ola bilsin, məni atam yatan tərəflərə göndərsinlər. Sibirdə bəlkə onu soraqlayıb tapa bildim. Sibir nə qədər soyuq olsa, atamın nəfəsi qoymaz donam. Atamın nəfəsi gələn havada heç vaxt üşümərəm. Bir də ki, sevdiyim bir qızı gözüyaşlı görmək mənim üçün çətindi. Bağır əmidən sonra hər gün axıdacağın kədərli göz yaşlarına qəlbim tab gətirməz. Burdakı işgəncəm, qəzəmətdə çəkəcəyim cəzadan qat-qat ağır olar. Məni daha çox narahat edən bir məsələ var, - Sücəddin sözünün dalını gətirməmiş: - hansı çətinliyi deyirsən? - Minayə tələsik soruşdu.

- Qəzəmətimi çəkib qayıdana qədər yolumu gözləyə biləcəksənmi?! Minayə, buna səbrin, qətiyyətin çatacaqmı?!

Onların arasında gedən bu söhbət Minayənin göz yaşlarını bir qədər qurutmuşdu. O, indi nisbətən sərbəst danışırdı:





- Səndən belə namərd söz gözləməzdim, Sücəddin. - Ona etirazını bildirdi. - İlk gündən demişəm, özün də yaxşı bilirsən. Ya səninəm, ya da qara torpağın. Üçüncü bir şey ağlına gəlirsə, bu, mənim üçün təhqirə bərabər inamsızlıqdı. Bütün yaranmışlar kimi, mənim də bir ürəyim var, onu da sənə vermişəm. Artıq o səndədi, hara getsən arxanca sürünəcək. İkinci ürəyim olsaydı, ayrı məsələ, onda bəlkə də haqqımda başqa cür düşünə bilərdin. O da ki, mümkün deyil. İlahi, birdən-birə sən məni necə alçaltdın?!

- Sənə qəlbən inandığım şübhəsizdi. O da var ki, ürəklə dil bir bədəndə olsalar da, aralarındakı məsafə uzun, qaranlıq və qətolunmazdır. Hərəsi bir amala qulluq eləyir. - Sücəddin qızın bu sözdən inciyə biləcəyindən ehtiyatlanıb, onun könlünü almaq üçün Minayənin başını sinəsinə sıxdı və - zarafat eləyirəm, - dedi, - sənin dilin də, qəlbin də birdi.

- Bacın olsa da, görünür, məni Növrəstə kimi aravuran, paxıllarla dəyişik salırsan. İndiyə qədər bu cür alçalmamışdım, - Minayə bunu deyib, huşunu itirən kimi oldu və müvazinətini itirib yıxılmaq istəyəndə, Sücəddin tez onu tutdu. Minayənin ağzı köpükləndi. Sücəddin tez əl dəsmalını isladıb onun alnına qoydu və: - Bağır əmi gəlir! Bağır əmi gəlir! - deyib silkələdi. Minayə birtəhər özünə gəlib gözünü açdı. Sücəddin riqqətlə ona baxaraq:

- Eh, Minayə, Minayə! - dedi. - Bütün varlığımla sevdiyim qızı sınamaq üçün bu sözləri elə-belə dedim. Sən isə zarafatyana işlətdiyim kəlmələri ciddi qəbul edib o dəqiqə özünü itirdin.

Minayənin eyni açıldı və incə barmaqlarını Sücəddinin üz-gözündə gəzdirdi. Sücəddin onun əlini götürüb ürəyinin başına qoydu və:

- Bu, qəti fikrimdir, - dedi. - Bağır əmiynən mübahisəmiz düşsə, mənim tərəfimi saxlayarsan. Razılaşdıqmı?! - əlavə etdi. - Dediyim kimi də olmalıdır, dəyirmançını mən öldürmüşəm, vəssalam! Bütün varlığımla vurulduğum bir qızın yolunda qəzəmətə yox, ölümə də getməyə hazıram. Təki sənin gözlərin yaşlı qalmasın, qəmdən, kədərdən uzaq olasan. Onu da unutma ki, sənsiz keçən günlərim, mənə cəhənnəmin əzabından betər əziyyət verəcək.

Yuxarı tərəfdən Bağırın səsi eşidildi. Novun suyu sovulduğundan pərin səsi kəsilmişdi. Dəyirman yasa batıbmış kimi susmuşdu. Bağır yorğun, peşman addımlarla onlara tərəf gəlirdi. Sanki başını itirmişdi. Nə edəcəyini bilmirdi. Sücəddin cəld içəri girib dağardakı buğdanı dəyirmanın dənliyinə boşaltdı. Balaca kürəklə təhnə dolu undan bir o qədər öz dağarcığına yığıb çölə çıxdı və Bağıra verərək:

- Siz bunu da götürün, ləngimədən qayıdın kəndə. Mənnən də işiniz olmasın. Vəziyyətdən çıxmaq üçün, burada qalıb bəzi işləri görüb qurtardıqdan sonra arxanızca gəlirəm. Bir də ki, Bağır əmi, məsələnin üstü açılsa, sizin heç nədən xəbəriniz yoxdur. Dəyirmançının ölümünü öz boynuma götürməliyəm. Sonrasını da özüm bilərəm.

Bağır Sücəddinin bu sözündən sarsıldı:

- Oğul, yəni deyirsən, mən cinayət eliyim, cəzamı başqası çəksin?! - Ona etirazını bildirdi. - Sən hələ cavansan, gələcəyin var, mənsə yaxşı-yaman, günümü görüb, ömrümü başa vurmuşam. Bu dünyanın işləklərini ki, belə görürəm, mənə qəzəmət xoşdu. Məni o qədər də aciz bilmə, bu işin üstündə nə qədər qəzəmət versələr,





çəkməyə hazıram. Orada ölərəm, qalaram, o Allahın işidi. Mən dura-dura saa qıymaram...

Bağır tövşüyə-tövşüyə daha nə demək istəyirdisə, Sücəddin ona aman vermədi:

- Bağır əmi, indi məsləhət-məşvərət vaxtı dəyil! - dedi. - Dediklərinizi və demək istədiklərinizi hərtərəfli fikirləşmişəm. Sözüm də qətidi. Yalvarıram, siz yubanmayın, aradan çıxın. Xətrinizə dəyməsin, qaldıqca mənə mane olursunuz. Onu bilin ki, heç vaxt razı olmaram ki, yaşınızın bu vaxtında saqqalınızı aparıb hökumətin əlinə verəsiniz. Necəsini özüm bilərəm. Di durmayın! Qəfildən gəlib-eləyən olar! Sizi burada görsələr, işlər korlanar.

Bağır Sücəddinin qırımını necə gördüsə, sözü çevirmədi, onun qətiyyəti qarşısında geri çəkildi və - ağıl yaşda deyil, başdadır. Cavan olsa da, yəqin çıxış yolu fikirləşib, - düşündü və könülsüz-könülsüz un dolu dağarcığı çiyninə alıb Minayə ilə birlikdə düzəldi yola.

Bağır getsə də, fikri dəyirmanda qalmışdı. Tərəddüdlər burulğanından uzaqlaşa bilmirdi. İndi də başqa cür fikirləşirdi. Çiynində un dolu dağarcıq, qızına tərəf baxmadan deyinə-deyinə gedirdi.

- Nahaq Sücəddinin sözünə baxdım. Guya qalıb neyniyəsidir, ölü diriləcək?! Yaxşısı odur ki, rayona gedib boynuma alım. Hadisə necə olub, o cür də danışım. Düzünü boynuma alsam, maa güzəştə gedərlər, çox incitməzlər. Cəzam yüngülləşər. Gizlətməyin mənası yoxdur. Hökuməti aldatmaq mənə baha başa gələr. Onsuz da tezi-geci bu həngamənin üstü açılmalıdır... Cidanı çuvalda gizlətmək olmaz.

- Ata, bu məsələdə Sücəddinin işinə qarışma. - Mina-

yə dilləndi. - Sən dəyirmanın suyunu sovmağa gedəndə nə edəcəyini mənə hərtərəfli danışıb. Məqsədi odur ki, səni ələ verməsin. İşin üstü açılsa, desin ki, dəyirmançını mən öldürmüşəm. O, nə danışsa, razılaş, yaş səni haqlayıb, xəstəliklər də əl çəkmir. Qəzəmətə girən vaxtın deyil. Sücəddin sidq-ürəkdən çalışır ki, bu bəladan qurtarasan.

Bağır yorğun və titrək səslə:

- Nə deyirəm, ay qızım, Allah ağzından eşitsin. Təki o deyən kimi olsun. Ancaq Sücəddinin sözləri beynimə batmır. Yoox! - Bağır başını buladı. - Nə deyirsən, de, bu iş əvvəl-axır açılmalıdır. O gorbagor firqəçi olduğundan, deyəcəklər, burda düşmən barmağı var. Şahnəzəri qəsdən öldürüblər. Hökumət düşmənini başına buraxmaz. Yerin deşiyində olsa da, tapıb cəzasını verməlidir. Sücəddin belə işlərdə hələ xamdır... Onun bilmədikləri çoxdur. Bir də ki, ay qızım, axı mənim əvəzimə niyə başqası güdaza getsin?!

Bağırla Minayə dərdləşə-dərdləşə, gecənin qulağına pıçıldaşa-pıçıldaşa gedirdilər...

* * *

Sücəddin hisli çırağın zəif işıq saldığı dəyirmandan Şahnəzərin ağırlaşmış cəsədini çətinliklə sürüyüb həyətə çıxartdı və su dolu arxa saldı. Meyid əvvəl suyun dibinə batdı. Sücəddin onun islanmış paltarından yapışıb yuxarı qaldırdı. Suyun üzünə qalxan cəsədi arx boyu çəkib aparmağa başladı. Sücəddin tələsdiyindən pal-paltarlı arxa girmişdi. Çarıqlarını çıxartmağı belə unutmuşdu. Cəsədi suyun axarı ilə çaya qədər çəkib aparınca, anasından əmdiyi süd burnundan gəldi. Kol basmış arxın keçdiyi qamışlıqda o qədər əlləşmişdi ki,





üz-gözündən sel kimi tər axırdı. Çalışdığı o idi ki, meyidi çaya salıb Dəvəbatana qədər aparsın. Meyid ora düşəndən sonra, qorxusu yoxdu, göydən fələk də gəlsə tapa bilməz. Sücəddinin əsas məqsədi o idi ki, izi itirib aradan çıxsın. Gecəykən Bağırın və ya Sücəddinin dəyirmana gəldiyini bir inni-cinni görüb-bilməyəndən sonra, kim idi onlardan şübhələnən?! Ən əsası da odur ki, dəyirmançının öldüsü-qaldısı bilinməyəcək. Qənirə ilə Səftərin köhlən atı kimi sirr olaraq qalıb, sonra da yaddan çıxacaq. Sücəddin bunları fikirləşə-fikirləşə meyidlə əlləşirdi. Onun qol-qıçı yorulub heydən düşmüşdü. Bütün bədəni key kimi olmuşdu. O, dincini almaq üçün qurumuş bir kötüyün üstünə oturub, kürəyini saçaqları çaya sallanan söyüd ağacına söykədi. Özündən asılı olmayaraq, onun göz qapaqları yumuldu, tez də huşa getdi. Sücəddin onda ayıldı ki, hava işıqlanıb. Artıq səhərdir. Mavi rəngli çöl göyərçinləri səmada dövrə vurub, yenə də dəstə ilə çayın kənarında dikələn hündür qayaların arasındakı yuvalarına qayıdırdılar. Tənha bir qartal üzüaşağı yamaclara baxa-baxa göyün ənginliklərində sakit qanad çalır və ovunun üstünə şığımaq üçün fürsət axtarırdı. Sahildəki bağ-bağatda məskən salan cürbəcür quşlar vəcdlə səs-səsə verib, sanki sübhün açılmasını təntənə ilə bayram eləyirdilər. Coşğun suların da səsi başqalaşmışdı. Bu möcüzələr aləmində yalnız gecə yarıdan bəri meyidlə əlləşən Sücəddin cəhənnəm əzabı çəkirdi. O, yatıb yuxuya qalmasından, vaxtı itirməsindən dilxor olub, əlini dizinə vurdu və özünü danladı. Tez meyidi suyun dərin yerinə salıb çay aşağı aparmağa başladı. Başqa cür də mümkün deyildi. İki-üç adam olsaydı, ayrı məsələ. Onda meyidi Dəvəbatana qədər, çayın açıq

yeri ilə yox, ağacların arasından keçən quru cığırlarla aparmaq olardı. Onda iş asanlaşar, həm də kənardan görməzdilər. Sücəddin çayın gah dərin, gah dayaz yerlərində sualtı daşlarla əlləşməkdən haldan düşmüşdü. Meyid suda yüngülləşdiyi üçün Sücəddinin başqa çarəsi yoxuydu. O, cəsədlə birlikdə təkbaşına çay aşağı getməli idi. İndi hava işıqlandığından qorxu hissi onu təhdid edirdi. Yan-yörədən keçənlər meyidi hər an görə bilərdilər. Burada bir qayda olaraq, torçular balıq tutmaq üçün ya sübh tezdən, ya da ki, şər qarışanda çay kənarlarına çıxırlar. Çünki həmin vaxtlar balıqlar suyun dayaz yerlərində üzür və torun xəzinəsinə asanlıqla düşürlər.

Sücəddinin Dəvəbatana çatmasına az qalmışdı. O, meyidi suyun üzü ilə çəkə-çəkə irəlidəki qara daşların arasından keçirib sola burulanda, Şahnəzərin uzaq qohumu torçu Gülmalı ilə xapaxap üz-üzə gəldi. Gülmalı meyidə baxanda ağlı başından necə çıxdısa, istədi girəvə ikən Sücəddini elə buradaca öldürüb qana-qan eləsin və qisas yerdə qalmasın. Ancaq beş Gülmalı kimisi gəlsə, Sücəddinə bata bilməzdi. Bunu Gülmalının özü də başa düşürdü. Düşünürdü ki, Sücəddinin gözünü qan alıb. Artıq-əskik hərəkət etsə, onun özünü də Şahnəzərin gününə salar. Ona görə də bir qədər mülayimliklə:

- Bu nə namərdlikdir eləmisən, Sücəddin?! - dedi. - Səni qınamıram, siçandan olan dağarcıq kəsər. Atan Cahangir Qənirə kimi gözəl-göyçək qızın başını əkdi. Səftərin də köhlən atını it-bata saldı. Tut ağaclarını da altdan-altdan qırıb tökürdü ki, barama qurdları qırılsın. Qazandığı nə oldu?! Hökumət o cür əməllərinə görə ilim-ilim itirdi, indi yeri də bilinmir. Dədən Cahangirin başına





gələnlər saa görk olmayıb?! İndi də yazıq Şahnəzərin ağzı çörəyə çathaçatda bir bölük külfətini başsız qoydun. Onun sənə nə pisliyi keçmişdi?! Mən bu yaşımda bir toyuğun başına bıçaq çəkib, qan tökməyə ürəyim gəlmir. Sən isə yumurtadan çıxan kimi bu cür bəd əməllərə qurşanmısan! Qan tökürsən! Gör yekələndə nə həngamələr törədəcəksən.

Sücəddin o cür yolların yolçusu deyildi. O, Minayəyə olan məhəbbətinin oduna düşmüşdü. Ancaq onu içəridən yandıran alovun istisini-tüstüsünü özündən başqa heç kim görmürdü, heç kim duymurdu. Bircə burdakı beli bükülü dağlar, qayalar Sücəddinin nələr çəkdiyinin şahidi idi. Sücəddin atası yaşında olan torçu Gülmalının qarşısında müqəvva kimi quruyub qalmışdı. Günahı gücünü əlindən almışdı. Dinməyə dili, danışmağa sözü yox idi. Başını qaldırıb Gülmalının üzünə baxmaq üçün özündə cəsarət tapmırdı. Nəhayət, qamətini düzəldib, baxışlarına qətiyyətli ifadə verdi:

- Atam barədə günaha batırsan, Gülmalı əmi, - dedi. - Dibi görünməyən quyuya daş atmazlar. Ancaq mənə nə desən haqqın var. Bu rəhmətliyə görə, - o, ləpələrin döyəclədiyi meyidi işarə etdi, - günahkar olduğumu boynuma alıram. Ancaq nə etməli, Allah-taala insanların hamısını bir ağılda, bir kamalda yaratmır. O gözəgörünməzin işidir. Kimini xeyirxah, kimini də mənim kimi cəllad, başkəsən yaradıb. Qismətimə düşən xasiyyət belədir. Taleyim belə gətirib. Ancaq istəməzdim ki, həyatda bədxah kimi ad çıxarıb, əhatəsində olduğum insanların nifrət, söyüş hədəfinə çevrilim. Düzdür, Şahnəzəri qətlə yetirən mən olmamışam. Ancaq inansan da, inanmasan da, əsl həqiqəti deməliyəm. Mən dəyirmana dən növbəsi tutmağa gəlmişdim. Sən demə, Şahnəzər bu ge-

cə məndən qabaq ölüm növbəsində dayanıb, qatilinin yolunu gözləyirmiş. O da mənim kəm taleyimə düşdü. Mən öldürmüşəm. O, ölməliymiş. Yazı beləymiş. O, mənimlə insan kimi yox, atamın, babamın torpağını, bağını, dəyirmanını, cütünü-öküzünü əlindən alıb quru yurdda qoyan firqəçilər kimi rəftar etdi. Sözümüz çəp gəldi. Əlbəyaxa olduq. Onun ayağı büdrədi, dəyirmanın təhnəsinə yıxıldı. Başını mən yox, dəyirmanın ağır daşı əzdi. Mən yox! Gülmalı, dəyirmanın daşı!!! Bunu bil! Çünki o daşın cəfakeşi bizik. Onu ata-babam Qarabağdan nə zillətlə gətirib. Ondan ötəri yeddi gün, yeddi gecə araba sürüblər. Yonub, hamarlayıb sahmana salıblar. Neçə ildi o daş insanların karına gəlir. Müştərilərinin varlısıyla yoxsuluna fərq qoymur o daşcığaz. Gecə-gündüz xeyir-bərəkət yuvasında hərim-hərim hərlənib, dəni yumşaq un eləyir. İstər arpa olsun, istər buğda, istər darı. O daş üçün hamısı birdir. Ancaq Şahnəzər qorxub-çəkindiklərini, asılı olduqlarını qabağa salıb, mənim kimi düşmənin, qalaçalıların rişxənd edib şübhə ilə baxdıqlarını sinəsindən itələyib dəyirmandan çıxarır, növbəyə belə götürmək istəmir. Arxalı ilə arxasıza fərq qoyur. Ona görə də daş daşlığı ilə dözmədi. Qudurub yolundan çıxan sülək Şahnəzərin haqsızlığını görüb mənə qahmar çıxdı, onun başını əzdi. Yenə deyirəm, mən yoox! O dili, ağzı, şüuru olmayan daaş!! Nə gizlədim, canımın qorxusundan bu azğın bəndənin meyidini Dəvəbatana salıb izini itirmək, yaxamı qurtarmaq istəyirdim ki, yurdumun tüstüsü kəsilməsin. O da gördüyün kimi baş tutmadı. Səni agah etmək üçün bunları dedim. İndi mən getdim, Gülmalı əmi, ya qismət bir də görüşək, ya görüşməyək! Get, Qalaça camaatına car çək ki, Sücəddin adam öldürüb! Firqəçi Şahnəzəri qətlə yetirib...





Sücəddin bunları deyib yola düzələndə bayaqdan bəri onun dediklərinin sehrinə düşən Gülmalı:

- Meyidi ortada qoyub hara belə qaçırsan?! - Arxadan onu səslədi. - Buna başınla cavab verməlisən.

Sücəddin ayaq saxlayıb geri döndü. Baxışlarına ciddi ifadə verərək:

- Yoox, Gülmalı əmi, səhvin var, hara qaçıram, kimdən qaçıram?! - dedi. - Etdiyim bu cinayətin cəzasını çəkməyə gedirəm. Hardasa boş qalmış qapısı qıfıllı qaranlıq bir məhbəs insansız darıxır, bəlkə də elə mənim həsrətimi çəkir, ora tələsirəm. Riyakarlıqla işıqlanan dəbdəbəli saraylardansa, mənə o qaranlıq zindan xoşdu. Oradan ötəri necə də darıxıram, ilahi! Axı, dörd divar arasındakı qaranlıq zindanları da ilahinin xəlq etdikləri yaradıb. Ora heç vaxt boş qalmamalıdır. Ora günahkarlardan çox günahsızlara nəsib olur. Ora düşənlər bəlkə də Allah-taalanın xoşbəxt bəndələridir. Qəzəmətin darısqal küncünə qısılanlar dönük üzlərdən, yalan sözlərdən, pis əməllərdən xilas olurlar. Getdim, Gülmalı əmi! Rica edirəm, məni ləngidib bəxtimə düşən xoşbəxtliyə qovuşmağıma mane olmayın!

Yuxusuz gecə, ağır cinayət, yorğun insan... Sücəddinin başına sanki hava gəlmişdi. Onun dedikləri qızdırmalı adamın sayıqlamasına bənzəyirdi. Sücəddinin düşünüb-daşınmadan dedikləri, bəlkə də torçu Gülmalının dərrakəsinə o qədər də çatmırdı. Ancaq onu əhatə edən dağlar, daşlar çox güman ki, Sücəddini anlayıb başa düşürdü. Və bu üzüaşağı süzülüb gedən sular pak qəlbli, acı taleli insanların müsibətlərinə tab gətirməyən bakirə çöllərin göz yaşları idi.

Sücəddin aralanıb gözdən itəndən sonra Gülmalı me-

yidi çayın ləpədöyənindən aralayıb quru qumsallıqda, yönü qibləyə çevirdi və başalovlu xəbərə getdi.

* * *

Sücəddin birbaşa üz tutdu rayon mərkəzinə. Onun üst-başından hələ də su süzülürdü. Fikirləşirdi ki, belə vəziyyətdə adam arasına çıxa bilməz. Odur ki, yolda tanımadığı malotarandan yalvar-yaxır eləyib kibrit aldı, dalda bir yerə çəkilib ocaq qaladı. Paltarlarını qurudub, çarıq-patavasını qaydaya saldı və yubanmadan yoluna davam etdi. Milis idarəsinin həyətinə daxil olanda təzəcə rəng çəkilmiş dəmir darvazanın qabağında bir neçə qırmızıpapaqlı dayanıb söhbətləşir və hərdən əllərini bir-birinə vurub gülüşürdülər. Sücəddinə elə gəlirdi ki, onlar dünyanın ən bəxtəvər bəndələridir. Nisbətən cavan görünən hündür boylu kiçik leytenantın gözü Sücəddinə sataşan kimi özündən çıxdı və:

- Ay yoldaş! İcazəsiz-zadsız burnunu hara soxursan?! De görüm, sənə kim lazımdı?! - qışqırıb ona təpindi.

- Nəçənnik lazımdı, onun yanına gedirəm, iki kəlmə sözüm var. - Sücəddin suçlu-suçlu cavab verdi.

- Elə gərək nəçənnik ola?! De görək, nə istəyirsən?! Bəlkə elə bir məsələdir ki, biz özümüz də həll eləyə bilərik?! - Kiçik leytenant əsəbiləşdi.

- Xeyr, bu nəçənniklik məsələdir. Ancaq onun özünü görməliyəm. - Sücəddin yenə də eyni cavabı verdi.

Nisbətən yaşlı, deyib-gülən milis işçisi yarızarafat:

- Bizə demirsən, cəhənnəmə de. Çıx ikinci mərtəbəyə, yoldaş Pirimov orda oturur. Özü də kabinetdədir. - Çənəsi ilə həmin səmti işarə etdi.

Sücəddin onlardan sovuşub, taxta pilləkənlərlə açıq





və üzü şəhərə baxan uzunsov dəhlizə qalxdı. Ehtiyatlı addımlarla dəhlizin axırına qədər gedib sağ tərəfdə üzərində iri və qırmızı hərflərlə "Rayon Milis İdarəsinin rəisi podpolkovnik Bəhruz Pirimov" sözləri yazılmış şabalıdı rəngli qapıdan içəri daxil oldu. Gözləmə otağında əyləşib nə isə yazıb-pozan qapıçı başını qaldırıb ona laqeyd nəzər salaraq:

- Sizə kim lazımdır?

- Nəçənniyin yanına getməliyəm, vacib işim var.

- Savadınız var? - qapıçı soruşdu.

- Bəli. Necə bəyəm?!

- Savadınız varsa, qapının çöl tərəfində aydınca yazılıb, yapışdırılıb. Rəisin qəbulu hər həftənin beşinci günləri, saat on birdə başlanır. Siz isə ikinci gün, saat on olmamış özünüzü təpirsiniz içəri. Gedin, üç gündən sonra, qəbul günü gəlin. Qaydanı poza bilmərəm. Başa düşdünüz?!!

Sücəddin yazıqlaşdı:

- Başa düşürəm, - dedi. - Siz haqlısınız. Ancaq elə vacib məsələ var ki, onu rəisə çatdırmaq üçün növbəyə dayanıb gözləmək olmaz.

Qapıçı əsəbiləşib ayağa qalxdı:

- Ay insan, ay vətəndaş, niyə qanıb başa düşmürsünüz?! - dedi. - Sizdən ötəri rəisin qoyduğu qaydanı poza bilmərəm!! Gedin, qəbul günündə gələrsiniz. Məsələniz də vacib olduğu üçün sizi rəisin yanına birinci salaram. Bu da olar sizə köməyim.

Sücəddinin dilxorçuluğu daha da artdı:

- Nahaq yerə əsəbiləşməyin, - dedi. - Rəisi görməyincə, öldürsən də burdan gedən deyiləm.

Qapıçı istədi irəli yeriyib onun yaxasından yapışsın və zorla çölə çıxartsın. Lakin Sücəddinin baxışlarındakı

qəzəbdən hiss etdi ki, o, canından bezən adama oxşayır, əl qaldırsa, nəticəsi yaxşı olmaz. Ona görə də səsinin tonunu aşağı saldı:

- Görürəm, tərs adama oxşuyursan, - dedi. - Ras inad eləyirsən, keç otur o aşağıdakı stulların birində. İndi nəçənniyin başı bərk qarışıqdır, vaxtı olanda dediklərini çatdıraram.

Bununla da mübahisə qurtardı. Sücəddin sakitcə gözləmə otağının girəcəyində qoyulmuş stulların birində əyləşdi.

Əynində milis forması, orta boyu, dolu bədəni, nazik bığları olan qapıçı əsəbi halda başını aşağı salıb, yazı-pozusuna davam etdi. Onun qarşısındakı ensiz stolun üstündə müxtəlif rəngli bir neçə telefon qoyulmuşdu. Telefonlar cingildədikcə qapıçı dəstəyi qaldırıb:

- Rəis hələ gəlməyib.

- Yanında adam var.

- İşçiləri yığıb operativ müşavirə keçirir... - cavablarını verib, hərəni bir dillə başından eləyirdi. Bəzən də dik ayağa qalxıb müti görkəm alır və - Baş üstə! Baş üstə! - deyib zəng edən şəxsi tez-tələsik rəisin telefonu ilə calaşdırırdı.

İdarənin işçilərindən gözləmə otağına üç nəfər daxil oldu. Onlar çox həyəcanlı görünürdü. İrəlidə gedən təəssüflə başını bulayıb üzünü qapıçıya tutaraq:

- Əh! Oturduğumuz yerdə yenə zibilə düşdük! Ölüm hadisəsi baş verib, - deyib, dilxor halda rəisin kabinetinə keçdi. Onlar içəri tələsik girdiklərindən kabinetin qapısı tam örtülməmişdi. Ona görə rəisin səsi eşidilirdi. Bəhruz Pirimov baş verən hadisə barədə qısa məlumat verdi:

- Bu gecə Qalaça kəndində dəyirmançını öldürüb atıblar çayın kənarına. Öldürən məlumdur. Sücəddin





adlı cavan oğlandır. Atası siyasi məhbus kimi sürgün olunub. Dəyirmançı kommunist olduğu üçün yuxarılara da səs-küy salıblar. Prokuror zəng vurmuşdu, KQB bu işlə daha çox maraqlanır. Məsələyə ayrı cür don geyindirirlər. Guya ki, burda düşmən barmağı var. Hadisəni törədən hökumətin əleyhinə olanlardır. Dəyirmançının adı Şahnəzərdir. Deyilənə görə, hökumətin qurulmasında fəal iştirak eləyib. Bu barədə müxtəlif versiyalar irəli sürülür.

Rəis sol dirsəyini qarşısındakı stola dirəyib alnını ovcuna aldı, nə isə fikirləşdi. Sonra başını qaldıraraq:

- Nə qədər ki, qatilin yaxası əldə deyil, çox şey deyə bilərlər, - dedi. - Əsas odur ki, cinayətkarı təcili tapmaq lazımdır. Burada vaxtı itirmək olmaz. Avtobus dayanacaqlarını, dəmiryol stansiyalarını, Qalaça ilə əlaqəsi olan bütün kəndləri, yolları nəzarətə götürmək lazımdır. Çalışmalıyıq ki, cinayətkar əldən çıxmasın, rayon ərazisindən kənara qaçsa, onu tutmaq çətin olacaq...

Podpolkovnik Bəhruz Pirimov fikrini tamamlayıb ayağa qalxdı:

- Yaxşı, danışıq dananı qurda verər, - dedi. - Atları minin, düşün yola. Hər ehtimala qarşı milis işçilərindən də bir-iki nəfər götürün. Tapşırın bizim o tərəflərə baxan uçaskovu da hadisə baş verən kənddə olsun. Bir də ki, Qalaçada telefon yoxdur, Sovetliyin mərkəzindən mənnən tez-tez əlaqə saxlayın. Oranın pastayannı telefonçusu var...

Rəis tapşırıqlarını verib qurtaran kimi əməliyyat işçiləri stullarından qalxıb kabineti tərk etdilər.

Bəhruz Pirimov divardakı saata baxıb başını buladı. - Günortadan keçib, hələ çay da içməmişəm. - Öz-özünə deyindi və yan tərəfdəki hündür seyfin qapısını bağlayıb

kabinetdən çıxdı. Gözləmə otağında qapıçıdan, bir də ki, aşağı küncdə əyləşən Sücəddindən başqa heç kim yoxudu. Rəisin gözü kənar şəxsə sataşanda soruşdu:

- Bu yoldaş kimdi?

Qapıçı dik ayağa qalxaraq:

- Yoldaş podpolkovnik, onun kimliyini mən özüm də bilmirəm, - dedi. - Səhərdən buranı kəsdirib ki, rəisi görməliyəm. Deyirəm, bu gün qəbul vaxtı deyil! Başa düşmək istəmir. Nə qədər də deyirəm, getmir, üzünə salıb oturub...

Rəis zəndlə Sücəddinə baxdı, lakin bir söz demədi və üzünü qapıçıya tutaraq:

- Yaxşı, işin olmasın, ras gəlib qoy gözləsin, - dedi. - Bir stəkan çay içib qayıdıram, qəbul eləyərəm. Görüm nə demək istəyir, bəlkə vacib sözü var.

Rəis çıxan kimi ayaq üstə quruyub qalan qapıçı öz yerində əyləşib, hara ilə danışmaq istəyirdisə, telefonun dəstəyinə əl atdı. Sücəddinin avazımış sifəti üstünə gəldi və bayaqkına nisbətən rəngi bir qədər duruldu. Qapıçı telefonun dəstəyindən əlini çəkib ona yazığı gəlirmiş kimi:

- Səhərdən buradasan, - dedi. - Yəqin acsan, həyətdə bufetimiz var. Rəisin deməsinə baxma, o hələ gec gələr, yen aşağı, yüngülvari çörək ye. Qurtarmayıbsa, yaxşı pitiləri olur.

Bu, Sücəddinin ürəyindən olan təklif idi. Dünəndən bəri onun dilinin altından su da keçməmişdi. Ancaq ehtiyat edirdi ki, bayıra çıxsa, onu tanıyanlardan birinə rast gələ bilər. Odur ki, gözləmə otağının küncündən tərpənmək istəmirdi. Çöldən ayaq səsləri eşidəndə əl dəsmalını çıxarıb, başı ağrıyırmış kimi alnına qoyur və üzünü yana çevirirdi ki, təsadüfən Səftər kimilərindən





biri peyda olsa, onu tanımasın. Ona görə də qapıçıya tərəf dönərək:

- Aclığım yoxdur, sağ ol, - deyib ona razılığını bildirdi.

İş gününün axırına yaxın dəhlizdən rəisin səsi eşidildi və çox çəkmədi ki, Bəhruz Pirimov özündən başqa iki nəfərlə gözləmə otağından keçib kabinetinə daxil oldu. Danışıqlarından hiss olunurdu ki, onlar da vəzifəli adamlardır. Qapıçı yaxınlıqdakı bufetdən onlara üç stəkan çay gətirtdi. Rəisin yanında söhbət xeyli çəkdi. Gün batarbatmaz podpolkovnik qonaqları ilə birlikdə içəridən çıxıb, müsahiblərini dəhlizin qurtaracağında yola saldı. Geri dönüb gözləmə otağından keçəndə ayaq saxlamadan Sücəddinə:

- Gəlin görüm dərdiniz nədir? - deyib kabinetinə daxil oldu. Sücəddin də onun arxasınca.

Hündür boyu, enli kürəyi, yana daranan qara yumşaq saçları, nüfuzedici baxışları olan podpolkovnik Sücəddinə oturmaq üçün yer göstərdi və sonra:

- Buyurun, eşidirəm, - dedi. - Başqa yerə getməliydim, vacib işim var. Ancaq sizə görə qayıtdım. Çünki söz vermişdim. Görürəm, səhərdən burdasınız, - əlavə etdi. - Hadisə, hadisə dalınca olur. Başımız açılır ki?! Dünən yenə yuxarı Qalaça kəndində əclafın biri dəyirmançını qətlə yetirib. Hadisə yerindən də qaçıb. İndi bütün milisi ayağa qaldırmışıq. Hələlik tapa bilmirik...

Sücəddin ayağa qalxdı:

- Yoldaş nəçənnik, - dedi, - sizin axtardığınız həmin əclaf mənəm, dəyirmançını öldürüb qaçan. Qəmbərov Sücəddin Cahangir oğlu. - Sücəddin bunu deyib suya düşdüyündən hərfləri güclə oxunan komsomol biletini çıxarıb podpolkovnikə uzatdı. Bu, onun şəxsiyyətini təs-

diq edən yeganə sənəd idi. Bəhruz Pirimov gözlərini qıyıb, komsomol biletindəki solmuş ad-familiyanı diqqətlə oxudu və başını qaldırıb qarşısında əyləşən qatilin gözlərinin içinə şübhəli nəzər saldı:

- Doğrudanmı bu hadisəni törədən sənsən?! - təəccüblə soruşdu.

Sücəddin:

- Bəli, mənəm, yoldaş nəçənnik, - təmkinlə cavab verdi.

Podpolkovnik əsəbiləşdi:

- Səhərdən gözləmə otağında sakit-sakit mısmırığını sallamısan, - dedi, - biz isə yerimizdə otura bilmirik, bütün milis sostavı ayağa qalxıb. Nə üçün gələn kimi özünü təqdim etmirdin! Bizi dağa-daşa salandan sonra...

Sücəddin suçlu-suçlu:

- Əslinə qalsa, sizin kimi mötəbər şəxsə əziyyət verib, dağa-daşa salmamaq üçün könüllü olaraq özüm öz ayağımla gəlmişəm, - dedi. - Lakin həqiqəti vaxtında çatdırmaq üçün qoyduğunuz qayda-qanun sədlərini keçə bilmədim.

- Hansı qayda-qanunları? - Rəis qeyzləndi.

Sücəddin:

- Nəçənnik, islanmışın sudan nə qorxusu, - dedi. - Xatirinizə dəysə də, dəyməsə də, deməliyəm ki, sizin qoyduğunuz qayda-qanunları. Qapıçıya qalsa, mən indi yox, bir neçə gündən sonra gəlib bu xəbəri sizə çatdırmalıydım. Müəyyən etdiyiniz qəbul günündə. Bu qaydanı pozduğum üçün qapıçı hələ bir məni sırtıq da adlandırdı.

Rəis gülümsündü və:

- Hazırcavab oğlana oxşuyursan, təhsilin nədir?! - soruşdu.

Sücəddin:





- Elə bir təhsilim yoxdu, orta məktəbdə oxumuşam, - dedi. - Atam da molla yanında şəriət öyrənib. Onun bütün kitablarını əzbər bilirəm. Cavan olsam da, dünyanın işdəklərindən az-çox başım çıxır.

Rəis bu sözləri eşidəndən sonra Sücəddinlə bir qədər ehtiyatla danışmağa başladı:

- Yaxşı, keçək əsl mətləbə, düzünü de görüm, bu hadisə necə olub?! Dəyirmançını niyə öldürmüsən?!

Sücəddin:

- Nəçənnik, ixtiyar sahibisiniz, - dedi, - vəzifənizi də yaxşı başa düşürəm. Yıxılmış bir adamla hər cür rəftar edə bilərsiniz. Cinayətkar olduğum halda sizinlə bu cür danışdığıma görə məni ayağınızın altına salmağa da haqqınız var. Lakin alicənab adam olduğunuz üçün sizdən əzazillik gözləmirəm.

Podpolkovnik:

- Mənim alicənab adam olduğumu hardan bilirsən?! - təəccübləndi.

Sücəddin:

- Özünüzün xəbəriniz olmadan nəinki sizi, bu məmləkətin bütün əlçatmaz böyüklərini hamı yaxşı tanıyır. Eşitməmisiniz ki, elin gözü tərəzi olar?! Bir də ki, yuxarılar aşağıdan çox aydın görünür. Kimin tutduğu vəzifəyə layiq olub-olmadığı, hansı məzhəbə qulluq etdiyi, idarədə, hətta ailədə necə davrandığı, nəyə qadir olduğu el-obaya bəllidir. Lakin həyatın dərsləri insanları ayıldıb, bildiklərini bildirməyənlər özlərini ağıl dəryası hesab edir. Çətin ki, onların başı qalda olsun. Qulağı dinc yaşamaq xatirinə, o cür arı yeyib namusu atanlar, dayaz dərrakələri ilə fəxr edib qürrələnirlər...

- Qəmbərov, deyəsən, çox dərinə getdin, burada na-

ğıl açma, bir az qısa elə. Sualıma da konkret cavab ver. Məni hardan tanıyırsan? - Rəis ciddiləşdi.

Sücəddin:

- Dərdlinin sinəsi dolu olar, - dedi. - Çox danışıb vaxtınızı aldığım üçün sizdən üzr istəyirəm. - Sücəddin sözünə davam etdi. - Sizi necə tanıdığımı açıb danışsam, asılı olduğum şəxs barədə dediklərim səmimiyyətdən çox yaltaqlıq kimi səslənər. Yaltaqlıq isə alçaqlıqdır. Baxmayaraq ki, alçaqlığı özlərinə rəva bilənlər yüksək səlahiyyət zirvələrini asanlıqla fəth edirlər. Yalnız onu deyə bilərəm ki, bu el-oba sizi insanlığını vəzifəsindən uca tutan bir nəçənnik kimi tanıyır. Mən də sizin yanınıza bu inam və ümidlə gəlmişəm. Zəndimdə yanılmadığıma əminəm.

Rəisin dodaqları qaçdı:

- Bunları eşitdim, - dedi. - Suallarımdan kənara çıxırsan.

Sücəddin:

- Sizinlə razıyam, - dedi.- Təvəqqe edirəm, məni insan kimi dinləyin. Çünki hər ikimiz dünyaya insan kimi göz açmışıq. Məni bu cür xoş üzlə qarşılayan şəxsə yalan danışsam, insanlığıma xəyanət etmiş olaram. Bu hadisələrin hamısı bir dağarcıq ağnağazın üstündə baş verib. Evdən un qurtarmışdı. Bir dağar dən aparmışdım ki, araya salıb üyüdüm, evdəkilər ac qalmasın. Ancaq dəyirmançı - yox! - deyib durdu. - Nə qədər yalvardım, dəyirmançı ipə-sapa yatmadı. Sözümüz çəpləşdi. Əlbəyaxa olduq. Dəyirmançı ilişib yıxıldı. Onun başı dəyirmanın üst daşına dəyməyi ilə, keçinməyi bir oldu. Mən quruyub qaldım. Çünki heç vaxt dəyirmançını öldürüb özümü bəlaya salmaq istəməzdim. İstəməzdim əlim insan qanına batsın. Lakin iş işdən keçmişdi.





Ağlıma gəldi ki, dəyirmançını çayda batırıb izi itirim. Bu heyndə təsadüfən torçuya rast gəldim. O, törətdiyim hadisənin üstünə çıxdı. Mən artıq yəqin etdim ki, heç bir vəchlə cəzadan yaxa qurtara bilmərəm. Düşündüm ki, etdiyim cinayəti üzüsulu boynuma alım. Kəndə getmədim ki, dost-düşmənimin, xüsusilə də nişanlımın gözü qabağında milis işçiləri məni qolubağlı atdöşü eləməsinlər. Allahın mərd bəndəsi bildiyim, sizin yanınıza gəlməyi qət etdim.

Sücəddin qatil olsa da, mərd bir oğlanın düşdüyü çətin vəziyyətin əzabı, podpolkovnikin də qəlbini ağrıtdı. Ancaq onun xilasının imkan xaricində olduğunu rəis də, qatil də yaxşı başa düşürdülər. Bəhruz Pirimov xəyallandı və:

- Yaxşı, mənim yerimə olsaydın, günahsız insanı qətlə yetirən bir cani haqqında nə kimi qərar qəbul edərdin?! - soruşdu.

- Layiq olduğu cəzanı verərdim.

- Onda məndən nə kömək gözləyirsən?

- Bu barədə sizdən yalnız bir xahişim var.

- Buyurun, - rəis sakitcə dilləndi.

Sücəddin:

- Bu, elə bir xahişdir ki, onun yerinə yetirilməsinin mümkünsüzlüyünü yaxşı başa düşürəm, - dedi. - Bu, sizin tərəfinizdən böyük bir risqə gedib, qanunu pozmaq, özünü zərbə altında qoymaq deməkdir. Ona görə də xahişimdən imtina etməyə tam əsasınız vardır. Mən isə sizdən əsla inciməzdim.

- Bir az konkret danış görüm, təmənnan nədir, - podpolkovnik əsəbiləşən kimi oldu.

Sücəddin:

- Etdiyim əmələ görə azı on il boynumdadır, - dedi.

- Bunu yaxşı başa düşürəm. Qürbət yerlərdə bu qədər qəzəmət çəkib sağ-salamat qayıdacağıma ümidim azdır. Ona görə rica edirəm, mərdlik göstərib, məni bu bir gecəliyə evə buraxın. Minayə adlı bir qızla nişanlıyam, yaxın günlərdə toyumuz olmalıydı. Özünüzə bəlli olduğu kimi, həmin anlarım məhkəmə zalında keçəcək. Artıq məni bəzəkli gəlin otağı yox, müttəhim kürsüsü gözləyir. Ona görə də nişanlımla, həm də evdə tənha qalan bir gözü mayıf bacımla axırıncı dəfə vidalaşmaq istəyirəm. Onlara deyiləsi bir-iki kəlmə sözüm var. Nəçənnik, sizin kökü çox qədimlərə gedib çıxan bir nəsildən olduğunuzu bilirəm. Ümid edirəm ki, mənə etibar edib, kəndimizə gedib-qayıtmağıma imkan verəcəksiniz... Məni hüzurunuza inam gətirib. İnsani inam! - Sücəddin bu sözləri xüsusi vurğu ilə dedi və ürəyini boşaldıb susdu.

...Onların söhbəti xeyli çəkdi. Artıq rayon mərkəzinə qaranlıq çökmüşdü. Mazutla işləyən kiçik elektrik stansiyasının yeknəsəq guppultusu eşidilirdi. Tavandan asılan yumru-yumru elektrik lampaları göz vura-vura közərib rəisin kabinetinə, milis idarəsinin uzunsov dəhlizinə sarımtıl işıq salırdı. Podpolkovnik qaşlarını çatıb, zəndlə onun üzünə baxdı və soruşdu:

- Sənin bura gəldiyini görən olmayıb?

- Görən olub, tanıyan yox.

Rəisin kabinetinə darıxdırıcı sükut çökdü. Podpolkovnik ayağa qalxıb kabinetin pəncərəsindən gecənin dərinliyini seyr etdi. Birdən onun alnında sıxlaşan qırışlar açıldı, xarakterinə xas olan məğrur görkəm aldı və qətiyyətlə:

- Get, - dedi. - Səni bu bir gecəliyə buraxıram, ancaq çalış, yaxan ələ keçməsin. Sabah iş vaxtının başlanmasına iki saat qalmış səni burda, bu kabinetdə gözləyirəm. Aydındır?!





Sücəddin:

- Mənə hər şey... aydındır, yoldaş nəçənnik!.. - dedi. - Sizin belə bir ağlasığmaz alicənablıq göstərməyinizin nə demək olduğunu izah edib, minnətdarlığımı bildirməyə söz tapa bilmirəm. - Sücəddin bunu deyib, rəisin önündə baş əydi. Və kabineti tərk etmək istəyəndə, rəis onu geri qaytardı. Kabinetin dal qapısını açıb, buradan birbaşa küçə boyu cərgələnən ağacların arasına enən taxta pilləkəni göstərdi:

- Bu tərəfdən get, sabah qayıdanda da həyətdən yox, buradan qalxarsan, birbaşa kabinetimə, qapı açıq olacaq.

Aydın məsələdir ki, podpolkovnik istəmirdi ki, qatili milis idarəsinin həyətindən keçəndə görsünlər.

* * *

Sücəddin dolaşıq küçələrlə, o qədər də böyük olmayan şəhərdən çıxdı. O, Qalaçaya çatmaq üçün azı üç saatlıq yol qət etməliydi. Lakin Sücəddin axtarışda olduğunu bilirdi. Ona görə də təsadüfən milis işçilərinə tuş ola biləcəyini nəzərə alıb, əsas yolla yox, yal-yamacla, çayın kol və qamış basmış sahilləri ilə gedirdi. Bəxtindən bədirlənmiş ay hər tərəfi gün kimi işıqlandırmışdı. Havada bir parça da bulud görünmürdü. Sanki bütün ulduzlar cəmləşib səmanın ənginliklərindən dara düşmüş zavallı insanı müşayiət edirdi.

Qalaçanın yal-yamacı görünəndə elə bil Sücəddin dinə-imana gəldi. Sanki doğma diyardan çoxdan ayrılmışdı. Sücəddin kəndin kənarından keçən dərədən qalxıb, ayın işığından yayınaraq, kölgə yerlərlə evlərinin arxa divarına çatdı. Və dırmanıb həyətə aşdı. İt şıqqıltını eşi-

dən kimi zəncirində dartınıb hürmək istədi. Lakin Sücəddinin hənirtisini alanda susdu, sevindi, atılıb-düşməyə başladı. Sücəddin qaranlıq dəhlizdən evin pəncərəsini tıqqıldatdı. Xısın-xısın bir-iki dəfə - Növrəstə! Növrəstə! - deyib bacısını çağırdı. Bacısı hövlnak yerindən qalxdı, qardaşının səsini eşidən kimi tez qapını arxadan açdı. Növrəstə qayıdıb lampanı yandırmaq istədi. Sücəddin qoymadı. - Olmaz, bacı, - dedi. - Məni güdürlər. Kənardan işığı görüb gələrlər. - Onlar qucaqlaşdılar. Növrəstə hıçqıra-hıçqıra:

- Əlimyandıda səni axtarırlar, - dedi. - Bu gün qapıya iki nəfər milis işçisi gəlmişdi. Onların biri neçə saatdı, dəhlizin küncündə oturub səni gözləyirdi. Məni həyətdən bayıra çıxmağa qoymadı. Xeyli sorğu-suala tutdu. Nə isə yazıb-pozurdu. Gördülər ki, gəlmədin, əllərini üzüb getdilər. Günortadan bəri idarədə oturub bir-bir adam danışdırırdılar. Bağır əmini də çağırmışdılar. Deyirdilər, Sücəddin dəyirmançı Şahnəzəri öldürüb. Bağır əmi də deyib ki, mənim heç nədən xəbərim yoxdur. Neçə gündür evdə xəstə yatıram. Sücəddini bir həftədən çoxdu görmürəm. Qonşular da Bağır əminin dediyini təsdiqləyib.

- İndi o milis işçiləri harda olar?! - Sücəddin soruşdu.

- Bir az bundan qabaq atlanıb hara isə getdilər. Amma deyirlər, kəndin qıraqlarında adam qoyublar. Səni pusurlar. - Növrəstə cavab verdi və: - Bəs Bağır əmiynən Minayə sənnən bir yerdə deyildilər? - soruşdu.

Sücəddin:

- Xeyr, mən dəyirmana çatandan xeyli qabaq onlar ağnağazı üyüdüb qayıtmışdılar, - dedi. - Üst yolla getdiyim üçün Bağır əmi ilə Minayə rastıma çıxmadı. Dən növbəsi üstündə dəyirmançı ilə sözümüz çəpləşdi. O,





ilişib yıxılanda başı dəyirman daşına dəydi, dəyirmançı o dəqiqə öldü. Ona bir çırtma da vurmamışam.

Növrəstə qardaşının bu sözlərini eşidəndə hönkürdü. Onun səsi eşidilməsin deyə, Sücəddin qolunu bacısının boynuna salıb dib otağa apardı və birtəhər onu kiridərək:

- Sakit ol, bacı, sakit ol! - dedi. - Olacağa çarə yoxdur. İndi ağlayıb şivən salmağın vaxtı deyil. Mən təcili rayona qayıtmalıyam. Milisə könüllü tabe olmalıyam. Dağlarda gizlənmişdim, xəlvət sizinlə görüşməyə gəlmişəm. Ləngisəm ələ keçə bilərəm.

Növrəstə yenə gözlərinə dəm verdi. Sücəddin də kövrəldi və tez də özünü ələ aldı, Növrəstənin qulağına əyilərək:

- Allah bilən məsləhətdir, - dedi. - Nahaq ağlayırsan. Hamı xoşbəxt ola bilməz. Yəqin biz müsibət çəkmək üçün yaranmışıq. Qismətimizə düşən qara günlərdən qaça bilmərik. Sən çox şeydən bixəbərsən. Mən bu saat getməliyəm. Minayəni xəlvət bura çağır. Ona bir-iki kəlmə sözüm var.

Növrəstəni yaş boğduğundan dillənə bilmədi. Və yalnız başının hərəkəti ilə: - çağıraram, - dedi.

Sücəddin:

- Elə et ki, Bağır əmi və Qızyetər xala burada olduğumu bilməsinlər. - Ona tapşırdı. - Guya darıxdığın üçün Minayəni çağırırsan. Özü də onlara küçə qapısı tərəfdən yox, mərəyin arxasından hərlən get ki, kənardan görüb şübhələnən olar.

Ev mühasirəyə alındığı təqdirdə Sücəddin ələ keçməmək üçün nə edəcəyi barədə əvvəlcədən ölçüb-biçmişdi. O, evin arxa qapısından anbara adlayıb pəncərədən qonşunun bağçasına düşməliydi. Ondan sonra

aradan çıxmaq asan idi. Sücəddin hər an buna hazır idi. Dəhlizdən taqqıltı səsi gəldi. Sücəddin səksənib pəncərəyə yaxınlaşdı. İçəridən baxanda çöl aydın görünürdü. Minayənin ayağı büdrəyib yıxılmışdı, Növrəstə onun qolundan yapışıb qaldırırdı... Sücəddin irəli yeriyib Minayə ilə görüşdü. Bacısı yanında olduğu üçün başqa cür hərəkət eləmədi. Sadəcə olaraq, nişanlısının alnından öpdü.

Növrəstə onların söz-söhbətinə mane olmamaq üçün bir bəhanə tapıb dəhlizə çıxdı. Həm də ona görə ki, gözünə kənar adam və ya Sücəddini güdən milis işçisi dəysə, qardaşına xəbər versin. Növrəstənin onları tək buraxması hər ikisinin də ürəyindən oldu. Sücəddinlə Minayə indi açıq danışa bilərdilər. Sücəddinin ilk sözü bu oldu:

- Burada bir saatdan artıq ləngiyə bilmərəm, Minayə! Bunun səbəbini izah etməyə vaxtım yoxdur. Qısaca onu deyə bilərəm ki, səndən sonra dəyirmançının meyidini Dəvəbatana salıb izi itirmək istəyirdim. Ancaq tərs kimi onun qohumu, torçu Gülmalı üstümüzə çıxdı. Bununla da bütün planlarım alt-üst oldu. Əvvəlcə onnan mübahisəmiz düşdü, ağlım başımda deyildi. Torçu alt-üst danışsaydı, onu da öldürməliydim. Lakin torçu Gülmalı qırımımı görüb mənnən qabaqlaşmaqdan vaz keçdi. Yalnız narazılığını bildirdi. Torçu ilə haqq-hesabı çürütmək üçün, insafım yol vermədi. Bir də ki, haqsız yerə insan qanı tökməkdən böyük günah yoxdur. Mən Tanrımın namərd, kəmfürsət bəndəsi olmaq istəmirəm. Torçu Gülmalıda qəti inam yarandı ki, dəyirmançı Şahnəzəri mən öldürmüşəm. Bağır əmi heç kimin ağlına gəlmir. Ağzınızdan başqa söz qaçırtmasanız, Bağır əmiyə dəyib-





dolaşan olmaz. Bütün bu dediklərimi Bağır əmiyə ətraflı izah edərsən ki, məsələnin nə yerdə olduğunu bilsin. Şübhə yox ki, mənə on ildən az iş kəsməzlər. Sevdiyim bir qızın yolunda on il qəzəmətdə qalmaq mənə faciə kimi gəlmir. Ona görə də özüm barədə yox, ən çox sənin haqqında düşünürəm. Axı, nə üçün on il mənim yolumu gözləyəsən. Allah-taala öz səxavətini əsirgəmədən sənə hərtərəfli gözəllik bəxş edib. Yaxşı bilirəm ki, kənddə səndən ötrü ölənlər çoxdur. Ürəyinə yatanlardan biri ilə həyat qurub xoşbəxt olardın. Ömrünü dərdsiz-qəmsiz başa vurardın. Mənsə sənə nəsib olacaq bəxtəvərliyi əlindən aldım, əvəzinə qəmli, kədərli günlərə düçar elədim. Bu barədə necə də böyük günahkar olduğumu etiraf etməyə bilmərəm! Minayə, buna görə qarşında diz çöküb dönə-dönə üzr istəyirəm. Bəzən ağlıma gəlir ki, bəlkə səni məndən də betər sevən bir məxluq qarğıyıb ki, arzu etdiyimiz vüsala çatmaq bizə nəsib olmasın. Günüm həbsxanalarda keçsin. Sən isə illərlə acı göz yaşları tökəsən. Ömrün ahu-zarla keçsin, heç vaxt üzün gülməsin. Buna inanıram, Minayə. Görünür, hər ikimizi kiminsə qarğışı tutub. Bəlkə elə Tanrının qəzəbinə gəlməyimiz də elə ona görədir.

Sücəddin danışdıqca Minayə sakitcə göz yaşı tökürdü. Sücəddin əlinin arxası ilə onun hər iki yanağından süzülən göz yaşlarını silə-silə:

- Minayə, görünür, bu da bir Tanrı yazısıdır, - dedi. - Biz bir-birimizə qismət deyilik, zorla sevib-sevilmək olmaz. Bəlkə də Bağır əmi ortaya girib bu söhbəti açmasaydı, aramızdakı sevgi sevdası heç birimizin ağlına gəlməzdi. Gözəlliyi qəlbimi fəth edən bir qızı dəlicəsinə sevdiyimi heç vaxt dilimə gətirə bilməzdim.

Sücəddin Minayəni sınamaq üçün heç də ürəyindən olmayan belə bir yoxlayıcı ifadə işlətdi:

- On il bir igidin ömrüdür. Ona görə nə qədər acı olsa da, deməliyəm. Əgər qəlbində başqa birisinə zərrə qədər məhəbbət işığı varsa, məni uzun illər gözləməyini istəməzdim. Bu həyatda uğurlarını itirmiş, sevən bir oğlan üçün nə qədər ağır olsa da, xoşbəxtliyə qovuşmağınızdan az da olsa təsəlli tapardım.

Minayə bu sözləri eşidəndə dağınıq saçlarını balaca əllərinin arasına alıb, başını sıxdı. Və fəryadla:

- İlahi, məni öldür! Qulağım bu cür namərd sözləri eşitməsin, - deyib bərkdən hönkürdü. - Sənə olan sevgimin bu cür təhqir olunduğunu əsla təsəvvür etməzdim. Gecənin bu dar vaxtı məni necə də alçaldırsan!! Əgər mənim səndən qeyri bir kimsəyə iynənin ucu qədər meyl göstərəcəyimi ağlına gətirə bilsən, bir dəqiqə özümü sağ qoymaram. Çünki sevgisinə xəyanət edən bir qızın işıqlı dünyada yaşamağa haqqı yoxdur. Elə o dəqiqə özünü asıb öldürməlidir. Və mən bunu əhdinə xilaf çıxanların ən yüngül cəzası hesab edərdim.

Minayə hirsindən halsızlaşdı, sifətinə soyuq tər gəldi. Sücəddin onun müvazinətini itirib, yıxıla biləcəyindən ehtiyat edib qollarından yapışdı və bir əlini Minayənin tər basmış alnına qoyaraq:

- Səndən üzr istəyirəm, Minayə! - dedi. - Nəzərə al ki, iki gündür ac və yuxusuzam. Hələ yol yorğunu olduğumu demirəm. Ona görə də başımı itirmişəm. Mənasını özüm də əməlli-başlı dərk etmədən, sənə qarşı yersiz sözlər işlətdim. Etdiyim qəbahəti bizim indiki ayrılıq dəqiqələrimizə bağışla. Bilirəm ki, sən o qədər də əzazil qız deyilsən. Yolunda, ömrünü qəzəmət divarları arasında keçirib, ölümə belə hazır olan bir oğlanı etdiyi qəbahətə görə əfv etməyi bacararsan.





Minayə özünə gəlib Növrəstəni soruşdu. Növrəstə tez otağa girib onlara yaxınlaşdı. Minayə Növrəstəyə üz tutaraq:

- Sücəddinin taxtın başından asılan hava rəngli üst köynəyi hardadır? - soruşdu. - O ki, mənə göstərib deyirdin ki, Dəlmə arxında işləyəndə tərdən islanmış köynəyini yumalıyam. Sonra başın nəyə qarışdısa yumadın. Qaldı səhərə. Bax, o köynək mənə lazımdır.

Sücəddinlə Növrəstə Minayənin bu sözünə təəccübləndilər. Növrəstə soruşdu:

- Necə, yəqin aparıb yuyub ütüləmək istəyirsən?! Sən Allah, zəhmət çəkmə, mən özüm...

- Xeyr, xahiş edirəm o köynəyi mənə göstər. - Minayə təkid etdi.

Növrəstə kilim çəkilmiş yükün üstünə atdığı köynəyi gətirib göstərdi:

- Bunu deyirsən? - soruşdu.

Minayə Sücəddinin tərli köynəyini Növrəstənin əlindən alıb qoxuladı. Sonra bərk-bərk bağrına basaraq:

- Sücəddin, sənsiz dəqiqələrimi bu köynəklə keçirəcəyəm, - dedi. - Hər gecə bu köynək mənim isti qucağımda olacaq, onun qollarını boynuma salıb yatacağam. Yuxuya gedəndə xəyalıma gətirəcəyəm ki, yanımdasan. Sənin tərli köynəyinin xoş rayihəsi şirin, sakit yuxularımın bələdçisi olacaq. Bir də ki, budur deyirəm, qoy bu sözü, bacın Növrəstə də eşitsin. Atam evində məni iki səfər gözləyir. Birincisi, toy paltarında bu evə, ikincisi, cənazədə atamın komasından qəbir evinə edəcəyim səfərdir. Üçüncü, hər hansı ünvana səfərim ola biləcəyini ağlınıza belə gətirməyin.

Minayə əyilib Sücəddinin dizlərini qucaqlamaq istədi. Lakin bacı-qardaş ona imkan vermədilər. Sücəddin həyəcanla:

- Məni bağışlayın, getməliyəm, gecə yarıdan keçib, ləngiməyə ixtiyarım yoxdur, - deyib qızlarla tələsik qucaqlaşıb öpüşdü. Və Minayəyə üzünü tutaraq:

- Bağır əminin xəstəliyini nəzərə alıb, onu narahat etmək istəmədim, - dedi. - Həm də vaxtım azdır. Atana deyərsən ki, görüşə bilmədiyimi üzürlü hesab etsin. Məndən inciməsin...

Sücəddin bunları deyib, dörd bir tərəfinə baxa-baxa həyətə çıxdı. Nə düşündüsə, it damına tərəf yönəldi. Qarabaş elə bil onu gözləyirdi. Cahangir Qarabaşı küçük vaxtı tərəkəmə çobanlarından iki vedrə gilasa almışdı. İtin sol gözünün ətrafına sanki qara haşiyə çəkilmişdi. Sinəsinin, belinin bir hissəsi qapqara, qalan yerləri ağappaq idi. Onu Qarabaş deyə çağırırdılar. Çox cins it idi. Havayı yerə hürüb evdəkilərin baş-beynini aparmırdı, insan kimi dil bilirdi. Cahangirdən sonra bir müddət qabağına yal tökəndə yaxşı yemirdi. Qabın yan-yörəsini könülsüz-könülsüz yalayıb geri çəkilirdi. Qarabaş indi o dərəcədə arıqlamışdı ki, qabırğaları sananırdı. Əvvəl dedilər, Qarabaş xəstələnib. Sonra get-gedə dirçəlməyə başladı. Bağır kişi dedi ki, xəstəlik-zad boş şeydi, Cahangirin xiffətini çəkir. Qarabaş Sücəddini görəndə sevindiyindən bilmirdi neyləsin. Gah Sücəddinin başına sıçrayır, yoğun biləklərini sahibinin çiyninə qoyur, gah da ayaqlarının altına sərilib çarıqlarını duz kimi yalayırdı. Elə bil zavallı heyvanın ağlına dammışdı ki, Sücəddini də Cahangir kimi gedər-gəlməzə göndərirlər. Sücəddin düşünürdü ki, Qarabaş qocalıb. Onsuz da itin ömrü az olur. Çətin ki, qəzəmətdən qayıdana qədər Qarabaş sağ





qalsın. Bilirdi ki, bu, onunla olan son görüşüdür. Sücəddin Qarabaşı qulaqlarının dibindən tutmuş qarnının altına, belinin qara zolaqlarına qədər tumarladı. Qarabaş da Sücəddini enli dili ilə, başdan ayağa o ki, var yaladı. Axırda Sücəddin Qarabaşın boynunu qucaqladı. İt nə isə duymuşdu, ona görə də Sücəddinin qarşısında eşim-eşim eşilirdi. Özünü torpağa sürtürdü, zingildəyirdi, sızıldayırdı, min oyundan çıxırdı. Qarabaşın həzin, iniltili səsi Sücəddini kövrəltdi. Deyəsən, Qarabaş da ağlayırdı. Onlar ayrıla bilmirdi. Ancaq Sücəddin təcili yola düşməliydi. Qarabaşla bir qədər baxışıb ayrıldılar. Bu baxışlardakı mənanı deyəsən, Qarabaş da başa düşmüşdü və Sücəddinə demək istəyirdi ki, get, sağ-salamat qayıt, qapı-bacadan da arxayın ol. Növrəstəyə də gecə-gündüz həyanam.

* * *

...Sücəddin milis rəisinə verdiyi vədi bir an belə yadından çıxarmırdı. Bilirdi ki, bir dəqiqə belə gecikmədən, vəd etdiyi vaxtda podpolkovnik Bəhruz Pirimovun yanında olmalıdır. Odur ki, dəhlizin axırıncı sütunu ilə dırmaşıb, tövlənin üstünə qalxdı. Arxadakı bağçaya düşüb əyilə-əyilə kəndin yaxınlığındakı dərəyə endi. Artıq onun ələ keçmək qorxusu yox idi. Dərənin boğazından sağa tərəf burulub, üst-başını qaratikan kolları didə-didə irəlidəki dik təpəni aşdı. Atasının və özünün ayaq izləri olan yumşaq qara torpaqdan bir-iki ovuc götürüb cibinə yığdı. Qayaların arasından keçən əyri-üyrü cığırlarla xeyli yol getdikdən sonra ayın işıq saldığı çayın səsi eşidildi. Sücəddin fikirli olduğundan onun ayağı çalaya düşdü və ilişib təpəsi üstə getdi. Ancaq tez əlini atıb, qayanın döşündə bitən əncir

ağacının qanadından yapışdı və xoşbəxtlikdən yıxılmadı. Ayağı yüngülvari burxulsa da, buna əhəmiyyət vermədi. O, rayona gedən əsas yola çıxandan sonra geri dönüb bu yerlərin aylı-ulduzlu gecəsi ilə axırıncı dəfə vidalaşdı və addımlarını yeyinlətdi. Onun saatı yoxudu. Ayın solğun işığından, bir də ki, yol kənarı kəndlərdə səs-səsə verən xoruzların banlamasından hiss edilirdi ki, səhərin açılmasına az qalıb. Buna görə də gecikməmək üçün eniş yollarda yerişini dəyişib, iri addımlarla yorturdu. İtnən qurd seçilməmiş, Sücəddin rayon mərkəzinə çatdı. Və dalda küçələrdən keçib rəisin dediyi kimi, arxa pilləkənlə onun kabinetinin dal qapısının qabağındakı balaca balkona qalxdı. Səki boyu cərgələnən cəviz ağaclarının qol-budağı balkonun dəmir cağlarına toxunurdu. Ona görə də kənardan keçənlər Sücəddini çətin görərdilər. Çox keçmədi ki, rəis arxa qapını açıb Sücəddini içəri dəvət etdi. Onların arasında heç bir söhbət olmadı. Podpolkovnik başını aşağı salıb kabinet boyu bir neçə dəfə o baş-bu başa sakit-sakit var-gəl etdikdən sonra stolun arxasına keçdi. Daxili telefonu qaldırıb iki nəfər əməliyyat işçisi çağırdı. Kabinetin aşağı tərəfində lal-dinməz əyləşmiş Sücəddini işarə edərək:

- Dünəndən axtarışda olan cinayətkar ünsür, bax, budur, - dedi. - Könüllü olaraq öz ayağı ilə gəlib çıxıb. Qalaçada dəyirmançını qətlə yetirən həmin vətəndaşdır. Sizdən qabaq bir balaca söhbətimiz olub. O, hər şeyi olduğu kimi boynuna alır. Aparın, məşğul olun... Axtarışa göndərdiyimiz adamlara da xəbər verin, geri qayıtsınlar. Oralarda havayı yerə vaxt itirməsinlər. Bu vətəndaşla da başqa cür rəftar etmək lazım deyil. Onsuz da təqsirini etiraf edir. O ki, qaldı baş vermiş hadisənin təfərrüatına,





istintaq aydınlaşdırar. Prokuror özü bu işlə ciddi məşğuldur.

* * *

...İstintaqın qurtarıb məhkəmə prosesinin başa çatması qışın ortalarına qədər çəkdi. Yol-rizi örtən qalın qar gediş-gəlişi çətinləşdirmişdi. Əslində heç günəşli günlərdə də Sücəddinin arxasınca gəlib-gedən yox idi. Bircə Bağır idi, o da yaşlaşmışdı, özünü güclə hərləyirdi. Həmişəki asıb-kəsən vaxtı olsaydı, əl-ayağını bağlasalar da evdə oturmazdı. Sücəddindən ötəri dünyanın o başınacan gedərdi, ondan bir xəbər tutardı. Heç olmasa dalınca çörək aparardı. Dəyişək paltarlarını çatdırardı. Sücəddinin yaxın-uzaq qohumları olsa da, candan yananı yox idi. Bacısı Növrəstənin də əlindən nə gəlirdi?! Növrəstə məhkəmə vaxtı Zabıxlı tayfasından olan qohumlarına qoşulub bir-iki dəfə rayona ayaq döydü. Onda da səmtə qoymadılar. Çünki məhkəmə prosesi qapalı gedirdi. Dörd bir tərəfi kəsən əli silahlı mühafizəçilər üçün istər kişi olsun, istər qadın, fərqi yoxudu. Əllərindəki tüfəngin qundağı ilə irəli duranların sinəsindən vurub geri qaytarır və heç kəsi yaxına buraxmırdılar. Tacəddindən də haray yox idi. İldən artıq olardı, onun səs-sorağı gəlmirdi. Nədənsə kağızının arası kəsilmişdi. Ağızdan-ağıza söz gəzirdi ki, guya xarici ölkəyə işləməyə aparıblar. Hansı ölkəyə? O da bilinmirdi. Ona görə də ata-anası ondan əllərini üzmüşdülər. Minayə də gündüzlər saatının xoş vaxtına düşəndə Növrəstəyə ötəri baş çəkirdi. Hərdən də minkirlənib deyirdi ki, gecələr Sücəddinin köynəyini sinəsi üstünə qoyub, qollarını boynuna salmasa, gözlərinə yuxu getmir.

* * *

Arada havalar bir balaca yumşalmışdı. Yolların qarı əriyirdi. Günortadan xeyli keçmiş kəndin poçtalyonu gəlib çıxdı. Son iki həftə ərzində yığılıb qalan kağız-kuğuzu indi gətirib çıxardırdı. O da azaylana-azaylana, minnət qoya-qoya. Poçtalyon onu əhatə edən kənd adamlarına üzünü tutaraq hey gileylənirdi:

- Maşın yox, atdan-zaddan da vermirlər ki, bu zığ-zımırıqda qıçımı üstünə aşıram. Piyada canımla beş para kəndin poçtu maa baxır. Bir belə əzab-əziyyətin qabağında aldığım nədi?! Tula payı maaş verirlər, onun da üstündən yüz yerə çıxırlar. İstiqraz, subaylıq, gəlir vergisi, həmkarlara üzvlük haqqı... Əlimə çatan qəpik-quruşun da çoxu yollarda dağıtdığım çarıq-patavaya gedir. Uşaqların yavanca çörəyini güclə çatdırıram. Hələ bununla belə maa minnət də qoyurlar. Hərə bir tərəfdən üstümə xoruzlanır ki, poçtu vaxtında gətirmirsən. Qabaqlar yenə xeyir-bərəkət vardı. Birinin uzaqdakı qohum-övladından məktub gətirəndə toyuq-cücədən, yağdan, yumurtadan muştuluq verirdilər. Zəmanədəndi-nədi, indi o da kəsilib. Üzümə qarşı deyirlər ki, borcundur, hökumətdən donluq alırsan, canın çıxsın, poçtu vaxtında gətir. Elə bil indiki adamların üzü dönüb. Poçtalyonluğun da xeyir-bərəkəti qaçıb. Amma di neynirsən, çoxları elə bilir, bu da bir vəzifədir. Belə bir vəzifəni Allah düşmənimə də qismət eləməsin. Kəndlərə ayaq döyməkdən dizlərimə su yenib. Birdən elə olur ki, həftələrlə ev üzü görmürəm. Arvad-uşaq da üzümə durur ki, bir vəzifədən ki, yönlü xeyir gəlmir, ondan niyə bərk-bərk yapışmısan?! Başına iş qəhətdi?! Ta demirlər ki, məni özbaşına qoymurlar. Sabah əyən-bəyən eləsəm, bir otkaz rabota yazıb, basarlar içəri. Ondan sonra di gəl, ölünü qoy, dirini ağla. Dərd birdi-ikidi, hansını deyim!





Orta yaşlı poçtalyon bəxtindən, taleyindən o ki, var giley-güzar edib ürəyini boşaldandan sonra, çiynindəki qara çantanın ağzını açıb onu dövrəyə alanların məktubunu, qəzetini, jurnalını bir-bir paylamağa başladı. O, rayon qəzetini verəndə:

- Burda yaxşı məqalə var, - dedi. - O adam öldürənin məhkəməsindən yazırlar. Höcət Cahangirin oğlu Sücəddindən. Düz on il nallıyıblar. Bu gün-sabah Sibirə-zada göndərərlər. Onda ağlı gələr başına. Di get, oralarda don, canın çıxsın! Elə bilirlər, adam öldürmək havayıdı. Qəzəmət o tərəfə qalsın, Sibirin soyuğundan qurtarmaq olar?! Gedib-gələnlər deyir ki, vallah, elə soyuq olur ki, gəl görəsən! Tüpürəndə göydə donur. Çoxunun qol-qıçını soyuq apardığından kəsib atırlar... Bə nə, sizə havayı gəlməsin. Ağzında Sibir deyirsən! O qədər adamın başını yeyib ki... O cəhənnəm-cəhənnəm ki, deyirlər ey, cəhənnəm elə həmən Sibirdir. Gör necə dareyi-bidad yerdir ki, yayın o cırhacırında da adamın sümüyü qızmır. O barədə buralar şükürdü. Sibirə baxanda bizim yerlər cənnətdir.

Poçtalyon sinəsini boşaldıb, gətirdiyi qəzet-jurnalların, məktubların hərəsini öz sahibinə çatdırıb çantasının qayışını çiyninə keçirdi və tələm-tələsik qonşu kəndlərə yollandı.

...Qəzetdə yazılmışdı ki, Qalaça kənd sakini Qəmbərov Sücəddin Cahangir oğlunun məhkəmə prosesi başa çatdı. Dəyirmançı Hətəmov Şahnəzərin onun tərəfindən qətlə yetirildiyi məhkəmədə tam sübut olunub. Sücəddin Qəmbərov etdiyi cinayəti boynuna alıb. Ədalət məhkə-

məsi caniyə on il azadlıqdan məhrumetmə cəzası verib və s...

Bu bəd xəbəri Qalaçada hərə bir cürə yozurdu. Dəyirmançının tərəfdarları məhkəmənin hökmündən narazılıq eləyirdilər. Deyirdilər ki, gərək Şahnəzərin firqəçiliyini nəzərə alıb, ona qəsd eləyənə güllə kəsəydilər. Məhkəmə çox üzdən gedib. Xalq düşməninin oğluna üz görüb. İdarə işçilərindən biri də, qəzetin məhkəmə barədəki yazısını oxuyub qurtardıqdan sonra narazı halda başını bulayıb:

- Siyasi məhbusun oğlundan bundan artıq nə gözləmək olar?! - dedi. - Öz cəzasıdır, qoy çəksin! Adam öldürənə on il də azdır. Onu asmaq lazım idi.

Hündür boyu, dolu sifəti, cantaraq bədəni olan dəmirçi Qurban söhbətə qarışaraq:

- Onların qəzəmətə düşməsində dəyiləm ey, - dedi. - Ata-oğul Qalaçanın adını biabır elədilər. Qonum-qonşu kəndlərə lağ-loğaz yeri olduq.

Bircə kor Həşim ayrı cür danışırdı. Adlı-sanlı bir kişinin oğlu olan Həşim anadangəlmə iki gözündən də mayıf idi. Vaxtilə atası bir ətək pul töküb, onu ustad sənətkarların yanına qoymuşdu. Həşim qarmon, tar çalmaq öyrənmişdi. Di gəl ki, işıq üzünə həsrət idi. Əlindəki çəliyi yan-yörəsinə döyə-döyə, fəhmlə gəzib dolaşırdı. Evləri kəndin üst tərəfində, qənşər yerdəydi. Kefinin kök vaxtına düşəndə altına stul qoyub, köhnə qarmonunu sinəsinə alırdı. Çaldığı qarmonun yanıqlı səsi dağı-daşı lərzəyə gətirirdi. Dərdini qarmonun dili ilə car çəkirdi. Özü də sinədəftər idi. Hardan desən, ordan cavab verərdi. Əsli-Kərəmi, Aşıq Qəribi, Tahir-Zöhrəni əzbər bilirdi. Bala-bala pəsdən deməyi də vardı. Deyirdilər ki, Həşiminki Allah vergisidir. Kinonun, teatrın, radionun nə olduğunu





bilməyən kənd camaatı hərdən uzun qış gecələrində kor Həşimin başına toplaşırdılar. Həşim çalıb-oxumayınca ondan əl çəkmirdilər. Yaşı yetmişi keçsə də, dişləri cağbacağ yerindəydi. Yurdunda da özündən başqa heç kim qalmamışdı. Hamısı qırılıb, qıpılıb dünyasını dəyişmişdi. Tənha bir həyat sürürdü. Bir çəliyi idi, bir tarı, bir də qarmonu. Yaxın qohumlarının hesabına başını birtəhər girləyirdi. Camaat da ona görüm-baxım eləyirdi. Kənddə uşaqdan-böyüyə hamı onun yolunu saxlayırdı. Mayıf olmasına baxmayaraq, çox müdrik adamıdı. Həmişə də sözün düzünü danışardı.

Kor Həşim bayaqdan kənarda dayanıb qədimdən qalma kəhrəba təsbehini çevirə-çevirə deyilənlərə diqqətlə qulaq verirdi. Hərə bir tərəfə dağılıb gedəndən sonra Həşim yanındakı ürək qızdırdığı adamlara sakit-sakit:

- Köhnə xasiyyətimizdi, yıxılana balta vurmaqda bir canıq, - dedi. - Adam hər deyilənə, hər yazılana inanıb küyə getməz. Noolsun qəzet yazıb?! Qəzet Quran ayəsizad deyil ki! Hər halda məsələnin kökünü, o yazılanlardan, deyilənlərdən biz yaxşı bilirik. Cahangiri tanımırıq? Bir az höcətliyi olsa da, kənddə beş adamın biriydi. Kişinin nəsli-kökü var, ondan xalqa düşmən olmaz! Olsa-olsa, əl-ayağa dolaşan bir-iki hələm-qələm gədə-güdənin düşmənidir. İkincisi də, bu yaşımacan eşitməmişəm ki, Qalaça camaatında bir cahıl özündən böyüyə əl qaldırsın. Bizdə böyük-kiçik pərdəsi var. Kim nə deyir, qəzet nə yazır, öz işləridir. Quran gətirin, onun yerinə and içim. Sücəddinin Şahnəzəri öldürməsi ağlabatan dəyil. Bunlar hamısı uydurmadı.

Kor Həşim çəliyinin ucu ilə torpağa çarpaz bir cızıq çəkdi:

- Onlar burda olmasa da, Allahları burdadır, - dedi. - Bu Cahangir, Sücəddin məsələsində tələsib, axır sözünüzü əvvəl deməyin. Məndən sizə nəsihət, onların babalını yuyub, günaha batmayın. Bu məsələnin kökü başqa-başqa yerlərə gedib çıxır. Ona görə də adını çəkmək istəmirəm, bəzi-bəzi adamlar çənəsini boş qoyub, bildiyini də danışır, bilmədiyini də. Mən sizin işıqlı dünyanızı görməkdən məhrumam. Siz də mənim qaranlıq dünyamdan bixəbərsiniz. Bu qaranlıq dünyama baş vura bilsəydiniz, hər şeyi apaçıq görə bilərdiniz və bilərdiniz ki, Qalaça Tanrının qəzəbinə gəlib. Allah-taala bundan betərindən saxlasın. - Kor Həşim bu sözləri deyib, ona bələdçilik edən çəliyinin köməyilə çala-çuxurlardan, səliqəsiz hörülmüş daş hasarlardan, tikanlı çəpərlərdən yan keçib, sakit, ehtiyatlı addımlarla görmədiyi və ömrünün axırına qədər görə bilməyəcəyi qaranlıq dünyasındakı kimsəsiz evinə tərəf üz tutdu. Həşim nizamsız tikilmiş alçaq binaların arasından keçən dar küçələrdə irəlilədikcə, hərdən dodağı təbəssümlənir, bəzən də çatılmış qaşlarında, sifətinin çalın-çarpaz qırışlarında bir etiraz, nifrət ifadəsi dolaşırdı. Öz qaranlıq dünyasında sanki kiminləsə söhbət eləyirdi, nə isə eşidir, nəyə isə gülür, kimi isə lənətləyirdi.

* * *

...Günlər keçdikcə Qalaça kəndində gedən bu qanqaraldıcı söhbətlər də səngiyirdi. Deyirlər, torpağın üzü soyuqdur. Elə qazamat da onun kimidir. Fərq orasındadır ki, biri ölülər üçündür, biri dirilər. Hər ikisinə düşənlər getdikcə yaddan çıxır, unudulur, qəmlər, kədərlər, ağılar, ağlaşmalar çəkilib gedir və əziz-xələflərinin qəlbində bir müddət lal sızıltılara, nisgillərə çevrilir, sonra da... sonra da acılı, şirinli xatirələrə...





* * *

Üzü şimala tərəf hərəkət edən dəmiryol qatarının axırına bir dustaq vaqonu qoşulmuşdu. Sücəddin içərisində olduğu həmin vaqonun dəmir barmaqcıqlı balaca pəncərəsindən kədərli baxışları ilə yad çöllərin seyrinə dalmışdı. O, ömründə ilk dəfəydi ki, qatara minir, dəmir yolu görürdü. Stansiyalara yaxınlaşdıqca parovozların uzaqlarda əks-səda doğuran fit səsi, hərdən bir-birinə toxunan vaqonların taqqıltısı, sərnişinlərin qarmaqarışıq hay-küyü Sücəddinin diqqətini üzücü fikirlərdən, çəkəcəyi cəzanın əzablarından bir qədər yayındırırdı. Yad çöllərdə qatarın sürəti artdıqca, vaqonun pəncərəsindən görünən nə varsa, faciə baş veribmiş kimi, vahiməyə düşüb, ora-bura qaçışırdı. Sücəddinə elə gəlirdi ki, bütün dağ, daş, dərə, təpə dustaq vaqonunu görüb təşvişə düşüblər və hara isə baş alıb gedirlər. Yəqin əzəmətli dağlar da dustaqlığın nə demək olduğunu anlayıb, onun getdiyi vaqonlardan uzaqlaşırdılar. Qatar kol-kosluqdan keçəndə, Sücəddinin o qədər də xoşuna gəlməyən bir dəstə qara qarğa qonduqları hündür ağacdan qalxıb qarıldaşa-qarıldaşa uçub gözdən itdilər. Sücəddin həmin qarğalara baxıb köksünü ötürdü. Kaş o qara qarğaların yerinə olub, istədiyim yerə uçub gedəydim, - öz-özünə düşündü.

Birdən Sücəddinin gözləri alacalandı, başı gicəllənən kimi oldu və müvazinətini itirib, sürtülmüş taxta oturacağın üstünə yıxıldı. Dustaq yoldaşları tez onu dövrəyə alıb, qolundan qaldırdılar. Çiynindəki avtomat silahın qayışından bərk-bərk yapışan həbsxana növbətçisi səs-

küyü eşidib, onların kupesinə keçdi. Sücəddinin halsızlaşdığını görüb, tez ona sakitləşdirici dərman gətirdi və sonra da hökmran bir səslə:

- Sakit olun! Sakit olun, vətəndaşlar! Bizim respublikanın sərhədi qurtarır. Vaqonunuz açılıb başqa qatara qoşulmalıdır, - deyib aralandı.

Sücəddin hələ də özünə gəlməmişdi, ona verilən dərmanın təsiri o qədər də hiss edilmirdi. O, Qalaçanı axırıncı dəfə tərk etdiyi gecə kəndin qurtaracağındakı düzdən üç-dörd xışma yumşaq torpaq götürüb cibinə doldurmuşdu. Həbsxana nəzarətçilərindən gizli torpağı əl dəsmalından tikib düzəltdiyi balaca torbaya yığıb, ağzını da bərk-bərk bağlamışdı. Düşünürdü ki, dünyanın işini bilmək olmaz. Bəlkə işim rast gətirdi, məni də atam olan tərəfə yatab elədilər. Oralarda atamı soraqlayıb axtararam. Sağ-salamat olsa, neçə ildi vətəndən ayrı düşüb, kəndimizin torpağını tutiyə kimi ona ərməğan edərəm. Atam sevinər. Ayaq izi olan torpağı öpüb gözlərinin üstünə qoyar, Qalaçanın doğma ab-havasını duyar. Və mənə deyər ki, oğul, üzün ağ olsun, mənim üçün bundan qiymətli sovqat ola bilməz. Atamın üzü gülsə, savab sahibi olaram. Allah məndən razı qalar, zavallara gəlmərəm, işim düz gətirər. Yoox, şər deməsən, xeyir gəlməz. İşdi-şayət, başına qəzavü-qədər gəlmiş olsa, bu torpağı onun uyuduğu məzarın üstünə səpərəm ki, o dünyada atamın ruhu şad olsun.

Sücəddin fikirli-fikirli dəyişək paltarları olan bağlamanı açanda əli torpaq dolu torbaya toxundu. Bir andaca, elə bil Qalaça dağlarının xəfif, ətirli mehi əsdi. İlk dəfə işıqlı dünyaya göz açdığı, üstündə iməklədiyi, titrək addımlar atdığı torpağın ətrini duydu. Nəfəsi genişləndi, gözlərinə işıq, ürəyinə təpər gəldi. - İlahi, Vətən torpağının möcüzəsinə bir bax, - öz-özünə düşündü. Sən demə Sücəddinin heç bir xəstəliyi, ağrısı-acısı yoxmuş və onunku dərmanlıq deyilmiş. Birdən-birə halsızlaşmasına səbəb qatarın doğma diyardan keçib, yad ölkələrə gedən dəmir relslərin üzərinə düşməsiymiş. Gətirdiyi bir ovuc torpaq bu məqamda onun dadına yetdi... Sücəddin başını torpaq dolu balaca torbanın üstünə qoymağıynan, yuxuya getməyi bir oldu. Bir ovuc torpaq Sücəddini xoş rayihəsinə bürüyüb, onun şirin yuxusunun ecazkar qanadında Qalaçaya apardı. Sücəddin atası ilə canbir qəlbdə olan Bağır kişidən hal-əhval tutdu. Minayəni bir kənara çəkib ona ürək-dirək verdi: - Darıxma, sevgilim, yaman günün ömrü az olar, - dedi. Tezliklə qayıdıb toy edəcəyindən, onunla ailə həyatı quracağından, xoşbəxt günlər keçirəcəklərindən danışdı. Bacısı Növrəstə ilə görüşdü... Baltanı əlinə alıb qapıdakı iri kötüyü bir göz qırpımında peç boyda doğrayıb, səliqə ilə dəhlizin baş tərəfindəki hisdən qaralmış buxarının qabağına yığdı. Axırda da soyuqdan büzüşüb dalda yerdə başını quyruğunun üstünə qoyub, həyət-bacaya həyan olan Qarabaşa yaxınlaşdı. İtə bir parça çörək atdı. Qarabaş çörəyi iylədi. Lakin tez acgözlük eləyib yemədi. Əvvəlcə Sücəddinin üstünə atıldı. Onun əl-ayağını, üst-başını yaladı. Sevindiyindən Sücəddinin qarşısında min oyundan çıxdı. Sücəddin Qarabaşdan ayrılıb, pərgarı pozulmuş ev-eşiyə, tövləyə, ot-ələf yığılmış mərəyə göz gəzdirdi. Onu tövlənin girəcəyindəki quru pərdinin üstünə qoyulmuş yəhər-yüyənin iyi vuranda, sarı madyan yadına düşdü. Qulağına qulun kişnərtisi gəldi...

Relslər dəyişilib, qatar başqa istiqamətə yol alanda, vaqon titrədi, silkələndi, təkərlərinin taqqıltısı Sücəddini səksəndirib yuxudan oyatdı. O, bayaqdan bəri Qalaça-

daydı, indi mindiyi qatar Saratova doğru yol almışdı. Gözlərini ovuşdura-ovuşdura tez pəncərəyə yaxınlaşıb bayıra boylandı. Artıq səhər açılmışdı. Dümdüz qarlı düzlər ona qəmli və kədərli görünürdü. Kimsəsiz çöllərə meydan oxuyan qatar yorulmaq bilmədən, nəfəsini dərmədən neçə həftə gecəli-gündüzlü yol getdi. Mənzil başına çathaçatda Krasnoyarskın buz bağlamış meşələri göründü. Qollu-budaqlı nəhəng ağaclar bu yerlərin şaxtasına təslim olurmuş kimi, qarın ağırlığına tablaşmayan qanadlarını aşağı salmışdı. Qatar şəhər yaxınlığındakı dəmir yol stansiyasına çatanda tutqun səmaya bənövşəyi tüstü buraxıb, uzaq-uzaq yerlərdən azad, bəxtəvər sərnişinlərlə yanaşı, bəxtikəm insanlar da gətirdiyini tayqa çöllərinə car çəkirmiş kimi tükürpərdirici fit verdi. Ən axırdakı dustaq vaqonu qatardan açılıb ayrı bir parovoza qoşuldu və Krasnoyarsk şəhərindən xeyli aralıdakı stansiyaya doğru sürükləndi. Vaqon dayanan kimi bir neçə əlisilahlı onların başının üstünü kəsdirib dövrəyə aldı. Sücəddini yoldaşları ilə birlikdə onlar üçün ayrılmış xüsusi dustaq maşınına mindirdilər. O, bir neçə kilometr aralıdakı cəzaçəkmə kolonuna təhvil verildi. Sücəddini gəldiyi adamlarla birlikdə həbsxananın sərt qayda-qanunlarına uyğun olaraq, müvafiq yoxlamalardan keçirdilər və sənədlərini diqqətlə araşdırdıqdan sonra bir neçə nəfərlik kameraya saldılar.

İçəridə bir-birindən azacıq aralı iki mərtəbəli dəmir çarpayılar düzülmüşdü. Sücəddin ilk dəfə rastlaşdığı müxtəlif yaşlı, müxtəlif boy-buxunlu dustaqlara başı ilə salam verib, qapının sol küncündəki boş yerdə məlul-müşkül oturub, kürəyini soyuq divara söykədi. Çöldən qıfıllanmış darısqal, darıxdırıcı məhbəsin köhnə sakinlə-





rindən bir nəfər onun üçün ayrılmış dəmir çarpayının aşağı mərtəbəsini göstərib:

- Səninkidir, - dedi. - Gəl əyləş.

Sücəddin yerində quruyub qalmışdı. Nə edəcəyini, nə deyəcəyini bilmirdi. Ona görə də Sücəddin edilən təklifi eşitmirmiş kimi yerindən tərpənmədi. Dustaqlar bir-birinə baxıb Sücəddinin düşdüyü vəziyyətə rişxəndlə gülüşdülər. Baş tərəfdəki çarpayıda arxası üstə uzanıb, özündən razı halda qıçını qıçının üstünə aşıran və sinəsində iynə döyməsi ilə "Nikita" sözləri yazılmış cantaraq dustaq Sücəddini təkəbbürlü baxışları ilə süzüb, qaralmış seyrək dişlərini ağartdı:

- Di mısmırığını sallama, - dedi. - Keç otur, yoxsa bura döşünə yatmır?! Hi... hi... - irişdi.

Sücəddin dillənmədi.

- Kənddənsən, yoxsa şəhərdən? - Sinəsinə Nikita yazılmış dustaq rişxəndlə soruşdu.

Bir başqası:

- Təhər-töhüründən kənd uşağına oxşayır. - Orta çarpayıda uzanan çəlimsiz kişi Sücəddinin əvəzinə cavab verdi.

Sinəsində yazı olan dustaq:

- Cöngənin ilk dəfə cütə, kotana necə qoşulduğunu görmüsən də?! Əvvəlcə xamlıq eləyir, atılıb-düşür, soncuqluyur. Elə ki, buynuzunun dibinə bir-ikisini ilişdirib, başını boyunduruğa keçirdin, qurtardı getdi. Yumşalıb quzuya dönür, - deyib güldü.

Sücəddin küt baxışları ilə ona altdan-altdan baxsa da, yenə dillənmədi. Bu dəfə həmin cantaraq dustaq yerindən qalxıb:

- Burnunu yuxarı tutma, elə bilirsən, bura sənin evindi?! İndi dəli inək balasını ayağının altına salan kimi səni

yaxşı-yaxşı əzişdirərəm, ağlın gələr başına. Onda bilərsən hardasan, adama cavab verməmək necə olar? - deyib Sücəddinə tərəf cumdu.

Onların arasından kimsə:

- Nikita, kənd uşağıdır, cavandır, buranın qayda-qanunlarını bilmir, onunla işin olmasın, əclaf! Onun dərdi özünə bəsdir, - deyib cantaraq dustağın üstünə çəmkirdi. - Yenə gicliyin tutub. Gələnin qol-qabırğasını qırmasan, ürəyin soyumur, - əlavə etdi.

Nikita yoldaşının sözünü saya salmadan çarpayıların arasından keçib Sücəddinin yaxasına əl atmaq istədi. Sücəddin onun qolunu burub çənəsinə bir yumruq ilişdirdi. Nikita Sücəddinin zərbəsinə tab gətirmədi və çul kimi döşəmənin üstünə sərildi. O, yerdən qalxıb ana söyüşü işlətdi və ikinci dəfə gücünü göstərmək istədi. Ancaq yenə də Sücəddinə bata bilmədi. Nikita aldığı zərbədən ikinci dəfə kəlləmayallaq oldu.

Sücəddinin bu cür ötkəmliyi dustaqları qəzəbləndirdi. Nikitanın hayfını almaq üçün iki nəfər Sücəddini araya alıb çırpmaq istədi. Sücəddin onları göz açmağa qoymadı. Hər ikisini şil-küt eləyib, yan üstə yıxdı. Bu dəfə üç nəfər dustaq ayağa qalxmalı oldu. Əllidən artıq yaşı, iri bədəni və üzündə seyrək tükləri olan buğdayısifət dustaq araya girib, onlara təpindi:

- Axmaqlamayın, - dedi. - İstiyirsiniz, yenə bir zibil qaynadıb təkotaqlıya düşəsiniz? Görmürsünüz o, qanını ağzına alıb? - Sücəddinə işarə etdi. - Əlinə dönüm, yaxşıca köpünüzü aldı. Ağlınız bundan əvvəlkilərə getməsin. Qol-qabırğasını əzdiniz, başına min oyun açdınız, cınqırını da çəkmədi...

Nikita əlini zədələnmiş çənəsində gəzdirərək:

- Qurban olasan ona. - Araya girib dava-dalaşı





yatıran Cəlaləddin Məhəmməd adlı dustağa işarə etdi. - Qanının arasına girdi. Yoxsa çoxdan gəbərmişdin, - deyib nifrətlə Sücəddinə baxdı. Lakin Cəlaləddindən keçib artıq hərəkət etmədi. Həm də gördü ki, bu təzə adam girməli kol deyil. Odur ki, Nikita sakitcə qayıdıb oturdu yerində.

Cəlaləddin əlini Sücəddinin çiyninə qoyub, məhrəm adam kimi onu dilə tutdu və öz yanına apardı. Bu davadalaşın sonra pis nəticə verəcəyini nəzərə alıb, onların hamısını ərklə məzəmmət edib, barışdırdı. Ağır cəzaya məhkum olunmuş həmdərd dustaqlar hərəkətlərindən peşman olubmuş kimi, bir-birindən üzr istədilər. Həmin gündən kameradakılar Sücəddini sayıb onunla ehtiyatla davranırdılar.

Cəlaləddin Məhəmməd kənardakılar eşitməsin deyə, pıçıltı ilə Tacikistandan olduğunu bildirdi və özünü Sücəddinə isnad verdi.

Tayqanın şaxtası bu bəxtikəm insanların arasında getdikcə isti münasibət yaradırdı. Onlar günbəgün bir-birinə yovuşurdular. Sücəddinlə Nikita ağıllı-başlı dostlaşmışdılar. Onlar dalaşdıqları gündən cəmi bir həftə sonra Nikita Sücəddini bir kənara çəkib əlini onun kürəyinə vuraraq:

- Qoçaq, qorxmaz oğlanlardan xoşum gəlir, - dedi. - Mən əyilən adam deyiləm, heç ölümümdən də qorxmuram. Lakin kişi kimi boynuma alım ki, sənə əl qaldırdığımçün xəcalət çəkirəm. Buna görə səndən üzr istəyirəm. Bir də ki, nə gizlədim, bu, mənə bir dərs oldu. Gərək özünü hamıdan güclü, ötkəm hesab eləməyəsən. - Nikita mərdliklə bu sözləri deyib Sücəddini özünə tərəf çəkdi və boynunu qucaqlayıb dostcasına üzünü onun

sifətinə söykədi. Xeyli söhbətdən sonra Nikita baxışlarına təmkinli ifadə verib müsahibindən soruşdu:

- Səninki nə üstündədi?

Sücəddin:

- Uzun məsələdi, danışmağa başlasam, bir gün vaxt lazımdır, - dustaq yoldaşına cavab verdi. - İlk dəfə ürək qızdırdığım təzə dost kimi qısaca onu deyə bilərəm ki, mən adam-zad öldürməmişəm. Sevginin yolunda başıma bu işlər gəlib. Divanəsi olduğum bir qızın eşq macərası məni bura gətirib çıxardıb.

Nikita:

- O qız indi hardadı, bundan sonra onun vüsalına qovuşmağa ümidlisənmi?

Sücəddin:

- Qız uzaq yerdən deyil, qapıbir qonşumuzdu, - dedi. - Aramızda elə bir qarşılıqlı məhəbbət var ki, bizi ölüm də ayıra bilməz. Bu dünyada cismən mümkün olmasa da, o dünyada ruhən bir-birimizə qovuşmalıyıq.

- Adı nədir?

- Minayə, - Sücəddin qızın adını çəkəndə doluxsundu, lakin kövrəldiyini süni təbəssümü ilə güclə pərdələdi. - Vaxt olanda ətraflı danışaram, indi yeri deyil.

Nikita:

- İnsan elə mürəkkəb məxluqdur ki, illərlə oturub-durub, yoldaşlıq etmədən onun barəsində dürüst fikir yürütmək çətindi, - dedi. - Ancaq təmasda olduğumuz bu az müddətdə, etdiyim müşahidə mənə bunu deməyə müəyyən qədər əsas verir ki, cəsarətli olduğun qədər də ürəyi təmiz oğlansan. Bu, Qafqaz adamlarına xas olan keyfiyyətdir. Elə bir inamın varmı ki, çəkəcəyin ağır cəza müddətində sevdiyin qızın səni gözləməyə səbri çatsın?





Sücəddin:

- Mən buna tam əminəm, - cavab verdi. - O, son dərəcə etibarlı və sədaqətli qızdır.

Nikita gülümsündü:

- Kaş sən deyən kimi olsun, - dedi. - Əlbəttə, yaxşıları da çoxdu. Dünya sadiq, sədaqətli qızlardan xali deyil. Ancaq elələri də var ki, qarşısındakını ovsunlamaq üçün boğazdan yuxarı ifadələri məharətlə işlədir və ilanı yuvasından çıxarmaqda belə mahirdi. O cür qızların əsl adı iblisdir. Ondan ancaq şeytan baş aça bilər. Səhv etmirəmsə, Allah deyir ki, mənim şeytandan xəbərim yoxdur. Ona görə də bu sevdada sənin kimi saf qəlbli, həm də sadəlövh bəndələrin aldana biləcəyi heç də təəccüblü deyil. Sevgi məsələsində bütün fəlakətlər, bax, bundan başlanır. Allah səni o cür faciələrdən uzaq eləsin.

Sücəddin:

- Nikita, sözlərində müəyyən həqiqət olduğunu inkar etmirəm. Ayrılıq məqamında qıza eyhamla bəzi yoxlayıcı suallar verdim. Minayə ona qarşı tərəddüdümü hiss edəndə, hirslənib huşunu itirdi və hətta özünü öldürmək dərəcəsinə çatdı. Ondan üzr istəmək məcburiyyətində qaldım və yalvarıb sözümü geri götürdüm. Minayə məni çətinliklə bağışladı. Onun səmimiyyətinə şübhə etməyə elə bir əsasım yoxdur. Mən bütün həyatımı ona fəda etdiyim kimi, o da varlığıyla məni sevir.

Nikita:

- Mən öz fikrimdə qalmaqla yanaşı, sizin bu saf sevginizə ürəkdən xeyir-dua verirəm, - dedi. - Kaş o, səni on il gözləyə bilsin. Bu, bir möcüzə olardı və deyərdim ki, onun yolunda belə bir ağır cəzaya dözməyə dəyər.

Ancaq... - Nikita sözünün mabədini gətirmədi. Sadəcə olaraq boynunu yana əyib, çiyinlərini qaldırdı.

Sücəddin:

- Nikita, bu barədə narahat olma. Bizim əhdimiz yerini alacaq. Allah qoysa, sən özün də bunun şahidi olacaqsan, - deyib müsahibindən soruşdu:

- Yaxşı, sənin bura düşməyin necə olub?

Nikita:

- Açığını deyim ki, bu barədə məndən çoxları soruşub. Mənsə bu cür suallardan yayınmağa çalışıram. Sənə isə ürək qızdırdığım dost kimi düzünü danışmalıyam. Açığı, mən çox əclaf bir hərəkət etmişəm.

Sücəddin:

- Nikita, axı sən əclaf adama oxşamırsan. - Onun sözünə etirazını bildirdi.

Nikita:

- Bütün insanlar ilk görünüşdə xoş təsir bağışlayır. Bax, elə mənim kimi. Bəlkə də ürəyində deyirsən ki, Nikita mərd oğlandır. Lap elə mələk kimidir. Murdar suya qoyub içmək olar. Ancaq hardan biləsən ki, mən əclafın biriyəm. Atamı öldürmüşəm. Atanı öldürməkdən də böyük əclaflıq olar?!

Nikita sözünə fasilə verib nəyisə xatırladı və dilxor oldu. Sücəddinin üzünə baxıb dərindən köks ötürdü:

- Bir halda ki, maraqlanırsan, qoy təfərrüatı ilə danışım. - Nikita sözünə davam etdi. - Anam əslən Qaraçaylıdır. Olduqca gözəl, boylu-buxunlu, ifallı, cazibədar, adsanını gözləyən namuslu bir qadındır, qayğıkeş ana kimi də əvəzi yoxdur. Atam Andrey Stavropol vilayətindəndir. Kislovodsk sanatoriyalarının birində təsərrüfat müdiri işləyəndə, anamı tovlayıb başdan çıxardıb. Onunla ailə həyatı qurub. Sonra da onu ali məktəbdən yarımçıq





çıxarıb, təhsilini başa vurmağa imkan verməyib. Deyib, arvadsan, qaxıl otur evdə, uşaqları saxlasan bəsdir. Onsuz da mənim əlim gətirir. Əslində anamı qısqandığı üçün belə hərəkət eləyib. Çünki anam bir yerə gedəndə hamı ona baxırmış. Görənlər ona həsəd aparırmış. Qonum-qonşu anamın gözəlliyinə qibtə edirmiş. Atam da bazburudlu, boyca hündür, yaraşıqlı bir kişiydi. Yeyib-içməklə də arası saz idi. Sanatoriyanı yoxlayanda xeyli əskik gəldiyinə görə atamı atdılar bayıra. Nəyimiz vardı satıb-sovub özünü birtəhər qurtardı. Borcunu ödəyəndən sonra ondan əl çəkdilər. Bəxti onda gətirdi ki, məhkəməyə çəkmədilər. Sonra nə qədər əlləşdi-vuruşdu, içdiyinə, bir də köhnə iş yerində törətdiyi əməllərinə görə ona yönlü bir iş vermədilər. Atam içkiyə qurşandı, bizə baxmadı. Axırda da istefaya çıxan və təyyarə qəzasında həlak olmuş varlı-hallı generalın Vera adlı qadınına ilişdi. Əslində atam özündən on beş yaş böyük olan sonsuz ifritənin malına, puluna aldandı. Anam abrına qısılıb bu məsələni heç yerdə açıb-ağartmırdı. Bizə təsəlli verib deyirdi ki, elə bilin atanız yoxdu, ölüb. Onu özünüzə dərd eləməyin. Nə qədər nəfəsim gedib-gəlir, qonum-qonşunun pal-paltarını yuyub, çörəyinizi qazanaram. Anam məcbur olub kommunxoza işə düzəldi. Aldığı qəpik-quruşla bizi oxutmağa başladı. Biz iki bacı, bir qardaşıq. Atamdan birdəfəlik əlimizi üzdük. Di gəl ki, anamdan əl çəkmirdi. Harda girinə keçirdi, döyüb-söyür, onu nalayiq sözlərlə təhqir edirdi. Anam həmişə bizdən xəlvət xısın-xısın ağlayırdı. Ali məktəbə güclə girmişdim. Anamın dərdindən ikinci kursdan institutu tərk etdim. Mehmanxanada işə düzəldim. Daha anamı işləməyə qoymadım. Atam yenə də anamdan əl çəkmirdi. Günün günorta çağı evə dürtülüb onu söyüb təhqir edirdi. Ana-

mın gününü qara eləmişdi. Yeyib-içdiyimizi zəhərə döndərmişdi. Qonum-qonşu da onun əlindən zinhara gəlmişdi. Bir dəfə ona övlad kimi yalvarıb-yaxardım ki, anamla işi olmasın. O, qırmızıca üzümə dedi ki, Nikita adlı oğlum yoxdur. Dedim, bəs mən nəyəm? Dedi, get anandan soruş. Kimliyini, kimdən olduğunu o, daha yaxşı bilər. Atamın bu sözündən bərk sarsıldım. Ölsəydim ondan yaxşıydı. Belə çıxırdı ki, anam pis yola gedib. Mən zinadan əmələ gəlmişəm. Buna dözmədim. Fikirləşdim ki, yəqin içki onun başını xarab eləyib. Öyrəndim ki, onu ən çox qızışdırıb anamın üstünə salan o sonsuz Veradır. Həmin o ifritə fikirləşirmiş ki, anam gözəldir. Birdən atam ayılar, ağlı başına gələr, ondan iyrənər, var-dövlətinə tüpürüb arvad-uşağının üstünə qayıdar. Veranın məqsədi o imiş ki, atamın əli ilə anamı dərdəcər eləyib öldürsün. Atamı biryolluq caynağına keçirib, onunla arxayın yaşasın. Həmin o ifritə yaxşı başa düşürmüş ki, var-dövləti olmasa, ona it də yaxın düşməz. Bir gün axşamüstü evə gələndə anamın çığırtısını eşitdim. Atam qapının dalını vurub, içəridə onu gözgörəsi boğub taqətdən salmışdı. Anamı o vəziyyətdə görəndə özümü saxlaya bilmədim, ağlım başımdan çıxdı. Mətbəxdəki təzə itilənmiş ət baltası əlimə keçdi. Ata deməyə dilim gəlmir, onu necə öldürdüyümü özüm də bilmədim... On il verdilər. Yarıdan çoxunu çəkmişəm. Nə qədər haqlı olsam da, atamı öldürdüyümə görə özüm-özümə nifrət edirəm. Ancaq o, bu cəzaya layiq idi. Tez-gec anamın ahı onu tutmalıydı... Bütün bunlara baxmayaraq, düşünürəm ki, atasını qətlə yetirən övlad kimi bu dünyada yaşamağa haqqım yoxdur. Belə bir qərara gəlmişəm ki, cəzamı çəkib qurtarandan sonra evə qayıtmayım. Uzaq bir yerdə özümə münasib iş





tapım, ev-eşik düzəldim. Anamı və bacılarımı yanıma aparım. Yad yerdə məni tanıyan olmaz...

* * *

Sücəddin bir müddətdən sonra yüz əlli nəfər dustağı olan başqa kazarmaya köçürüldü. Burada eyni cür geyinmiş dustaqları səhərdən-axşamacan göz açmağa qoymurdular. Onların qarlı-çovğunlu havalarda doğradıqları ağaclar, düzəltdikləri yeşiklər, məişət avadanlığı iri maşınlarla daşınıb, yaxınlıqdakı dəmir yol stansiyasında xüsusi vaqonlara yüklənir və müxtəlif istiqamətlərə göndərilirdi. Sücəddinlə Cəlaləddinin arasındakı yaş fərqinə baxmayaraq, onlarınkı tuturdu. Bir-birlərinə necə öyrəşmişdilərsə, meşəyə ağac qırmağa gedəndə də, yemək vaxtı da bir yerdə olurdular. Çarpayıları da yanaşı idi. Cəlaləddin təzə gəlmiş dustaq yoldaşına həmişə qayğı göstərirdi. Sirrləri, sözləri də biridi. Bunu bütün kazarma yoldaşları da bilirdi. Nikitanın hesabat işlərindən yaxşı başı çıxdığı üçün onun günü idarədə keçirdi. Ancaq yemək, yatmaq, gəzinti vaxtı üçü də bir yerdə olurdu. Cəlaləddin hərdən Sücəddinin sir-sifətinə zəndlə baxıb, nə isə xəyallanırdı. Lakin Sücəddin barədə nə düşündüyünü, hansı hisslər keçirdiyini bildirmirdi. Bir dəfə işdən başları açılanda həmişəki kimi, acı talelərindən söhbət açdılar. Cəlaləddin qaşlarını çatıb Sücəddinin soyuqdan qızarmış solğun sifətinə diqqətlə nəzər saldı və:

- Sizin tərəfin adamları bir-birinə çox oxşayır, - dedi. - Qaraqaş, qaragöz, boylu-buxunlu, sadə, xoşsifət, qətiyyətli, qorxmaz... Mənim Cahangir adlı bir dostum vardı. O da azərbaycanlı idi. Canlara dəyən kişiydi. Siyasi dustaq olduğu üçün iyirmi-otuz kilometr burdan aralıdakı, ciddi rejimli kolonda yatırdı. Ora baxanda bizim kazarma

şükürlüdü. Burada necə olsa, əl-qol aça bilirik. Orda tərpənməyə qoymurdular. Addımımızı izləyirdilər. İki nəfər yaxınlaşıb bir-biri ilə dərdləşəndə, ora-bura çəkib sorğu-suala tuturdular... Bizə olmazın əzab-əziyyət verirdilər. Sizi görəndə o dostluq etdiyim Cahangir yadıma düşür. İnsan insana nə qədər oxşayarmış, ilahi?! Üz-gözünüzdən ikiyə bölünmüş bir almaya bənzəyirsiniz. Amma o, yaşlı idi. Atanız yerində olardı. Saf adamıydı. Di gəl, bir az tərsliyi vardı.

Sücəddin bu sözləri eşidəndə özündən asılı olmayaraq, az qaldı Cəlaləddini qucaqlasın, ayaqlarına düşüb, indi atasının harada olduğunu soruşsun, desin ki, onun oğluyam. Ancaq dinmədi. Səbr etdi. Cəlaləddinin sözünü kəsmək istəmədi. Düşündü ki, onun oğlu olduğumu bildirsəm, çox şeyi deməz, məndən gizlədər. Qoy atam barədə nə bilir, hamısını danışıb qurtarsın. Sonra məsələni açaram.

Sücəddin bu sərt iqlimli tayqa meşələrinin arasında atasının adını eşidəndə onun gözlərindən leysan kimi yaş süzüldü. Ancaq başındakı qalın papağın qulaqları onun üz-gözünü örtdüyündən, gözlərindən axan yaş kənardan hiss olunmurdu. Cəlaləddin isə əzizini itiribmiş kimi, ürək ağrısı ilə danışırdı:

- Bir axşam bizim kolonda gözlənilmədən axmaq hadisə baş verdi, - dedi. - Dustaqlar girəvəyə salıb iki nəfər nəzarətçinin avtomat silahını əllərindən alıb, özlərini də girov götürdülər. Onların biri zabit idi. Girov götürən dustaqlar kazarmadakıları ayağa qaldırıb, siyasi məhbus adının onların üstündən götürülməsini tələb etdilər. Əks-təqdirdə girovları öldürüb, kazarmanı yandırıb, dağıdacaqları ilə hədələdilər. Cahangirlə mən heç nəyə qarışmırdıq. Biz nə qədər çalışdıq aradan





çıxaq, mümkün olmadı. Bildirdilər ki, yerindən tərpənən güllələnəcək. Kolonun silahlı dəstələri işə qarışdı. Hər yerdə həyəcan siqnalları verildi. Qonşu kazarmalardan da silahlı qruplar köməyə gəldi. Kolonun başçılarının apardıqları danışıqlar heç bir nəticə vermədi. Bütün kazarma iki nəfər əli silahlı dustağın əlində girinc qalmışdı... Gecədən xeyli keçmiş atışma başlandı. İki nəfər silahlı dustaq, nizami ordunun qabağında duruş gətirə bilərdi?! Qiyamçıları pencər kimi biçdilər. Onların girov götürdüyü həbsxana nəzarətçiləri də atışmanın güdazına getdi. Atılan güllənin biri Cahangirə dəydi. O, bircə dəfə: - Vay, məni vurdular, - deyib, yıxıldı. Güllə harasından dəymişdisə, Cahangir dillənə bilmədi. Həmin hadisədə hər iki tərəfdən xeyli adam öldü. Kolonda qan su yerinə axırdı. Ölənləri yaralılarla birlikdə gecəynən hara isə apardılar. Nə qədər çalışdım, Cahangirin hansı tərəfə aparıldığını öyrənim, mümkün olmadı. Yuxarıların göstərişi ilə həmin qırğın ört-basdır edildi. Guya belə hadisə olmayıb. Onun üstündə həbsxana işçilərinin çoxu işdən qovuldu. Məhbusların da hamısını pərən-pərən salıb hərəsini uzaq bir kolona göndərdilər. Mən Krasnoyarsk şəhərindən xeyli aralıdakı başqa bir kolona düşdüm. Allah heç kafirə qismət eləməsin. Oranın saxlanma şəraiti lap dözülməz idi. Dustaqların neçəsi soyuqdan gözümün qabağında donub öldü. Mənə çox ağır maddə vermişdilər. Savadlı qohumlarım var. Onlar Moskvaya çox yazıb-pozandan sonra Allahın mənə rəhmi gəldi. Maddəmi yüngülləşdirdilər. Siyasi dustaq adı üstümdən götürüldü. Məni indiki kolona dəyişdilər. Üç ildən çoxdu burda yatıram. Cəzamın çoxunu çəkmişəm, cəmi dörd ilim qalır. Ölməsəm, sağ qalsam, vətəni görə bilə-

cəyəm. Axır vaxtlar üç aydan bir olsa da, evlə məktublaşa bilirəm. Hələ ki, ev-eşikdə salamatçılıqdır. İşimə baxan məhkəmə çox qansız adamıdı. Qəlbində bir zərrəcə Allah xofu yoxudu. Məni yandıran odur ki, məhkəmə öz millətimizdən idi. Haqq-nahaq on iki il verdi. Özü də siyasi dustaq adıynan. Guya hökumətə güllə atmışdım?! Məndən xalq düşməni olar?! Danaboynu eləyib məni Sibirə göndərdilər ki, burda da ölüm. Mən naşükür adam deyiləm. Allahımdan da çox razıyam. Yaradan özü yuxarıdan baxır, hər şeyi görür. Axırda da qərarını verir. Mənə iş kəsən o əclaf məhkəmə beş il bundan qabaq arvad-uşağı ilə birlikdə avtomaşın qəzasına düşüb. Biri də salamat qurtarmayıb. Amma mən yaşayıram. Ona görə də şükür eləyirəm. Mənə Allahın qəzəbi tutmasın, bəndəninkindən nə çıxar?! O vicdansız məhkəmənin cəzasını Allah özü verdi. Bax, haqsızlığın axırı odur. Ona görə də gərək yuxarıdakından qorxasan, əməlin düz ola. Pinə eləmirəm, insafsızlığın, ədalətsizliyin axırı, aqibəti bax, o əclaf məhkəməninki kimi qurtarır.

Sücəddin daha özünü saxlaya bilmədi, qəhərləndi. Cəlaləddin onun bu hərəkətinə təəccübləndi: - Sücəddinə nə dedim ki, birdən-birə bu cür ağladı?! - daxilən peşman oldu. Sücəddin boğuq və xırıltılı bir səslə:

- Haqqında danışdığın Cahangir, atamdır, - dedi. - Mən onun yeganə oğluyam. Bayaqdan bəri dillənib sənə mane olmaq istəmirdim ki, atamın barəsində bildiklərini məndən gizlətməyəsən, hər şeyi olduğu kimi danışasan.

Onların arasına hüznlü sükut çökdü. Cəlaləddin müsahibinə ürək-dirək verdi:

- Taleyimiz elə gətirib ki, biz haqsızlığın tüğyan etdiyi namərd bir zəmanədə yaşayırıq. Elə bilirsən, bir günah işlədib və ya cinayət eləyib bura düşmüşəm?! Kiçik qardaşım Hüsaməddin rayon maarif şöbəsində müdir işləyirdi. Mənsə mal-qara tədarükü idarəsində qəbulçuydum. Hüsaməddin Moskvada məktəb qurtarmışdı, savadlıydı, diribaşdı, camaat arasında da, yuxarılarda da yaxşı hörmət qazanmışdı. Söhbət varıdı, onu böyüdüb rayona başçı qoysunlar. Onun yüksəlib irəli gedən yolunu kəsmək üçün qara qüvvələr cürbəcür vasitələrə əl atdılar. Ancaq qardaşım təmiz adamıdı, ona bata bilmirdilər. Gücləri mənə çatdı. İdarəni yoxlatdırıb, milçəkdən fil düzəltdilər... Beş-on baş dana-dunanın ölməsi, mənim dövlət əmlakına xəyanət etməyim kimi qələmə verildi... Sonra da on iki il qəzəmət... Siyasi ad... xalq düşməni... nə bilim ta nələr, nələr... Ayının yüz oyunu varsa, o da bir armudun başındaydı. Nədi-nədi məni ləkələsinlər, sonra da desinlər, xalq düşməninin qardaşından nəinki rayon başçısı, partiya rəhbəri, heç maarif müdiri də olmaz... Bu yolla Hüsaməddini də atdılar bayıra. Ucqar bir kəndə, adi müəllim göndərdilər... Bax, belə, belə oyunlar...

Cəlaləddin bunları danışıb xeyli susduqdan sonra:

- Cahangir də mənim kimi nahaqdan tələyə düşmüşdü, - dedi. - Başına gələnləri mənə olduğu kimi danışıb. Kəndinizdəki sədrin Qənirə adlı qıza sataşmasını görməsəydi, bəlkə də bu müsibətlərə düçar olmazdı. Hər şey ordan başlayıb. Sədr fikirləşib ki, Cahangir gördüklərini açıb ağarda bilər, yeri gəlsə onun əməllərini üzünə deyib, camaat arasında rüsvay eləyər. Ona görə də sədr Cahangiri kənddən didərgin salıb, səsini kəsmək fikrinə düşüb. Haqq-nahaq öz dediyini yeridib. Dağdan soruşublar ki, kimdən qorxursan?! Dağ deyib ki, pulludan. İndi

pul kimdədir, güc onun tərəfindədir. Pulun qabağında qanun-zad qələt eləyir.

Cəlaləddin təəssüflə bədənini yırğaladı və:

- Qanun da ki, güclülərdən, pullulardan zəif oldu, Sibir meşələrində bizim kimi ağac doğrayanların sayı getdikcə artacaq. - Sözünə davam etdi. - Bax, belə bir zəmanəyə gəlib çıxmışıq, oğul. Cahangirə Allah rəhmət eləsin, o haqq dünyadadır, biz nahaq. Ölənlə ölmək olmaz. Ha ağla, xeyri nədir?! Ağlamaqla təzədən Cahangir diriləcək, yoxsa başımızın üstünü kəsən əli silahlıların bizə yazığı gələcək?! Cəzamızı axıra qədər çəkməkdən başqa çarə yoxdur, Sücəddin! İndi çalış, özünü qoru, qalın geyin, elə et ki, soyuğa düşməyəsən. Sibirin sərt, soyuq qanunları ilə hesablaşmalıyıq.

Cəlaləddin danışdıqca ucsuz-bucaqsız Sibir meşələri Sücəddinin gözündə başqalaşırdı. Onun qəlbində tayqanın soyuqlarına qarşı isti bir məhəbbət baş qaldırırdı. Düşünürdü ki, bax, atam bu torpaqda uyuyur, yəqin ki, onun ruhu mənim həndəvərimdə dolaşır. Sücəddinin qəlbində ikrah doğuran bu yerlər getdikcə ona doğmalaşırdı. Bu istəyi yaradan atası Cahangirin Sibir torpağında əbədiyyətə qovuşması idi. Ona elə gəlirdi ki, Cəlaləddinlə etdiyi söhbətləri atasının ruhu duyur və övladının axıtdığı göz yaşları Cahangirin uyuduğu torpağa bir rahatlıq gətirir.

Cəlaləddin müsahibini keçirdiyi daxili iztirablardan xilas etmək üçün söhbəti başqa səmtə yönəltdi:

- Bayaqdan hərəkətsiz dayanıb söhbət etdiyimiz üçün soyuq bizi əldən saldı, - dedi. - Artıq mən danışa bilmirəm. İş vaxtının qurtarmasına az qalıb, gedək bir-iki ağac da kəsək. Əvvəla, onda bədənimiz qızışar, əl-ayağımızın donu açılar. Həm də briqadirimiz bizi





danlayıb deməz ki, tənbəlsiniz, havayı yerə baş girləyirsiniz, dağallıq eləyirsiniz. Briqadirə nə var ki, dustaqları keçi qiymətinə satıb, özünü yaxşı işçi kimi gözə soxmaqda bir candır.

Onlar sırsıra bağlamış darısqal cığırlarda sürüşüb yıxılmamaq üçün bir-birindən bərk-bərk yapışıb, xeyli aşağıdakı çökəkliyə endilər. Sazaq tutmayan dalda meşədə bir neçə ağacı yanı üstə yıxıb qol-qanadını arıtladılar. Gündəlik normanı yerinə yetirdiklərinə görə briqadirdən bir - sağ ol! - alıb kazarmaya qayıtdılar. Şam yeməyindən sonra Sücəddin bağlamasını eşələyib torpaq dolu torbanı Cəlaləddinə göstərdi:

- Səndən nə gizlədim, - dedi. - Atamın başına qəzaqədər gələ biləcəyi ürəyimə dammışdı. Niyyətim o idi ki, buralara bələd olub, adamlara isnişəndən sonra mümkün vasitələrə əl atıb atamı axtarım. Onu sağ-salamat tapa bilsəm, burada qəribçilik çəkmərəm, elə bilərəm Sibir mənim üçün cənnətdir. Atalı günlərim mənə dustaqlığın zülmünü unutdurar. Hər cür əzab-əziyyətə dözərəm. Yox, desələr ki, atan dünyasını dəyişib, gətirdiyim bu bir ovuc torpağı onun qəbrinin üstünə səpərəm. İndi sənin dediklərindən bəlli olur ki, atam artıq yoxdur. Onun qəbrinin yeri də bilinmir.

Cəlaləddin:

- Bəli, elədir, - dedi və kədərli ah çəkdi. - Lakin o yerlərə az-çox bələdçiliyim var. Nə qədər çətin olsa da, soraqlaşıb yerini öyrənə bilərəm. - Əlavə etdi.

Sücəddin:

- Sən doğrudan da alicənab insansan, - dedi. - Odur ki, atamın da, mənim də dar günümüzün dayağı kimi ağlıma gələn bir fikrə münasibətini bilmək istərdim.

Cəlaləddin:

- Buyur, - dedi. - Düzdür, dustağam, yoldaşlıq, dostluq, insani borcumu yerinə yetirmək imkanlarım məhduddur. Lakin çörək kəsdiyim Məhəmməd hümməti kimi səndən əlimdən gələn köməyi əsirgəmərəm.

Sücəddin:

- Cəza müddətinin qurtarmasına az vaxt qalır, - dedi. - Sən buraxılıb gedəndən sonra mən heç nə edə bilmərəm. Yeganə ümidim ona gəlir ki, kəndimizdən gətirdiyim bu torpağı o vaxtacan saxlayım. Burdan çıxanda sənə verim. Bələd olduğun həmin yeri tapa bilsən, bu torpağı atamın məzarı üstünə, tapa bilməsən, elə həmin səmtə səpərsən. Sibirin rüzgarı bu torpağın bir zərrəsini də sovurub atamın uyuduğu məzarın həndəvərinə aparsa, o da mənim üçün bir təsəlli olar. Bunun nə qədər çətin olduğunu anlayıb başa düşürəm. Və yaşca özümdən böyük olan dostumu belə bir əziyyətə saldığıma görə xəcalət çəkirəm. Yalnız atama olan istəyim məni buna vadar edir. Ona görə də bəri başdan sənə minnətdarlığımı bildirirəm.

Cəlaləddin:

- Dediklərini əziyyət yox, özümə dostluq, qardaşlıq borcu bilirəm, - dedi. - Sən desən də, deməsən də, buradan çıxanda Cahangirin yatdığı torpağı tapıb, oranı ziyarət etməsəm, özümü bağışlaya bilmərəm. Dostumun ruhu da məndən inciyər.

Sücəddin atasının sadiq dostundan bu cür səmimi sözləri eşidəndə son dərəcə xoşhal oldu və:

- And olsun bizi Yaradana, burdan çıxanda, əvvəlcə Tacikistana gəlib səninlə görüşməsəm, vətənimə üz çevirmərəm, - dedi. - Etdiyin yaxşılıqları unutsam, kəsdiyimiz çörək mənə haram olar. Sənə dediyim kimi, yolumu həsrətlə gözləyən nişanlım var. Əhd etmişəm, toyumuzda başda əyləşəsən. Qoy bizim Qalaça camaatı görsün ki, dünyada necə sadiq, nəcib insanlar var.





* * *

Günlər, həftələr, aylar, illər hiss olunmadan bir-birini əvəz edirdi. Sücəddinin cəza müddətindən üç il yarım keçirdi. Əvvəllər o, evdən arabir məktub alırdı. Ancaq son vaxtlar ona göndərilən məktublar azalmışdı. Bu ayrılıq müddətində Minayə ona cəmi-cümlətanı üç-dörd məktub yazmışdı. Onun da sətirlərində həmişəki istəyi, hərarəti duymurdu. Ümumi, yarırəsmi ifadələr... - Yəqin Minayə kədərimi artırmamaq üçün özünü bir qədər soyuqqanlı göstərir. Bəlkə də mənə göndərdiyi məktubun başqasının əlinə düşə biləcəyindən ehtiyat edib ürək sözlərini istədiyi kimi yaza bilmir. - Sücəddin düşündü.

Yarım ildən çoxudu Minayənin yazdığı məktubların arası tamam kəsilmişdi. Sücəddin bundan o qədər də inciyib bədgüman olmurdu. Düşünürdü ki, xəstə ola bilər, bəlkə də evlərində bədbəxt hadisə baş verib. Yoxsa Minayə bu hövsələnin sahibi deyildi. Yalnız Növrəstənin axırıncı məktubları qardaşını şübhəyə salırdı. Növrəstə məktubunda Bağır əminin, Natalya müəllimənin ona salam göndərdiyini yazırdı. Ancaq Minayənin adını çəkmirdi. Sücəddin bu anlaşılmazlığı özlüyündə, bacısının elə əvvəllərdən Minayə ilə bir qədər ləc olduğu ilə əlaqələndirirdi. Bununla yanaşı, bu qara şübhələr Sücəddini tərk etmirdi.

* * *

Sücəddin qazamata düşəndə Natalya ilə Minayə ilk günlər Növrəstəni tək qoymurdular. Çox vaxt axşamlar

da Növrəstəgildə yatıb qalırdılar ki, darıxmasın. Bağır kişi də Cahangirin yurdundan ayağını çəkmirdi. İmkan vermirdi ki, Növrəstə kişi işlərinə əl vursun. Evin odun-ocağı, həyət-bacanın səliqə-sahmanı Bağıra baxırdı. Hər iki evin ağırlığı Bağırın çiynindəydi. Sücəddinin qazamata düşməsinin ili tamam olmamış Minayə Növrəstədən günbəgün soyuyurdu. Ancaq Natalya müəllimə pərgarı pozulmuş evdən getmək bilmirdi. Hərdən dükan-bazara gedib özünə paltar alanda, Növrəstəni də unutmurdu. Bunun hamısı Cahangirə görə idi. Natalya müəllimə Cahangirin haqq-sayını əsla itirmirdi. Bəzən onu xatırlayıb kövrəlirdi də. Elə bil Qarabaş da Cahangirlə Sücəddinin yoxluğunu, evin təkcə Növrəstənin ümidinə qaldığını hiss eləmişdi. Qarabaş həyətin qənşər bir yerində şöngüyüb, gəlib-gedənlərə altdan-altdan göz qoyur, gecələr bir qaraltı görən kimi özünü yeyib-tökürdü. Növrəstə Qarabaşa görə həyət-bacadan arxayınıdı. Axşamlar evdə rahat yatırdı. Gündüzlər Qarabaş çənəsini ala biləklərinin üstünə qoyub, yerindən tərpənmədən ora-bura boylanırdı. Nigaran baxışları həyətin girəcəyində qalmışdı. Cahangirlə Sücəddinin yolunu gözləyirdi. Gecələr çəpərin o tərəfindən bir şıqqıltı eşidəndə tez dirçəlir, qulaqlarını şəkləyib həmin səmtə baxırdı. Ötüb-keçənlərin kənar adam olduğunu biləndə, kor-peşman geri dönüb məyus-məyus öz yerində çömbəlirdi.

Sücəddindən sonra lüt Qasımın oğlu lovğa Səftərin qaynı Bahəddin Minayəgil tərəfə ayaq açmışdı. Bağır evdə olmayanda Minayə bir bəhanə ilə aradan çıxıb, Bahəddinlə xəlvətə çəkilib qulaqlaşırdılar. Növrəstənin elə əvvəllər də Minayədən gözü su içmirdi. Bilirdi ki, gözüdağınıq qızdır. Onun örkəninin üstünə odun yığmaq olmaz. Yüz cür sifəti var, birinə könül, başqasına söz





vermək canında-qanındadır. İntəhası, bu barədə qardaşına söz deyib arada pis adam olmaq istəmirdi. Bilirdi ki, Sücəddinin yanında Minayənin sözü onunkundan qiymətlidir. Ona görə də qardaşının sevgi məsələsinə qarışıb, Minayənin paxırını açmaqdan çəkinirdi. Amma yaxşı bilirdi ki, Sücəddinin ayağı bir balaca büdrəsə, Minayə onu atıb başqasını tutmağa hazırdır. Qardaşı qazamata düşəndən sonra gözdə-qulaqdaydı. Minayənin hara addım atdığını bilirdi. Elə ki, gördü Minayə-Bahəddin söhbəti yavaş-yavaş cücərir, qardaşının nişanlısından biryolluq sidqi sıyrıldı. Qapıya gələndə də, tay əvvəlki kimi Minayəyə xoş üz göstərmirdi.

Axır vaxtlarda Bağır bir-iki günlüyə uzaq səfərə çıxanda Bahəddin onlardan əl çəkmirdi. Minayə o tərəfə qalsın, anası Qızyetər Bahəddini görəndə çiçəyi çırtlayırdı. Tez samovara od salır, ocağın üstünə qazan asıb, Bahəddinin qabağına ağ süfrə açırdı. Və Minayə ilə Bahəddini evdə tək qoyub özü çiynində səhəng bulağa gedir, qəsdən onların söhbətinə şərait yaradırdı. Əslində bu işlərin mayası elə Qızyetər idi. Oturub-durub Minayənin başını doldururdu ki, on il bir igidin ömrüdür. Qalıb qarıyandan sonra kimdi səni alan?! Hər şeyin bir vaxtı var. Qız da qızılgül kimi bir şeydi. Vədəsində dərmədin, saralıb-solub ətrini itirdi, ondan sonra kimə gərəkdi?! İkincisi də, atası xalq düşməni, özü də əli qana batandan sənə ər çıxmaz, Minayə! Səninki Bahəddindir. Maşallah göz dəyməsin, boylu, buxunlu, yaraşıqlı oğlandı. Özü də varlı-hallı yerdən. Dağ kimi də arxası. Yoxsa Sücəddin kimi?! Qadam elə oğulun ürəyinə. Dəyirmançını durduğu yerdə öldürüb, bir bölük külfəti başsız qoydu. O cür cəllada gedən ömrü boyu xeyir tapmaz. Heç eşitmisən ki, Bahəddinin adına pis bir söz desinlər. Kənddə hamı

başına and içir. Xoşbəxt olmaq istəyirsənsə, saa o cür ər lazımdır. Atanın da sözünə baxıb-eləmə. O da qocaldıqca ağlını itirir. Heç əvvəldən də yönlü bir dərrakənin sahibi deyildi. Kaftarlaşandan sonra da illaf, xarab olub. İndidən başı gora titrəyir. Ölüb-eləsəydi, qulağımız dincələrdi. Məni ağ günə çıxardıb, qalmısan sən! Gözünün qabağında biz ər-arvad olmuşuq?! İtnən-pişik kimi dolanmışıq. Allah kəssin elə ər-arvaddığı. Tay-tuşlarıma da baxıram, özümə də. Hamı yarıyıb, məndən başqa. Anandan on yaş böyük olanlar, qız kimi qıpqırmızıdı, amma məni görənlər lağ eləyirlər. Deyirlər, aaz, Qızyetər, nə yaman düşmüsən?! Düz də deyirlər, Bağırla yaşayan bundan artıq olmaz. Mən dözənə dağ-daş da dözməz. Başqası olsaydı, çoxdan çərliyib ölmüşdü.

Minayənin elə əvvəldən bir gözü Bahəddində idi. Sücəddin qazamata düşəndən sonra Minayə ondan çöndü. Ürəyində sevindi ki, elə yaxşı oldu, yaxam Sücəddindən qurtardı. Kişi xasiyyəti olsa da, cibində siçanlar oynayır. Heyləsi ilə ağ gün tapa bilmərəm. Bahəddinə getsəm, əlim daş-qaşla oynayar. Özümü də yağ içində böyrək kimi bəsləyər.

Anasının dəlil-dəlalətindən sonra Minayə bir himə bənd imiş kimi, Sücəddindən biryolluq üz döndərdi. Sücəddinin adı gələndə elə bil başına ağır bir daş düşürdü. Açıq-aydın Bahəddinə hayıl-mayıl olmuşdu. Bahəddin onun dilindən düşmürdü. Bu söz-söhbət kəndə də yayılmışdı. Hamı açıq-aydın bilirdi ki, Minayə ilə Bahəddin sevişiblər. Yaxın günlərdə də toyları olmalıdır. Bu məsələdən bircə Bağırın xəbəri yox idi. Axır ki, o da bir gün eşitdi ki, qızı ayrı yoldadı. Bahəddinə dil verib. O, evdə olmayanda Bahəddin qapısından əl çəkmir. Bağır bunu eşidib biləndə od götürdü. Elə bil doğmaca qızı





arxadan onun kürəyinə iti xəncər soxdu. Ancaq hələlik pərtliyini büruzə vermədi. Fikirləşdi ki, bu işdə gərək təmkinli hərəkət edəsən.

Bir gün Qızyetər həyətdə paltar sərəndə Bağır Minayəni dib otağa çəkib, qızı ilə üzbəüz oturdu və:

- Minayə, yalan-doğru, ağlagəlməz bir söz eşitmişəm, - dedi. - Gədə oğlu gədə, Bahəddindi-nə zibildi, orda-burda ağzından söz buraxıb ki, guya Bağırın qızını istəyir. Hər iki tərəf də buna razıdır. Bilirəm ki, bu ara sözüdür. Ancaq belə bir el məsəli var: ocaq yanmasa, tüstüsü çıxmaz. İndi öz dilindən eşitmək istəyirəm ki, bilim görüm, belə bir söz-söhbət olub, yoxsa istəmiyənlərimiz ara qızışdırır?!.

Minayə gözünü məchul bir nöqtəyə zilləyib, saçaqları sinəsinə sallanan şalının ucunu barmaqlarının arasında qarışdıra-qarışdıra, atasının dediklərini başının hərəkəti ilə təsdiqlədi və özcə dili ilə:

- Düzdür, ata, belə bir söhbət var, - dedi.

Bağırın çuxura düşmüş gözləri qıyıldı. Sifəti qaraldı və hirsini güclə boğub eyni təmkinlə:

- Bu barədə bəs sən özün nə fikirdəsən?!

- Anama demişəm.

- Nə demisən, qızım?

- Özündən soruş. - Minayə həyətdəki ipdən yaş paltar asan anasına işarə etdi.

- Ananın xasiyyətinə sən də bələdsən, mən də. O, çox söz deyə bilər, mən sənin fikrini bilmək istəyirəm.

- Anam razı olandan sonra...

Minayə fikrini tamamlamasa da, Bağır qızının ədalarından başa düşdü ki, bu işdə ana-bala sözü bir yerə qoyublar. Odur ki, daha özünü saxlaya bilmədi. Hövsələdən çıxdı:

- Qızım, qocalmışam, ancaq ölməmişəm, - dedi. - Hələlik nəfəsim gedib-gəlir. Qızın ana sözünə baxmağı ədəbdəndir. Ancaq ata əldən düşəndə onu tapdayıb keçməzlər. Bu hərəkətinə görə sənə də ayıb olsun, anana da. Bir də ki, əvvəla, bütün Qalaça camaatı kimi, sən də, mən də yaxşı bilirik ki, Cahangirin evini yıxan kimdi. Əyər bilmirsənsə, deyim, bil. Səftər də, Bahəddin də Zabıxlı tayfasının düşmənidi. Cahangirin ocağına su calayan da onlardır. Düşmənimlə qohum olsam, bütün eşidib-bilən üzümə tüpürər. İkincisi də, bütün kənd bilir ki, Sücəddinin nişanlısısan. Anan da, mən də bu işə - hə, - demişik. Sən özün də ona razılıq vermisən. İndi nooldu, pişik asqırdı?! Sücəddin qəzəmətdədi deyin, onu atıb, gedib bir tüllab gədəni tutsan, səni də qınıyarlar, məni də, anan Qızyetəri də. Sücəddin o Sücəddindir ki, özün şahid olduğun kimi, dəyirmançı mənim əlimdə öldüyü halda, sinəsini qabağa verib bu qanı öz üstünə götürdü. Kimə görə? Sənə görə!! Qoymadı atan saqqalının bu çal vaxtında qəzəmətə düşsün, sən də gözüyaşlı qalasan. Sücəddin bizim yolumuzda özünü qəzəmətin oduna atsın, Sibirdə can çürütsün, mən də burda düşmənlə üz-üzə oturub toy məclisi qurum, zurna-balaban çaldırım?!! Qızım, bunu nə Allah götürər, nə bəndə! Ona görə də bəri başdan deyirəm! Qulağını aç, yaxşı-yaxşı eşit! Şeytan səni yoldan çıxartmasın! Bu, baş tutan sevda deyil. Dağdan aşmış gün kimiyəm. Bu sinnimdə məni xar eliyib, camaat arasında yerə vurma. Bu gündən daşı ətəyindən tök. Bahəddin məsələsini biryolluq yadından çıxart. Bir də ki, o Bahəddindi-nədi, ondan sənə ər çıxmaz, mənə də yeznə. Bildirçinin bəyliyi darı sovulanacandır. Lüt Qasımın oğlu lovğa Səftərin hesabına kənddə at oynatmağına baxma. Daimi vəzifə yoxdu. Quduran qırx





gün gedər. Dolan boşalar. Onların da vaxtına çox qalmıyıb. Bu gün-sabah Səftərin qulağından tutub kənara atandan sonra, çətin ki, onun kölgəsində fironluq eləyənlərə salam verən olsun. Onlar zatıqırıq tayfadır. Əllərinə beş-on köpük pul gəlsə də, adamlıqda payları yoxdur!

Qapı cırıldadı. Bayaqdan onların söhbətinə xəlvət qulaq asan Qızyetər içəri daxil olanda Minayə ürəklənib hönkürdü. Qızyetər əvvəlcə qızına təpindi:

- Noolub, aaz?! Minkirlənib gözünün xoravasını tökürsən! Mən ölmüşəm, yoxsa dədən Bağır? Niyə ağlıyırsan? - Qızyetər bunu deyib, sonra ərinə tərəf çöndü və hikkəli-hikkəli:

- Nə dediyini çöldən eşidirdim. Qızımı bədbəxt eləmə! Xətir üçün xəstə yatmağa təhrimiz yoxdur, - dedi.- On il gözlə ki, Sücəddin dünyanın o başından gəlib çıxsın! Bağırnan Qızyetər də toy məclisi qurub ortalıqda qol götürüb oynasınlar! Qızımız da ağ günə çıxıb, bəxtəvər olsun! Genə ağzımı açdırma! Bax, o ağlın sahibisən ki, bu günə qalmışıq! Tacəddini nə zillətlə böyütdük, əlimizdən tutan vaxtı o gedən oldu. İndi yeri-yurdu da bilinmir. Səsi-sorağı qürbət ölkələrdən gəlir. Təzədən Tacəddin qayıdıb gələ, bizə oğulluq eləyə, onu birdəfəlik başından çıxart! İkisini də yad yerə verdik, indi illərlə üzlərini görmürük. Əlimizdə-ovcumuzda qalan bircə Minayədi, onu da gözümüzün qabağında bədbəxt eləmək istəyirsən?! Neçə ki, mən varam, - Qızyetər döşünə döydü, - onu görməzsən!..

Minayə yerindən qalxıb Qızyetərə tərəf getdi və anasına sığındı. Bağır hiss etdi ki, Qızyetərin dedikləri Minayənin də ürəyindəndir. Ona görə çıxılmaz vəziyyətdə qaldı. Fikirləşdi ki, onlarla ayrı cür danışsa, ana-bala birləşib cavabını verəcək və aradakı pərdə götürü-

ləcək. Ona görə də üzünü Minayəyə tərəf tutaraq yalvarıcı bir dildə:

- Qızım, - dedi, - ailə məsələsində tələsmək olmaz. Gəl sözümə bax, bir-iki il səbr elə, görək Sücəddindən nə xəbər çıxır. Ondan sonra bu barədə qərara gələrik. Əslinə qalsa, gərək ömrünün axırına qədər Sücəddinin yolunu gözləyəsən. Niyəsini də, bir sən bilirsən, bir mən, bir də ki, göydəki Allah. Yox, gözləmək istəmirsən, etirazım yoxdur. Qismətinə bir əsilli-nəsillisi çıxsa, Allah xeyir versin, get, qabağını kəssəm, məndən pis adam yoxdu. Ancaq qarı düşməndən qohum olmaz. Bahəddin tərəfin adamlarını qapıma qoya bilmərəm. Bunu birdəfəlik bil!

Qızyetər:

- Kişi, bilirsən nə var? Könül sevən göyçək olar! - dedi. - Minayənin gözü Bahəddindədir. Özləri danışıb razılaşıblar. Mən də xeyir-duasını vermişəm. Bizim də heç kiminən düşmənçiliyimiz-zadımız yoxdu. Özündən söz çıxartma. Cahangir əmimiz oğlu dəyil, dayımız oğlu dəyil. Sücəddin də onun kimi. Kim kimi tutdurub, kim kimə quyu qazıb, özləri bilər. Onun-bunun dərdi-səri bizə qalmayıb.

Minayə yerindən dillənib, titrək səslə:

- Anam doğru deyir.

Bağır gördü, təklənib. Qız da anasının sözünü deyir. Dərin fikrə getdi. Cahangirlə olan axırıncı söhbətini xatırladı. Dəyirmançı əhvalatını, Sibirin soyuğunda cəhənnəm əzabı çəkən Sücəddini gözünün qabağına gətirdi. Zabıxlı tayfasına qənim kəsilən lüt Qasımın oğlu lovğa Səftərlə, onun hesabına ortada yeyib qıraqda gəzən Bahəddinlə necə qohum olub, üz-üzə otura biləcəyini düşündü. Qızının birdən-birə atasının üzünə ağ olması onun





qoca qəlbini qırdı, qəddini əydi. Elə bil ürəyinin başına çalın-çarpaz dağ çəkdilər. Yaşının o vaxtı da deyildi ki, hökmünü göstərib, hər ikisini oturtsun yerində. Bir aşağı baxdı, bir yuxarı. Bir də ki, analı-balalı həvirləşib, onun üstünə düşən arvadı ilə qızına. Nə otuz ildən çox bir yastığa baş qoyduğu Qızyetərə bir söz dedi, nə də ki, öz boğazından kəsib əyin-başını bəzədiyi qızına. Bağır abhavanı görəndən sonra daxilən başqa bir yol seçdi. Özünü-sözünü ucuz eləməmək üçün sakitcə evdən çıxdı. Həyətin ortasında dayandı. Vaxtilə tikib-qurduqlarına nisgilli nəzər saldı. Lal harayı ilə onu tərk edən cavanlığını imdada çağırdı. Ancaq səsinə səs verən olmadı. Əli ilə qaldırıb qoyduğu daşlar, hördürdüyü divarlar da sanki başqalaşmışdı və bu məqamda Qızyetərlə Minayə kimi onu saya salmırdı. Həmişə sevinclə əlinə-ayağına dolaşan qara zolaqlı boz pişik də indi sahibinə səmtimirdi, tut ağacının haçasına çıxıb ordan Bağıra matdım-matdım baxırdı. Qızyetər isə kiriməк bilmirdi. İçəridə Bağırın arxasınca hələ də deyinirdi:

- O, maa ər yoxee, bir Əzrayıl olub! Cavanlıqda Qızyetərə nə gün ağlamışdı ki, qocalanda yadıma salıb özümə dərd eləyim. Məni at belində dağa-bağa aparıb, al qumaş geyindirib, qolumdan tutub şəhərləri gəzdirib?!! İndi də qızımı mənim günümə salmaq istiyir. Ölmə eşşəyim, ölmə, yaz gələr, yonca bitər... Əli dolu, cibi dolu nər kimi oğlan dura-dura, Minayə əlini qoynuna qoyub gözünü yollara dikməlidir ki, Sücəddin nə vaxt qəzəmətdən gəlib qızımı bəxtəvər eləyəcək...

Minayə anasına qoşularaq:

- Ona fikir vermə, - dedi, - atam olsa da, qocaldığından başını itirib. Nə danışdığını özü də bilmir. Çox əyən-

bəyən eləsə, qoşulub qaçaram. Maa onun razılığı lazım deyil. Heç ürəyini sıxıb-eləmə...

Bağır addım-addım komasından aralandı. Uzaqlaşırdı ki, onu bezdirib təngə gətirən bu cür töhmət-tənələri eşitməsin. Bir balaca qulağı dinc olsun.

Bağır harasa üz tutub gedirdi. Özü də yavaş-yavaş, sakit-sakit. Fikir yükünün altında, işgəncə çəkə-çəkə gedirdi. Kəndbəkənd düşüb ömrünü mal-heyvan alverinə həsr eləyən və yaşlaşdığından çəkilib evində oturan çodar Fərəci görəndə ayaq saxladı. Bir kənddən olsalar da, təsadüfdən-təsadüfə görüşən Bağırla Fərəc salamlaşdılar. Onların hər ikisinin yaşı səksəni haxlamışdı. Hər ikisi o dünyayla əlləşirdi. Onlar cavanlıqda çox yoldaşlıq eləmişdilər. Birlikdə kotana-cütə getmişdilər. Yer şumlamışdılar, bağ-bağat suvarmışdılar. Sonradan yolları ayrılmışdı. Fərəc mal-heyvan alverinə qurşanmışdı. Bağır da ki, gününü əkin-biçində keçirirdi. İndi bu ahıl vaxtı bir-birinə rast gələndə, hər ikisi xoşhal oldu. Yaxşı deyiblər ki, hər şeyin təzəsi, dostun köhnəsi. Cavanlıqda aralarında şit zarafatları da olurdu. Bağır papiros çəkən deyildi. İndi hirsləndiyindən hövsələsinə tüstü vermək üçün Fərəcdən papiros istədi. Fərəc cibindən bir çimdik tənbəki ovunuğu və əl boyda da kağız parçası çıxardıb Bağıra uzatdı. Bağır papirosu bükə-bükə:

- Bu qocalıqla neynirsən?

Fərəcin baxışları təbəssümləndi:

- Qocalığın da öz ləzzəti var, Bağır, - dedi. - Ayağım ikiydi, indi üç olub. Gecələr də səhərəcən öskürürəm, qapıya oğru gəlmir. Belim də əyildiyindən başım həmişə aşağı olur, köynəyimin boynu çirklənmir. Tay bundan yaxşı nə deyirsən!!!

Onların hər ikisi güldü. Fərəc müsahibindən soruşdu:





- Arvad-uşağın necədir? Sözünə baxıb-eliyən var?

Fərəc köhnə dostunun yaralı yerinə toxundu. Bağırın kədərli baxışları Qalaçanı əhatə edən qəlbi dağların əzəmətində dolaşdı, qoca qəlbi kövrələn kimi oldu. Ancaq özünü sındırmamaq üçün ona başqa cür cavab verdi. Sinəsi xışıldaya-xışıldaya:

- Giley-güzarım yoxdur, - dedi. - Buna da şükür. Gədə uzaq yerdə olsa da, kağızının arası kəsilmir. Düşəndə də qəpik-quruşdan göndərir. Arvad da gecə-gündüz qulluğumdadır. Ərdəki qızlarım uzaqda olsalar da, qəlbləri burdadı. Ayda bir dəfə sor-sovqatlı yanıma gəlib, atalarına baş çəkirlər. Evdəki qız da ki, gecə-gündüz pərvanə kimi başıma fırlanır...

Çodar Fərəc:

- Onda xoşbəxt adamsan, Bağır, - dedi. - O barədə mən yarımamışam. Nə əziyyətlə altı bığıburma oğul böyütmüşəm. Çox adam qızdan qaçır, ancaq ər-arvad ağzımız göydə qaldı ki, bir qızımız olsun, Yaradan vermədi. Çünki oğlan evlənənə qədər sənindi, qız ölənəcən. Haqq sözdür. Gədələrin hamısını ev-eşik sahibi eləmişəm. Ömrümü onların yolunda qoymuşam ki, bu dünyada çörək dərdi çəkməsinlər. Xoşbəxt olsunlar! Öləndən sonra goruma söyməsinlər. Ancaq verdiyimi ala bilmirəm. İndi hərəsi bir tərəfdə kefdədir. Ata-ana da ki... İnnən sonra tay kimə lazımıq?! İllərlə evlərini tanımıram. Bilmirəm evlərinin qapısı hardan açılır. Ayda-ildə öz kefləri gələndə maa ayaqüstü baş çəkirlər. Elə bil stullarımda tikan bitib. Bircə saatlığa mənnən qabaq-qənşər oturub soruşmurlar ki, dərdin-odun nədi, gün-güzəranın necə keçir? İkicə kəlmə söz soruşub, bir bəhanə ilə aradan çıxırlar. Onu da özlərinə görə eləyirlər ki, kənardan baxanlar deməsin ki, Fərəcin uşaqları zay çıxdı, atalarına yaxşı bax-

mırlar. Hamısı da arvad tərəfə yıxılıb. Arvadın sözü atanınkından, ananınkından qiymətli olub...

Fərəc bu sözləri deyəndə doluxsundu, gözləri sulandı. Ancaq avazımış sifətini isladan adi göz yaşına oxşamırdı. Sağlığında özünə yas tutan, bəxtikəm insanların göz yaşına bənzəyirdi. O, özünü ələ alıb:

- Yüzdə, mində bir ata-ana olar, övladdan yarısın, - dedi. - Di gəl ki, birinin başı ağrıyanda özümə yer tapa bilmirəm. Deyirəm, onlardan heç nə istəmirəm, təki canları sağ olsun. Elə kənardan-kənara hənirtiləri gəlir, bu mənə bəsdi. Görünür həyatın qanunu belədir.

Bağır key kimi dayanmışdı. Fərəcin yanında olsa da, qara fikirlər onu harasa çəkib aparırdı. Birdən dərd onu güldürdü. Cavanlıqdakı atmacaları yadına düşdü:

- Tələsmə, Fərəc, - dedi. - Bir də görəcəksən ki, gədələrin altısı da birdən gəlib kəsdiriblər yanını.

- Allah ağzından eşitsin. Xoşxəbər olasan. Hardan bilirsən, münəccim-zadsan?!

Bağır güldü:

- Əzrayıl qılıncını sivirib başının üstünü kəsdirəndə. Darıxma, o günə də az qalıb.

- Ə, sənin də başın ağarıb, ağlın elə həmənkidi. Köntöy-köntöy danışmağından əl çəkmirsən. - Fərəc başa düşdü ki, Bağır ona sataşır.

Hər ikisinin sifətinə xoş təbəssüm çiləndi. Fərəc ərkyana:

- Yaxşı, Bağır, - dedi. - Bunları qoyaq bir yana. Çox da dərinə getməyək. Gəl ayrı söz danışaq, eşitdiyimə görə bizdən xəlvət qızı başından eləmək istəyirsən, toyu nə vaxtdı?

- Nə toy, nə qız vermək? Deyəsən, mənim kimi çal





vaxtında sayıqlıyırsan axı! - Bağır köhnə dostunun üstünə bozardı.

Fərəc:

- Məndən gizli iş görmək istiyirsənsə, ayrı məsələ, - dedi. - Amma bunu bütün kənd danışır. Hamı deyir, Bağır qızı Bahəddinə verir. Bu gün-sabah da toylarıdır.

Bağır:

- Fərəc, - dedi, - elə bir fikrim olsaydı, birinci saa deyərdim. Özü də kimə, kimə, lüt Qasımın oğlu lovğa Səftərin qaynı Bahəddinə. Ara sözünə inanma. Qız ağacı, qoz ağacı, hərə bir salba atar. Kimin bəxtinə düşə-düşə. Ola bilsin, onlar öz yanlarından söz çıxartsınlar, ancaq Zabıxlı tayfasıynan onlarınkı tutmaz. İki dünya bir olsa da, o tərəfə qız verməərəm. Özümüzün daşımız da var, divarımız da. Əyər düzünü bilmək istəyirsənsə, qızı başqasına söz vermişəm.

- Kimə?

- Vaxtı gələndə bilərsən. - Bağır Sücəddini nəzərdə tutsa da, adını çəkmədi.

Fərəc:

- O barədə düz eləyirsən, - dedi. - Sənin fikrinə mən də şərikəm. Səftərin əlinə vəzifə keçəndən bəri qohum-əqrəbası göynən gedir. Ancaq vəzifə beşgünlükdür, qohumluq ömürlük. Müvəqqəti parıltılara aldananın ağlı yoxdur. Bir də ki, o Bahəddinlərin nəsli-kökü çürükdür. Onlardan uzaq olsan yaxşıdır.

* * *

Şər qarışırdı. Naxır tozhatozla örüşdən qayıdırdı. Yelinləri yerlə sürünən inəklərin, südəmər buzovların mələrtisi kəndi başına götürmüşdü. Hərə çəkilib öz evinə gedirdi. Dərd, bir də ki, cavanlığın dostluğu Bağır-

la Fərəci bir-birinə necə bağlamışdısa, həmsöhbətlər ayrılmaq bilmirdilər. Axır ki, onlar da - Allah, Məhəmməd, ya Əli, - deyib ağır-ağır ayağa qalxdılar və xudahafizləşib ayrıldılar.

* * *

Bağır elə bil doğma evinə yox, ilan, əqrəb yuvasına gedirdi. Ondan olsa, Qızyetərlə Minayənin səsini eşidib, üzlərini görməmək üçün komasına tərəf yönəlməzdi. Elə bu ağacların altında, uçuq divarların dibində, köhnə damların birində gecələyərdi. Ancaq başqa çarəsi yox idi, evinə qayıtmalıydı. O, yolağanı qaldırıb, həyətə daxil olmaq istəyəndə içəridən gülüş səsləri gəlirdi. Bağır ayaq saxlayıb, təəccüblə həmin tərəfə nəzər saldı. Yemək stolunun baş tərəfində yan-yana oturmuş Minayə ilə Bahəddin onluq lampanın işığında aydınca görünürdülər. Qızyetər onların qabağında şövqlə hərlənirdi. Nə barədə isə danışır, hərdən qəşş eləyib gülürdülər. Qızyetər üzünü Minayə ilə Bahəddinə tutub vəcdlə:

Sandıq üstə kücü var,
Kücünün qırx ucu var.
İki könül bir olsa,
Kimin ona gücü var?!

Qızyetər bu sözləri deyib, bərkdən güldü. Bahəddinlə Minayə də bir-birinə şəfqətlə baxıb, qımışdılar.

Qızyetər sözü-sözə calayırdı:

- Bir-birinizi sevəndən sonra Bağır yox e, onun dədəsi də qəbirdən dirilib gəlsə, sizi ayıra bilməz, - dedi. - Amma xeyir işi gərək ləngitməyəsən. Qalan işə qar yağar. Bu gündən sabaha etibar yoxdur. Nə bilmək olar,





dilim qurusun, birdən o canıyanmış Sücəddin böyürdən çıxdı, onun əlindən qurtarmaq olar?! Bağır da ki, tərsin biridir, ər mənimdi, bilirəm də. Onu Əzrayıldan başqa heç kim yola gətirə bilməz. Sizinki ona qalıb ki, qoşulub qaçasınız. Bağırdan olsa, bu iş çətin baş tutar. Ən yaxşısı elə mən deyəndi. Kənddə az adam qoşulub qaçıb?!

Bağır bu sözləri eşidəndə, elə bil onu ildırım vurdu. Quruyub qaldı yolağanın ağzında. Nə qədər elədi, irəliləyə bilmədi. Bir istədi baltanı götürüb onların üçünü də o dünyalıq eləsin. Ancaq ömrünün bu çağında əlini qana batırmaq istəmədi. Fikirləşdi ki, heç eşidib bilənlər də mənə yaxşı deməzlər. Qəzəmətə girmək bir yana qalsın, onların ölümünü hərə bir cürə yozacaq. Deyəcəklər ki, Bağırın arvadıynan qızı əyri yola gedirmiş, özü üstünə çıxıb. Ona görə də üçünü da qətlə yetirib. Ondan sonra ocağımdan namus ləkəsi getməz. Çox götür-qoydan sonra Bağır həyətin qaranlığından evinin işığına tərəf tüpürüb, yolağadan çıxdı. İçəridəkilərin başı söhbətə necə qarışmışdısa, Bağırın həyətə girib çıxmasından, Qızyetərin dediklərini eşidib ona tüpürməsindən xəbərləri olmadı.

Bağır sakit addımlarla həyətdən aralandı və gecənin bu vaxtı hara getmək barədə xeyli düşündü. Sonra Cahangirgilə dönmək qərarına gəldi. - Növrəstə də təkdi, ona baş çəkərəm. Öz evim kimidi. Bu bihəyaların üzünə gəlməmək üçün elə oradaca gecələyərəm - öz-özünə düşündü. Və bu mülahizə ilə qonşuya tərəf yönəldi. Növrəstə onun hənirtisini alıb həyətə çıxdı. Bağırı görəndə sevindi. Onu içəri dəvət etdi. Bağır bu evdə Cahangirlə keçirdiyi günlərini yada saldı. Sücəddini xatırladı. Dəyirmançı məsələsi gəlib durdu gözünün qabağında. Onun

əhvalı daha da korlandı. Ancaq ürəyində nələr çəkdiyini Növrəstəyə bildirmədi. Özünü şən göstərdi:

- Qızım, - dedi, - Cahangirlə Sücəddin yadıma düşdü. Ona görə gəldim. Gəldim ki, səndən hal-əhval tutum, bir loxma da çörək kəsim. Səhərdən acam. Bəlkə elə axşam da burda qaldım.

Növrəstə sevinib sidq-ürəkdən süfrə açdı. Bağıra yüngülvari çay-çörək düzəltdi. Ata-bala kimi xeyli dərdləşdilər. Cahangirdən, Sücəddindən danışdılar. Ancaq ağızdan-ağıza gəzən Minayə-Bahəddin məsələsinin üstünə gəlmədilər. Bu barədə nə Bağır kəlmə kəsdi, nə də ki, Növrəstə giley-güzarını bildirdi.

Yatmaq vaxtı gələndə Növrəstə yükdən qatı açılmamış tərtəmiz qonaq yorğan-döşəyi çıxartdı. Atasının taxtında Bağıra səliqə ilə yer salıb, özü dib otağa keçdi.

Bağırın yeri nə qədər rahat olsa da, sübhə kimi yata bilmədi. Elə bil yorğan-döşəyinə qor dolmuşdu. Dəqiqədə bir yerindən qalxır, həyətə çıxır, özünü havaya verir, yenə də qayıdıb yorğanı başına çəkirdi.

Bağırı dərd götürmüşdü. Nə qədər götür-qoy eləyirdi, çıxış yolu tapa bilmirdi.

Bu gecə Bağırın evə qayıtmaması Qızyetərlə Minayənin vecinə deyildi. Keçinin biri qapıya gec gələndə, Qızyetər başılovlu kəndin ayağından düşüb başından çıxırdı. Naxırçıları oturmağa qoymurdu. Keçini tapıb gətirməyincə rahat olmurdu. Ancaq indi dağ boyda kişinin harada qaldığı ilə nə arvadı maraqlanırdı, nə də ki, böyüdüb boya-başa çatdırdığı qızı. Bir də ki, Bağır kimə lazım idi?! Diş tökülüb, baş ağarıb, gətirən əli yox, dolu da cibi. Söz kəsərdən düşüb, diz taqətdən. İndən sonra o cür ər Qızyetərin nəyinə gərək idi?! Minayənin də ki, ata yadına düşürdü?! Onun fikri-zikri Bahəddinin yanındaydı.





Bir gün onun üzünü görməsə, bağrı çatlayardı. Vaxt vardı, Bağır bazardan tərki dolu gələndə yolağaya qədər onun qabağına yüyürürdülər. İndi Qızyetərlə Minayənin gözündə Bağırın bir köpüklük qiyməti yox idi.

Bağır urvatdan düşmüşdü. Artıq özü də bunu hiss eləyirdi. Düşünürdü ki, bu cür yaşamaqdansa, ölüm yaxşıdır. İmkan olsaydı, əzrayıla minnətçi düşüb yalvarıb-yaxarardı ki, məni tez apar.

Bağırı ahıllığın qara fikirləri boğurdu. Nə qədər çabalayırdı, bir yana çıxa bilmirdi. Yuxusu ərşə çəkilmişdi. Elə bil şirin yuxular da ondan gen qaçırdı. O, alaqaranlıq yerindən qalxıb, Növrəstədən xəbərsiz evdən çıxdı. Kəndin qabağındakı yalı aşıb, qənşər bir yerdə yanını yerə qoydu. Yorğun, yuxusuz, kədərli baxışları ilə ətrafa göz gəzdirdi.

Hava işıqlanmışdı. Hər yan aydın görünürdü. İllər keçsə də, dağlar, dərələr, boz qayalar Bağırın gəncliyində necəydisə, qocalığında da o cür qalmışdı, əsla dəyişilməmişdi, cəfasını çəkdikləri kimi başqalaşmamışdı.

Bağır gün yayılanacan bu vəfalı, səfalı yerdə dincini aldı, təmiz havada sir-sifəti bir balaca üstünə gəldi. Ayağa qalxmaq istəyəndə çoban itləri kənardan onun qaraltısını alıb, hürüşdülər. Kəndin naxırçıları itlərə təpinib, Bağıra tərəf gəldilər. Onu sübh çağı tək-tənha bu yal-yamacda görəndə təəccübləndilər. Naxırçılar ona yaxınlaşıb hər ikisi bir ağızdan:

- Bağır əmi, səhərin gözü açılmamış buralarda nə gəzirsən, xeyir ola? - deyə soruşdular.

Bağırın məyus baxışları onların sifətində donub qaldı. Dillənə bilmədi. Naxırçılar kənd ağsaqqalına ehtiram göstərib, onun könlünü almaq üçün Bağıra bir neçə sual verdilər. Ancaq daşdan səs çıxdı, Bağırdan yox. Ba-

ğır öz-özünə gülümsünüb başını buladı. Naxırçılar mat qaldı. Onlar bir-birinin üzünə baxıb təəccüblə çiyinlərini çəkdilər. Və hiss etdilər ki, onların ehtiram göstərib, dil-ağız etməsindən Bağırın heç də xoşu gəlmir. Bağır özündə deyildi. Sanki naxırçılar Bağır üçün arzuolunmaz adamlarıdı. Bağır naxırçıları saya salmadı, dediklərinə əhəmiyyət vermədi. Naxırçıların sualları cavabsız qaldı. Ona görə mal otaranlar kor-peşman geri döndülər, aralanıb uzaqlaşmaqda olan naxırın dalınca getdilər.

İri cüssəli yaşlı çoban özündən kiçik yoldaşına tərəf dönüb təşvişlə:

- Əəə, məni qınama, - dedi. - Vallah, elə bil Bağır əminin başına hava gəlib - təəccübünü bildirdi.

- Məndən çox yaşayacaqsan. Bu sözü mən demək istəyirdim, sən qabağa düşdün. Bağır əmidən çıxmayan iş. Nə qədər söz soruşduq, birinə də cavab vermədi. - Yaşca kiçik çoban yoldaşı ilə həmfikir olduğunu bildirdi. - Mən deyən olmasa it olub hürərəm, bu kişinin ağlı üstündə deyil. Ona nə isə olub. - Əlavə etdi...

Çobanlar Bağırın bu hala düşməsini müzakirə edə-edə gözdən itdilər. Ac, yorğun, yuxusuz qoca ayağa qalxıb qıçları bir-birinə dolaşa-dolaşa, yal aşağı kəndə qayıtdı. Qarşılaşdığı adamların nə salamını aldı, nə də ki, bir kəsə salam verdi. Ondan söz soruşanlara bir kəlmə də olsun cavab vermədən, başı aşağı ötüb keçdi. Həyətinə daxil olanda Qızyetər balalı qaz kimi fısıldadı. Onun üzünə baxmadan, iri qazanın altında tüstülənən ocağı üfürə-üfürə:

- Genə harda ilişib qalmısan, gecələr evə də gəlmirsən? - kinayə ilə soruşdu. - Gəlmirsən, cəhənnəmə gəl, qadam ürəyinə, guya ki, səndən ötrü gözü uçan var. - O, bu sözü elə bil Bağıra yox, qazanın altındakı qaralmış daşlara, tüstülənən ocağa, iri mis qazana deyirdi. Qızyetər alçaqdan deyinib danışdığı üçün, Bağır onu eşitmirdi.





Həyətin o başındakı ağacın kölgəsində balaca güzgüsünü üzünə tutub, özünə bəzək-düzək verən Minayə atasını görmürmüş kimi, yerindən tərpənmədi. Bağır odunxanaya girib dəhrəni götürdü. Qızyetər ona baxıb, iki əli ilə - aleey, - elədi və lağ-luğazla:

- Balam, bu kişi dəhrəni neynir, yəqin adam çapacaq. - O, bu sözü də elə dedi ki, Bağır eşitmədi.

Bağır əlində dəhrə Qızyetərə tərəf dönüb şəhadət barmağını dodağının üstünə qoydu:

- Ssss! Buralara heç kim gəlməsin! Heç kim!! - deyib yatdığı otağa keçdi.

Qızyetərlə Minayə şübhə ilə bir-birinə baxdılar. Qızyetər Minayəyə yaxınlaşıb xısın-xısın:

- Qoca vaxtında bu kişi niyə belə eləyir? Yəqin başına daş düşmüşün ağlı qaçıb, dəli olub. - Sonra qızını başa saldı ki, Bahəddin gəlsə, denən buralara üzükməsin. Bu gün atandan gözüm su içmir. Ondan nə desən çıxar.

Həmin gün Bağır evdən çölə çıxmadı. Qızyetər və Minayə də qorxularından onun yan-yörəsinə hərlənmirdilər. Qonum-qonşuda xısın-xısın danışırdılar ki, durduğu yerdə Bağır dəli kimi olub. Elə bil kişinin başına hava gəlib. Bəziləri də Qızyetəri kənara çəkib onu başa salırdılar ki, Bağıra duadan-zaddan yazdır, ya da ki, pirə aparın...

Bu söhbət kəndə də yayılmışdı. Onun yatdığı otağın qapısını iki gün açan olmadı. Bir səhər Qızyetər - Bağır! Bağır! - deyib qapını döydü. İçəridən səs-səmir gəlmədi. Qızyetər ikitaylı qapını birtəhər aralayıb otağa göz gəzdirdi. Bağır çarpayısının yanında əlində dəhrə keçinmişdi.

...Bağır torpağa tapşırıldı. Qızyetərlə Minayəni kiritmək olmurdu. Məsələdən hali olanlar yaxşı bilirdilər ki, onlar Bağıra yox, toyun yasa çevrilməsinə, Minayə ilə Bahəddinin evlənmə mərasimlərinin gecikəcəyinə ağlayırdılar...

Bahəddin artıq heç nədən qorxub-çəkinmədən bu evə sərbəst gəlib-gedirdi. Qızyetər də səhərdən-axşamacan onların pişvazındaydı. Səbrsizliklə Bağırın ilinin çıxmasını gözləyirdilər ki, toy məclisi qurub arzularına çatsınlar.

* * *

Ayrılıq dərdi Sücəddinə qazamatdan betər əzab verirdi. Ürək qızdırdıqları ilə söhbətləşəndə Minayə onun dilindən düşmürdü. Sücəddin ehtiyatsızlıq etdiyindən sol ayağı soyuğa düşmüşdü. Don vurmuş barmaqlarının üçü kəsilmişdi. O, xəstəxanada yatanda Minayənin özü ilə gəzdirdiyi əl boyda şəklinə dəli bir həsrətlə baxırdı. Xəstəxanada tanış olub, dostluq etdiyi çarpayı yoldaşına ürəyini açaraq:

- Ona yazığım gəlir, - dedi. - Mənsiz keçən günlərində Minayənin axıtdığı göz yaşlarını xatırladıqca dəli kimi oluram. Dünyada bəlkə də elə bir qız təsəvvür eləyə bilmərəm ki, o, Minayə qədər sevgisinə sadiq olsun. Bütün varlığımla inanıram ki, gecə-gündüz yalnız məni düşünür. Yalnız bağrına basdığı tərli köynəyimin rayihəsi ilə şirin yuxu tapır. Gecə-gündüz xiffətimi çəkdiyindən inanmıram ki, Minayənin məftunedici gözəlliyindən əsər-əlamət qalsın. Bəlkə qəddi-qaməti əriyib çöpə dönüb. Kürəyinə sallanan uzun hörükləri qısalıb, ağarıb. Gül kimi qırmızı yanaqları saralıb-solub. Ala gözlərindəki cazibədarlıq itib-batıb. Ah, yazıq Minayə! Mənim





ucbatımdan indi günləri necə də ah-vayla keçir! Evimizin yanından ötəndə, Dəlmə arxını görəndə, birgə addımladığımız yollara çıxanda, nələr çəkdiyi mənə əyandır. Zavallı bir qızı dərdə saldığıma görə, özüm-özümə nifrət etmək istəyirəm və düşünürəm ki, ona etdiyim sitəmlərə görə Sibirin zindanlarında çəkdiyim cəza da, cərrahların ayağımı doğram-doğram etməsi də azdır. Minayə bəlkə də bir başqasını sevsəydi, xoşbəxt olardı. Ancaq tale onu mənə bağlayıb. Ona elə gəlirdi ki, Minayə heç kimi, heç kimi sevə bilməz. Eh, Minayə, Minayə!!!

Sücəddin bu sözləri əlindəki balaca şəklə deyirdi. Minayə sanki Sücəddinin səsini eşidirdi. Minayənin balaca şəkli Sücəddinə kəsilmiş barmaqlarının sızıltısını unutdururdu.

Sücəddinin dedikləri onu diqqətlə dinləyən xəstəhal yoldaşını da riqqətə gətirmişdi. O, yastığına dirsəklənib, yanı üstə Sücəddinə tərəf çöndü:

- Elə mən də sən dərddəyəm, - dedi. - Mənim də gözləməm var. Neçə ildi bir-birimizi dəlicəsinə sevirik. Toyumuza az qalırdı. Ehtiyatsızlıqdan əlimdən xata çıxdı... Ov tüfəngini qurdalıyanda qəfil açılıb, dostuma dəydi... Bununla da hər şey alt-üst oldu... Qəzəmət çəkdiyim bu beş ildə mənə ikicə dəfə məktub göndərib. O da ki, ilk illərdə. Nədənsə axır vaxtlar elə bil məndən soyuyub. Məktub göndərmir. Yazdıqlarıma da cavab ala bilmirəm. Ola bilsin, gözləməyə səbri çatmadığı üçün bir başqasını tapıb. İndiki qızlarda etibar var?! Onlardan nə desən çıxar.

Sücəddin qəti bir inamla:

- Yoox, nə danışırsan, mənim Minayəm heç vaxt o cür namərdlik etməz. - Dostunun fikri ilə razılaşmadı. - Axırıncı dəfə ondan ayrılanda mənə dedi ki, özümə iki yol seçmişəm, ya gəlinlik paltarında sizə, ya da cənazədə

qəbir evinə getməliyəm. Əmin ol ki, üçüncü yolum yoxdur, ola da bilməz.

- Sevgisinə o cür sadiq olan qızlara qibtə edirəm. Sizin Minayənizə görə hər cür əzab-əziyyətə dözməyə dəyər. Mənimkinə o qədər etibarım yoxdur. Gözləyə-gözləməyə, bu barədə qəti söz deyə bilmərəm, - Sücəddinin çarpayı yoldaşı bunu deyib dərindən ah çəkdi.

Sücəddin fəxrlə:

- O barədə Minayə tayı-bərabəri olmayan bir qızdır, - dedi. - Həm mənəvi, həm də xarici gözəlliyinə görə əvəzsiz insandır. Əzrayılın qılıncı da bizi bir-birimizdən ayıra bilməz.

* * *

Sücəddin bir aydan sonra xəstəxanadan çıxdı. Yarası sağalsa da, şikəstliyi hiss olunurdu. Yeriyəndə bir balaca axsayırdı. Cəlaləddin ona ürək-dirək verib dedi ki, şükür elə ki, barmaqların kəsilib. Həkimlər əvvəl-əvvəl sol ayağını topuqdan yuxarı kəsib atmaq istəyirdilər. Onların nə vecinədir, dustağa canları yanır?! Əsas cərrah bizim tərəflərdən idi. Onunla bir balaca tanışlığımız da var. Necə olsa torpaq adamıdır. Onu dilə tutub yalvardım ki, səni tamam şikəst eləməsinlər. Sağ olsun, sözümü yerə salmadı...

Sücəddin kazarmada yeganə dostluq etdiyi Cəlaləddin Məhəmmədə minnətdarlığını bildirdi. Və yenə də yarasını unudub Minayədən söz saldı:

- Xəstəxanaya düşəndə Minayə yəqin ki, yuxusunu qarışdırıb, - dedi. - Hər axşam yuxuya gedəndə Sibiri tərk edirəm, Minayə ilə bir yerdə oluram. Aylı-ulduzlu gecədə evimizin arxasındakı cəviz ağacının dibinə çəkilib sübhə qədər xısın-xısın söhbətləşirik. Öz-özümə deyirəm, kaş səhər açılmaya. Çünki bizi bir-birimizdən ayıran parlaq





səhərdənsə, Minayə ilə qol-boyun olduğum zülmət gecələr yaxşıdır. Onun isti nəfəsi sifətimə toxunduqca, Sibirin soyuğunu hiss etmirəm. İlahi, sən özün kömək et, bu üzücü ayrılıqdan xilas olub, Minayə ilə vüsala çatım!

Cəlaləddin yaşca Sücəddindən böyük olsa da, artıq onlar açıq-saçıq danışmağa alışmışdılar. Başqa vaxt bəlkə də Sücəddin atası yerində olan Cəlaləddindən abırhəya eləyib onunla bu dildə danışmazdı. İndi isə sevincini, kədərini bölməyə başqa bir dost-yoldaş olmadığından ürəyindəkiləri Cəlaləddindən gizlətmirdi. Cəlaləddin də ona tay-tuş kimi baxır, bəzən yaşına uymayan şit söhbətlər edir, cavanlığında sevib-sevilməyindən danışırdı. Qazamatın zilləti onların arasındakı böyük-kiçik səddini əridib yox eləmişdi. Cəlaləddin əlini Sücəddinin çiyninə qoyub zarafatyana:

- Divanəlikdə Məcnun sənin yanında yalan olub, - dedi və güldü.

Sücəddin:

- Minayənin necə saf, sədaqətli qız olduğunu bilsəydin, bu barədə mənə rişxənd etməzdin, - dedi. - Və bilərdin ki, bu saf məhəbbətimizin yolunda indən sonra da hər cür əzab-əziyyətə hazıram...

* * *

Qar kəsmişdi. Krasnoyarskın səmasında bozumtul buludlar qaynaşırdı. Yeniseyin buzlu sahillərindən əsən sərt sazaq adamın iliyinə işləyirdi. Buna baxmayaraq, qalın geyimli yüzlərlə dustaq dayanmaq bilmədən meşələrin arasında əlləşirdi. Sücəddinin bir ayağı zədəli olsa da, dəstədən geri qalmaq istəmirdi. Bəzən yoldaşları bir söz soruşanda ona çətin cavab verirdi. Çünki fikri-zikri Minayənin yanındaydı. İş vaxtının qurtarmasına az qal-

mış ona yaxın olan kazarma yoldaşlarından biri qar basmış ağacların arasınca Sücəddinə tərəf yüyürə-yüyürə əlindəki kağızı yuxarı qaldırıb:

- Sücəddin!! Sücəddin!! Evdən məktub gəlib, məktub! Muştuluq! Muştuluq! - deyib sevinclə ona yaxınlaşdı.

Sücəddin bu sözü eşidəndə elə bil meşələrin buzu əridi, qarın ağırlığına tab gətirməyən ağaclar bir andaca çiçək açdı. Yer-yurd yaşıllığa büründü. Yenisey çayı ona əl eləyib mavi ləpələri ilə - Sücəddin, gözün aydın! - dedi. Sücəddin tələm-tələsik dustaq yoldaşından məktubu alıb bir kənara çəkildi. Həyəcandan əlləri əsə-əsə zərfi səliqəsiz cırıb açdı. Əvvəlcə məktubun altına baxdı. İmza yerində Minayənin yox, bacısı Növrəstənin adını görəndə həvəsdən düşdü, ovqatı korlandı və məktubu könülsüz-könülsüz oxumağa başladı:

"Əziz qardaşım, əvvəlcə onu deyim ki, ürək ağrısı ilə yazdığım bu gecikmiş məktubun səni kədərləndirəcəyinə təəssüf edirəm. Heç vaxt bədxəbər olub, onsuz da Sibirdə əzab çəkən yeganə qardaşımın dərdinin üstünə dərd gətirmək istəməzdim. Lakin nə etməli. Artıq buna məcburam. Xeyli vaxtdı sənə məktub yazmadığıma görə özümü bağışlaya bilmirəm. Düzünü bilmək istəyirsənsə, bu, Minayənin sənə məktub yazmaması ilə əlaqədardır. Fikirləşdim ki, Minayə məktub yazmadığı halda, mən məktub göndərsəm, qəlbində qara şübhələr baş qaldırar. - Bacım yazır, Minayə yox. Görəsən niyə?! - Bax, belə bir niyə sualını doğurmamaq üçün sənnən uzun illərdir məktublaşmıram. Ona görə də gərək mən bəxtikəm bacını bağışlayasan. Onu da biləsən ki, bir vaxt sənin dərdindən divanə olan Minayə daha yoxdur. Sən qəzəmətə düşəndən il yarım sonra, üzü bizdən döndü. O, indi də atamızı gedərgəlməzə göndərən lüt Qasımın oğlu lovğa Səftərin qaynı





Bahəddinə vurulub. Nə qədər ki, Bağır əmi sağıdı, bu işə yol vermirdi. Bahəddinin məsələsinə görə Bağır əmi neçə dəfə evdə qılınc-qırğın saldı. Ancaq Qızyetərlə Minayəyə öhd eləyə bilmədi. Bağır əmi xiffətindən yorğan-döşəyə düşdü, axırda da başına hava gəldi... Neçə aydı, rəhmətə gedib. Bağır əmidən sonra Bahəddinin bir ayağı Minayənin yanındadır. Bütün kənd bilir ki, onlar alışıbverişiblər. Bu işlərin də əsas mayası Qızyetərdir. Nə gizlədim, qardaş, neçə ildi Minayənin üzünü görmürəm. Görmürəm deyəndə, o, məndən qaçır. İstəmir üzbəüz gələk. Rastıma çıxanda başına ağır daş düşür. İndi gözləyirlər ki, Bağır əminin ili tamam olan kimi ehsanını verib, sonra toy eləsinlər. Bax, iş bu yerdədir. Bacın ölsün, qardaş! Ondan ötəri ürəyini sıxıb eləmə. Qisməti qovmaq olmaz.

Bağa su düşdü, neynim.
Bülbül su içdi, neynim.
Qisməti paylayanda
Bizə bu düşdü, neynim!

Bu məktubu ona görə yazdım ki, Minayə məsələsini biryolluq başından çıxardasan. O adda qızı nə sən tanıyırsan, nə də mən. Minayə düşmən qabağında bizi yerə vurdu. Qalaça camaatının yanında xar olduq. Onsuz da dərdin çoxdur. Ona olan məhəbbətini də qəlbində gəzdirib, ürəyinə ağır yük eləmə. Təki sağ-salamat qayıt gəl. Saa qız qəhət deyil. Yüz Minayə kimisi, sənin atılan dırnağına qurban. Düzünü bilmək istəyirsənsə, o, heç sənə layiq qız deyildi. Gözü orda-burdaydı. Əvvəl-axır eləsindən sənə arvad çıxmazdı. Bundan artıq nə yazım, qardaş!

Tanrı sənə yar olsun...

İmza: bacın Növrəstə.

- Ola bilməz! - Sücəddin yazılanlara o qədər də inanmadı. Məktubu dönə-dönə oxuyandan sonra gözlərinə qaranlıq çökdü. Meşənin dərinliklərindən qulağına vəhşi uğultu səsləri gəldi, başı gicəlləndi, kövrəldi. Lakin qətiyyəti qəhərini boğdu. Uzun illərdən bəri Minayəyə bəslədiyi məhəbbət hissləri amansız nifrətə çevrilməyə başladı. Ürəyi üz-üzə dayanan məhəbbətlə nifrətin çarpışmasına tablaşmadığı üçün, yer silkələnirmiş kimi, bədəni titrədi. Ucsuz-bucaqsız qarlı meşələr başına hərləndi. Birtəhər özünü ələ alıb məktubu cibinə qoydu və könülsüz-könülsüz kazarmaya tərəf yönəldi. Cibindəki məktub onu Sibirin şaxtasından betər üşütdü. Sücəddinə elə gəldi ki, Minayənin dönük məhəbbəti də bu bir parça kağıza bükülüb. Ona görə key kimi oldu, addımlaya bilmədi. Sücəddin məktubu çıxarıb yandırmaq istədi, lakin üstündə kibrit yoxudu. Bacısının qoşa cızıqlı dəftər kağızına yazdıqlarını zərf qarışıq cırıb üzü aşağı səpələyəndən sonra özündə bir yüngüllük hiss etdi. Meşənin quru sazağı kağız qırıntılarını Yeniseyin buz sahillərinə dağıtdı. Bütün bunlar Sücəddinə yuxu kimi gəlirdi. Birdən qəlbində şübhəli hisslər baş qaldırdı: - Məktubu nahaq yerə cırıb atdım, bəlkə məsələ yazılan kimi deyil, cümləlіri səhv oxumuşam, - öz-özünə düşündü. İstədi kağız qırıntılarını sazağın əlindən alıb bir-birinə yapışdırsın və məktubu təzədən oxusun. Lakin iş-işdən keçmişdi. Sücəddinlə Minayənin məhəbbəti kimi cırılıb tikə-tikə olmuş kağız parçaları, kəpənək kimi uçuşub qalın meşələrə, Yeniseyin sularına səpələnmişdi.

Sücəddin axşam çörək yeyə bilmədi. Elə bil boğazı kilidlənmişdi. Nə qədər çalışırdı, illərdən bəri qəlbində məskən salmış çılğın bir məhəbbətin ona verdiyi əzabdan xilas ola bilmirdi. Qara fikirlərin tüğyan edən amansız seli Sücəddini qabağına qatıb daşlara, qayalara çırpa-çırpa ünvansız bir səmtə aparırdı. Hara baxırdı, Minayənin toy ziyafəti gəlib gözləri önündə dayanırdı. Bağır əminin həyətində çal-çağır görürdü. Minayə gəlin paltarında Bahəddinin mindiyi köhlən atın tərkinə əyləşib ər evinə gedirdi. Qapıdan çıxanda "Gəlinatlandı" havası çalınırdı. Zurna-balabanın zil səsi Qalaçanın dağlarında əks-səda verirdi. Dəstənin qabağında gedən lüt Qasımın oğlu qoşalüləni çiynindən aşırıb, kəndin adətincə gözə görünən toyuq-cücələri şil-küt eləyirdi. Minayənin təntənəli toyu bütün Qalaçaya səs salmışdı. Bacısı Növrəstədən və bir neçə yaxın qohum-əqrəbadan başqa hamı təzə bəylə-gəlinin tamaşasına çıxmışdı. Növrəstə isə qapı-pəncərəni bərk-bərk bağlayıb içəridə yaş axıdırdı...

Yatanda da, yol gedəndə də, meşələrdə ağac doğrayanda da onun qəlbini məngənə kimi sıxan bu müdhiş mənzərə Sücəddini tərk etmirdi. Lakin Sücəddin dərdini heç kimə demirdi, öz daxilində, ürəyinin dərinliklərində, sızıltılı qəlbində gəzdirirdi. Sücəddinə qazamatın müsibətlərindən betər, illərdən bəri dəlicəsinə sevdiyi qızın vəfasız çıxması əzab verirdi. Belə bir vəziyyətdən xilas olmaq üçün müxtəlif yollar fikirləşirdi.

Minayə başqa birisini sevib ərə getsəydi, Sücəddin bəlkə də onu özünə bu qədər ağır dərd eləməzdi. Atasının pərgarını pozub, haqsız yerə Sibirdə çürüdənlərin tayfa-törəməsindən olan Bahəddinə könül verməsi Sücəddinin qəlbində intiqam hisslərini günbəgün alovlandırırdı. Qəlbi Minayə barədə qəddar, amansız hökmlər verirdi. Neçə gün idi, o, bu hökmü necə yerinə yetirəcəyi barədə düşünürdü.

Günlər, aylar bir-birini əvəz etdikcə, Sücəddinin səbri tükənir, dərdi dərinləşirdi. Son qərara gəldikdən sonra

fikrini Cəlaləddinlə bölüşməli oldu. Onu bir kənara çəkib başına gələnləri təfsilatı ilə dostuna danışdı... Və axırda:

- Bu işdə sənin köməyinə ehtiyacım var, - dedi.

Cəlaləddin:

- Biz yaman günün dostuyuq. Əlimdən gələn köməyi əsirgəmərəm.

Sücəddinin rəngi duruldu və:

- Sabah mütləq aradan çıxmalıyam, - dedi. - Bu barədə hər şeyi ətraflı ölçüb-biçmişəm.

Cəlaləddin dillənmədi, Sücəddin sözünə davam etdi:

- Ola bilsin ki, həyəcanlı olduğum üçün belə danışıram və heç kəsi də məcbur etmək fikrində deyiləm ki, mənim kimi düşünsün. Hər kəsin özünəməxsus həyat fəlsəfəsi var. Hərçənd ki, mən filosof deyiləm və dediklərimi əsəbi sarsıntılara məruz qalmış günahsız dustağın çərənləməsi kimi qəbul etsən, buna heç də təəccüblənmərəm. Az yaşımda gəldiyim qənaət belədir ki, bütün şüurlu məxluqat insan kimi doğulur. Lakin heç də hamı insan olmağı bacarmır. Bəli, insan kimi doğulur, əsl insan ola bilmir. Yalan, böhtan, riyakarlıq... Məgər bunlar insana xas olan keyfiyyətlərdir?! Belələri cəmiyyəti korlayan qorxulu xəstələrdir. Məncə, insanlığı onlardan təmizləməyin özü insani borcdur. Belə bir borcu yerinə yetirməkdən böyük şərəf yoxdur. Ona görə də rica edirəm, gəldiyim qərara görə məni qəddar, qaniçən hesab etməyəsən. Arılar nə qədər şüursuz olsalar da, mənsub olduqları ailənin paklığını insanlardan yaxşı qoruyurlar. Tənbəlləri, oğruları, müftəxorları, mürtədləri dərhal məhv edib aralarından götürürlər. Mənim bu müqayisəm bəlkə də yerinə düşməsin. Ancaq görüb şahidi olduqlarımı deyirəm. Padşahlar, vəzirlər, vəkillər, şahlar, şahzadələr... Xalqın təəssübkeşi qiyafəsinə bürünmüş bütün bunların əksəriyyəti üfunət saçan müzür həşəratlardır. Nə qədər ki, bütün insanlar daşıdıqları adın, mənsub olduqları cəmiyyətin əsl təəssübkeşi deyil, bir neçə fərdin əmin-amanlıq yarada biləcəyi quruca xülyadı, buna axmaqlıq da demək olar. Arılar bəlkə də ona görə sakit həyat sürürlər ki, onların arasında nə ağalar var, nə ağladanlar. Onları Allah-taalanın yazılmamış qanunları tənzimləyir. Şüurlu məxluqat isə dildə mədh etdikləri qanunları əməldə murdar əski kimi ayaqlarının altına salıb tapdalayır. Zahirdə namaz qılıb, avazla - Allahu-Əkbər! - deyənlər, batində min cürə fitnə-fəsad törədirlər. Ona görə də isti yuvasından didərgin salınmış minlərlə insan Sibirin qaranlıq zindanlarında can çürüdür.





Cəlaləddin ilk dəfəydi ki, Sücəddindən bu cür üsyankar sözlər eşidirdi. Həm də anlayırdı ki, bunu Sücəddinə dedirdən onun düçar olduğu müsibətlərdir. Cəlaləddin müsahibini sakitləşdirmək üçün:

- Səni başa düşürəm, - dedi. - Ancaq çarə nədir?! Bir qədər səbrli ol! Həyatda səbri geniş, iradəsi möhkəm olanlar uğur tapırlar.

Sücəddinin qəzəbli baxışları onları əhatə edən qarlı meşələrinənginliklərində dolaşdı. Onun qaşları düyünləndi, sifəti sərt ifadə aldı və Cəlaləddinlə üzbəüz dayanıb:

- Sözümün əvvəlində dediyim kimi, sabah Sibirin soyuq zindanlarına - əlvida! - deyib bu yerləri tərk etməliyəm. Bütün kazarmaya səs salarsan ki, Sücəddin gözümün qabağında ehtiyatsızlıqdan ilişib çaya düşdü və axıdılan ağacların arasında yoxa çıxdı. Qoy hamı elə zənn etsin ki, suda boğulub ölmüşəm. Əks təqdirdə barəmdə axtarış aparıb yol boyu bənd-bərələri kəsərlər və yaxalanaram. Onda bütün planlarım alt-üst olar. Məqsədimə

çata bilmərəm. Bütün kazarmanı inandırarsan ki, Sücəddin çayda boğulub ölüb, vəssalam!

Cəlaləddin onun ağlabatmaz sözünü kəsərək istehza ilə:

- Fikrin nədir?! - soruşdu.

- Kəndimizə getmək. Düşmənlərdən qisas almaq. - Sücəddin bu sözü amansız bir qətiyyət və qəzəblə dedi.

Cəlaləddin:

- Səhv yoldasan, Sücəddin, - dedi. - Bu, sözdə sənə asan gəlir. Atacağın addımların sonrasını yaxşı-yaxşı fikirləş ki, gələcəkdə peşman olmayasan.

Sücəddin:

- Əlbəttə, bu məsələnin sənin təsəvvür etdiyindən də çətin və təhlükəli olduğunu başa düşürəm. Lakin məqsədimə nail olacağıma inanıram, - deyib bir qədər dostuna yaxınlaşdı. - Kəndimizdə Natalya Sokolova adlı rus dili müəllimləsi var. Bu tərəflərdəndir. Stavropoldan ora təyinatla gedib. Qərib adam kimi atamın ona çox hörməti keçib. O, yaxşılığı unudan adam deyil. Mənim də Natalyaya müəllimləm kimi xoş münasibətim olub. Təsadüf elə gətirib ki, bizim bu Nikita vasitəsilə Natalyanın Krasnoyarskda yaşayan və dustaq koloniyaları ilə əlaqəsi olan uzaq qohumu ilə tanış çıxmışıq. Yük qatarında maşinist işləyir. Onun adını çəkə bilmərəm. Həmin maşinistin özü bunu məndən xahiş edib. Mən də Natalyanın qohumunun adını heç yerdə çəkməyəcəyimə qəti söz vermişəm. Natalya Sokolovanın həmin qohumu boyun olub ki, məni gizli yolla aradan çıxartsın. Maşinist dəyanətli, qoçaq oğlandır. Bizim Nikitanın da araq yoldaşıdır. O, məni Qafqaz dəmiryol stansiyalarının birinə çatdırmalıdır. Ordan o tərəfə getməyimə də kömək edəcəyinə söz verib. Xeyli vaxtdır ki, bu məsələnin üstündə işləyirəm. Adamın işini gərək Allah rast gətirsin. Deməyim odur ki, hər şeyi əməlli-başlı qurub-qoşmuşam...

Sücəddin bu sözləri Cəlaləddinə xısın-xısın, çox ehtiyatla deyirdi. - Hə, yaxşı yadıma düşdü. - Sücəddin nəyi isə xatırladı və sözünə davam etdi. - Gətirdiyim torpağı axşam sənə verməliyəm. Atamın qəbri üzərinə səpəcəyin torpağı deyirəm.

Cəlaləddin:

- Etirazım yoxdur, ancaq iş orasındadır ki, Cahangirin ölməsi bir qədər müəmmalıdır, - dedi. - O vaxt bizimlə dostluq edən İslam Qazıyevin də Cahangir kimi ölüm xəbəri çıxmışdı. Bir də eşitdim ki, İslam Qazıyev sağdır. O, həmin atışmada ağır yaralanıbmış, həkimlər sağaldıb. İslam Qazıyev mənə yaxın olan bir nəfərə deyirmiş ki, Cahangir də mənimlə bir palatada yatırdı. Çiyin sümüyünü güllə dağıtmışdı. Cahangir ölməyib, sağ-salamatdır. Yəqin əcəli çatmayıb. Buradan iki yüz verst aralıdakı ağır rejimli kolondadır. Cahangirin sağ qaldığını tam dəqiqləşdirmədiyim üçün sənə demirdim. İndi söz düşdüyü üçün bu sirri açmalı oldum. Ancaq mənim buna tam inamım var. Çünki Cahangir ona dəyən güllədən yıxılan kimi, biz pərən-pərən düşdük. Bu xəbərdən sonra Cahangirin ölümünə inanmıram. Ancaq hələlik bu barədə qəti fikir yürütmək tezdir. Buna baxmayaraq, torpağı axşam götürərəm. Kaş o bir torba torpaq buralarda Cahangirin yox qəbrinə lazım olmasın. Onda onu aparıb həyətimdəki gül kollarının dibinə tökərəm, adını Qalaça gülü qoyaram. Həyətimdən sizin torpağın ətri gələr. Cahangirlə səni yaman günümün dostları kimi yad eləyərəm. Bu sirri övladlarıma, nəvə-nəticələrimə də açıb danışaram. Biz görüşə bilməsək də, torpaqlarımız qaynayıb qovuşar.

Sücəddin özündən asılı olmayaraq, sevinclə Cəlaləddinin boynunu qucaqladı və:

- Nə danışırsan, Cəlaləddin!! Demək, atam sağdır? O, yaşayır? Kaş deyilənlər doğru olsun, ilahi! Bəlkə yuxu görürəm?! Şükür kəreminə, ilahi! Atam ölmüyüb! Sağdır, yaşayır!!!

Sevincdən Sücəddinin yanaqlarında yaş damcıları giləlendi. O, əlinin arxası ilə göz yaşlarını silib yenə əvvəlki söhbətə qayıtdı:

- Bax, bu yaxşı oldu, - dedi. - Vaxt gələr, atam kəndə qayıdar. Görər ki, oğlu onun düşmənlərini məhv edib. Atam təsəlli tapar, övladı ilə fəxr eləyər. Ömrünün üstünə ömür gələr. Zabıxlı tayfasından olan ata-babalarımızın vaxtilə çəkdiyi qədim arxın da yarımçıq işlərini başa çatdırar, əhdimiz yerini alar.

* * *

Səhərisi günün ikinci yarısında Sücəddin Cəlaləddin və Nikita ilə xəlvət bir yerdə görüşüb xudahafizləşdilər... Axşam yeməyinə az qalmış, kazarmaya səs yayıldı ki, Sücəddin çayda batıb. Bu xəbəri eşidən əli silahlı nəzarətçilər qaranlıq qatılaşana qədər Yeniseyin sahillərində dolaşdılar. Tüfəngin lüləsini yuxarı qaldırıb havaya bir neçə güllə atdılar. Sücəddinin çaya düşdüyü yeri dönə-dönə nəzərdən keçirdilər. Sücəddindən səs-səmir çıxmadı. Nəzarətçilər çayın dərinliyində it-bata düşmüş dustaqdan əllərini üzüb geri döndülər.

* * *

Sücəddin hələ özünə ailə qurmamış tanış maşinistin şəhərin ucqarındakı evində iki gün qalmalı oldu. Maşinist bu evi bir neçə il əvvəl tikdirmişdi. Sonradan imkan





tapdıqca evin içərisinə və çölünə əl gəzdirib yöndəmə salmışdı. Sücəddinlə maşinist ikilikdə Natalya Sokolovadan danışırdılar. Natalyanın vaxtilə yazdığı məktublar onun qohum-əqrəbası arasında Qalaça camaatı barədə xoş təəssürat yaratmışdı. Maşinist də bu dar məqamda Sücəddinə hər cür kömək göstərməyi özünə borc bilirdi. Və dəridən-dırnaqdan çıxırdı ki, Sücəddin ələ keçməsin.

Üçüncü gün maşinist yola çıxmalıydı. Sücəddinə dəmiryolçu paltarı geyindirib qiyafəsini tamam dəyişdi. Qaranlıq çökəndə yanına salıb, dalda bir yolla dəmiryol stansiyasına tərəf endilər. Ağac materialları ilə yüklənmiş qatara yaxınlaşdılar. Onlar daş kömürlə işləyən parovozun sürtülmüş dəmir pilləkənləri ilə yuxarı qalxdılar. Parovoz əfi ilan kimi aramsız fısıldayıb, səmaya qara tüstü buraxırdı. Havadan yanmış daş kömürün kəsif qoxusu gəlirdi. Maşinist Sücəddini iş yoldaşlarına təcrübə keçməyə gələn yaxını kimi təqdim etdi. Sücəddini qazanxana tərəfə aparıb, istisi adamın üzünü qarsan ocağı göstərdi. - Söndükcə sol tərəfdəki daş kömür ovuntusundan atarsan, - dedi. - Sən tək deyilsən, ocaqçı yoldaşların da olacaq. Növbə ilə işləyəcəksən...

Bir neçə dəqiqədən sonra dəmir yolunun kənarında sarı və qırmızı işıqlar yanıb-sönməyə başladı. Qatarın hərəkətini tənzimləyən stansiya işçiləri əllərində tutduğu kiçik bayraqlarla nəyi isə işarə etdilər. Arxa tərəfdən siqnal səsi eşidildi. Maşinist dərhal Sücəddindən ayrılıb, irəlidəki kabinəyə keçdi və qıs-qıvraq yerində əyləşdi... Parovoz fit verib, yola düşdüyünü Krasnoyarsk şəhərinə və ətraf meşələrə car çəkdi. Müxtəlif təyinatlı vaqonlar qoşulmuş yük qatarı taqqatuqla yerindən tərpənib dəmir relslər üzərində ağır-ağır hərəkət etməyə başladı...

Qatar gecəli-gündüzlü neçə həftəydi yol gedirdi.

Krasnoyarsk, Çelyabinsk, Ufa, Samara, Saratov, Volqaqrad... Qarlı-boranlı şəhər və kəndlər bir-bir arxada qalırdı. Qafqaza yaxınlaşdıqca havalar yumşalır, yazın isti, ətirli rayihəsi duyulurdu. Daş kömürün tozu təcrübəsiz ocaqçının üz-gözünü, pal-paltarını qapqara qaraltdığından onu tanımaq olmurdu. Sücəddinin tüpürcəyi də qaralmışdı. Onun dəmiryol işçisi olduğuna heç kəsin şəkk-şübhəsi qalmamışdı. Yük qatarı fit verib Qroznıya çatanda hava təzəcə işıqlanırdı. Səma tərtəmiz idi. Maşinistin sürüb gətirdiyi qatarın yükləri burada bölüşdürülüb yerbəyer edilməli idi. Bunun üçün xeyli vaxt lazım idi. Maşinist qatarı dəmiryol stansiyasında, müəyyən olunmuş sahədə dayandırıb, yorğun addımlarla aşağı endi. Yoldaşları ilə xudahafizləşib, Sücəddinlə başqa bir səmtə üz tutdular... Səhər-səhər yuyunub paltarlarını dəyişdilər, ayaqüstü pendirdən, kolbasadan yeyib, kəmərlərinin altını bərkitdilər. Maşinist başının hərəkəti ilə - Arxamca gəl, - deyib özü qabağa düşdü. Hərəkətsiz dayanan qatarlar yolu kəsdiyindən onlar vaqonların arasından çətinliklə keçib, yolun o biri tərəfinə adladılar. Dördüncü yolda dayanmış Moskva-Bakı qatarının perronunda müxtəlif geyimli-kecimli, boylu-buxunlu, sir-sifətli, danışıqlı insanlar qarışqa kimi qaynaşırdı. Maşinist Sücəddinin sol əlinin ucundan yapışıb tələsik addımlarla adamların arasınca irəli şütüyürdü. On dördüncü vaqonun girəcəyində dayanıb yeni sərnişinlərin biletini nəzərdən keçirən gözəgəlimli qadın maşinisti görəndə:

- Oo, sizi görməyə çox şadam, Anatoli, burda nə gəzirsiz? İlahi, nə qəribə təsadüf!

Anatoli:

- Elə sizi axtarıram, Alla Timofeyevna, - deyib, onu ərklə qucaqladı və qulağına nə pıçıldadısa, hər ikisi vaqona çıxıb, birinci kupeyə daxil oldular, Sücəddin də onların arxasınca. Bu, yol bələdçisinin iki yerlik xidməti kupesi idi. Alla Timofeyevna Anatoli ilə şirin-şirin söhbət etsə də, gözü Sücəddinin mərd və cəsur oğlanlara xas olan qeyri-adi qədd-qamətində qalmışdı. Bəlkə də daxilində fikirləşirdi ki, belə bir oğlanla dil tapa bilsəydim... Anatoli surətpərəst xasiyyətinə yaxşı bələd olduğu Alla Timofeyevnanın keçirdiyi daxili hissləri başa düşürmüş kimi, bic-bic gülümsündü və əlini Sücəddinin çiyninə qoyub:

- Bu, mənim yaxın dostumdur, - dedi. - Pasport qarışıq bütün sənədlərini itirib. Əslində iş növbəm on gün bundan qabaq qurtarıb. Sücəddinə görə gəlib bura çıxmışam. Bu barədə briqadirlə bir az mübahisəmiz oldu. Sonra razılaşdıq. Briqadirimiz də pis oğlan deyil, özümüzünküdü. Elə məsələlər də var ki, onu sonra ayrılıqda danışarıq. Bura yeri deyil. Qısaca onu deyim ki, bu canciyərimi sağ-salamat vətəninə çatdırarsız. Elə edin ki, ona paqonlu-zad ilişməsin. Başa düşdünüz də nə demək istəyirəm?! Hesab edin ki, özümü sizə əmanət verirəm.

Anatoli bunu deyib, Sücəddinin sifətinə şəfqətlə nəzər saldı. - Canlara dəyən oğlandı, yol yoldaşı olanda bilərsiniz, - dedi.

Sücəddinin sifəti məmnun ifadə aldı və başının hərəkəti ilə razılığını bildirdi. Lakin maşinistlə yol bələdçisinin onun barəsindəki söhbətinə müdaxilə etmədi. Alla belə bir oğlanla yol gedəcəyinə şad oldu və üzünü Anatoliyə tutaraq:

- Arxayın olun, Anatoli Sergeyeviç. Bəxtinizdən kupedə təkəm, növbə yoldaşım xəstə olduğundan bu dəfə işə çıxmayıb. Onu Bakıya, hələ desəniz, o tərəf stansiyalara çatdırmaq mənim boynuma. Buna tam əmin ola

bilərsiniz. Siz ki, məni yaxşı tanıyırsınız... Artıq mənə bir şey aydındır. Gedək sizi yola salım, qatarın tərpənməsinə az qalıb. Sərnişinlər yerbəyer olmalıdır, - deyib maşinisti çölə çəkdi və kupenin qapısını örtüb açarla bağladı. Sücəddin içəridə tək qaldı. Perronda Anatoli Alla ilə nə isə pıçıldaşıb ayrıldılar.

Qatar tərpənəndən sonra Alla Timofeyevna vaqonun kupelərinə bir-bir baş çəkib, arxayın öz yerinə qayıtdı. Sücəddin əlini çənəsinə verib, dərin fikrə getmişdi. Alla sərnişinlərdən qəbul etdiyi biletləri nəzərdən keçirirdi. Onlar dinib danışmırdılar. Alla sükutu pozaraq:

- Anatoli etibarlı, qoçaq oğlandır, ona böyük hörmətim var, onun da mənə. Bəs sən hardan tanıyırsan?- soruşdu.

- Qabaqlar bir yerdə işləmişik, dost olmuşuq. - Sücəddin müsahibinə cavab verdi.

Alla nəyi isə xatırlayırmış kimi, başını bulayıb qımışdı:

- Eh, Anatoli, Anatoli! Od-alovdu, dəyirmanın boğazından ölü salsan, diri çıxar. Yaman da dostpərəst oğlandır. Orta məktəbi bir yerdə oxumuşuq. Natalya adlı bir xalası qızı vardı. Natalya Sokolova. O, bizdən iki sinif yuxarıda oxuyurdu. Sonra yollarımız ayrıldı. O, müəllimliyə getdi. İnstitutu bitirəndən sonra Azərbaycana göndərdilər. Ucqar bir dağ kəndində işləyirdi. İlk günlər çox darıxırmış. Sonra isinişib. Oranın camaatından çox razılıq eləyir. Anatoli o barədə mənə çox danışıb. Eşitdiyimə görə bu yaxınlarda rayon hərbi komissarlığında işləyən bir nəfər azərbaycanlıya ərə gedib...

- Ola bilər. - Sücəddin cavab verdi. Lakin yaxşı tanıdığı Natalya müəllimə barədə özü heç nə danışmadı.

Kupenin qapısı döyüldü. Alla tez ayağa qalxıb, Sücəddini görməsinlər deyə, özünü qabağa verdi və qapını açıb koridora çıxdı. Gözü, yanında milis işçiləri olan qatar nəzarətçisinə sataşan kimi, kupeni açarla bağlayıb, onlara yanaşdı. Dəmiryolçu qiyafəsində olan və qabaqda gedən orta yaşlı nəzarətçi ixtiyar sahibi olduğunu büruzə verərək, Alladan bir neçə söz soruşdu və sonra kupelərin bir-ikisinə ötəri baş çəkib, irəlidəki vaqona keçdi. Allanın ürəyi sakitləşdi. Çünki onun kupesində başqa adam olduğunu görsəydilər, şübhələnə bilərdilər və sorğu-suala tutardılar. Hər halda, bir qanqaraçılıq olardı. Yaxşı ki, xoşagəlməz bir hal baş vermədi. Alla arxayın geri döndü, öz kupesinə keçdi. Sücəddini görəndə sifəti təbəssümləndi və işvə ilə soruşdu:

- Darıxmırsan?

- Xeyr.

- Mən olan yerdə niyə darıxasan? - Alla bu sözü nazqəmzə ilə dedi və sumkasındakı əl güzgüsünü çıxardıb qaş-gözünə sığal vurdu, dağınıq sarışın saçlarını daraqla səliqəyə saldı və Sücəddinə tərəf dönərək:

- Yaman qaradinməzsən, heç dinib danışmırsan, - dedi. - Bayaqdan qaşqabağını elə sallamısan ki, elə bil dəryada gəmin batıb. Anatoli bilirsən necə zarafatcıldı?! Onnan yol gedəndə darıxmağa qoymur. Əclaf o qədər anekdot bilir ki, yaman itoynadandır. Anatoliyə deyirəm ki, səndən yaxşı sirk artisti olar. Yaxşı xasiyyətdi, eləsi gec qocalar.

- Doğrudur, ancaq hərənin bir cür xasiyyəti var. Əzəldən belə yaranmışam. Bu, mənim özümdən asılı deyil. Anatoli kimi olmaq çətindir. O, zarafatcıl olmaqdan başqa, həm də mərd və xeyirxahdır. Əlbəttə, şənxasiyyət olmaq yaxşı şeydir. Qəm qəm gətirər, dəm də dəm. Bir də ki, kədərlə sevinc daxili aləmin təzahürüdür.

Zahirən onu anlamaq çətindir. Hiss edirəm ki, həssassınız. Məni düzgün duyub başa düşürsünüz. Və aramızda şən əhval-ruhiyyə yaratmaq istəyirsiniz. Buna görə sizə təşəkkür edirəm. Əslində kişilər qadınlarda xoş ovqat yaratmalıdır. Təəssüf ki, sizə məlum olan və olmayan elə məqamlar yaşayıram ki, bu barədə qarşınızda acizəm. Buna mən özüm də təəssüflənirəm. - Sücəddin Allaya cavab verdi.

Alla bir anlığa xəyallandı və maraqla soruşdu:

- Sualım bəlkə də yerinə düşməsin, bağışla, evlisən, yoxsa...

Sücəddin:

- Hələ evlənməmişəm, subayam, - könülsüz cavab verdi.

Alla köks ötürdü:

- Deyirlər, subaylıq sultanlıqdır. Ancaq boş sözdür. İnsan ailə həyatı qurandan sonra bütövləşir. - Sanki Allanın dərdi tərpəndi. - Ailə məsələsində mənimki gətirmədi. İlk oxum daşa dəydi. Stavropoldan olan Armenak adlı ütük bir erməni təcrübəsizliyimdən istifadə eləyib, saqqızımı oğurladı. Onun al dilinə aldanıb, ata-anamın razılığı olmadan getdim. Sonra it kimi peşman oldum. Sən demə, məni atamın ad-sanına, var-dövlətinə görə alırmış. Atam uzun müddət rəhbər vəzifələrdə işləyib. Təqaüdə çıxandan sonra təmiz adam kimi onu böyük bir ticarət bazasına rəis qoymuşdular. Ərim onun hesabına yükünü təpəyə yığmışdı. Elə ki, atam dünyasını dəyişdi, məni yola vermədi. Günümü göy əskiyə bükdü. Tüpürüb boşandım. Yaxşı ki, uşağımız olmamışdı. İndi öz əlimdi, öz başım, rahat nəfəs alıram. Fikirləşirəm ki, haçan bir yönlüsü çıxar, gedərəm, çıxmaz da çıxmaz. Bir-iki nəfər istiyir, ancaq ilan vuran ala çatıdan qorxar.





Yaxından bələd olmadığım üçün heç birinə razılıq vermirəm. Düzdür, təklik bir həyat deyil. Lakin düşünürəm ki, pis ərdənsə, elə subaylıq yaxşıdır. Bu yol bələdçiliyi də ürəyimə yatmır. Gecə-gündüz yollarda... Min cür adamla üz-üzə gəlirəm... Bu, çörək deyil yeyirəm. Ancaq əlac nədir?! Dərd məni üstələməsin deyə, birtəhər başımı girləyirəm. Ağlına ayrı fikir gəlməsin. Mən elə yüngülxasiyyət qadın deyiləm. Ancaq nə gizlədim, elə ilk görünüşdə mənə qəribə təsir bağışladın. Səndən xoşum gəldi. Deyəsən, Anatoli də bunu hiss etmişdi. Bicin biridir. Tükü tükdən seçir.

Alla bunu deyib, sarışın saçlarını başının hərəkəti ilə geri atdı və gülümsündü. Sücəddinin də dodağı qaçdı. Sücəddin yol bələdçisinin eyhamla hara vurduğunu başa düşdü və eyni açılan kimi oldu. O, Allanın mavi gözlərinə, dolu və təravətli sifətinə heyrətlə baxaraq:

- Mənə qayğı göstərən, sizin kimi mərd və nəzakətli bir qadına ömrüm boyu minnətdar olmaya bilmərəm, - dedi. - İnanın ki, bu sözlər qəlbimin dərinliklərindən qopub gəlir. İstəyirəm sizinlə açıq və səmimi danışım. Elə bir kişi təsəvvür etmirəm ki, sizin kimi cazibədar qadınla rastlaşanda, qəlbində ona qarşı rəğbət, sevgi və ya izahı mənim üçün çətin olan başqa bir hiss baş qaldırmasın. Yəqin açıq deməsəm də, könlümdən keçənləri başa düşürsünüz. Ancaq bizim yerin torpağındandı, suyundandı-nədi, adamları başqa təbiətdə olur. Məncə, insan özü-özündən həzz almağı bacarmalıdır. Xoş əməlləri ilə fəxr etməli, naqis hərəkətlərinə görə xəcalət çəkməlidir. Anatoli məni sizə etibar etdiyi kimi, yəqin ki, sizi də mənə etibar eləyib. Ötəri hisslərin əsirinə çevrilib onun haqqı-sayını itirsəm, özüm-özümə nifrət edərəm. Qoy həmişə xatırlayım ki, füsunkar gözəlliyinə məftun oldu-

ğum və məndən xoşu gələn gözəl bir qadınla örtülü kupedə sutka yarım yol getdim, lakin dostumun yaxını kimi ona əyri gözlə baxmadım. Ağlım, kamalım ehtirasımın qulu olmadı. Əlbəttə, mən bu sözləri daxilən əzab çəkə-çəkə deyirəm. Bir də, axı, necə izah edim ki, bu kupedə əyləşdiyim ilk dəqiqələrdən qulağıma üçatılan səsi, burnuma barıt qoxusu gəlir, gözümə qanlı səhnələr, qətlə yetirdiyim insan cəsədləri görünür. Milis işçiləri məni təqib edir. Artıq o dünyamla əlləşirəm. Bu yaz mənim güllü-çiçəkli yox, qanlı baharım olacaq. Əyləşdiyimiz qatar dəqiqəbədəqiqə məni həmin fəlakət anlarına yaxınlaşdırır... Ey məğrur qadın! Yeganə təsəllim odur ki, bu yolu balaca kupedə sizin ətirli nəfəsinizi dərə-dərə gedirəm.

Qatarın sürəti azaldı. - Dərbənd, Dərbənd! - deyə gur və qarışıq səslər eşidildi. Alla yenidən kupedən çıxıb tez qapını çöldən bağladı. Vaqondan bir neçə əli çamadanlı sərnişin düşdü, qatara cəmi iki-üç nəfər daxil oldu. Alla onların biletini alıb yerbəyer elədi. Qatar tərpənəndən bir neçə dəqiqə sonra Alla öz kupesinə döndü və üzünü Sücəddinə tutaraq:

- Bağışla, - dedi, - sözün yarımçıq qaldı. Əlac nədi, peşəmiz belədi. Yola ki, çıxdım, rahatçılığım yoxdu. Allahın şirin yuxusuna da həsrətəm. Buyur, səni dinləyirəm, - əlavə etdi.

Sücəddin:

- Artıq deməyə sözüm yoxdur, - cavab verdi.

Alla Timofeyevna təəccüblə gözlərini qıydı:

- Qanlı səhnə... Üçatılan... Barıt qoxusu... Bunları eşitdim, lakin başa düşmədim. Oxunu atıb yayını gizlətmə. Məndə nigarançılıq yarandı. İstəyirəm ki, açıq danışasan.





Sücəddin:

- Mənzil başına cəmi bir neçə saat qalıb. Sizin sualınızı izah etmək üçün günlərlə vaxt lazımdır. Bir də ki, elə sirrlər var ki, örtülü qalsa yaxşıdır. Onu açıb-ağartmağa dəyməz. Və istəməzdim ki, sizi şənləndirmək əvəzinə kədərləndirim...

Sücəddinin oturuşu, duruşu, davranışı, söz-söhbəti Alla Timofeyevnanı necə ovsunlamışdısa, dəmiryol bələdçisi onun qarşısında lal kimi dayanmışdı. Sanki dillənməyə cəsarət etmirdi. Allanın uzun kirpiklərinin arasında bir neçə damcı yaş gilələndi. Sücəddin bilmədi ki, Alla öz uğursuz taleyini ağlayır, yoxsa, ölümünü gözünün altına alıb, vətəninə boynu kəfənli gedən insanı.

Möminlərin inam və ibadət yeri olan Xıdırzində dağının zirvəsi görünəndə Sücəddin söhbəti yarımçıq qoyub ayağa qalxdı:

- Alla Timofeyevna, irəlidəki yarımstansiyada düşməliyəm, - dedi. - Burada adam az olur. Həm də gedib-gələnlərə fikir verən yoxdur...

* * *

Onlar cəmi sutka yarımdı ki, tanış olmuşdular. Lakin yüz ilin doğmaları kimi ayrıldılar... Sücəddin ürəyinin bir parçasını balaca kupedə qoydu, Allanın ürəyini isə özü ilə apardı. Qatar gözdən itənə qədər onlar bir-birinə əl etdilər.

* * *

Sücəddin kəndə sağ-salamat çatmaq üçün hansı yollarla, necə getmək barədə əvvəlcədən ölçüb-biçmişdi. O, dənizə tərəf boylanan Xıdırzində dağının ətəyində ziyarətə gələn möminlərə qoşulub zirvəyə qalxdı. Bura-

dan baxanda aşağıdakı dəmir yolundan başlamış, Xəzər dənizinə doğru uzanan geniş düzlər, bir-birindən aralıdakı bağlı-bağatlı kəndlər, ağ, qırmızı, çəhrayı rəngli çiçək talaları, qışda köçəri quşların məskən saldığı sıx qamışlıqlar, keçilməz bataqlıqlar aydınca görünürdü. Dağın başında dikələn boz qayalar yerlərindən tərpənmədən, sanki bu mənzərəni heyranlıqla seyr edirdi və ziyarətə gələnlərin yoluna sərin kölgə salırdı. Yaxın-uzaq ellərdən axın-axın gələn möminlər pirə nəzir qoyur, əllərini qaldırıb Allaha dua eləyir, qurbanlar kəsirdilər. Sücəddin Muğan tərəfdən gələn Miraslan adlı nurani qoca ilə dilləşib, tanış oldu. Qoca oğlunun idarə etdiyi və təsərrüfat idarələrinin birinə məxsus köhnə yük maşını ilə bura gəlib çıxdığını bildirdi. - Nəvəm sağalmaz dərdə düşmüşdü, şükür, sağaldı. Onda Xıdırzində pirinə qurban demişdim. Allah-taala qurbanımı qəbul elədi. Əhdim yerini aldığına görə gəlmişəm borcumdan çıxam.

* * *

...Ziyarət başa çatandan sonra Sücəddin Miraslan ağa ilə birlikdə onları gətirən maşına əyləşdi. Sücəddin qocanın xoşuna gəlmişdi. Kəndə çatar-çatmaz Miraslan ağa onu evinə qonaq dəvət etdi. Sücəddin qocanın sözünü yerə salmazdı, gedərdi. Lakin Miraslan ağanın yaşadığı kənd Araz boyunca tikanlı məftillər çəkilmiş Sovet-İran sərhədinə yaxın olduğu üçün ehtiyat elədi. Sücəddin düşündü ki, orda addımbaşı əlisilahlı sərhədçilər dayanıb, gəlib-gedəni yoxlamamış buraxmırlar. Ehtiyat edirdi ki, onların əlinə keçə bilər. Ona görə də Miraslan ağaya dönə-dönə minnətdarlıq eləyib, kənddən xeyli aralıdakı yolayrıcında maşından düşdü. Qoca pirdə kəsdiyi qurbandan ona zorla pay verdi, bir büküm də yuxa çörək. - Adətimiz belədir, oğul, - dedi, - götürməsən inciyərəm, ürəyimdə qaraltı qalar. Sücəddin qocanın qarşısında aciz idi. Odur ki, sözünü sındırmadı, verdiyi qurbanlıq payı qəbul edib, ağaya minnətdarlığını bildirdi. Onlar ata-bala kimi ayrıldılar.





* * *

Mayın ortaları idi. Sular bulanmışdı, yaşıl çöllər min bir rəngə çalırdı. İlin bu vaxtı tərəkəmə camaatı istilərin dərdindən Aranı tərk edib, uzaq-uzaq dağlara çəkilirdi. Araz boyu kəndlərdən başlanan köç yolu Qalaça kəndinin cəmi üç-dörd verstliyindən keçir. Sücəddin dalda bir yerdə ocaq qalayıb, Miraslan ağanın verdiyi qurbanlıq ətdən kabab bişirdi. Duz olmadığından alaçiy bişmiş kabab Sücəddinə ləzzət eləmədi. Gün hələ batmamışdı. Ocağın yanında başını yanpörtü qolunun üstünə qoyub yuxuya getdi. Gözünün acısını alıb ayağa qalxdı və yaxınlıqdakı arxın bulanıq suyundan içib, sonra da üzünə vurdu. Tələsik köç yoluna çıxdı. Ağır-ağır irəliləyən fərməc, keçə, gəbə, kilim, yorğan-döşək yüklü dəvə karvanlarının, qoyun-quzu sürülərinin, qaramal naxırlarının əlindən tərpənmək olmurdu. Köç-köçə qarışmışdı. İstidən və yorğunluqdan dili bir qarış çölə çıxan çoban itləri, tez-tez boğuşub bir-birinin dərisini didirdilər. Sücəddin belə bir qarışıqlıqdan istifadə edib köç adamlarına qoşuldu. Bu basabasda kim idi onu tanıyan?! Çobanlar Sücəddinin başqa bir köçdən olduğunu güman eləyib, onun kimliyi ilə maraqlanmadılar. Hərə öz başının harayındaydı. Sücəddin yorğunluğunu çıxarmaq üçün gecələr girəvəyə salıb boş dəvədən, atdan birinə minib rahatca yoluna davam edirdi. Hərdən çiynində beşaçılan, belində tapança olan atlı milis işçiləri ilə rastlaşırdı. Onlar malheyvanın taxıl zəmilərinə, otu çalınmamış biçənəklərə ziyan vura biləcəyini, çobanlarla kövşən qoruqçuları

arasında qalmaqal yaranacağını nəzərə alıb köç yoluna nəzarət edirdilər. Milis işçilərindən ikisi, bazburudundan Sücəddini köç sahiblərindən biri hesab edib, ona ədəb-ərkanla salam verdi. O, təmkinlə salamı alıb, sürünün qabağına keçirmiş kimi, mindiyi atın başını buraxdı və milis işçilərindən aralandı. - Bu xatadan da belə sovuşdum, - Sücəddin daxilən düşündü.

Qalaçanın əkin-biçin yerlərinin arasından keçən el yoluna çatanda qaş qaralırdı. O, irəlidəki tapı keçəndə atdan düşdü və su başına dönmək bəhanəsilə sol tərəfdəki kol basmış dərəyə endi. Ona tanış olan doğma yerlər indi Sücəddinə yad kimi görünürdü. Dağlar, daşlar əsla dəyişməmişdi. Hamısı öz yerindəydi. Yox olan atası Cahangir, anası Zöhrə, bir də ki, Bağır kişiydi. Onlar çoxdan dünyalarını dəyişmişdilər. Sücəddin vaxtilə gəzib dolaşdığı yerlərə göz gəzdirdi, kövrək hisslər keçirdi. Sonra vaxtı itirmədən Qalaçanın ətrafındakı sərt yal-yamaclardan keçib, o vaxt atasının üçatılanı gizlətdiyi yerə çatdı. Tüfəngin üstünü örtən daşların biri də tərpənməmişdi. Sücəddin tüfəng qoyulan yeri eşib üçatılanı çıxartdı. - Yüz gün yaraq, bir gün gərək. - Atası Cahangirin vaxtilə dediyi sözü xatırladı. Tüfəngin qundağını, çaxmağını, lüləsini nəzərdən keçirtdi. Üçatılan salamat qalmışdı. Tətiyində, bir az da lüləsinin ağzında azca pas əmələ gəlmişdi, vəssalam! O, sandığı patronla doldurub, artıq qalan gilizləri cibinə yığdı. Aşağı enib qədim arxın keçdiyi tunelə baş çəkdi. Vaşaqla necə əlbəyaxa olduğunu düşünəndə tükləri ürpəşdi. Burada Minayə ilə keçirdiyi o vaxtkı anları xatırlayanda qəlbini nifrət və qəzəb hissləri çulğadı.

Sücəddin silahı çiyninə salıb, fikirli-fikirli kəndə tərəf yönəldi. Qənşər bir yerdə dayanıb Qalaçaya baxdı. Hamı yatmışdı. Bir-iki evin pəncərəsindən zəif işıq gəlirdi. - Sakitlikdir, məni görən olmaz, - düşündü. Və tüfəngin ağzına bir patron verib kəndin kənarından keçən dərəyə endi. Qanıx bir it çaxmağın şaqqıltısını eşidib, özünü yeyib tökürdü. Sücəddin ona əhəmiyyət vermədən dərədən qalxıb, ağacların arası ilə evlərinə yaxınlaşdı. Arxa divardan aşıb, ehmalca həyətə düşdü. Qarabaşın səsi gəlmədi. - Yəqin ölüb, yoxsa hürərdi, yaxşı it idi. - Düşündü və dilxor oldu. Evin qapısı arxadan bağlandığı üçün pəncərənin qabağına keçib kal bir səslə: - Növrəstə! Növrəstə! - deyib bacısını çağırdı. Qonşunun ayıq-sayıq qazları onun hənirtisini alıb həyəcanla qaqqıldaşdılar. Növrəstə təzəcə yuxuya getmişdi. O, pəncərədən səs gəldiyini eşidib hövlnak yerindən qalxdı. Əl fənərini yandırıb dəhlizə çıxanda qardaşını gördü. Onlar qucaqlaşıb ağladılar və tez arxa otağa keçdilər. Növrəstə gözlərinə inana bilmirdi ki, gecənin bu vaxtı qardaşı gəlib çıxıb. Sücəddin bacısına təsəlli verdi. Qardaş-bacı ikilikdə xeyli dərdləşdilər. Növrəstə əriyib çöpə dönmüşdü. Zədə alan gözü yaxşı görmürdü. Sücəddinin necə, nə məqsədə gəldiyini bacısı bilmirdi.

Sücəddin sözarası bacısından soruşdu:

- Tacəddindən nə xəbər var?!

Növrəstə çiyinlərini qaldırdı və başını yana əyərək:

- Nə deyim, vallah, neçə ildi o tərəflərə üz çevirmirəm, - dedi. - Ona görə də xəbərim yoxdur. İnişil bir balaca qulağıma dəydi ki, guya Tacəddin hardasa dənizdə işləyirmiş. Neft işinə baxırmış. Güclü tufan olub, gəmidəkilərin hamısı batıb. Deyilənə görə, Tacəddin də onların içindəymiş. Heç meyidi də tapılmayıb. Ata yox, qardaş yox, anaynan bacı da ki, eyş-işrətdədilər, uyublar Bahəddinə. Tacəddini itirib-axtaran var?!

Sücəddin bu bəd xəbəri eşidəndə sarsıldı. Bir qədər fikrə getdikdən sonra:

- Bacı, düzünü de, o Minayə-Bahəddin məsələsi ki, yazmışdın, bu, doğrudur?

Növrəstə:

- Nə danışırsan, ay qardaş, - dedi, - birdən-ikiyə mən yalan söz danışanam?! Bunu bütün kənd bilir. Bahəddin gündə, günaşırı onlardadır. Qonum-qonşunun deməsinə görə gecələr də onlarda yatıb qalır. Bağırın da ki, ilinə az qalıb. Bir aya toyları olmalıdır, - deyib sonra Sücəddini məzəmmət elədi. - Qardaş, tay onlardan keçib. İti-qurdu yadına salıb özünə dərd eləmə. Onsuz da dərdimiz çoxdur.

Sücəddin:

- Natalya müəllimə necədir? - soruşdu.

Növrəstə:

- Rus olsa da, maa yaxşı köməyi dəyirdi. İnişil vayenkomdu, nədi, o əsgər aparan idarədə işləyən bir azərbaycanlı oğlana ərə getdi. Eşitdiyimə görə mehriban dolanırlar. İndinin özündə də bizi yaddan çıxarmır. Bir-iki dəfə maa pay-pürüş göndərib. Sağ olsun, heç atamın çörəyini yeyənlər məni bir heylə itirib-axtarmırlar, - deyib susdu.

Şüşəsi çat vermiş neft lampasının işıq saldığı otağa ağır sükut çökdü. Sücəddinin gözü pəncərədə idi. Növrəstə başını aşağı dikmişdi. Onun solğun yanaqlarından süzülən göz yaşı qurumaq bilmirdi. Sücəddin bacısına təpindi:

- Ağlama, - dedi. - Hələ ölməmişəm, sağ-salamat qayıdıb gəlmişəm. Haçan ölərəm, onda ağlayarsan!

Bu sözdən sonra Növrəstə özünü bir qədər yığışdırdı, ağlamadı. Sücəddin Növrəstənin avazımış sifətinə baxaraq:

- Eşit, gör nə deyirəm. - Bacısının diqqətini özünə cəlb etdi. - İndi gəlmişəm, istəyirəm lüt Qasımın oğlu lovğa Səftərlə aramızda mehribançılıq olsun. Köhnə incikliklər aradan qalxsın. Necə olsa, kəndimizin böyüyüdür. Onunla





görüşüb dil tapmalıyam. Sözümüz tutsa, kənddə qalaram. Bacı-qardaş baş-başa verib birtəhər keçinərik. Yox, gördüm ki, Səftər düşmənçiliyindən əl çəkmir, burada yaşamağımızın mənası yoxdur. Baş alıb bir tərəfə gedərik. Ona görə də lüt Qasımın oğlu ilə görüşüb-eləməmiş, gəldiyimi heç kəs bilməməlidir. Aydındır?

Növrəstə:

- Aydındır, qardaş. Başa düşdüm, düz deyirsən. - Növrəstə cavab verdi. - Axır vaxtlar illaf qudurub yolundan çıxıb. Orden alandan bəri də Tanrıya təpik atır. Görənin gözünü tökdürür, dinənin dilini kəsdirir. Heyləsindən nə qədər aralı olsaq, bir heylə yaxşıdır. Başımız salamat qalar. Quru yerə çəkişməyin axırı yoxdur.

Sücəddin:

- Ona görə də səhər-axşam bir bəhanə ilə idarənin yan-yörəsində hərlən. Maraqlan, gör, Səftər haralara gedib-gəlir. Kənddən nə vaxt çıxdığını bilib, onunla təklikdə görüşməliyəm. - Fikrini tamamlayıb, mis parçdakı suyu başına çəkdi...

Sücəddin iki gün gözlədi. Üçüncü gün öyrəndi ki, Səftər sabah - cümə günü sübh tezdən rayon mərkəzinə getməlidir. Sücəddin bunu bilən kimi gecə yarısı kənddən çıxıb, dörd-beş verst aralıdakı, üst tərəfi sıx meşəlik, aşağısı böyürtkən kolları ilə örtülmüş qorxunc dərədə pusquda dayandı.

Buradan göy qübbəsindən başqa heç yer görünmürdü. Sücəddin dərədən keçən darısqal yolun kənarındakı ağ qayanın arxa tərəfində gizləndi. Hava işıqlansa da günəş hələ çıxmamışdı. Birdən at ayağının tappıltısı eşidildi, sonra qulağına gəraylı səsi gəldi. Səftər yorğa atın üstündə yanpörtü oturub nəşə ilə yırğalanırdı. Əlində dəstəyi ağ sümükdən olan toxunma şallaq vardı. Dodaqaltı zümzümə eləyirdi. Sücəddin münasib yer seçib hazır

vəziyyətdə dayanmışdı. Lüt Qasımın oğlu onun yanından ötəndə cəld atılıb arxadan onun tərkində oturdu. Səftərin gözləri alacalandı, qorxusundan yaralı vəhşi kimi bağırdı və var gücü ilə onun əlindən qurtarmağa çalışdı. Lakin Sücəddin aman vermədi. At hürküb götürülmək istəyəndə, Sücəddin cilovu Səftərin əlindən alıb özünə tərəf dartdı, sol əli ilə də Səftərin ağzını yumdu. Səftər qartalın caynağına keçən dovşanın vəziyyətinə düşmüşdü. O, geri qanrılıb tərkindəkinin kimliyini bilmək istədi, ancaq bacarmadı. Sücəddin cilovu təkqanad eləyib atın başını meşənin dərinliyinə tərəf döndərdi. Onlar bir güllə mənzili yoldan aralanmışdılar. Meşənin qalınlığındakı şiş qayaların arasında dayanıb atdan düşdülər. Səftər onu yaxalayan adamı görəndə yalvarıcı bir dildə:

- Sücəddin, sənsən?! Nə yaxşı gəlib çıxmısan! Elə bildim başqasıdır, - deyib onu görməyinə şadmış kimi, Sücəddini qucaqlamaq istədi.

Sücəddin:

- Axmaqlama, - dedi. - Nə Sücəddin?! Sən dediyin Sücəddin Sibirdədir! Mən Əzrayılam, Əzrayıl! Yəqin qorxudan səni qara basır, sayıqlayırsan! Gözünə Sücəddin kimi görünürəm, - deyib başına hava gələn adamlar kimi dəlicəsinə güldü.

Səftər əzrayıl kəlməsini eşidən kimi özünü itirdi və ona elə gəldi ki, bu, Sücəddin yox, doğrudan da əzrayıldı. Ona görə də nitqi tutuldu, demək istədiyi söz dilinin ucunda qaldı. Titrətməli xəstələr kimi əsməyə başladı və gözlənilmədən huşunu itirib halsızlaşdı.

Sücəddin sakitcə atın cilovunu kənardakı ağaca bağlayıb, Səftərin əl-qolunu sarıdı. Üçatılanı bir kənara söykəyib, əl dəsmalı ilə üz-gözündən süzülən təri sildi. Bir neçə dəqiqədən sonra Səftər özünə gəlib gözlərini geniş açdı. Yalvarıcı baxışları Sücəddinin hiddətlənmiş





sifətinə dikildi. Ağzını açıb nə demək istədisə, Sücəddin ona imkan vermədi:

- Sən əlindən gələni etmisən, istədiyini demisən! İndi söz mənimdir! Lüt Qa-sı-mın oğ-lu lov-ğa Səf-tər!! Əvvəla, de görüm, indi məni əməlli-başlı tanıya bildin?!!

- Tanı...tanı...tanıdım. Sücəddinsən. Cahangirin oğlu. - Səftərin dili topuq vura-vura cavab verdi.

Sücəddin onun qaralmış sifətinə ikrahla baxaraq:

- Yoox, səhvin var, lüt Qasımın oğlu! Axı, bayaq dedim. Mən Əzrayılam! Əzrayıl! Sənin gözünə Sücəddin kimi görünürəm. Cahangiri Sibirə göndərmisən. Oğlu Sücəddini də onun arxasınca. Sayıqlama, Sücəddin hara, bura hara?! Səhvin var, lüt Qasımın oğlu! Mən Əzrayılam! Əzrayıl! Mən Allah-taala tərəfindən göndərilmişəm ki, get, gör yaratdığım yaratdıqlarıma niyə zülm eləyir?! Allah-taala deyir ki, bəndələrimi xeyir əməllər üçün yaratmışam. Onların bəziləri qoyduğum yoldan çıxıb, xəlq elədiklərimə divan tutur! Bu məhşər ayağında səndən soruşuram: Cahangirin günahı nə idi? Niyə Hacı Sadığın qızı Qənirənin başına o oyunları gətirib, şikəst ata-anasını ağlar qoydun?! Dəyirmanın qabağında şallağın altına saldığın dilsiz-ağızsız heyvanın ərşə qalxan naləsindən qorxmurdunmu?! Lüt Qa-sı-mın oğ-lu lov-ğa Səf-tər!! Bu əməllərinə görə sinənə orden taxıblar?! Bura Allahın əmri ilə gəlmişəm! Səni sorğu-suala tutmağa. Düzdür, səni də Allah yaradıb. Ancaq sən qudurub yolundan çıxmısan, yaradanına bəndəlik eləmirsən! Sən lüt Qasımın oğlu insan yox, insanları sağalmaz dərdə düçar eləyən mikrobsan! Bax, o mikrobun kökünü kəsmək üçün gəlmişəm! Lüt Qa-sı-mın oğ-lu!! Ancaq səni bu silahla yox, əllərimlə boğub öldürməliyəm. Çünki əlim cəsədinə dəyməsə, ürəyim soyumaz. Sənin canını evində də ala bilərdim. Onda

aparıb torpaqda basdırardılar. Ana dediyimiz torpaq müqəddəs olduğu üçün sənin kimi naqisləri, nakəsləri qəbul eləmir. Ona görə də min bir nemət yetirən qara torpağa basdırılmağa layiq deyilsən. İstəmirəm o torpaq murdarlansın! Səni burda, elə burdaca - Sücəddin ayağını yerə döyə-döyə: - qətlə yetirməliyəm! Qoy cəsədin o pak, müqəddəs torpağa qarışmasın, qurda-quşa, həşəratlara, vəhşilərə qismət olsun. Lüt Qa-sı-mın oğlu lov-ğa Səf-tər! Bilirəm, hər yerdə səni mədh edib tərifini göylərə qaldırırlar və səfeh, riyakarın biri olduğun halda, alqış sədaları səndə inam yaradıb ki, dahilər dahisisən, müdriksən! Ağıl dəryasısan, əvəzolunmazsan! Ha-ha-ha! - Sücəddinin istehzalı gülüşü meşənin arasında dikələn qayalıqlarda əks-səda verdi.

Lüt Qasımın oğlu lovğa Səftərin nitqi tutulmuşdu. O, çaş qalmışdı. Bilmirdi ki, qarşısındakı Sücəddindi, yoxsa doğrudan da əzrayıldı. Daha çox onu əzrayıl bilirdi. O, özünə haqq qazandırmaq üçün ha çalışdı ki, Sücəddinin donunda gözünə görünən əzrayıla nə isə bir söz desin, yalvarsın, ancaq bacarmadı. Deyəsən, etdiklərinin əvəzində indicə ona nə ediləcəyini anlamışdı. Ona görə dözmədi, qətlinə özü fərman verdi. Yalvarıcı, günahkar baxışları məchul bir nöqtəyə zilləndi. Artıq ürəyi də ondan bezdiyi üçün, bu anda dayandı, vurmadı... Daha sinəsində parıldayan orden də enib-qalxmırdı. Onu göylərə qaldıran orden elə bil sahibindən qabaq ölmüşdü...

Sücəddin atın yəhərini alıb, cilovunu başından sivirib, meşəyə buraxdı. At azadlığa buraxıldığını hiss edibmiş kimi boynunu şax tutub hara isə baş alıb getdi. Sücəddin şər qarışana qədər meşədə qaldı. Çiçəyini təzəcə tökən zoğal ağacının dibində başını yumşaq xəzəlin üstünə qoyub, xeyli yatıb dincəldi. Qaranlıq qatılaşanda yenə də gizlincə kəndə qayıtdı. Növrəstə dəhlizin qabağında





dayanıb qardaşını gözləyirdi. Sücəddini görəndə sevindi və içəri keçən kimi tez soruşdu:

- Səftərlə görüşə bildin?
- Bəli, - Sücəddin yorğun-yorğun cavab verdi.
- Sənnən nə danışdı?
- Söhbətimiz pis keçmədi, bir-birimizi başa düşdük.

Növrəstə nə soruşmaq istəyirdisə, Sücəddin onun sözünü kəsdi və:

- O söhbəti qurtardıq, - dedi. - İndən sonra lüt Qasımın oğlu lovğa Səftər bizə dəyib dolaşmaz. Aramızdakı kin-küdurətə də son qoyduq. Yerimi sal, yorulmuşam, yatmaq istəyirəm. Sabah başqa bir yerə səfərim var. Sübh tezdən getməliyəm...

Sücəddin Səftərlə olan əhvalatı Növrəstəyə bildirib, onu təşvişə salmaq istəmirdi. İstəmirdi ki, bu sirri özündən savayı bir başqası da bilsin. O, yorğun, əzgin olsa da, rahat yata bilmədi. Səhərə qədər Minayə və onun ifritə anası Qızyetərlə necə üz-üzə gələcəyini fikirləşdi. Bəzən onları qətlə yetirmək fikrindən daşınırdı. Lakin Minayə ilə Bahəddini gözünün önünə gətirəndə intiqam hissi onu tərk etmirdi. Səhərin gözü açılanda yerindən qalxdı. Əl-üzünü yuyub, tələm-tələsik bir loxma çörək yedi. Bacısını bağrına basıb, xeyli onu qollarının arasında saxladı, üz-gözünü duz kimi yaladı. Qardaşının bu hərəkəti Növrəstəni kövrəltdi. Sücəddin ondan ayrılanda belə bir kəlmə işlətdi:

- Dünyanın işini bilmək olmaz, bacı, - dedi. - Bəlkə bir də görüşmədik.

- Sücəddinin bu müəmmalı sözləri Növrəstəni sarsıtdı və gözlərinə dəm verdi. Sücəddin geri döndü, bacısının başını sinəsinə sıxdı və bu dəfə özünü də qəhər boğdu. Bacısının alnından axırıncı dəfə öpüb, ona tərəf baxmadan həyətdən uzaqlaşdı.

Naxır hələ kənddən çıxmamışdı. Sücəddin arxa tərəfdən hərlənib Bağırgilin o qədər də böyük olmayan bağçasına girdi. Bahəddin bu gecə Qızyetərgildə yatıb qalmışdı. O, kənardan Sücəddinin qaraltısını görəndə özünü itirdi və tez bağçanınküncündəki ot tayasının arasına girib gizləndi. Sücəddin üçatılanın ağzına bir patron verib, əli tətikdə çəpərdən həyətə tullandı. Dizlərinin arasında sərnic, çöməlib avazla zümzümə eləyib, inək sağan Qızyetər ayaq tappıltısını eşidəndə geri qanrıldı. Sücəddini görəndə:

- Bıy, sənsən, Sücəddin, qadan alım, nə yaxşı gəlmisən...

Qızyetərin ağzından söz qurtarmamış tüfəng açıldı. Qızyetər üzüquylu yerə sərildi. İnək hürküb həyətin o başına tərəf qaçdı. Güllə Qızyetərin kürəyindən keçib, dizlərinin arasındakı mis sərnici deşmişdi. Qırmızı qan ağ südə qarışıb həyətdəki çalaya tərəf axırdı. Sücəddin üçatılanın çaxmağını geri çəkib, tüfəngini ikinci dəfə doldurdu və Minayənin yataq otağına tərəf hərləndi. Minayə tüfəngin səsini eşidib, alt paltarında saçları dağınıq halda hövlanək həyətə çıxdı. Anası südü həyətə calanmış deşik sərnicin yanına sərilmişdi. Qeyri-ixtiyari, gözləri indicə evdən həyətə çıxan Bahəddini axtardı və onu köməyə çağırmaq istədi. Lakin Bahəddini görə bilmədi. - Yəqin əli qurumuş onu da öldürüb - ani olaraq düşündü. Sücəddin əlində üçatılan iri addımlarla ona doğru irəliləyəndə Minayə qayıdıb qaçmaq istədi. Sücəddin amansız bir qəzəblə:

- Qaçma!! Qaçma!! Dayan!! Əlimdən qurtara bilməzsən, - deyib onu intiqam hissi ilə alışıb yanan hiddətli baxışları ilə təqib etdi.

Minayə geri çönüb, onun qarşısında təqsirkar olduğunu etiraf edirmiş kimi diz çöküb, əllərini Sücəddinə





tərəf uzatdı. Nə isə demək, bəlkə də günahlarını boynuna alıb imdad diləmək, vaxtı ilə sevdiyi oğlanın ayaqları altına düşüb yalvarıb-yaxarmaq istədi. Sücəddin ona aman vermədi və:

- Artıq dillənməyə haqqın yoxdur, Minayə - dedi, - sənin riyakar sözlərini daha eşitmək istəmirəm.

Minayə indi öz qarşısında vaxtı ilə onu əzizləyən sevgilisini yox, qəsdinə duran amansız bir cəllad görürdü. Odur ki, dinməyin mənasız olduğunu hiss edib susdu. Sücəddin Minayə ilə yox, ilk dəfə gördüyü və arzusunca olmayan yad bir qadınla danışırmış kimi:

- Bil və agah ol ki, səni öldürməyə yox, xilas etməyə gəlmişəm, - deyib mükəddər baxışları ilə onu başdan-ayağa süzdü. Və - ayrılıq anlarında mənə dediklərini yaxşı-yaxşı xatırla - əlavə etdi. - Bilirəm, əlimdəki ölüm saçan silahın qarşısında səni nələr gözlədiyini anladığına görə hər cür sifətə düşüb həmişəki kimi yenə də aldadıcı dillər tökməyə hazırsan. Ancaq unutma ki, sənə olan məhəbbətimin əzablı, şaxtalı yolları məni ayıldıb. Dilinlə qəlbin arasındakı uçurumu təsəvvür etdikcə dəhşətə gəlirəm. Əməllərin məni qəddar, qaniçən bir məxluq olmağa vadar etdi. Ona görə də üzbəüz dayandığımız indiki anlarda səndən çox özümə nifrət edirəm. Çünki dünyada insan qanı axıtmaqdan böyük rəzalət yoxdur. Odur ki, mən daha təsəvvür etdiyin Sücəddin yox, rəzil bir qatiləm. - "Sücəddin, atam evindən ya sizin evə gəlin, ya da ki, cənazədə qəbiristanlığa gedib, qara torpağa qovuşmalıyam. Üçüncü bir yol seçəcəyimi ağlınıza belə gətirməyin". Bu sözlər heç də başqa birisinin yox, sən Minayənin dilindən çıxıb. Bu aldadıcı sözlərə görə özümü Sibir şaxtasının quduz ağzına atmışam. Lakin birinci yolun haçalandı, azdın! Toy paltarında düşmən qapısına üz tutmaq kimi naqis bir

niyyətə düşdün. Gəldim ki, səni o yoldan qaytarım. Heç olmasa ikinci əhdinin yerinə yetirilməsinə yardımçı olum. Cənazədə qəbir evinə göndərim. Birinci əhdin baş tutmasa da, ikincisi yerini alsın.

Sücəddin bir neçə addım irəliləyib:

- Mən bütün məhəbbətimi sənə verib onun müti quluna çevrildim - sözünə davam etdi. - Sən isə aramızdakı ülvi bir sevgiyə xəyanət etməyi özünə rəva bildin. Ona görə də səni qətlə yetirməkdən çox, sevdiyim qıza qarşı hələ odu sönməyən məhəbbətimin əbədi məhv olması qəlbimdə dözülməz əzaba çevriləcək. Səni göndərəcəyim və özüm də gələcəyim ruhlar dünyasında belə bir əzabdan çətin ki, xilas ola bilim. İşıqlı dünyada mənə nəsib olmağın kimi, o dünyada da vüsala qovuşacağımızı ağlına belə gətirmə. Çünki sən hər iki dünyada sevib-sevilməyə layiq deyilsən.

Minayə etdiyi qəbahətləri göz önünə gətirib Qalaçanı əhatə edən dağlardan soyuq sazaq gəlirmiş kimi Sücəddinin ittihamları qarşısında əsim-əsim əsirdi. O, alacalanmış gözlərini Sücəddindən çəkmədən nə demək istəyirdisə, tüfəngin tətiyi çəkildi... Üçatılanın məşum səsi Minayənin deyə bilmədiyi son sözün axırıncı cavabı oldu...

* * *

Tüfəngin səsinə səhər-səhər bütün kənd ayağa qalxmışdı. Ancaq heç kim cəsarət edib, gözlərini qan örtmüş silahlıya yaxın gedə bilmirdi. Sücəddin kənddən çıxmaq üçün arxaya baxa-baxa geri çəkildi. O, vəcdlə - Yar öldürmüşəm, yar! - deyib, üçatılanı başının üstündə oynada-oynada düşmənlərinə meydan oxuyurdu. Qan tutmasın deyə, axan sudan bir neçə ovuc götürüb üzünə çilədi. Sonra dırnaqları ilə sinəsini cırıb qanatdı. Bir-iki nəfər əli ağaclı ona yaxınlaşmaq istəyəndə Sücəddin onları





vurmaq istəmədi. Havaya iki güllə atdı. Ondan sonra irəli duran olmadı.

Kəndlə tərəkəmə yolunun arası iki-üç verstdən artıq olmazdı. Köçə nəzarət edən milis işçiləri güllə səsi eşidib, atlarını dərəaşağı kəndə tərəf səyirtdilər. Kənd camaatı ilə Sücəddin üz-üzə dayanmışdı. Milis işçiləri atlarını buraxıb Sücəddinin arxasına keçmək istədi. Qətlə yetirilənlərin adamları qana qan eləməyə can atırdılar. Sücəddinin dal-qabağı kəsilmişdi. O, ələ keçməmək üçün alçaq daşların arasından əyilə-əyilə keçib meşəyə girdi. Çox keçmədi ki, rayon milis şöbəsindən yeddi nəfər əlavə silahlı göndərildi. Meşə hər tərəfdən güllələbarana tutuldu. Lakin bir mətləb hasil olmadı. Onlar iki gün meşənin giriş-çıxış yollarını kəsib güdükdə dayandılar. Sücəddindən heç bir səs-səmir çıxmadı. Elə bil yağlı əppək olub göyə çəkilmişdi. Qatili yaxalamaq üçün göstərilən bütün cəhdlər boşa çıxdığından silahlı milis dəstəsi çəkilib getdi.

Sücəddinin barəsində bütün ölkədə axtarış elan olunmuşdu. Həmin hadisədən neçə ay keçdi. Lakin Sücəddin tapılmadı. Belə bir ehtimal yarandı ki, Sücəddin həmin meşədən kənara çıxmayıb. Onun aqibəti sirr olaraq qaldı...

Köhlən atın belinə oxşayan bu yal nəhəng bir qəbri xatırladırdı. Yalın güney tərəfi gəvən kolları, qüzey tərəfi isə ağacları o qədər də hündür olmayan sıx meşə ilə örtülmüşdü. Yalın yuxarı başında qartalların yuva saldığı dik qaya ucalırdı. Sücəddin burada qeybə çəkildiyi üçün hamı bura sehrli-sirrli faciə yeri kimi baxırdı. Növrəstə hər cümə axşamı meşə ilə üzbəüz olan qənşər bir yerdə dayanıb qardaşının yoxa çıxdığı yalın qüzeyinə hey baxır və xısın-xısın göz yaşı tökürdü.

Dünyada belə bir iri qəbir, nəhəng başdaşı olduğunu təsəvvür etmək çətindir. Sücəddin bəlkə də kiçik qəbrə

sığmadığı üçün keşməkeşli taleyinin hökmü ilə burada uyumalıydı... Dünyanın ən böyük məzarında...

Üfüqə dirənən yonulub, cilalanmamış nəhəng başdaşı Minayənin kənd qəbiristanlığındakı məzarına tərəf boylanıb, sanki məhəbbətinə dönük çıxıb dünyadan nakam gedən qızın uyuduğu torpağa gecə-gündüz, lal-dinməz, izahı çətin olan dərin bir hüznlə keşik çəkirdi.

* * *

...O gündən neçə bahar, neçə qış keçdi. Bir payız axşamı Növrəstənin qulağına illərdən bəri eşitmədiyi doğma səs gəldi. Atasının hənirtisinə oxşayırdı. - Ola bilməz! - Növrəstə öz-özünə düşündü. Lampanın işığını alıb pəncərədən həyətə boylandı. Gözünə qaraltı dəydi. Kimsə qəddini əyib həyətdə asta-asta gəzinir, ayın işığında sökülüb-dağılmış çəpəri, Qarabaşın zəncirləndiyi yeri, mərəyin qapısını, budağı qırılmış tut ağacını, dəhlizin sürtülmüş sütunlarını, çürüməkdə olan pərdiləri, tövlənin divarlarını diqqətlə nəzərdən keçirirdi. Növrəstə içəridən ona riqqətlə baxır və öz-özünə düşünürdü. - Boyda-buxunda, tərpənişdə atama necə də oxşuyur, İlahi! Bəlkə elə atamdır!! Yoxsa həmişəki kimi yuxu görürəm, olmuya məni qara basır? - Onun bədəninə üşütmə düşdü. Lampanın zəif işığında Cahangirin gözü Növrəstəyə sataşdı və astadan:

- Qızım! Növrəstə! Sənsən?! Hələ yatmamısan? - dilləndi.

Növrəstə atasının səsini eşidəndə sevincindən ev başına hərləndi. Bu, ağlagəlməz bir möcüzə idi. Ata-bala bir-birinə sarıldı. Onlar qol-boyun içəri daxil oldular. Elə bil pərgarı pozulmuş evin divarları da sevindi. Sürgünlük Cahangiri az dəyişmişdi. Yaş qarşısıalınmaz işini görsə də, Cahangirin baxışlarında bir gümrahlıq var idi. Elə o





vaxt kənddəkilər deyirdi ki, Cahangir canı bərk adamdır. Bu çağacan azar-bezarın, dava-dərmanın nə olduğunu bilməyib. Ona görə də Sibirin məşəqqətləri onu çox da əyməmişdi. Bir az ayrılıq, vətən həsrəti Cahangirə əsər eləmişdi.

Cahangir olub-keçənlərdən hali olmaq üçün qızını söhbətə tutdu. Sücəddinin başına gələnləri, Bağırın ailəsində baş verənləri eşidəndə sarsıldı. - Lakin olacağa çarə yoxdur, - deyib özünə toxtaqlıq verdi və Növrəstəyə tərəf çevrilərək:

- Qızım, başım çoxlu qəzavü-qədər çəkib. Allahdan qorxmayan kafirdir, - dedi. - Neçə dəfə ölüb-dirilmişəm. Bir kərə də dustaq yoldaşlarım axmaq bir iş gördü. Girəvəyə salıb türmə nəzarətçilərinin avtomat silahlarını əllərindən aldılar, özlərini də girov götürdülər. Hökumətin adamları işə qarışdı. Çox çək-çevirdən sonra girov götürən dustaqları gülləbarana tutdular. O işdə mənim əlim olmasa da, dustaqların arasındaydım. Bir də ki, hara qaça bilərdim. Onda çox adam qırıldı. Tacikistandan canlara dəyən Cəlaləddin Məhəmməd adlı bir dostum vardı. Etibarlı adamıdı. Onun necə olduğunu bilmədim. Gözümü onda açdım ki, qospitaldayam. Ağır yaralanmışdım. Allahdan aşağı həkimlər məni diriltdi. Qayıdacağıma ümid eləmirdim. O ki, Moskvada hökumətin başçıları arasında çəkişmə, didişmə başlandı, ölkənin böyükləri dəyişdirildi, onda bizim də bəxtimiz gətirdi. Qanunlar təzələnəndən sonra siyasi dustaqların çoxunu buraxdılar, mən də içində. Bir gözüqıyıq polkovnik vardı. Dokumentimi verəndə dedi ki, tovariş Cahangir, səndən nə siyasi məhbus olar, nə də ki, xalq düşməni, nahaqdan tutulmusan. Mən də ona rusca bir - sağ ol - deyib razılığımı bildirdim.

Cahangir nəyi isə xatırlayıb, sözünə fasilə verdi və diqqətini Növrəstədən yayındırmadan:

- Qızım, bunların hamısı Allah yazısıdı. O gözəgörünməz məni qurtardı. Burda bəndəlik iş yoxdu. Nə qədər çətinə düşmüşəm, əlimi o göydəkinin ətəyindən üzməmişəm. Yoxsa kim inanardı ki, Cahangir dünyanın o ucundan qayıdıb, gəlib buralara çıxar.

Səhər Cahangirin gəlişi bütün Qalaçaya yayıldı. Onun təmizə çıxdığını eşidib-bilən yad, qohum - hamısı Cahangirə baş çəkib, ona gözaydınlığı verirdilər. Neçə gün idi gedib-gələnlərin ardı-arası kəsilmirdi. Bütün kənd özünü Cahangirin qarşısında təqsirkar bilirdi. Dünənəcən onun kölgəsini qılınclayıb, arxasınca min cürə şər-şəbədə danışanlara indi Cahangir şirin olmuşdu. Gündə, günaşırı onu evlərinə qonaq dəvət edib, qabağında qurbanlıq qoyun kəsirdilər...

* * *

...Höcət ki, höcət! Qazamatdan gəldiyi bir ay olmazdı, yenə də başladı ki, Dəlmə arxına əncam çəkib, bu işi axıra çatdırmalıyam. Elə dediyi kimi də elədi. Çətini təpənin altından keçən tunel idi. Onun da əsas hissəsini oğlu Sücəddin qazıb qaydaya qoymuşdu. Cahangir düsərinə, belinə, külüngünə sarılıb neçə ay gecəli-gündüzlü əlləşdi. Kəndin təzə başçısı da, Zabıxlı tayfasından olan cahıl-cuhullar da Cahangirə kömək elədi. Axır ki, Cahangirin dediyi oldu, əhdi yerini aldı. Qədim arxdan su gəldi. Quruyub tərk olmuş yüzillik, minillik ağaclar dibindən göyərib günbəgün pöhrə verməyə başladı... Cahangirin külüngü, beli, düsəri yüz illərdən bəri gözdən, nəzərdən düşüb su həsrəti çəkən Cəyən düzlərini yaşıl-yaşıl incilərlə zinətləndirirdi...





Redaktor: **Səadət İldırımzadə**

**Əli İldırımoğlu. Aqibət.**
**Bakı, "Nurlan", 2007, - 368 səh.**

Respublikanın Əməkdar jurnalisti, yazıçı-publisist Əli İldırımoğlu "Həmin adam", "Zorən jurnalist", "Közərən sətirlər", "Mənim rəncbər atam", "Qarlı gecələr" romanlarının, povest, hekayə, oçerk və felyetonlardan ibarət "Mayaklar", "Yazım-yazmayım", "Çinarlı", "Dərd", "Telepat", "Silinməz izlər" kitablarının müəllifidir. Bir çox əsərləri xarici dillərdə nəşr edilib və oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Ötən əsrin otuzuncu illərində cərəyan edən bəzi hadisələr "Aqibət" romanında sənətkarlıqla, ədəbi-bədii dildə təsvir olunmuşdur. Əsər ötüb keçmiş dövrün tarixçəsi olsa da, bu günümüzlə, sabahımızla səsləşir. Getdikcə unudulan, yaddaşlardan silinən milli mentalitetimiz, adət-ənənələrimiz bir daha göz önünə gətirilir. Əsərdə insan və cəmiyyət problemləri yeni bir aspektdən bədii-fəlsəfi həllini tapmışdır.

$İ\ \frac{4702000000}{N-098-2007}$

© "Nurlan", 2007

*Korrektor:* ***Elmira Fərruxzadə***
*Texniki redaktor:* ***Günay Seyidova***
*Kompüter dizaynı:* ***Zahid Məmmədov***
*Yığılmağa verilmiş 07.01.2007.*
*Çapa imzalanmış 29.09.2007.*
*Şərti çap vərəqi 23. Sifariş № 35.*
*Kağız formatı 84x108 1/16. Tiraj 500.*

*Kitab* ***"Nurlan"*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*